***Altun***, ***Altunə*** - qırmızı, od rəngli; qızıl, var-dövlət.
***Altınxan//Altunxan*** - qızıl kimi saf və təmiz olan xan.
***Alverdi*** - "Allahverdi"(bax) adının qısaldılmış şəkli.
***Alyas (ə.)*** – bədbəxtlik; uğursuz gündə doğulan.
***Amal***, ***Amalə//Amaliya//Amalya*** (ə.) - əməllər, işlər, arzular; q. yəh. sevimli ceyran.
***Amalxan***(ə.,t.) - bax: Amal və Xan; arzu edilən xan.
***Aman//Amən, Amanə//Amana*** (ə.) - rəhm, şəfqət, mərhəmət; etimad, inam.
***Amangəldi*** - bağışlanan doğuldu, rəhm olunan gəldi.
***Amanxan***(ə.,t.) - bax: Aman və Xan; bağışlayan xan.
***Amanulla//Əmənulla*** (ə.) - Allahın mərhəməti, Tanrının etimadı.
***Amar*** - sakit, xoşbəxt, qayğısız.
***Amaş*** - q.t. "Amaçur" adının qısaldılmış forması (çur-hərbi titul, sərkərdə).
***Amid, Amidə*** (ə.) - ağsaqqal, başçı, rəis; ağbirçək.
***Amil***, ***Amilə*** (ə.) - tapşırığa əməl edən, icraçı; vəkil edilmiş.
***Amin***, ***Aminə*** (ə.) - təhlükəsiz; "Ay Allah, qəbul et!".
***Amir***, ***Amirə***(ə.) - buyuran, əmr edən; başçı, böyük.
***Amiyət (ə.)*** - sadə adamlar, kütləyə aid olan.
***Amrah//Amrak*** - sevimli (qədim türk adlarındandır); sevgili, dost.
***Amul, Amulə*** - sakit, mülayim; nəzakətli, intizamlı, ədəbli.
***Amur, Amurə*** - Məhəbbət ilahəsi (Qədim Roma); iri çay.
***Anan*** - başa düşən, anlayan, qanan, yada salan.
***Anar***, ***Anarə*** - anlayar, başa düşər, yada salar.
***Anatollu//Anadolu*** - "şərq" mənasında olan Anadolu (Kiçik Asiyanın qədim adı) adının dəyişdirilmiş forması. "Anaddulu" deməkdir.
***Anlar*** - anlayar, başa düşər, düşünər.
***Aprel*** (l.) - açmaq, tumurcuqlanma; Qriqoryan təqviminin dördüncü ayı.
***Arabil//Arabul*** - ara düzəldən, barışdıran; kəşfiyyatla məşğul olan.
***Aral*** - ada; Asiyada yerləşən eyni adlı dənizin adındandır.
***Aran*** - düz yer; təmkinlik, ağırlıq; eyni adlı ərazi adındandır.
***Ararat*** - dağ adı: Ağrıdağ, Əyridağ, Kamal dağı, Nuh dağı da adlanır.
***Arat*** - səpindən qabaq torpağın şumlanması; ərlər, hərbçilər; qorxmaz.

***Araz*** - ər, igid azlar (tayfa adı); su, çay; bağlı olan çay. " Araz" çayının adındandır.
***Arazalı//Arazəli (t., ə.)*** - Araz kimi coşqun Əli.
***Arbak*** - ər, igid bəy; qəhrəman bəy; böyük qəhrəman.
***Argun*** - zəhmət, əmək, zəhmətli gün.
***Arıman*** - saf, təmiz, sağlam, düzgün adam.
***Arısoy*** - təmiz əsilli, sağlam nəsilli, əsli olan.
***Arif***, ***Arifə*** (ə.) - başadüşən, biləgən; xəbərdar.
***Ariz***, ***Arizə*** (ə.) - təbii olmayan, sonradan əmələ gələn; yanaq; şikayətçi, ərizəçi.
***Arqun*** - təmiz, təmizlənmiş, seçilmiş; çoxlu; qaçağan at.
***Arman*** - igid, qoçaq, qürurlu, bacarıqlı adam; istək, həvəs, arzu.
***Armağan*** - hədiyyə, peşkəş, sovqat.
***Arsaq//Arşaq*** - igid saq, ər saq; kişi, mərd; Albaniyada vilayət adı.
***Arslan*** - aslan; qədim türklərdə totem və titul.
***Artun*** – q.t. dillərində «artan, çoxalan» mənasıda olan bitki (zirə) adındanddır.
***Artur*** - bax: Ərtur.
***Aruz//Əruz***, ***Aruzə//Əruzə*** - ər uz, igid oğuz; q.t. tayfalarından biri; böyük; təcrübəli adam.
***Aruzxan*** - ər asların xanı; işıqlı xan; döyüşkən xan.
***Arzum*** - mənim arzum; arzu ilə həyata gələn.
***Arzuman*** (f.) - arzu edən, arzulu, niyyətli; tez anlayan.
***Asəf*** (ə.) - Allah mühakimə etdi, Tanrı hökm verdi; vəzir, nazir; ağıllı, tədbirli.
***Asi***(ə.) - itaət etməyən, üsyan edən.
***Asif***, ***Asifə*** (ə.) - güclü külək, qasırğa.
***Asim, Asimə***(ə.) - müdafiə edən, müdafiəçi; ismətli, namuslu.
***Asiman*** (f.) - göy, səma, göy qübbəsi.
***Aslan*** - şir; igid, qoçaq, qəhrəman.
***Aşiq***, ***Aşiqə*** (ə.) – sevən, vurğun, sevmiş, sevgili.
***Aşina*** - “Aqşin” adından yaranmışdır. “Böyük dişi boz qurd”... «nəcib canavar» mənasındadır.
***Aşir//Aşur***, ***Aşura//Aşurey*** (ə.) - məhərrəm ayının 10-cu günü (661-ci ildə Kərbəlada İmam Hüseyn və tərəfdarlarının qətlə yetirildiyi gündür). Adətən, bu gündə doğulan uşaqlara verilir.
***Aşqın//Aşkin, Aşkina*** - üstün gələn, qalib gələn.
***Aşuralı//Aşurəli*** (ə.) – bax: Aşur və Əli.

***Ata*** - dədə, ata-baba, əcdad: yol göstərən, rəhbər, böyük.
***Atababa*** - bir nəslin əcdadı, ulusu, ulu babası; ata-babaya bənzər oğul.
***Atabala*** **-** atanın sevimlisi, atasına bənzəyən övlad.
***Atabay//Atabəy*** - ataya bərabər olan bəy (Səlcuqlar dövründə əvvəl vəzifə, sonralar titul olmuş və sultan vəliəhdlərinin tərbiyəçilərinə verilmişdir); böyük, ulu; zəngin, varlı.
***Atacan*** - can ata, əziz ata.
***Ataəmi//Atəmi*** – «ata» və «əmi» sözlərindən düzəlmiş, «ata əvəzi əmi», «böyük əmi» mənasındadır.
***Ataxan*** - atabəy, atalıq, ataman titulları mənasındadır.
***Ataxəlil*** (t.,ə.) - «ata» və «xəlil» (dost, sevgili) sözlərindən düzəlmiş, «böyük dost, sevimli ata» mənasındadır.
***Atakişi*** **-** ataya bənzər kişi, ataya layiq kişi.
***Ataqardaş*** - ata və qardaş kimi oğul; böyük qardaş.
***Atalı*** - atası olan.
***Atamalı//Ataməli***(ə.,t.) - atam Əli; ataya bənzəyən Əli.
***Ataman*** - atabəy, ataxan, atalıq titulları mənasındadır; başçı, sərkərdə.
***Atamoğlan*** - ataya oxşar oğlan, ataya bənzər.
***Atasoltan//Atasultan*** (t.,ə.) - ata soltan; atamıza bənzər sultan.
***Ataş*** - "Ata" və tərkibində "ata" sözü olan mürəkkəb adların əzizləmə forması.
***Atatürk*** - türkün atası; ata türk; ən böyük türk.
***Ataulla***(ə.) - Əslində "Ətaullah"dır; Allahın bağışladığı, Allahın bəxş etdiyi.
***Atdıxan//Atlıxan//Atluxan//Attuxan*** - atlı xan, odlu xan (Qədim türklərdə ad-at-od sözləri eyni məna yükünə malik olmuşdur).
***Atəş*** - od, (Fars sözü kimi izah edilən bu adın əsasında "at-od" durur).
***Atif, Atifə*** (ə.) – rəğbət bəsləyən, meyl edən; bəyənən, sevən.
***Atik//Atiq, Atikə//Atiqə//Adikə*** (ə.) - əsli «ətiqə»dir və qədimdən qalmış əşya deməkdir.
***Atil//Atilla//Atilay*** - "at" (od, Günəş) və «il» (el) sözlərindən düzəlmiş və «elin odu (Günəşi, hökmdarı)» mənasındadır (V əsr Hun imperatorunun adındandır). Xalq arasında "Atlı xan" adı ilə də məşhur olmuşdur.
***Atlıbəy*** - adlı-sanlı bəy, şöhrətli, tanınmış bəy; atı olan bəy.
***Atuf*** (ə.) - mərhəmətli, ürəyiyanan, şəfqətli.
***Avar*** - çəkinməyən, üz-üzə gələn. Qədim türk tayfalarından biri. VI əsrdə Mərkəzi Avropada Avar xaqanlığını yaratmışlar.

***Avarxan*** - Avar xanı, milliyyətcə avar olan xan.
***Avaz, Avazə*** (f.) - səs, səda; şöhrət.
***Ayar*** **-** ürəyiaçıq, gülərüzlü; itigözlü; məhsuldar.
***Ayatxan//Ayətxan*** (ə.,t.) - "Ayət//Ayat xan" birləşməsindən yaranmışdır. "Ayat, Ayət" - Ayələr ("Quran" ayələri) deməkdir.
***Ayatulla//Ayətulla***(ə.) - Allahın nişanəsi, rəmzi; dini titul.
***Ayaz***, ***Ayazə*** - qışda şaxtalı və aylı gecə; quru, şaxtalı, soyuq hava.
***Aybək//Aybəy//Aybəyi*** - Ayın bəyi, əmiri, rəhbəri, gözəl, sevimli.
***Aycan***, ***Aycanə*** - Ay qədər; Aya bənzər can.
***Aydəmir*** - Ay kimi saf dəmir; möhkəm.
***Aydın*** - Aydan törəyən; işıqlı, parlaq; bəlli; ziyalı, savadlı. Türkiyədə vilayət və şəhər adı.
***Ayxan***, ***Ayxanə*** - Ay kimi xan (xanım); gözəl xan (ım).
***Ayin, Ayinə*** (f.) – bəzək, zinət; rəsm, adət, qanun, dəb, üsul; mərasim və s.
***Ayman, Aymanə*** - Ay adamı, Aydan olan; Ay kimi təmiz və gözəl adam.
***Ayni, Ayniyə*** (ə.) - gözlə bağlı olan, gözə aid; oxşar, eyni olan; mahiyyət.
***Aypolad*** - Ay poladı, Ay kimi təmiz polad.
***Ayvaz*** - mətbəx, karvansara xidmətçisi; hərbi gəmidə cərrah köməkçisi; f. sərin külək; zefir.
***Azad***, ***Azadə***(f.) - sərbəst, ixtiyarı özündə olan, asudə.
***Azadxah***(f.) - istəyən; azadlıq uğrunda mübariz.
***Azadxan***(f.,t.) - bax: Azad və Xan; sərbəst xan, asılı olmayan xan.
***Azarpaşa//Azərpaşa*** - igid, qəhrəman Paşa; igid sərkərdə.
***Azay***, ***Azayə*** - igid, qəhrəman; böyük azlar (etnonim).
***Azər*** - igid azlar, qoçaq azlar; od, atəş, atəşgah (Oda qulluq edən mələk; Günəş ilinin 9-cü ayı).
***Azəri, Azərin*** - «az» (uz, oğuz) və «ər» (igid, qəhrəman) sözlərindən düzəlmiş, «igid azlar (oğuzlar)»; «oda qulluq edən», «oda sitayiş edən» deməkdir.
***Azim***, ***Azimə*** (ə.) - qəti qərar verən; əzmkar.
***Azman*** - böyük, nəhəng; şalban; qarışıq; az tapılan kişi.
***Azmi, Azmiyə*** (ə.) - sümüklə əlaqədar olan; köklə, nəsillə əlaqədar olan.
***Aznaur//Aznavur*** - qəhrəman. Az tayfasının yaşadığı yer.
***Azov*** - eyni adlı şəhər və dənizin adındandır.
***Aztəkin*** - az, nadir olan təkin (xanın varisliyə hüququ olası oğluna verilən titul).

## ꕥ B ꕥ

***Baba*** - ata və ya ananın atasının onların uşaqlarına olan qohumluq münasibəti (Sovet dövrünə qədər Azərbaycanda "ata" mənasında işlənmiş, müasir Türkiyədə də eyni anlayışda işlənir).
***Bababəy*** - baba olan, baba kimi bəy; böyük ağa bəy.
***Babacan*** - can baba, əziz baba; yetkin, inanılan adam.
***Babaəli*** (t.,ə.) – «baba» (böyük) və «Əli» sözlərindən düzəlmiş, «böyük Əli» deməkdir.
***Babaəmi*** (t.,ə.) – «baba» (böyük) və «əmi» sözlərindən düzəlmiş, «baba əvəzi əmi», «böyük əmi» mənasındadır.
***Babagül*** - babanın gülü, çiçəyi; babanın sevimli nəvəsi.
***Babaxan*** - bax: Baba və Xan: böyük xan, hörmətli xan.
***Babakişi*** - hörmətli adam, babaya layiq kişi.
***Babalar*** - "baba" sözünün cəmi.
***Babalı*** - bax: Baba və Əli; yaşlı və hörmətli Əli.
***Babaseyid***(t.,ə.) - bax: Baba və Seyid; yaşlı və hörmətli seyid.
***Babaş*** - "Baba" və tərkibində "baba" olan mürəkkəb isimlərin əzizləmə forması.
***Babayar*** - babanın dostu, yardımçısı, atanın köməkçisi.
***Babək*** - "böyük" və "bəy" sözlərindən düzəlmiş, "başçı" anlamındadır (IX əsr xalq qəhrəmanı Həsənin ikinci adından yayılmışdır).
***Babış//Babuş*** - "baba" ilə başlanan adların əzizləmə forması.
***Babulla*** (ə.) - Allahın qapısı, Tanrının dərgahı.
***Babur*** - “bəbir” sözündən olub “xallı pələng, yırtıcı heyvan” mənasındadır. Hindistanda Böyük Moğollar dövlətinin banisi Zəhirəddin Məhəmməd Babur (1483-1530) həm də şair olmuş və onun “Baburnamə”si məşhurdur.
***Bafa*** – kiçik dərz, dəstə, dəmət; balaca və sarışın oğlan.
***Bafadar*** - bax: Vəfadar.
***Bafaddin//Bafadin***(ə.) - "Vəfaəddin" adının dəyişilmiş forması.
***Bafalı*** - bax: Vəfalı.
***Bağban//Bağman*** - bağa qulluq edən, bağ xidmətçisi, bağçı.
***Bağdasar//Bağdasər*** - bağda olan başçı, bağ sahibi, bağban.
***Bağı//Baqi, Baqiyyə//Baqiyə*** (ə.) - əbədi qalan, daimi yaşayan; Allah, Tanrı.

***Bağır*** (ə.) - hərtərəfli bilik sahibi ( Bu adın "ürək, sinə" mənasında türk mənşəli olmasını söyləyənlər də vardır).
***Bağış*** (f.) - bəxşiş; Tanrı tərəfindən bağışlanmış.
***Bahadır//Bahadur*** - igid, cəsur, qəhrəman, pəhləvan (Rus dilinə "boqatır" şəklində apelyativ kimi keçmişdir).
***Baharəddin*** (f., ə.) - dinin baharı, dinin yazı.
***Bahəddin//Bahaddin//Bəhaəddin//Bəhiyəddin//Bəhyəddin*** (ə.) - dinin gözəlliyi və yaraşığı.
***Bahir***, ***Bahirə*** (ə.) - üstün, çox gözəl, olduqca qəşəng; parlaq.
***Baxdur*** - bax, dur; bax, yaşa.
***Baxış*** - "Baxşı" adının təhrif olunmuş variantıdır.
***Baxışalı//Baxışəli//Baxşəli//Baxşalı*** (t.,ə.) - Əli hədiyyəsi, Əli bəxşişi.
***Baxşı*** - "bax" (bağ) - Allah və "şi" (adam, kişi) sözlərindən düzəlmiş, kahin, şaman, müəllim, ustad, aşıq, baxıcı mənalarını bildirən ad.
***Baki*** - əbədi, daimi.(bax: Bağı); Bakı şəhərinin adındandır.
***Bakixan//Bakıxan*** - əbədi, daimi xan; Bakı xanı, hökmdarı.
***Bakir//Bəkir***, ***Bakirə//Bəkirə*** (ə.) - təmiz, saf; cavan dəvə; subay oğlan, qız.
***Bala*** - oğul, oğlan; övlad; balaca, kiçik.
***Balababa*** - bax: Bala və Baba; bala baba, balaca baba; babanı əvəz edən.
***Balaban*** - şahin, qızılquş, tərlan; iri, cüssəli adam; musiqi alətinin adı.
***Balabəy*** - kiçik bəy, balaca bəy.
***Balacan*** (t.,f.) – «bala» və «can» (əziz) sözlərindən düzəlmiş, «əziz övlad, sevimli, mehriban oğlan» deməkdir.
***Baladadaş*** - bax: Bala və Dadaş; kiçik qardaş.
***Baladayı*** - kiçik dayı.
***Balaəli//Baləli*** (t.,ə.) - bax: Baba və Əli; kiçik Əli, balaca Əli.
***Balaəmi//Baləmi*** **-** kiçik əmi.
***Balafər(t.,f.)*** **-** yaradanın balası, Tanrı övladı; kiçik yaradan.
***Balağa//Balaağa*** - bax: Bala və Ağa: kiçik ağa, balaca ağa.
***Balahəsən//Balasan//Balasən//Balhəsən//Baləsən*** (t.,ə.) - bax: Bala və Həsən; balaca Həsən, kiçik Həsən.
***Balahüseyn//Balhüseyn***(t.,ə.) - bax: Bala və Hüseyn; kiçik Hüseyn.
***Balaxan*** - bax: Bala və Xan; balaça xan, kiçik xan.
***Balakərim***(t.,ə.) - bax: Bala və Kərim; balaca kərim, kiçik Kərim.
***Balakişi*** - balaca kişi, kişi kimi oğlan.
***Balaqardaş*** **-** balaca qardaş; kiçik qardaş.
***Balaman*** - balaca adam; qulluqçu, xidmətçi.
***Balaməmməd//Balaməd//Balamət***(t.,ə.) - balaca, kiçik Məmməd.

***Balamir***(t.,ə.) - bax: Bala və Əmir; balaca Əmir, kiçik Əmir.
***Balamirzə***(t.,f.) - bax: Bala və Mirzə; balaca Mirzə, kiçik Mirzə.
***Balaoğlan//Baloğlan*** - balaca oğlan, kiçik oğlan.
***Balarza*** (t.,ə.) – «bala» (kiçik) və «Rza» (razılıq; səkkizinci imamın adı) sözlərindən düzəlmiş, «kiçik Rza» deməkdir.
***Balasadıq***(t.,ə.) - bax: Bala və Sadıq; balaca Sadıq, kiçik Sadıq.
***Balasər***(t.,f.) - bala şahin, kiçik başçı; vüqarlı, məğrur.
***Balaş*** - "Bala " və tərkibində "bala" sözü olan adların əzizləmə forması.
***Balaşad*** - "bala" və "şad"(varisliyə hüququ olan xan oğlu) sözlərindən düzəlmiş və "kiçik varis" deməkdir.
***Balaşir*** - balaca şir, kiçik şir; igid, qoçaq.
***Balaşirin*** - bala şirindir, şirin bala.
***Balatürk*** - balaca türk, kiçik türk.
***Balaverdi*** - Allah bala verdi. Tanrı övlad bəxş etdi.
***Balay*** - balaca Ay; balaca kişi; bal kimi şirin Ay - oğlan.
***Balayar*** (t.,f.) - kiçik dost, balaca dost.
***Balazaman*** - bax: Bala və Zaman: balaca Zaman, kiçik Zaman.
***Balazər*** - qızıl kimi övlad; işıqlı və gözəl oğlan.
***Bamsı*** - qartal, tərlan, yırtıcı quş.
***Baran*** - yola düşən, gedən, yollanan; sərhəd, cığır; güc, qüvvət; yağış, yağmur.
***Barat*** (ə.) - göndərilən pul, bağlama (poçtla); qəbz, vəsiqə.
***Baratalı//Baratəli***(ə.) - bax: Barat və Əli; Əli tərəfindən göndərilən.
***Barxudar//Bərxudar*** (f.) - arzusuna yetişən, xoşbəxt; xeyir götürən.
***Barış*** - qədim t. "Bars" (boz qurd) adının dəyişdirilmiş forması; sülh, atəşkəs, barışıq.
***Bariq, Bariqə//Barixə//Barikə*** (ə.) - parıltı, işıldama, bərq vurma; şəfəq, şimşək.
***Bariz***(ə.) - açıq, aşkar, qabarıq, əyani, aydın.
***Basar//Basat*** - basıb-əzən, güc gələn, qalib gələn, zəfər qazanan.
***Başxan*** - əsas xan, böyük xan, hörmətli xan.
***Başkan//Başqan*** - bir idarə və təşkilatın rəhbəri, başçısı, rəisi və s. ("kan" və "qan" - "xan" sözündən yaranmışdır).
***Batı*** - qərb, günbatan (Buryat dilində: bərk, möhkəm, dözümlü).
***Batıxan*** – «batı» (qərb, günbatan) və «xan» sözlərindən düzəlmiş və «qərb və ya günbatan xanı» deməkdir. Çingiz xanın nəvəsi Batı xanın adından yayılmışdır.

***Bayandır//Bayandur*** - varlı, zəngin; qədim türk qəbilələrindən birinin adı.
***Bayar//Boyar*** - adlı-sanlı; bəy, ər; varlı ər; ulu, tanınmış. (I Pyotra qədər Rusiyanın daxili və xarici siyasətində fəal olan türklər məhz bu titulla şöhrətlənmişlər).
***Bayat*** - böyük od- Günəş; Tanrı; dövlətli; türk tayfalarından birinin adı.
***Baybura*** - bay (bəy) bura (börü-qurd); böyük qurd.
***Baycan*** - "Azərbaycan" adının ixtisar şəkli; bay - varlı, dövlətli.
***Baydar*** - bəy-bay kimi olan; böyük, tanınmış, varlı.
***Baydaş//Bəydaş*** - bəyə xidmət edən, bəyə yoldaşlıq eyləyən.
***Bayğı*** - güclü, qəhrəman.
***Bayğıxan*** - güclü xan, qəhrəman xan.
***Bayğın*** - güc gələn, qalib gələn, qəhrəman olan.
***Bayıl*** - elin-ilin bəyi; varlı-dövlətli el.
***Baykal*** - böyük göl, dəniz; səhra atı, madyan.
***Bayraq*** - üzərində dövlət və ya təşkilatın əlaməti olan qumaş parça.
***Bayraqdar*** - bayraq götürən, bayraq daşıyan adam.
***Bayram*** - şadlıq, şənlik, təntənə.
***Bayraməli//Bayramalı***(t.,ə.) - bax: Bayram və Əli; şad, şən Əli.
***Bayramqulu*** - bax: Bayram və Qulu; şadlıq, şənlik sevən.
***Bazil***, ***Bazilə***(ə.) - bağışlayan, insaflı, əlindən gələni edən.
***Becan//Bicən//Bücən//Bican*** - "becənək" adlı türk tayfalarından birinin adı; xeyirxah, işgüzar, qeyrətli; həqiqətə doğru gedən, xəbər gətirən (Masallı rayonu Köhnə Alvadı kəndində hazırda "Becanlılar" adlı böyük bir tayfa da vardır); rəis, canlı, hökmdar.
***Behbud//Behbut***(f.) - sağalma, yaxşılaşma; bədəni möhkəm.
***Behbudalı//Behbudəli*** (f.,ə.) - yaxşılaşan Alı, sağlam Əli.
***Behcat//Behcət//Bəhcət*** (ə.) - şadlıq, sevinc; gözəllik, göyçəklik.
***Behnam*** (f.) - yaxşı adlı, şanlı-şöhrətli.
***Behnan//Bəhnan*** (ə.) - gözəl xasiyyətli, xoş və gülər üz olan.
***Behzad*** (f.) - xoşbəxt, ağgün doğulmuş.
***Bekdaş //Bəkdaş//Bəkdaşi*** - daş kimi möhkəm; türk tayfalarından biri.
***Bekər//Bəkər*** - "bəy ər, igid, qoçaq gənc" mənasında olan titul.
***Beksar//Beksər//Beysar//Beysər*** - sar qəbiləsindən olan bəy; başçı bəy, böyük bəy.
***Beqdeli//Beqdili*** - gözəl natiq, mahir söz ustası; İranda yaşayan türk qəbiləsi.

***Beydulla//Beytulla*** (ə.) - Allahın evi, Tanrının evi, Kəbə.
***Beyrək*** - balaca qurd; "Börüyək" adının dəyişdirilmiş forması.
***Bəbir*** (f.) - pələngə oxşayan yırtıcı heyvan; qoçaq, dövlətli, qorxmaz.
***Bəbiş*** – «körpə» sözünün əzizləmə və kiçiltmə forması olan «körpə, körpəcik» deməkdir.
***Bədəl*** (ə.) - əvəz, qarşılıq; dəyişmə.
***Bədəlbəy*** – Bədəl bəy; «bəy əvəzi, bəy övladı» mənasındadır.
***Bədil*** (ə.) - əvəz edən, əvəz, canişin.
***Bədir//Bədri, Bədirə//Bədurə//Bədürə//Bədriyə//Bədriyyə*** (ə.) - 14 gecəlik Ay, bütöv Ay.
***Bədirbəy*** – Bədir bəy; Ay üzlü bəy, Ay kimi gözəl bəy.
***Bədirxan*** (ə.) - gözəl xan, göyçək hökmdar.
***Bədiulla*** (ə.) - dinin nadiri, dinin qiymətlisi.
***Bədrəddin*** (ə.) - dinin 14 gecəlik Ayı, dinin bütöv Ayı.
***Bəhlul*** (ə.) - ayıq, tez başa düşən; təlxək, oyunbaz.
***Bəhman//Bəhmən*** (f.) - tədbirli, ağıllı, zəkalı; doğru danışan, düzgün adam.
***Bəhmənyar*** (f.) - düz danışan dost, başa düşən sevgili; ağıllı, zəkalı yoldaş.
***Bəhram*** - q. farslarda qələbə Allahının, hazırda Mars, Mərrix planetinin adı.
***Bəhramgur*** (f.) - gur ovlayan Bəhram; Sasani hökmdarı Bəhram-Gurun adındandır.
***Bəhrəddin*** (ə.) - inam, etiqadın ən yüksək zirvəsi; dinin şöhrəti.
***Bəhriş*** - "bəhr" ilə başlanan adların əzizləmə forması.
***Bəhruz//Behruz, Behruzə//Bəhruzə*** (f.) - xoşbəxt, ağgün, bəxtiyar.
***Bəxşiş***(f.) - hədiyyə, peşkəş, bağışlanan şey(oğlan).
***Bəxtiyar*** (f.) - xoşbəxt, ağgün, ağbəxt.
***Bəkdaş//Bəkdaşi//Bəktaş*** – q.t. dillərində «gözətçi, yoldaş, keşikçi» mənasında işlənmişdir; Qədim türk tayfalarından birinin adı.
***Bəkil*** - elin gözətçisi, ilin qoruyucusu.
***Bələd***(ə.) - bələdçi, xəbərdar olan, bilən; ölkə.
***Bələdiyə//Bələdiyyə*** (ə.) - yaşayış məntəqələrində abadlıq işləri aparan, üzvləri xalq tərəfindən seçilən idarə.
***Bəndalı//Bəndəli***(f.,ə.) - Alı qulu, Əli köləsi; Alı adamı, Əli bəndəsi.
***Bəndi***(f.) - aşiqə aid, vurğuna məxsus; sevən, aşiq olan.
***Bərəkət*** (ə.) - xoşbəxtlik, səadət, uğur; bolluq, çox; nemət, Allah vergisi, xeyir.
***Bərgüşad***(f.) - təzə açılan yarpaq, bahar elçisi; t. Bərgə (sağ tərəf), şad (titul) sözlərindən düzəlmiş, «sağ cinah rəisi» deməkdir.

***Bərsail*** (f.,ə.) - dua edənin, soruşanın qazancı; dilənməyin faydası.
***Bərşad*** (f.) - şadlığın bəhrəsi; sevincin meyvəsi.
***Bəsir, Bəsirə//Bəsirət*** (ə.) - ağıllı, bilikli; gözüaçıq, uzaqgörən, diqqətlilik.
***Bəşər*** (ə.) - insan, adam.
***Bəşir***, ***Bəşirə*** (ə.) - xoş xəbər gətirən, muştuluqçu, müjdəçi.
***Bətul, Bətulə*** (ə.) - təmiz, saf, namuslu, toxunulmamış.
***Bəy*** - ağa, hökmdar, başçı, hakim, böyük; Tanrı (Müxtəlif türk dillərində bek, bik və s. şəklində işlənən bu qədim türk titulu rus dilinə "Boq" formasında keçmişdir).
***Bəyalı//Bayalı//Bəyəli***(t.,ə.) - bax: Bəy və Əli; ağa Əli, böyük Alı.
***Bəyaslan*** - bax: Bəy və Aslan; böyük aslan.
***Bəyazid//Bayazid//Bayazit*** (ə.) - Əbu Yəzid (Yezidin atası) adının ixtisar forması; Allahın bəxş etdiyi ata; ağıllı, bacarıqlı, zəkalı; üstün.
***Bəybala*** - bəy balası, bəy övladı.
***Bəycan*** - bəy kimi olan, bəyə bənzəyən, bəy ürəkli.
***Bəydadaş*** - böyük qardaş, kiçiklərin böyük qardaşa müraciət forması.
***Bəydəmir*** - böyük Dəmir; dəmir kimi bəy.
***Bəydilli*** - bəy kimi danışan, bəy kimi qabiliyyəti olan.
***Bəydulla*** (t.,ə.) - Allahın bəyi, Tanrının böyüyü.
***Bəyxan*** - böyük xan, başçı xan.
***Bəyi//Bəgi*** - igid, qəhrəman, qoçaq.
***Bəyimalı//Bəymalı*** – bəyə məxsus, bəyin var-dövləti; bəy oğlu.
***Bəykişi*** - bəy kimi kişi, bəyə layiq kişi.
***Bəyqulu*** - Allahın bəy qulu; bəy qulu; bəyin oğlu.
***Bəylər*** - "bəy" sözünün cəmi, çoxlu bəy.
***Bəylərbəy//Bəylərbəyi*** - keçmişdə vilayət hakimi, vali, başçı.
***Bəymurad//Bəymuraz*** (t.,ə.) - arzuedilən bəy; arzu edilən bəy kimi oğlan.
***Bəypolad*** - bəy Polad, böyük polad; bəyə layiq saf polad.
***Bəysoltan//Bəysultan*** (t.,ə.) – böyük hökmdar; hörmətli sultan.
***Bəytəkin*** - bəy kimi; vəliəhd, varis bəy.
***Bəyturan*** - Turan bəyi; Turana layiq bəy.
***Bəyverdi*** - bəy verdi, böyüyün verdiyi (oğlan).
***Bəyzad//Bəyzadə*** (t.,f.) - bəy oğlu, bəydən törəyən.
***Bəzməddin*** (f.ə.) - dinin bəzəyi, dinin yaraşığı.
***Bilal*** (ə.) - islanmış, islaq; suçu, sulayan, su verən.
***Bilən*** - bilici, anlayan, dərk edən, başa düşən; qanan.
***Biləndər*** (t.,f.) - bilikli, biliyi olan; biliklə məşğul olan.
***Bilgə*** - bilici, müdrik, bilikli.

***Bilgəxan*** - məlumatı çox olan, həyatı yaxşı anlayan xan.
***Bilgən*** - savadlı, bilikli, geniş məlumatı olan.
***Bilgər*** - savadlı, bilikli, müdrik, kişiliyi və igidliyi olan kişi.
***Bilgin//Bilkin***, ***Bilginə*** - bilikli, savadlı, hər şeyi bilən.
***Bilginər*** - alim, müdrik adam, bilikli kişi.
***Billur// Büllur, Billurə//Büllurə//Büllürə*** (ə.) - parlaq və şəffaf daş; xrustal; çox gözəl.
***Binamin//Binyamin//Bünyamin//Biniyamin//Büniyamin//Bünyəmin// Binəmin//Binyəmin*** (q.y.) - 1. həqiqi dost; 2. vali, hökmdar; 3. təhlükəsiz, ümidli, əbədi; 4. sağ əl, sağ əlin oğlu; 5. ağsaqqalın oğlu; səadət; güc və s. mənaları vardır.
***Binəli*** (ə.) - Əli(bax) övladı, Əli oğlu.
***Binnət*** (ə.) - bax: Bünyad; peyğəmbəri mədh edən.
***Bircan*** - tək ruh, bir ürək; vahid, yeganə.
***Birxan*** - yeganə xan, tək, tayı-bərabəri olmayan xan.
***Birnur, Birnurə*** -yeganə işıq, tək nur parçası, parıltı.
***Biyar*** - kəndlinin mülkədarlar üçün məcburi və müftə gördüyü iş.
***Boran//Buran*** - küləkli qar və yağış; çovğun, tufan.
***Boraşin*** - böyük qurd; başçı qurd (bora, börü-boz qurd; şin, şono-böyük qurd).
***Borazan*** (t.,f.) - türkcə "boru" (kərənay, şeypur) və "zədən" (çalmaq) sözlərindən düzəlmiş, "boruçalan", "kərənayçalan" deməkdir.
***Boydaş*** - eyni boydan olan, eyni soydan olan; boyca bərabər olan, tay-tuş.
***Bozər*** - saçları boz rəngində olan tay-tuş qəhrəman, igid; sərt adam.
***Böyük*** - iri, yekə; başçı, rəhbər.
***Böyükağa*** - böyük seyid; böyük ağa.
***Böyükxan*** - böyük xan, başçı xan, xanlar xanı.
***Böyükkişi*** - böyük kişi, böyük oğlan; ilk oğlan.
***Budaq*** - şax; yeni nəslin başçısı; vuran, döyən, qoşunu ağac kimi budayan.
***Buğac*** - buğaya qalib gələn, buğanı öldürən; igid, qəhrəman.
***Buğday*** - buğda, məhsul; başçı, rəhbər.
***Buğra*** - erkək dəvə, nər (Qaraxanilər sülaləsinin ilk xanlarından birinin adı).
***Buğraxan*** - nər kimi olan xan, güclü, qüdrətli xan.
***Bulaq*** - yerin altından çıxan su qaynağı, çeşmə; türk oymaqlarından birinin adı.

***Bulud//Bulut*** - Yerdən buxarlanaraq səmada qatı təbəqə əmələ gətirən və yağış, qar şəklində yerə enən buxar yığını, buğ.
***Buludxan//Bulutxan*** - buludların hökmdarı, buludların xanı.
***Burxan*** - bur (börü - boz qurd) xan; böyük xan, başçı xan.
***Burhanəddin//Bürhanəddin***(ə.) - dinin dəlili, dinin sübutu.
***Burişad//Burşad//Bürşad*** - başçı xanzadə, igid xan oğlu.
***Buruz//Burza//Burzu*** (ə.) - büruzə vermək, üzə çıxma, aşkar olma; ədavət aparmaq, süründürmək.
***Buta*** - qönçə; təravətli, yeniyetmə; sevgililərin nurani qocalar tərəfindən yuxuda nişanlanması.
***Butaxan*** - qönçə; yeniyetmə xan; buta verilmiş xan.
***Bülbül*** - gözəl səsi olan yaraşıqlı quş; məşhur Azərbaycan müğənnisi Murtuza Məmmədovun təxəllüsündən yayılmışdır.
***Bülbülcan*** – əziz, sevimli bülbül; Məşhur Azərbaycan xanəndəsi Əbdülbağı Kərbəlayi Əli oğlu Zülalovun təxəllüsündən yayılmışdır.
***Büld//Bülənt*** (f.) - yüksək, uca.
***Bünyad//Bünyat//Bunyad*** (f.) - özül, təməl; əsas, kök.
***Bürcalı//Bürcəli*** (ə.) - Əli bürcü (Günəş dairəsinin bölündüyü 12 qismin hər biri).
***Bürhan//Burhan, Bürhanə//Burhanə*** (ə.) - əsas, sübut, dəlil, isbat.
***Büsat//Busat*** (ə.) - cah-cəlal, təmtəraq, şənlik.
***Bütöv*** - bir küll halında olan; tam.

## ꕤ C ꕤ

***Cabbar*** (ə.) - cəbr edən, zülm edən, zülmkar.
***Cabir//Cəbir, Cabirə*** - q.t. "cab" (şərəf, ad-san) və "bir" sözlərindən düzəlmiş; bir şərəfli.(ə. Qüdrətli. Bax: Cabbar).
***Cahad//Cihad//Cihat*** (ə.) - din uğrunda mübarizə, müqəddəs müharibə.
***Cahanbağış//Cahanbaxış//Cahanbaxş//Cahanbəxş*** (f.) - dünyanı bağışlayan, bəxş edən.
***Cahanban*** (f.) - dünyanı qoruyan, padşah, hökmdar.
***Cahandar*** (f.) - cahangir, hökmdar, padşah.
***Cahangir*** (f.) - dünyanı tutan, dünyanı istila edən, işğalçı.
***Cahansuz*** (f.) - qüdrətli, qüvvətli, əzəmətli hökmdar.
***Cahanşah*** (f.) - dünyanın şahı, aləmin hökmdarı; Günəş; Tanrı.
***Cahid*, *Cahidə*** (ə.) - cəhd edən, səy edən, çalışan.
***Cahil*** (ə.) - savadsız, avam, nadan, anlamaz.

***Caiz*** (ə.) - icazəli.
***Calal//Cəlal*, *Calalə//Cəlalə*** (ə.) - böyüklük, əzəmət; cah-calal, təmtəraq.
***Calaləddin//Cəlaləddin*** (ə.) - dinin cəlalı, ululuğu, əzəməti, şan-şöhrəti.
***Calay*** - calayan, birləşdirən; ata-ananı bir-birinə calayan.
***Calayır//Calayir//Calair//Cəlair//Cəlayir*** - q.t. tayfalarından birinin adı.
***Calib, Calibə*** (ə.) - diqqəti cəlb edən, cəlbedici, özünə tərəf çəkən, cazibədar.
***Camal//Cəmal, Camalə//Cəmalə//Camaliyə//Cəmaliyə//Camaliyyə //Cəmaliyyə*** (ə.) - gözəllik, göyçəklik, qəşənglik.
***Camaləddin//Cəmaləddin*** (ə.) - dinin gözəlliyi, göyçəkliyi.
***Camalxan*** (ə.,t.) - Camal xan; gözəl üzü, görkəmi olan xan.
***Cambul//Canbul*** (m.) - qala, sulu, duru.
***Cami*** (ə.) - tərtib edən, toplayan, yığan, əhatə edən.
***Camo//Camoy//Cəmo*** - "Cəmil" adının əzizləmə forması; camə, raltar.
***Camulla//Cəmulla*** (f.,ə.) - Allahın (dünyanı özündə göstərən) camı.
***Canafər*** - canın, ruhun işığı; ürəyin hərarəti.
***Canağa*** (f.,t.) - əziz ağa, sevimli ağa; qüvvətli, güclü ağa.
***Canalı//Canəli*** (f.,ə.) - Alının canı, Əlinin ruhu.
***Canbaba*** (f.,t.) - can baba, əziz baba.
***Canbağış//Canbaxış//Canbaxşı//Canbəxş*** (f.) - can bəxş edən, canlandıran; fərəhləndirən.
***Canbala*** - əziz, sevimli bala, mehriban övlad.
***Canbulaq*** - həyat çeşməsi, əsl həyat mənbəyi.
***Canbulat//Canbulad*** - canı polad kimi olan; polad ürəkli, polad canlı.
***Candar*** (f.) - canlı, diri; qoruyucu, cangüdən. Orta əsr Türk dövlətlərində yüksək rütbəli zabit.
***Candaş*** (f.,t.) - ürək sirdaşı; sevgili can yoldaşı, dost.
***Canəhməd*** (f.,ə.) - sevimli Əhməd, Əhmədin ruhu, canı.
***Canər*** - sağlam, qüvvətli adam, güclü kişi, igid.
***Canı*** - canı ilə fədakarlığa hazır olan.
***Canıbəy*** - bəy kimi, bəy ürəkli, bəy kimi olan.
***Canış*** - “can” ilə başlayan adların əzizləmə forması.
***Canıyar***(f.) - dost ürəkli, yoldaş kimi, dostcanlı.
***Canızadə//Cənizadə***(f.) - candan olan, ruhdan yaranmış, ürəkdən, candan yaranan.
***Cankişi*** - kişi ürəkli, mərd, qüdrətli, güclü.
***Canqardaş*** - qardaş ürəkli, qardaşa bənzər, qardaş kimi.

***Canqulu*** - canın qulu; candan törəyən övlad.
***Canlar*** - “can”ın cəmi - ürəklilər, ruhu olanlar.
***Canmirzə***(f.) - bax: Mirzə; Mirzə ürəkli, hörmətə layiq can.
***Canmurad//Canmuraz*** - muradın canı, murazın gücü.
***Canpolat//Canpolad*** (f.) - polad ruhlu, polad ürəkli; güclü, qüvvətli, qorxmaz(Çin dilində « böyük sədrəzəm» mənasında olub, sərkərdə və əmirlərə verilərdi).
***Carçı*** - car çəkən, xəbər verən, dəllal.
***Cavad*** (ə.) - əliaçıq, səxavətli, comərd.
***Cavadxan*** (ə.,t.) - Cavad xan; comərd, səxavətli xan.
***Cavan//Cavani//Cəvani, Cavanə*** (f.) - gənc, yeniyetmə.
***Cavanşah***(f.) - gənc şah, yeniyetmə şah.
***Cavanşir*** (f.) - gənc şir, cavan aslan; igid, qəhrəman.
***Cavid***, ***Cavidə*** (f.) - əbədi, daimi, həmişəlik.
***Cavidan*** (f.) - əbədi yaşama, əbədiyyətə qovuşma.
***Cavlı*** - məşhur, şöhrətli, tanınmış; dadlı, ləzzətli; fikir, xəbər.
***Cavlıbəy*** - şöhrətli, tanınmış bəy; sarayda rütbə, dərəcə.
***Cavlıxan*** - şöhrətli, tanınmış xan; sarayda rütbə, dərəcə.
***Caymaz*** - fikrindən, tutduğu yoldan dönməyən; sözünün üstündə duran.
***Cazib***, ***Cazibə*** (ə.) - cəzb edən, özünə çəkən; lətafət.
***Cazim***, ***Cazimə*** (ə.) - qəti qərar verən, qərara alan.
***Ceyhun***, ***Ceyhunə*** - coşğun, coşan (Amu-Dərya çayının qədim adı).
***Cəbi//Cəbiş*** - "Cəbrayıl" adının əzizləmə forması.
***Cəbrail//Cəbrayıl*** (ə.) - Allahın əsgəri, Tanrının döyüşçüsü; Allahın gücü, zoru (Allahın tapşırıqlarını yerinə yetirən).
***Cədid, Cədidə*** (ə.) - yeni, təzə.
***Cəfər*** (ə.) - çay, irmaq, arx (VI imamın adı).
***Cəfərağa*** - bax: Cəfər və Ağa.
***Cəfəralı//Cəfərəli*** - bax: Cəfər və Əli.
***Cəfərxan*** - bax: Cəfər və Xan.
***Cəfərqulu*** (ə.) - İmam Cəfərin qulu, İmam Cəfərin köləsi.
***Cəhdi*** (ə.) - çalışan, cəhd edən, çapalayan, məşğul olan.
***Cəladət*** (ə.) - mətinlik, igidlik, cəsurluq, qəhrəmanlıq.
***Cəlil***, ***Cəlilə*** (ə.) - cəlallı, böyük, ulu.
***Cəmil***, ***Cəmilə*** (ə.) - gözəl, göyçək, cəlbedici.
***Cəmşid//Cümşüd*** (f.) - dəbdəbəli, cah-calallı; parıldayan, bərq vuran (İranın əfsanəvi şahlarından biri).

***Cənab*** (ə.) - yön, tərəf, cəhət; yüksək rütbəli adamlara müraciət forması.
***Cəngavər*** (f.) - savaşan, vuruşan, döyüşən, vuruşqan, döyüşkən.
***Cənnətağa*** - bax: Cənnət və Ağa.
***Cənnətalı//Cənnətəli*** - bax: Cənnət və Əli.
***Cənnəti*** (ə.) – «Behişt, cənnət əhli» mənasındadır və Azərbaycan şairi Əbdülxalıq Qafarzadənin təxəllüsündən yayılmışdır.
***Cənnətqulu*** - bax: Cənnət və Qulu.
***Cərulla//Carulla*** (ə.) - Allahın qonşusu; Kəbənin qonşuluğunda yaşayan.
***Cəsarət*** (ə.) - igidlik, cəsurluq, cürət.
***Cəsarətdin*** (ə.) - dinin cəsarəti, dinin cəsurluğu, dinin hünəri.
***Cəsur*** (ə.) - cəsarətli, igid, qəhrəman.
***Cəzmi, Cəzmiyə//Cəzmiyyə*** (ə.) - kəsmə, qət etmə; qəti qərarlaşdırma, kəskin qərar vermə.
***Cığatay*** - igid ər, cəsur döyüşçü, fədakar bahadır.
***Cilasun*** - igid, qəhrəman; cəld, diribaş.
***Comərd//Cömərd*** - alicənab, səxavətli, əliaçıq, mərd.
***Coşğun***//***Coşqun*** - coşmuş, özündən çıxmış; aşıb-daşan, kükrəyən.
***Coşqar*** - tez həyəcanlanan, coşan, ilhama gələn; qaynar, kükrəyən, daşan.
***Cövdat//Cövdət***(ə.) - qüsursuz; ləyaqət, yüksək keyfiyyət.
***Cövhəri*** (ə.) - cövhərə məxsus olan.
***Cövri*** (ə.) - cəfa, zülm, cəza, incitmə, sitəm.
***Cövzalı//Cövzəli*** (ə.,t.) - «Cövza» bürc adından və –lı şəkilçisindən və ya «Cövza» və «Əli» adlarından düzəlmiş, «Əkizlər bürcündə doğulan» və «Əlinin tayı, əkizi olan oğlan» deməkdir.
***Cudi, Cudiyyə//Cudiyə*** (ə.) - əliaçıq, comərd, səxavətli, Dəclə çayının sahilində dağ.
***Cuma//Cümə***(ə.) - həftənin 5-ci günü; cəmləşmə, məsciddə toplaşma günü.
***Cumar*** - cuman, hücum edən, hücuma keçən.
***Cumay*** - cuman igid, irəliləyən qəhrəman. Bu, “Cuma” adının təhrif edilmiş variantı kimi də izah edilir.
***Cura//Curu//Cürü*** - alıcı kiçik quş; tay-tuş, yar-yoldaş.
***Curtəkin*** - qırğı kimi, alıcı quş təki; varisliyə hüququ olan Cur.
***Curulla***(t.,ə.) - Allahın alıcı kiçik quşu; Tanrının cəngavəri.
***Curuş*** - "Curu" (bax) adının əzizləmə forması.

***Cüneyd***(ə.) - kiçik ordu, ordu; bərk torpaq parçası.
***Cünun*** (ə.) – dəlilik, dəli, divanə, məcnun; ağlını itirmiş.
***Cününbəy//Cünunxan*** (ə.,t.) –dəli bəy, divanə xan; çılğın bəy və ya xan.
***Cürət*** (ə.) - cəsarət, igidlik, hünər; ürəklilik, qorxmazlıq.
***Cürətalı//Cürətəli*** (ə.) - Əli cürəti, Alı hünəri, Əli qorxmazlığı.
***Cürübəy*** - alıcı kiçik quş kimi bəy; kiçik bəy.

## Ç

***Çağdaş*** - müasir, həməsr; eyni vaxtda yaşayan.
***Çağxan*** - zamanın xanı, müasir xan.
***Çağlarxan*** - çağlayan xan, şəlaləyə bənzər xan.
***Çağrı*** - şahin, qızılquş, tərlan; çağırış, müraciət.
***Çağrıbəy*** - sarayda rütbə və dərəcə.
***Çağrıtəkin*** - şahin, tərlan kimi təkin (xanın varisi).
***Çaxmur//Çağmur*** - xəsis, əliaçıq olmayan; ehtiyatlı olan.
***Çakar//Çakər*** - qala divarı, xarici qala; ildırım, şimşək; qədim türk tayfalarından birinin adı.
***Çalan//Çalı*** - döyüşdə çalan, çapan, düşmənə aman verməyən; igid, qəhrəman.
***Çapar*** - qasid; atla namə daşıyan poçtalyon.
***Çapay*** - qədim "Cab" (məşhur, tanınmış, şöhrətli; müdrik) və "Ay" sözlərindən yaranmışdır (Çapayev soy adının əsasında bu ad durur).
***Cavuş*** - yol göstərən, karvan başçısı, karvana yol göstərən.
***Çayan*** - çoxayaqlılar sinfindən kiçik zəhərli həşərat; əqrəb; igid, düşmənə aman verməyən.
***Çayanbəy*** - çayan kimi bəy, əqrəb kimi bəy; igid, qoçaq bəy.
***Çayanxan*** - çayan kimi xan, əqrəb kimi xan; igid, qoçaq xan (İgidliyinə görə Ş.İ.Xətayinin verdiyi fəxri ad).
***Çaylar*** - "çay" sözünün cəmi, bir neçə çay.
***Çevik*** - cəld, zirək, diribaş, qıvraq, güclü, bacarıqlı.
***Çevikər*** - zirək, qoçaq bacarıqlı adam; igid, qəhrəman.
***Çevikxan*** - zirək, qoçaq xan, qəhrəman xan.
***Çələbi*** - Allaha məxsus olan, Allah adamı, Allah bəndəsi; bilici; ədəbli; xeyirxah; cənab.
***Çərkəz*** - Qədim türk dilində "çərgəs", "çərkəslik" qənaət, qənaət etmək, əmələ gətirmək, cərgəyə düzülmək mənalarında işlənmişdir; osetincə qartal; Qaraçay-Çərkəz MV-də kiçik xalqlardan biri.

***Çılğın*** - tez əsəbiləşən, tez özündən çıxan. Bax: Coşqun.
***Çıraq*** - hər cür işıqlandırıcı cihaz (qaraçıraq, lampa, fənər).
***Çıraqəddin*** (t.,ə.) - dinin çırağı, dinin işığı, dinin lampası.
***Çıraqəli//Cırağəli//Çıraqalı*** (t.,ə.) - Əli çırağı, Əli işığı; Əli övladı.
***Çilingər//Çilingir*** - əllə metaldan müxtəlif şeylər qayıran, quraşdıran və ya təmir edən usta.
***Çinar***, ***Çinarə*** - yaşıl və enli yarpaqları olan iri və hündür ağac.
***Çingiz*** - dəniz; genişlik (Qədim t.-m. adlarından biri).
***Çingizxan*** (t.-m.) - qüdrətli xan; böyük dövlətə malik əzəmətli xan.
***Çoban*** - qoyun-keçi sürüsünü otaran (q.t. dillərində: "kənd ağsaqqalının köməkçisi" mənası da olmuşdur).
***Çodar*** - mal-qara alveri ilə məşğul olan adam.
***Çolpan//Çulpan*** - dan ulduzu; Zöhrə; Venera.
***Covğun*** - boran, qasırğa, küləkli qar və yağış.
***Çölü*** - "çöllü" sözündən olub, kəndli, çöl işi ilə məşğul olan deməkdir. Adətən, oğlanları sağ qalmayan ailələrdə diqqəti cəlb etməyən belə adlar verilərdi.
***Çölübəy*** - çöl işləri ilə məşğul olan bəy; çöl bəyi.
***Çölüxan*** - çöl işləri ilə məşğul olan xan; çöl xanı.
***Çölüşad*** - çöl işləri ilə məşğul olan varis; çöl xanzadəsi.
***Çuliman//Çolman*** **-** durğun su, bir yerə toplanmış su yığını.

## ℘ D ℘

***Dadaş*** - ata və böyük qardaşa verilən ad.
***Dadaşağa*** - bax: Dadaş və Ağa; bax: Ağadadaş
***Dadaşalı//Dadaşəli*** (t.,ə.) - bax: Dadaş və Əli; böyük Əli.
***Dadaşbala*** - böyük bala.
***Dadaşcan*** - qardaş ruhlu; qardaş kimi; hörmətli adam.
***Dadaşxan*** - bax: Dadaş və Xan; böyük qardaş kimi Xan.
***Dadbəxş***(f.) - ədalətli, insaflı, mərifətli, əltutan.
***Dadrəs***(f.) - imdada yetişən, köməkçi,arxa, himayəçi.
***Dağbəy*** - dağ kimi bəy; dağın bəyi, dağın böyüyü.
***Dağbəyi*** - yaylaqlarda inzibati işləri idarə edən məmur.
***Dağxan*** - dağ kimi xan; dağın xanı, dağın böyüyü.
***Dağıstan*** (t.,f.) - dağlıq yer, dağlar ölkəsi, Dağıstan MR-nın adı.
***Dağlar*** – bir neçə dağ, dağ silsiləsi; ucalıq, yüksəklik, əzəmətlik.
***Dağlarça*** - dağlar kimi, dağlar qədər.

***Dağtəkin*** - dağ kimi, dağ təki; dağın varisi.
***Dağyunis*** - "dağ" və "Yunis" sözlərindən düzəlmişdir. Dini əfsanəyə görə, o, 200-251-ci illərdə Roma imperatoru olmuşdur. Onun zülmündən altı vəzir, bir çoban və it dağlarda bir mağaraya çəkilirlər. 309 il yatırlar. Ayılanda ciblərindəki pulları xərcləyə bilmirlər... Onlar yenidən yuxuya gedirlər.
***Daxıl//Dəxil*** (ə.) - himayə axtaran, kömək istəyən.
***Dalğıc*** - dənizin dibindən mərcan, inci çıxaran; suyun dibində işləyə bilən işçi.
***Dalğın*** - çox fikirli, xəyala dalmış.
***Dalkılıç//Dalqılıc//Dalqılınc*** - qınsız qılınc, qılıncı qınsız olan; qılıncını sivirmiş adam.
***Damad//Daməd//Damət*** (f.) - qızın əri, kürəkən; yun. əkin bağı, dərz.
***Damanəli//Damanalı***(f.,ə.) - Əlinin yardımı; Əlinin ətəyi.
***Daməddin*** (ə.) - dinin gül dəstəsi, dinin çiçək dəstəsi.
***Danağa*** - danın ağası; sübhün Allahı, danın sahibi.
***Danağı*** - danın ağı; Günəşin şüası.
***Danı*** - dan yeri, sübhün danı; Günəş-Tanrı.
***Danıbəy*** - danın bəyi, danın böyüyü; Günəş.
***Danıxan*** - danın xanı; danın Allahı - Günəşi.
***Danil*** - ilin (elin) danı, elin sübhü; elin Günəşi; elin Tanrısı; ağıllı, zəkalı.
***Daniyal*** - dan yalı (saçı); sübh şəfəqləri; Günəş-Tanrı.
***Daniyar//Danyar//Danıyar//Dəniyar*** (t.,f.) - danın dostu, sübhün yoldaşı, Günəşin-Tanrının köməyi.
***Daniyel*** - sübh yeli, səhər küləyi; Tanrı yeli.
***Danzı//Dənzi*** - dan şəfəqləri, sübh qızartısı.
***Dara*** (f.) - biliyin incisi; bacarıqlı; qüdrətli, sərvət, hökmdarlıq.
***Darğa*** - şəhər, qəza hakimi, bazar və gecə gözətçilərinin başçısı.
***Darvin*** (i.) - ingilis alimi Ç.Darvinin soyadındandır.
***Dastan***, ***Dastanə*** - folklorun epik janrları içərisində qəhrəmanlıq və aşiqanə məzmunda olan, həcmcə ən böyük əsər.
***Daşdəmir*** - möhkəm, sağlam, dözümlü.
***Daşdı*** - daşdı, coşdu; daşqın, coşqun.
***Daşdıbəy//Daşdıxan*** - daşan, coşan bəy; daşqın, coşqun xan.
***Daşqın*** - çay və dənizin öz məcrasını aşması; coşqun, güclü, ehtiraslı.
***Davaxan***(ə.,t.) - vuruşqan xan, çarpışan xan; tədbirli xan.
***Davalı*** - dava edən, döyüşən; igid, qəhrəman.

***Davər*** (f.) - hakim, hökm edən, vəzir, vali; Allahın adlarından biri.
***Davıd//David//Davud//Daud*** (ə.) - sevimli dost; yaxşı səsi olan, gözəl oxuyan.
***Davran*** - hazırlaşma, hazırlıq, görmə, təşəbbüs etmə.
***Dayandar//Dayandur*** - dayan, dur; əbədi yaşa; ölmə.
***Daydar*** (t.,f.) - dayısı olan, dayı sevən.
***Dayı*** - ananın qardaşı; yaşlı kişilərə müraciət forması; Osmanlı dövlətində valilərə verilən titul; gəmi kapitanı; rəis, süvari.
***Dayıbəy*** - dayı olan bəy; böyük bəy, rəis bəy.
***Dayıxan*** - dayı olan xan; vali xan; rəis xan.
***Dekabr*** (l.) - "dekem" - "on" sözündən olub Qriqori təqvimində ilin 12-ci ayı. Yuli təqvimi həyata keçirilənədək 10-cu ay idi. Bu ayda doğulan oğlanlara verilir.
***Deniz//Dəniz*** - göldən böyük olan duzlu su sahəsi; çoşqun, çılğın.
***Deputat*** (lat.) – qanunverici orqana əhali tərəfindən seçilən nümayəndə (vəkil).
***Dədə*** - ata, baba; ustad aşıq, ustad.
***Dədəbəy*** - ata bəy, ulu bəy; böyük dədə.
***Dədəcan*** - dədə kimi adam, dədə ürəkli, dədə ruhlu.
***Dədəxan*** - Dədə xan; dədə kimi xan; müdrik xan.
***Dədələr*** - "dədə"nin cəmi, ulular, böyüklər.
***Dədəkişi*** - dədə kimi kişi, dədəyə bənzər oğlan.
***Dədəyar*** (t.,f.) - dədənin yoldaşı, dədənin dostu və sirdaşı.
***Dəhənz*** - "dəniz" sözünün dialekt forması.
***Dəlalət*** (ə.) - dəlil, sübut.
***Dəmir//Demir*** - qara metal; sağlam, möhkəm; sarsılmaz, yenilməz.
***Dəmirağa*** - dəmir kimi ağa; sağlam ağa.
***Dəmiralı//Dəmirəli*** (t.,ə.) - Əli dəmiri; dəmir kimi möhkəm Əli.
***Dəmirəl*** - dəmir kimi əli olan; güclü, qüvvətli.
***Dəmirçi*** - dəmirdən müxtəlif şeylər qayıran, təmir edən usta.
***Dəmirxan//Demirxan*** - dəmir kimi xan: sağlam xan.
***Dəmirqaya*** - dəmir kimi qaya; möhkəm, sağlam.
***Dənizxan*** - dənizin xanı, dənizin hökmdarı.
***Dərab//Darəb//Darab*** (f.) - əslən: su qapısı; suyun başlanğıcı.
***Dərbənd*** (f.) - dağlarda dar keçid, dağ keçidi. Dərbənd şəhərinin adından yayılmışdır.
***Dərdayıl*** (f.,t.) - Dərd, ayıl! Qəm, oyan!
***Dərgah*** (f.) - saray; astana, qapı önü; haqq qapısı.

***Dərgahqulu*** (f.,t.) - saray qulu; haqqın (Allahın) qulu.
***Dərman*** (f.) - müalicə əhəmiyyətli maddə; çarə, əlac; güc-qüvvət verən.
***Dərviş*** (f.) - peyğəmbər, imamlar və Kərbəla hadisələrinə həsr olunmuş qəsidələr oxuyub pul toplayan dindar.
***Dərya***(f.) - dəniz; çox elmli, bilikli, oxumuş, məlumatlı.
***Dəryaxan*** (f.,t.) - dərya xanı, dəniz hökmdarı.
***Dəyanət*** (ə.) - möhkəmlik; sözündən dönməyən.
***Dəyərxan*** - dəyərli, qiymətli xan, ləyaqətli xan.
***Dəyyan*** - ölməz, duran, yaşayan.
***Dınıbala*** - dın(dan-Günəş) bala; Günəşin övladı, danın balası.
***Didar*** (f.) - görmə, görüş; görünüş, üz, camal.
***Dilavər*** (f.) - ürəkli, qəhrəman; dilli-ağızlı.
***Dilcan//Dilican*** (f.) - insan ürəyi, adamın canı; insana can verən.
***Dilçin*** - dildən ötrü, dil üçün; "Elçin" adına uyğun yaradılmış addır.
***Dilək*** - istək, arzu, təmənna, rica, xahiş.
***Dilkəş*** (f.) - ürəkaçan, könülaçan, qəlbi sevindirən.
***Dilqəm*** (f.) - ürəyi qəmli, qəlbi kədərli, həzin.
***Dilli*** - dili olan; dilli-ağızlı; danışmaqda mahir olan.
***Dilli şad*** - dili olan şad; dilli-ağızlı, gözəl danışan xanzadə.
***Dilmac*** - tərcüməçi, tərcümə edən, bir dildən başqa dilə çevirən.
***Dilman//Dilmən,Dilmanə*** - çox dil bilən adam.
***Dilnur, Dilnurə*** (f.,ə.) - könlü aydın, ürəyi işıqlı, qəlbi parlaq; saf, təmiz.
***Dilsuz*** (f.) - ürəkyandıran, çox təsirli, rəhmli.
***Dinar***, ***Dinara//Dinarə*** (ə.,f.) - dini sevən, dini əzizləyən, oxşayan; bəzi Şərq ölkələrində (hazırda isə İraq və Yuqoslaviyada) işlənən qızıl pul.
***Dinarxan*** - dini əzizləyən, sevən xan; qızıl kimi xan.
***Divanbəy*** (f.,t.) - divanın (məhkəmə, tribunal, divanxana) bəyi, böyüyü.
***Diyar*** (ə.) - məmləkət, ölkə, vilayət.
***Dolubəy*** - dolu bəy, kök bəy, dolğun bəy.
***Doluxan*** - dolu xan, kök xan, dolğun xan.
***Domrul*** - həyat verən; doğuş, törəmə (Şumerlərdə bərəkət Allahı Dumuzu adındandır. Adların "dom", "dum" hissəsi "dan" ilə əlaqədardır.
***Dostalı//Dostəli*** (t.,ə.) - Əlinin dostu, Alının dostu.

***Dostməmməd*** (f.,ə.) – «dust» (dost, yoldaş) və «Məhəmməd» sözlərindən düzəlmiş, «Məhəmmədin dostu», «peyğəmbərin yaxın adamı» deməkdir.
***Dönməz*** - sözünü dəyişməyən; əzmli, dözümlü.
***Dönüş*** - qayıdış, qayıtma, geri dönmə; dəyişiklik.
***Dövlət*** (ə.) - hökumət; Azərbaycan variantında: var-dövlət, sərvət, zənginlik.
***Dövlətalı//Dövlətəli*** (ə.) - Əli dövləti.
***Dövlətbəy*** (ə.,t.) - dövlət bəyi, hökumət bəyi; varlı-dövlətli bəy.
***Dövlətxan*** (ə.,t.) - dövlət xanı, hökumət xanı; varlı-dövlətli xan.
***Dövran***, ***Dövranə*** (ə.) - zaman, zəmanə, dövr, vaxt.
***Dövrəli//Dövralı*** (ə.) - Əli dövrü, Əli zəmanəsi.
***Dözən*** - dözümlü olan; səbirli, mətanətli.
***Duman*** - tutqun, sis hava; gələcək bolluq və xoşbəxtlikdən xəbər verən; kədər, qəmginlik.
***Dumanxan*** - bax: Duman və Xan; elə səadət gətirəcək xan.
***Dunay*** - Avropanın ən böyük çayı olan Dunayın adındandır.
***Durabəy*** - bəy dura, yaşaya, salamat qala; yaşaması arzu olunan bəy.
***Duraxan*** - xan dura, yaşaya, salamat qala; yaşaması arzu olunan xan.
***Dural*** - dəyişməyən, eyni halda qalan; olduğun yerdə dur və ora sahib ol.
***Duralbəy//Duranbəy*** - durduğu yeri alan, ora sahib olan bəy.
***Duralxan//Duranxan*** - durduğu yeri alan, ora sahib olan xan.
***Duran*** - yaşayan, mövcud olan, qalan; yaşaması arzu olunan.
***Durasan*** - yaşayasan; ölməyəsən.
***Durbəy//Durxan*** - bəy, xan, dur, yaşa; yaşaması arzu olunan bəy və xan.
***Durğun*** - durmağı bacaran, sakit; başa düşən, anlayan.
***Durmuş*** - həyat; qalsın, yaşasın; dayanmış.
***Dursun, Dursunə*** - var olsun, yaşasın; ölməsin.
***Dursunbəy//Dursunxan*** - bəy və ya xan dursun, yaşasın.
***Dursunəli//Dursunalı*** (t., ə.) - bax: Dursun və Əli.
***Duyğu*** - sezmə, anlama, başa düşmək qabiliyyəti.
***Duyğun***, ***Duyğunə*** - tez duyan, tez qavrayan, tez hiss edən.
***Dünyabir*** - bir dünya olan; dünyada bir olan (Zənnimizcə, "dünya" sözünün əsasında "dün-dan-dan yeri - Günəş" durur).
***Dünyagir*** (ə.,f.) - tamahkar, gözüdoymaz.
***Dünyamalı// Dünyaməlı*** (ə.) - dünyam Əli//Alı (müqayisə et: Ağam Əli).

***Dünyaməddin*** (ə.) - dinin dünyası, Məhəmməd dininin dünyası.
***Dünyamin*** (ə.) - sakit dünya, rahat aləm, davasız həyat; Binyəmin, Bünyamin, Bünyəmin adının təhrif edilmiş variantı.
***Düralı//Dürəli*** (ə.) - dürr, inci İmam Əli.
***Dürhəsən//Dürhüseyn*** (ə.) - inci İmam Həsən və ya İmam Hüseyn.
***Düzgün*** - düz, doğru; dümdüz, əyriliyi olmayan; qüsuru olmayan.

## ꕤ E ꕤ

***Edil*** - İtil, Ədil (Volqa) çayının adından yayılmışdır.
***Efiq*** - bax: ***Afiq***.
***Efsir, Efsirə*** - Esfir (bax) adının dəyişdirilmiş forması.
***Ehkam*** (ə.) - hər hansı bir nəzəriyyənin əsas və dəyişilməz qanunu. ("Hökm" sözünün cəmi).
***Ehram*** (ə.) - qədim Misirdə fironların tikdirdiyi nəhəng piramidalar.
***Ehsan*** (ə.) - yaxşılıq etmə, bağışlama, bəxşiş.
***Ehtimal*** (ə.) - bir şeyin ola bilməsi, baş verə bilməsi, mümkünlüyü.
***Ehtiram, Ehtiramə*** (ə.) - hörmət, sayqı.
***Ehtişam*** (ə.) - təmtəraq, dəbdəbə, cəlal, əzəmət.
***Ehtiyat*** (ə.) - gələcək üçün saxlanmış şey; tədarük.
***Extiyar* -** bax: İxtiyar.
***Elariz*** (t.,ə.) – «el» və «ariz» (üz, yanaq, sifət) sözlərindən düzəlmiş «elin üzü, xalqın şikayətini, dərdini bildirən, xalqın dərdini bəyan edən» deməkdir.
***Elarslan*** - elin, obanın aslanı, igidi, cəngavəri.
***Elay, Elayə*** - elin Ayı; elin Aya bənzər övladı.
***Elbar***(t., f.) - elin barı, xalqın meyvəsi; elin övladı.
***Elbariz*** (t.,ə.) - elin açıqlığı, aşkarlığı.
***Elbars*** - elin, obanın, yurdun pələngi; qəhrəman.
***Elbasan*** - döyüşlərdə ellər alan, qalib gələn.
***Elbaşı*** - elə, obaya başçılıq edən, eli idarə edən şəxs.
***Elbəkçi*** - eli qoruyan, eli müdafiə edən.
***Elbəy//Elbəyi*** - elin bəyi, elin böyüyü; elin başçısı.
***Elbir*** - bir eldən olan, həmyerli.
***Elbrus*** - yalı buz olan (Qafqaz dağlarındakı zirvə adından yayılmışdır).
***Elburus*** - parlaq, bərq vuran (İranın şimalındakı Elburs dağının adındandır).

***Elcan, Elcanə*** - elin canı, elin qəlbi; elini sevən.
***Elcanlı*** - elini sevən, elinə-yurduna bağlı olan.
***Elçi*** - eli, dövləti təmsil edən, səfir, vəkil; hökmdar, hakim.
***Elçibəy*** - elini sevən bəy; eli təmsil edən bəy.
***Elçin, Elçinə*** - elin igidi, elin qəhrəmanı.
***Eldağ*** - elin dağı, elin arxası, dayağı; elin vüqarı, əzəməti.
***Eldan, Eldanə*** - elin, xalqın danı; xalq həyatının başlanğıcı.
***Eldar*** (t.,f.) - eli olan, el sahibi; elini sevən; hökmdar.
***Eldaş*** - elin daşı, elin təməli.
***Eldayaq*** - elin dayağı, köməyi; elin qəhrəmanı olacaq igid.
***Eldəniz//Eldəgəz//Eldəgiz*** - elin dənizi; elin nuru; eldə gəzən.
***Eldənur*** (t.,ə.) - eldə nur olan, elin işığı, elin nuru.
***Eldost//Eldostu*** - elin dostu, elin arxası, elin güvənci.
***Elfan, Elfanə*** (t.,ə.) - elin elmi, biliyi; el bilicisi; elin alimi.
***Elfəxri*** (t.,ə.) - elin fəxri, elin şərəfi.
***Elgin//Elgün***, ***Elginə//Elgünə*** - eli sevən, el vurğunu, elə bağlı.
***Elgünar//Elgünər*** - elin Günü, Günəşi olan ər, qəhrəman.
***Elgünəş*** - elin Günəşi, el üçün Günəş olan.
***Elxan***, ***Elxanə*** - elin xanı, elin başçısı; əyalət hökmdarı.
***Elxas*** - elin xası, ən yaxşısı; elin arzularının adamı.
***Elinağa*** - elin ağası, elin böyüyü.
***Elizbər*** (t.,f.) – «el» və «zib//zivər» sözlərindən düzəlmiş, «elin bəzəyi, yaraşığı» deməkdir.
***Elkin, Elkinə*** - qonaq, səyahət eləyən (Bax: Elgin).
***Elkömək*** - elə kömək edən, elin köməyi.
***Elqal//Elqala*** - elin qalması, elin qalası; arxası; elin yaşaması.
***Elqan, Elqanə*** - elin qanı - sevimlisi; eli qanan, başa düşən, anlayan.
***Elqaya*** - elin qayası; elin arxası, köməyi, dayağı.
***Ellaz//Elləz*** (ə.) - "əlləzinə" sözünün qısaldılmış forması.
***Ellər*** **-** "el" sözünün cəmi.
***Elli*** – həmyerli; bir kənddə, şəhərdə yaşayan.
***Elmalı*** - elin malı, xalqın malı; el adamı, el oğlu.
***Elman//Elmən, Elmanə*** - el adamı, elə məxsus adam.
***Elmar, Elmara//Elmarə*** - elin ucalığı; el başçısı.
***Elmas*** (yun.) - bax: Almas.
***Elmdar//Elmidar//Elimdar*** (ə.) - elm məkanı; elm qapısı; elmlə məşğul olan.
***Elməddin*** (ə.) - din elmi, dini elm.

***Elmədəd*** (t.,ə.) - elin köməyi, yardımı; elə dayaq olan.
***Elməmməd*** (t.,ə.) - elin Məmmədi (bax); Məhəmməd eli, övladı.
***Elmi*** (ə.) - elmə aid, elmlə əlaqədar.
***Elmixan//Elmxan*** (ə.,t.) - "Elmi xan" birləşməsindən yaranmışdır.
***Elmin*** (ə.) - bilikli, məlumatlı, elmli.
***Elmir***, ***Elmira*** (t.,f.) - elin əmiri, elin başçısı, elin rəhbəri, elin seyidi.
***Elmirzə*** (t.,ə.,f.) - elin mirzəsi, elin savadlısı; elin xanzadəsi.
***Elmiyar*** (ə.,f.) - elmin dostu; elmi sevən, elmə bağlı olan.
***Elmur, Elmurə*** (t.,f.) - elin qarışqası; elin kiçiyi, ən kiçik vətəndaşı.
***Elmurad//Elmuraz*** (t.,ə.) - elin muradı, elin arzusu.
***Elnamə*** (t.,f.) - elin məktubu, kağızı; elin kitabı, sənədi; el adamı.
***Elnar***, ***Elnarə*** (t.,ə.) - elin nuru,elin işığı, elin odu; elə yanan.
***Elnur***, ***Elnura//Elnurə*** (t.,ə.) - elin nuru, işığı, elin odu.
***Eloğlan//Eloğlu*** - elin oğlu, elin igidi; biryerli, yerli.
***Elruh*** (t.,ə.) - elin canı; hərəkət və fəaliyyəti, varlığı.
***Elruz*** (t.,ə.) - elin günü, gündüzü, elin günəşi, elin əvvəli.
***Elsabah*** (t.,f.) - elin səhəri, elin sübh vaxtı, elin başlanğıcı.
***Elsevən//Elsevər*** - elini sevən, elin dostu, elinə bağlı olan.
***Elson*** - elin sonuncu oğlu, yurdun axırıncı övladı.
***Elşad*** - elin xanzadəsi; əyalət xanı olan xanzadə (Qədim türklərdə xanın varisi olan oğluna "tegin", qalan oğlanlarına "şad" titulu verilərdi).
***Elşan***, ***Elşanə*** (t.,f.) - elin şanı, elin əzəməti, elin şöhrəti.
***Elşən*** - elin şadlığı, elin şənliyi; elin şənliyinə çalışan.
***Eltay*** - elə tay olan, elin tayı; elin dağı-arxası.
***Eltəbər//Eltəpər*** - qoşun başçısı, sərkərdə; ellər tutan, qalib.
***Eltək//Eltəki*** - elin təki; eldə olan, ölkədə olan; dövlətdə olma.
***Eltəkin*** - el kimi, elə bənzəyən; elin təki, elin təkini, elə bərabər.
***Eltən*** - elə bərabər, elə tən olan, elə yarayan.
***Eltər, Eltarə//Eltara*** - "el" və "tər" (toplayan, yığan, qoruyan) sözlərindən düzəlmiş, "vətənini qoruyan, el-obasını müdafiə edən" mənasındadır.
***Eltəris*** - q.t. kağanlarından Gül Təkin və Bilgə Kağanın atasının adından yayılmışdır.
***Elton//Eltun, Eltunə*** - elin danı, elin şəfəqi, elin Günəşi; el səadətinin başlanğıcı.
***Elturan*** - eli Turan olan, eli türklərin vətəni olan; əsl türk.
***Eltuz, Eltuzə*** - qəbilə ittifaqı, qəbilə birliyi (qədim türklərdə).

***Elvar*** - elin varı, elin sərvəti.
***Elvin***, ***Elvina*** (a.) - elin nüfuzlu, hörmətli, etibarlı dostu.
***Elvir*** - bax: ***Elvira.***
***Elvüqar*** (t.,ə.) - elin vüqarı, elin başıucalığı.
***Elvüsal*** (t.,ə.) - elinə qovuşan, elinə qovuşmuş.
***Elyanar*** - el üçün yanan, el üçün çalışan; elin qayğısına qalan.
***Elyar*** - elin dostu, elin yoldaşı, xalqın köməyi.
***Elyas*** - bax: İlyas.
***Elyaz*** - elin yazı, elin baharı.
***Elzad*** - "Elzadə" adının qısaldılmış forması; elin oğlu; Eloğlu.
***Elzadə*** (t.,f.) - eldən doğulan, elin övladı.
***Elzaman*** - elin zamanı, elin vaxtı, xalqın dövranı.
***Elzamin*** (t.,ə.) - eli zaminliyə götürən, elə zəmanət verən.
***Elzar//Elzər***, ***Elzarə*** (t.,f.) - elin zəri, elin sərvəti; elin Günəşi; xalqı qoruyan.
***Emil***, ***Emilə//Emilya//Emiliya//Emelya*** (yun.) - mehriban; şəfqətli; rəqib.
***Emin***, ***Eminə*** (ə.) - inanılmış, etibarlı. Bax: Əmin.
***Eminağa*** (ə.,t.) - “Emin ağa” birləşməsindən yaranmışdır.
***Eminalı//Eminəli*** (ə.) - inanılmış, mötəbər Əli.
***Eminbəy*** (ə.,t.) - etibarlı, inanılmış bəy.
***Eminxan*** (ə.,t.) - etibarlı, inanılmış xan.
***Emir*** - bax: Əmir.
***Emiralı//Emirəli*** - bax: Əmiralı//Əmirəli.
***Emirxan*** - bax: Əmirxan.
***Erazim*** - bax: Razim.
***Erbasan*** - igidə qalib gələn, qəhrəmana üstün gələn; ərbasan.
***Ergin//Ergun//Ergün*** - həddi-büluğa çatmış, yetkin.
***Erkən*** - vaxtından əvvəl, tez, sübhdən, ertə; hamıdan qabaq.
***Erkin//Ergin*** - azad, azadlıqsevən, sərbəst; yetkin kişi.
***Erkinər*** - azad, sərbəst, müstəqil adam.
***Erşad*** - igid xanzadə, qoçaq xan oğlu.
***Esfir***, ***Esfira//Esfirə*** (y.; əsli farsca “setare” sözünün yəhudiləşdirilmiş forması) - ulduz.
***Eşqin***, ***Eşqinə*** (ə.,t.) - sənin eşqin; eşqli; sevdalı.
***Etibar*** (ə.) - inam, etiqad; hörmət, nüfuz.
***Etiqad*** (ə.) - bir şeyə qəlbən inanma, inam.
***Etimad*** (ə.) - etibar, inam, nüfuz.
***Etiraf*** (ə.) - boynuna alma; hesaba alma; səhvini söyləmək.

***Etisam*** (ə.) - özünü qoruma; günah və eyblərdən qorunma.
***Eybulla*** (ə.) - Allahın Əyyubu (bax: Əyyub).
***Eymur*** - böyük ordusu olan; sərkərdə, general; q. oğuz qəbilələrindən birinin adı.
***Eynal*** - q. türklərdə ordu başçısı, sərkərdə, general.
***Eynalı//Eynəli*** (ə.) - Əlinin gözü; yaxşı görən göz.
***Eynəddin*** (ə.) - dinin gözü.
***Eyni*** (ə.) - gözə məxsus, gözə aid; "Eyn" ilə başlanan mürəkkəb adların ixtisar variantı.
***Eynibəy*** - "Eyni bəy" birləşməsindən yaranmışdır.
***Eyniş*** - tərkibində "eyn" sözü olan adların qısaldılmış forması.
***Eynulla*** (ə.) - Allahın gözü, Tanrının gözü.
***Eynur, Eynura//Eynurə*** (ə.) - göz nuru, göz işığı.
***Eyruz, Eyruzə*** (ə.,f.) - "eyn" və "ruz" sözlərindən əmələ gəlmiş, "gözün" ruzisi, günü və işığı" mənasındadır.
***Eyvaz*** - düzülmüş, düzəlmiş: ("Əvəz" adının dəyişdirilmiş forması).
***Eyvazalı//Eyvazəli*** - Alı əvəzi, Əli əvəzi.
***Eyyub//Eyub*** - bax: Əyyub.
***Eyyubalı//Eyyubəli*** (ə.) - bax: Əyyub və Əli; dözümlü, səbirli Əli.

## Ə

***Əbasət*** (ə.) - Məhəmmədin üzü; Məhəmmədin əshabələri.
***Əbdək*** (ə.) - sənin qulun (Allaha işarə ilə).
***Əbdibəy*** - bəyin qulu, kölәsi. Şah Təhmasibin dəftərxana qulluqçusu və N.Gəncəvinin təsiri ilə üç "Xəmsə" yazan Əbdibəy Şirazinin (1515-1580) əsl adı.
***Əbdül*** (ə.) - Allahın qulu ("əbdül" sözü ilə başlanan adların qısaldılmış forması); qul, kölə, nökər.
***Əbdülağa*** (ə.,t.) - Ağanın (Allahın) qulu, Allahın qulu olan ağa.
***Əbdülbağı//Əbdülbaqi***(ə.) - əbədi Allahın qulu.
***Əbdülbəşir*** (ə.) - Allahın qulu.
***Əbdülcabbar*** -bax: Əbdül və Cabbar.
***Əbdüləhəd*** (ə.) - tək olanın (Allahın) qulu.
***Əbdüləli*** (ə.) - Allahın qulu.
***Əbdüləzəl*** (ə.) - birinci, ilkin olanın (Allahın) qulu.
***Əbdüləzim*** (ə.) - böyük olanın (Allahın) qulu.
***Əbdüləziz*** (ə.) - Allahın qulu.

***Əbdülfərəc*** (ə.) – «əbdül» (qul) və «fərəc» (sevinc, əyləncə) sözlərindən düzəlmiş «Fərəcin qulu» və ya «əyləncə sevən» deməkdir.
***Əbdülhəq***(ə.) - Haqqın qulu, Allahın qulu.
***Əbdülhəlim***(ə.) - mülayim, yumşaq xasiyyətli qul.
***Əbdülhəmid***(ə.) - Allahın qulu Həmid.
***Əbdülhəsən***(ə.) - Allahın qulu Həsən.
***Əbdülhüseyn***(ə.) - Allahın qulu Hüseyn.
***Əbdülxalıq//Əbdülxaliq*** (ə.) - Allahın qulu.
***Əbdülkərəm*** (ə.) - "Əbdülkərim" adının təhrifidir.
***Əbdülkərim*** (ə.) - Allahın qulu.
***Əbdülqadir//Əbdülqədir*** - bax: Əbdül və Qədir.
***Əbdülqafar//Əbdülqafur*** - bax: Əbdül və Qafar.
***Əbdülqasım*** (ə.) - "Əbdülqasim, Əbdülqasım, Əbülqasim, Əbülqasım" adının təhrif olunmuş variantı. Oğlunun adını "Qasım" qoyandan sonra Məhəmməd peyğəmbəri "Əbülqasim" ("Qasimin atası") deyə çağırırdılar. Peyğəmbərin bu künyəsindən şəxs adı kimi istifadə edilmişdir. Əslində elə "Məhəmməd, Məmməd" deməkdir (bax: Əbülqasım).
***Əbdülqəni*** (ə.) - Allahın qulu.
***Əbdüllətif*** - bax: Əbdül və Lətif.
***Əbdülmanaf*** (ə.) - ən yüksəkdə olanın (Allahın) qulu.
***Əbdülməbud*** (ə.) - «Əbdül» (qul, itaət edən) və «məbud» (Allah, itaət olunan) sözlərindən düzəlmiş, «Allahın qulu, Tanrıya itaət edən» deməkdir.
***Əbdülməcid*** (ə.) - Allahın qulu.
***Əbdülməmməd*** (ə.) - «Əbdül» və «Məmməd» (Peyğəmbərin) adlarından yaranmış, «Məhəmməd peyğəmbərə itaət edən» deməkdir.
***Əbdülrəhim//Əbdürrəhim*** - bax: Əbdül və Rəhim.
***Əbdülrəhman//Əbdürrəhman*** - bax: Əbdül və Rəhman.
***Əbdülrəşid*** - bax: Əbdül və Rəşid.
***Əbdülrəzzaq//Əbdürrəzzaq*** - bax: Əbdül və Rəzzaq.
***Əbdülsalam//Əbdülsəlam*** - bax: Əbdül və Salam.
***Əbdülsəlim*** (ə.) - «Əbdül» (qul, itaət edən) və «səlim» (sağlam; Allah) sözlərindən yaranmış, «Allaha, Tanrıya itaət edən» deməkdir.
***Əbdülsəməd*** - bax: Əbdül və Səməd.
***Əbdülvahab//Əbülvahab*** (ə.) - Allahın qulu.
***Əbdülvahid*** (ə.) - tək olanın (Allahın) qulu.
***Əbdürrəhim*** (ə.) - Allahın qulu.

***Əbi*** (ə.) - bax: Aba; ata (ad və sözlərin əvvəlinə artırılaraq sahiblik mənasını bildirir); «Əbi» - ata deməkdir.
***Əbil//Əbül*** (ə.) - "Əbül" ilə başlanan adların ixtisar forması; kök, dolu, yekə.
***Əbilağa*** - Ağanın atası.
***Əbilxan*** (ə.,t.) - Əbil xan.
***Əbiş*** - "əb" ilə başlanan adların əzizləmə forması.
***Əbiyyə*** (ə) - mənim atam (bax: Abı).
***Əbluc*** (f.) - xırda qənd, qənd tozu; bitki.
***Əbrən*** - dünya, kainat, göy, səma, fəza.
***Əbrulla*** (ə.) - Allahın nüfuzu.
***Əbubəkr*** (ə.) - Bəkirin atası (bax: Bəkir və Abı).
***Əbutalıb*** - bax: Abtalıb.
***Əbuzər*** - bax: Abuzər.
***Əbülfərəc*** (ə.) – «əbu» (ata, sahib) və «Fərəc» sözlərindən düzəlmiş, «Fərəcin atası» deməkdir.
***Əbülfət*** (ə.) - Fəthin atası; fəth sahibi; qalib gələn, ən böyük fateh.
***Əbülfəz*** (ə.) - Fəzlin atası; fəzilət sahibi, ən ləyaqətli.
***Əbülhəsən//Əbülhüseyn*** (ə.) - Həsən və ya Hüseynin atası. İmam Əlinin künyəsi kimi yayılmışdır.
***Əbülqasım*** (ə.) - Qasımın atası.
***Əbülvahab*** (ə.) - Vahabın atası.
***Əcəbalı//Əcəbəli*** (ə.) - Əlinin heyrəti, təəccüblü, möcüzəli; yaxşı Əli, heyrət doğuran Əli.
***Əcəm//Əcəmi*** (ə.) – türk, ərəb olmayan; yad, özgə müsəlman.
***Əcəvit*** - çalışqan, işlək, əlləşən, işsiz durmayan.
***Ədalət*** (ə.) - insaf, mürüvvət; hər şeyi düzgün qiymətləndirən.
***Ədhəm*** (ə.) - qaraş, qaraşın, qaratəhər.
***Ədib***, ***Ədibə*** (ə.) - ədəbli, tərbiyəli; yazıçı.
***Ədil***, ***Ədilə*** (ə.) - ədalətli, insaflı; ədalətlə işləyən.
***Ədilağa***(ə.,t.) - bax: Ədil və Ağa; ədalətli ağa; uyğun ağa.
***Ədilxan***(ə.,t.) - xana bərabər, xana bənzər.
***Ədilşah***(ə.,f.) - şaha bərabər, şaha bənzər.
***Ədnan//Adnan*** (ə.) - ərəb qəbilələrindən birinin adı; təmiz, "xalis ərəb" deməkdir; iki cənnət.
***Ədulla***(ə.) - Allahın ədaləti, Allahın mərhəməti.
***Əfdal*** (ə.) - fəzilət sahibi, fəzilətli; ən üstün, ən yüksək; çox, artıq.

***Əfəndi*** - ağa, cənab; Türkiyədə müraciət forması (yun. "aupentis" sözünün türk dilində dəyişdirilmiş forması).
***Əffan***, ***Əffanə*** (ə.) - comərd, səxavətli.
***Əfif, Əfifə*** (ə.) - namuslu, qeyrətli, ismətli, həyalı, təmiz.
***Əfkar*** (ə.) - fikirlər, düşüncələr.
***Əfkən*** (f.) - yıxan, düşürən, salan, yerə yıxan.
***Əfqan***, ***Əfqanə*** (ə.) - etnonim; fəğan, fəryad, nalə.
***Əflak//Əflaki***, ***Əflakə*** (ə.) - fələk, kainat; göy, səma (cəm şəklində).
***Əflatun*** (ə.) - enlikürək; çox bilikli, müdrik, filosof; mahir həkim (q. yun. filosofu Platonun İslam Şərqində işlədilən ərəbcə adı).
***Əfrad*** (ə.) - fərdlər, tək-tək adamlar.
***Əfrahim//Əfraim*** (f.) - fərahəm, toplanmış, düzəlmiş, yığcam.
***Əfrail//Əfrayıl*** (ə.) - sevinclər, fərəhlər.
***Əfraim//Əfrayım*** (ə.) - mələk adı.
***Əfran*** (ə.) - xüsusi seçilmiş adamlar; dəbdəbə, cəlal.
***Əfrand*** (f.) - dəbdəbə, əzəmət, təntənə.
***Əfras//Əfraz*** (f.) - qaldıran, yüksəldən, ucaldan.
***Əfrasiyab*** - igid ər; zəhmli, qəzəbli ( Qədim Turan hökmdarı "Alp Ər Tonqa" adının farslaşdırılmış forması).
***Əfsan, Əfsanə*** (f.) - əsli olmayan nağıl, hekayə, rəvayət, əsatir.
***Əfsəl//Əfzəl*** (ə.) - daha fəzilətli, çox fəzilət sahibi olan; ən qiymətli, ən üstün tutulan.
***Əfsər*** (f.) - tac; daş-qaşla bəzədilmiş baş geyimi. Almanca «offizier» sözündəndir.
***Əfsun***, ***Əfsunə*** (f.) - ovsun, sehr; ovsunlayan, sehrləyən.
***Əfşar//Afşar//Avşar*** - çevik, cəld; ovçuluğu sevən (Oğuz tayfalarından birinin adı).
***Əfzələddin*** (ə.) - dinin ən qiymətlisi, dinin ən üstün tutulanı.
***Əhəd*** (ə.) - tək, bir, vahid, bircə. “Əbdüləhəd” adının ixtisarından Sovet dövründə işlənməyə başlanmışdır. “Əhəd” - Allah deməkdir. Bolşevik ideologiyası “Allahın qulu” olmağı yasaq etdiyindən həmin mənanı verən adlar sadələşdirilirdi. Nəticədə “Əbdül” hissəsi atılandan sonra “Allah” mənası verən komponent saxlanılırdı. Beləliklə, advermədə də islam dinindən uzaqlaşma bir hadisəyə çevrilmişdi. Ərəb dilini və dini ənənələri bilməyən xalq kütlələri özləri də bilmədən kobud səhvlərə yol verirdilər. Eyni qayda ilə Baqi, Vahab, Qədir, Qafar, Rəhim, Rəhman, Cəlil və s. kimi adlardan da istifadə olunmuşdur.

***Əhədağa*** - bax: Əhəd və Ağa.
***Əhədbala*** - bax: Əhəd və Bala.
***Əhəddin*** (ə.) - dinin təki, dinin vahidi.
***Əhədəli*** - bax: Əhəd və Əli.
***Əhədxan*** - bax: Əhəd və Xan.
***Əhədşah***(ə.,f.) - vahid şah, yeganə padşah.
***Əhədülla***(ə.) - Allah birdir, Allah vahiddir.
***Əhliman*** (ə.) - iman əhli, din əhli, dindar. (Bu adı atəşpərəstlik dinində şər allahı olan "Əhriman" ilə əlaqələndirənlər də vardır.)
***Əhliyar*** (ə.,f.) - yar əhli; məşuq, sevgili.
***Əhməd*** (ə.) - ən tərifəlayiq, ən tərifli, mədh olunmağa ən layiq.
***Əhmədağa*** - bax: Əhməd və Ağa.
***Əhmədcamal*** - bax: Əhməd və Camal.
***Əhmədəli//Əhmədalı*** - bax: Əhməd və Əli.
***Əhmədxan*** - bax: Əhməd və Xan.
***Əhmədiyyə*** (ə.) - müsəlman, islam dinindən olan.
***Əhmədşah***(ə.,f.) - şah Əhməd, padşah Əhməd.
***Əhmədyar***(ə.,f.) - Əhmədin dostu, Əhmədin köməkçisi.
***Əhsən*** (ə.) - çox gözəl, ən yaxşı.
***Əhyəddin*** (ə.) - həyat verən din, can verən din.
***Əjdər*** (f.) - əjdaha; nəhəng, cüssəli; igid.
***Əjdərxan*** - Əjdər kimi xan; qüvvətli, heybətli, qorxmaz.
***Əkbər*** (ə.) - ən böyük.
***Əkbəralı//Əkbərəli*** (ə.) - böyük Alı, böyük Əli.
***Əkinçi*** - əkin işləri ilə məşğul olan.
***Əkrəm*** (ə.) - ən kəramətli, alicənab, comərd, səxavətli.
***Əqdəm*** (ə.) - daha qədim olan, ən əvvəl gələn, ən qabaq olan.
***Əqil, Ədilə*** (ə.) - zəka, şüur; hafizə, zehin, xatir, fikir.
***Əlabbas//Əliabbas*** (ə.) - Əli (bax) və Abbas (bax).
***Əlağa//Əliağa*** (ə.,t.) - Əli ağa, cənab Əli.
***Əlamət*** (ə.) - nişanə; işarə, iz; hər hansı əşyanın əsas xüsusiyyətləri.
***Əlbaxış//Əlibaxış*** (ə.,t.) - Əli baxışı; Əli bəxşişi, Əli hədiyyəsi.
***Ələddin//Əliəddin//Əliyəddin//Əlaəddin*** (ə.) - dinin ucalığı; dinin Əlisi.
***Ələkbər//Əliəkbər*** (ə.) - Əli Əkbər; böyük Əli.
***Ələm*** (ə.) - əlamət, nişan, işarə; bayraq.
***Ələmdar*** (ə.,f.) - ələm gəzdirən, bayraqdar.
***Ələs*** (ə.) – od-alov; dəcəl; qeyri-adi oğlan.
***Ələsgər//Əliəsgər*** (ə.) - Əli Əsgər; kiçik Əli.

***Ələşrəf//Əliəşrəf*** (ə.) - ən şərəfli Əli, ən şərafətli Əli.
***Əlfəddin//Əlifəddin*** (ə.) - dinin dostu; dinlə ülfət saxlayan.
***Əlfi***, ***Əlfiyyə*** (ə.) - ülfətli, dost-aşnaya aid olan (bax: Əlif).
***Əlgüman//Əligüman*** (ə.,f.) - Əli gümanı, Əli ehtimalı, zənni.
***Əlgüşad//Əligüşad***(ə.,f.) - Əlinin açdığı; Əlinin bağışladığı.
***Əlgüşah*** (f.) – aydınlıq, işıqlıq, aşkarlıq.
***Əli*** (ə.) - ali, ulu, yüksək (bax: Alı).
***Əlibaba*** (ə., t.) - Əli baba (əsl ad + qohumluq bildirən söz) birləşməsindən yaranmışdır.
***Əlibafa//Əlivəfa*** (ə.) –« Əli və vəfa» sözlərindən düzəlmiş, «sədaqətli, etibarlı Əli» deməkdir.
***Əlibala*** (ə.,t.) - Əli bala (əsl ad+qohumluq termini).
***Əlibayram*** - bax: Əli və Bayram.
***Əlibəndə//Əlbəndə***(ə.,f.) - Əli bəndəsi, Əli tərəfdarı.
***Əlibuta//Əlibutay*** (ə.,t.) - Əli butası, Əli qönçəsi, Əli təravəti.
***Əlican//Əlcan*** (ə.,f.) - Əli canlı, Əlini sevən; Əzizləmə mənasında Əli+can kimi də başa düşülür.
***Əlicəfər*** (ə.) - bax: Əli və Cəfər; İmam Cəfər; Əlinin Cəfəri.
***Əlidadaş*** - bax: Əli və Dadaş; Əli qardaş.
***Əlidədə*** - bax: Əli və Dədə; Əli dədə.
***Əlidəmir*** - əli dəmirdən olan; güclü, qüvvətli; döyüşkən.
***Əliəhməd//Ələhməd*** - bax: Əli və Əhməd.
***Əlif, Əlifə*** (ə.) - ülfət saxlayan; dost, yoldaş.
***Əlifağa//Əlfağa*** - bax: Əlif və Ağa; «Əlif» (dost) və «ağa» sözlərindən düzəlmiş, «ağamın dostu, böyük dost» deməkdir.
***Əlifaiz//Əlfayiz*** (ə.) - müdafiə edən Əli; qələbə çalan Əli; səxavətli Əli.
***Əlifalı//Əlifəli*** (ə.) - ülfət saxlayan Əli, dost Əli; Əli ülfəti; Əli dostu.
***Əlifxan*** (ə.,t.) - ülfətli xan; ucaboylu xan.
***Əliheydər // Əlheydər*** (ə.) - döyüşçü Əli, cəngavər Əli.
***Əlihəsən//Əlhəsən*** (ə.) - Əli və Həsən adlarının birləşməsindən yaranmışdır.
***Əlihüseyin//Əlhüseyn*** - bax: Əli və Hüseyn.
***Əlixan*** - bax: Əli və Xan.
***Əlixeybər*** (ə.) - bax: Əli və Xeybər; Əli keçidi, qapısı.
***Əlikərəm*** (ə.) - Əli kərəmi, alicənablığı, comərdliyi; Əli mərhəməti, Əli bəxşişi.
***Əlikərim*** (ə.) - səxavətli, comərd Əli, hörmətli, möhtəşəm Əli.

***Əlikişi*** (ə.,t.) – «Əli» (böyük) və «kişi sözlərindən düzəlmiş, «böyük kişi», «Əliyə layiq ola bilən oğlan» deməkdir.
***Əlikömək*** - Əli köməyi, Əli yardımçısı.
***Əlikövsər*** - bax: Əli və Kövsər.
***Əlikram*** (ə.) - Əli hörməti, Əli qayğısı.
***Əliqafar//Əlqafar*** (ə.) - bağışlayanın (Allahın) Əlisi, əfv edənin (Allahın) Əlisi.
***Əliqafur//Əlqafur*** (ə.) - Əli tərəfindən bağışlanmış, əfv edilmiş.
***Əliqardaş*** - Əli tərəfindən verilən qardaş.
***Əliqəmə//Əlqəmə*** (ə.,t.) - Əlinin kiçik xəncəri.
***Əliqəmər//Əlqəmər*** (ə.) - Əli Qəməri, Əli Ayı; böyük Qəmər, Ay.
***Əliqismət***(ə.) - Əli tərəfindən bəxş olunan qismət.
***Əliqulu*** (ə.,t.) - Əlinin qulu.
***Əlim*** (ə.) - çox bilən, xəbərdar, vaqif.
***Əlimahir*** - bax: Əli və Mahir.
***Əlimehrab***(ə.) - Əli qibləgahı, Əli sığınacağı.
***Əliməded*** - bax: Əli və Mədəd.
***Əliməmməd//Əlməmməd*** - bax: Əli və Məmməd.
***Əlimərdan//Əlmərdan*** (ə.,f.) - bax: Əli və Mərdan.
***Əlimxan*** (ə.,t.) - xəbərdar, çox bilən xan; incidən xan.
***Əlimirzə//Əlmirzə*** - bax: Əli və Mirzə.
***Əlimran//Əliimran*** - “Əli” və “İmran” adlarından düzəlmişdir.
***Əlimşan***(ə.) - hər şeydən xəbərdar olan vəzifəli şəxs, şöhrətli alim.
***Əlinaib//Əlinayıb*** (ə.) - Əlinin müavini, canişini; Əlinin vəkili.
***Əlirza*** (ə.) - Əli və Rza adlarından.
***Əlisa//Əliisa*** (ə.) - Əli və İsa adlarından.
***Əlisafa//Əlisəfa//Əlsəfa*** (ə.) - Əli saflığı, Əli xalisliyi, rahatlığı.
***Əlisahab//Əlisahib//Əlsahib*** (ə.) - Əlinin dostu; Əli tərəfdarı, yoldaşı.
***Əlisan*** - Əli kimi şöhrətli, Əliyə bənzər.
***Əlisəttar*** (ə.) – bax: Əli və Səttar; Əli bəxşişi; bağışlanan Əli.
***Əliskəndər//Əliiskəndər*** - Əli (bax) və İskəndər (bax); igid, sərkərdə Əli.
***Əlislam*** (ə.) - Əli və İslam adlarından düzəlmişdir.
***Əlisman//Əliosman//Əlosman*** (ə.) - Əli və Osman adlarından düzəlmişdir.
***Əlisoltan//Əlisultan*** (ə.) - hökmdar, hakim, şah Əli.
***Əliş*** – 1. "Əli" və "Əli" ilə başlanan adların əzizləmə forması; kiçik, əziz Əli; 2. savab iş, Əli işi.
***Əlişah//Əlşah*** (ə.,f.) - Şah Əli, hökmdar Əli.

***Əlişan*** - Əli şanlı, Əli şöhrətli, Əli ucalığı.
***Əlişir*** (ə.,f.) - aslan Əli, Şir Əli; Əli şirdir.
***Əliverdi//Əlverdi//Əliverən*** - Əlinin verdiyi, Əlinin bəxş etdiyi.
***Əliv əli*** (ə.) - bax: Əli və Vəli; himayə edən Əli.
***Əliyar//Əlyar*** (ə.,f.) - Əli dostu, Əli yoldaşı.
***Əliyoldaş*** (ə.,t.) – «Əli» və «yoldaş» sözlərindən düzəlmiş, «Əlinin dostu, yoldaşı» deməkdir.
***Əliyulla*** (ə.) - Allahın Əlisi, Tanrının Əlisi; Allah aliliyi, ululuğu.
***Əliyusif*** (ə.) - Əli və Yusif adlarındandır.
***Əlizadə*** (ə.,f.) - Əli oğlu, Əli övladı.
***Əlizahid*** (ə.) - abid Əli, yalnız ibadət edən Əli.
***Əlizaid//Əlizayıd*** (ə.) - artan, üstünə gələn Əli, böyük Əli.
***Əlizaman//Əlzaman*** (ə.) - Əli zəmanəsi; zamanın Əlisi.
***Əlizamin//Əlzamin*** (ə.) - Əli zəmanəti; zəmanət verən Əli.
***Əllam*** (ə.) - hər şeydən xəbərdar olan, çox bilən.
***Əlləz*** (ə.) - Allahın rəva bildiyi.
***Əlman*** (ə.) - köməyə gəlin, yardım edin; səxavətli, əliaçıq.
***Əlövsət*** (ə.) - ortancıl Əli.
***Əlvan***, ***Əlvanə*** (ə.) - rəngarəng, alabəzək; gözəl, qəşəng.
***Əlvənd*** (ə.) - "Əli" və farsca "nəsil" mənasında olan "vənd" sözlərindəndir. Həmadan yaxınlığındakı dağın adındandır.
***Əlvida***(ə.) - sağlıqla qalma, xudahafiz.
***Əmək*** - hər hansı bir işin görülməsində sərf edilən güc, zəhmət.
***Əməl*** (ə.) - arzu, istək, dilək.
***Əmələddin*** (ə.) - dinin əməli, dinin arzusu.
***Əmən*** - bax: Aman.
***Əmənalı//Əmənəli*** (ə.) - Əli rəhmi, Əli şəfqəti, Əli mərhəməti.
***Əmənulla***(ə.) - Allahın əsirgədiyi, Allahın bağışladığı.
***Əmi*** - atanın qardaşı; özündən böyük kişilərə müraciət forması.
***Əmikişi*** - əmi kimi kişi, əmiyə bənzər kişi.
***Əmil*** - bax: Emil.
***Əmin***, ***Əminə*** (ə.) - mötəbər, inanılmış (Məhəmməd Peyğəmbərin epitetlərindən biri).
***Əminağa//Əmnağa*** (ə.,t.) - mötəbər, inanılmış ağa; ("Əmin ağa" adındandır).
***Əminalı//Əminəli*** (ə.) - Əli mötəbərliyi, Əli əminliyi, Əli inamı.
***Əminəddin*** (ə.) - dinin əmanət saxlayanı, dinin inanılmışı.
***Əmir*** (ə.)- əmr verən, əmr edən; hakim.

***Əmiralı//Əmirəli//Əmralı//Əmrəli*** (ə.) - əmir Alı, əmr edən Əli; başçı Əli.
***Əmiraslan*** - bax: Əmir və Aslan; Əmirin aslanı.
***Əmircan***(ə.,f.) - hökmdar ruhlu, buyuran adam.
***Əmirxan*** (ə.,t.) - əmir xan, hökmdar xan ("Əmir xan" birləşməsindən).
***Əmirsoltan//Əmirsultan*** (ə.) - əmr verən hökmdar, şah, hakim.
***Əmirşah***(ə.,f.) - buyuran şah, əmr verən hökmdar.
***Əmirulla// Əmrulla*** (ə.) - Allahın əmri, buyurduğu.
***Əmirzada*** (ə.,f.) - əmir oğlu, əmir övladı.
***Əmrağa//Əmirağa*** (ə.,t.) - əmr verən ağa; cənab hakim, seyid olan əmir.
***Əmrah*** (ə.) - sevincək, şad, fərəhli; q.t. "Amrak" adının ərəbləşmiş forması, kimi də izah edilir.
***Əmran//Əmiran*** (ə.,t.) - sevmək və dostluq etmək.
***Əmrəddin//Əmirəddin*** (ə.) - dinin əmiri, dinin buyurduğu.
***Əmrək*** (ə.) "əmir" və tat dilində "ki" - "dağ" sözündəndir.
***Əmsar*** (ə.) - müsəlmanların saldıqları şəhərlər; l. "emissor" sözündən düzəlmişdir.
***Əndəlib*** (ə.) - gözəl səsi olan yaraşıqlı quş.
***Əndər*** (ə.) - az tapılan, nadir; bax: Nadir.
***Ənər*** - güclü igid, qüdrətli kişi.
***Əngin*** - geniş, ucu-bucağı olmayan açıqlıq.
***Ənis, Ənisə*** (ə.) - yaxın dost, həmdəm, yoldaş, ürək dostu.
***Ənnağı*** - "Əli" və "Nağı"nın dəyişilmiş forması.
***Ənsar//Ənsər***(ə.) **-** köməkçilər, yardım edənlər.
***Ənuşirəvan*** (f.) - ölməz ürək, əbədi qəlb, daimi ürək.
***Ənvər*** (ə.) - ən işıqlı, daha nurlu; ən parlaq.
***Ərbəy*** - ər kimi bəy; igid, qoçaq bəy.
***Ərçə*** – yetkinləşmiş, yetişmiş, həddi-büluğa çatmış.
***Ərçin*** - namuslu, gerçək qəhrəman, həqiqi igid; kiçik ərazi, bölgə.
***Ərdan//Ərtan*** - "ər" və "dan" sözlərindən düzəlmişdir və sübh vaxtı doğulan oğlanlara verilir.
***Ərdəbil*** - Cənubi Azərbaycanın ən böyük şəhərlərindən birinin adındandır.
***Ərdəm*** - hövsələ, səbir; həvəs, fəzilət, mərifət.
***Ərdoğan*** - anadangəlmə igid, igid kimi doğulan.
***Ərdost*** - igid dost, kişi kimi dost, yaxşı yoldaş.
***Ərəb*** (ə.) - xalqın adındandır, təmiz, saf deməkdir.

***Ərəbxan*** (ə.,t.) - ərəb xanı (hökmdarı), ərəb olan xan.
***Ərəfat*** (ə.) - yüksək qumluq təpə; Məkkə yaxınlığındakı dağın adı.
***Ərən*** - igid, qəhrəman, bahadur.
***Ərəs*** (ə.) – «ərəs (ə.)» sözündəndir və «meydan, sahə» deməkdir.
***Ərəstun*** (yun.) - əla, yaxşı, lap yaxşı (Məşhur yun. filosofu Aristotelin ərəb dilində assimlyasiya edilmiş adı).
***Ərgül*** - gül kimi, çiçək kimi adam.
***Ərgün*** - günün, zamanın əri, igidi; qəhrəman, igid.
***Ərgünəş*** - Günəş adamı, qəhrəmanı; Günəş kimi ər.
***Ərhun//Ərqun*** - igid, qəhrəman hun; hunlardan olan ər, igid.
***Ərxan*** - igid xan, qəhrəman xan.
***Ərman//Ərmən*** - cəsur, qoçaq, igid adam; qəhrəman, qorxmaz.
***Ərol*** - igid oğul, ər oğul.
***Ərsoy*** - igid, qəhrəman soylu; soyun qəhrəmanı, qoçağı.
***Ərşad//Ərşəd*** - ər xanzadə, igid şad, qoçaq xanoğlu.
***Ərşan*** - adlı-sanlı, şanlı-şöhrətli igid, qəhrəman.
***Ərşən*** - xoşbəxt, sevinən, şən olan igid, qəhrəman.
***Ərtac*** - igidin tacı, qəhrəmanın tacı.
***Ərtay*** - ər kimi, ərə tay olan, ərə bənzəyən.
***Ərtəkin*** - igid, qəhrəman təkin; varisliyə hüququ olan igid şahzadə.
***Ərtəpər*** - igidləri yıxan, qəhrəmanlara qalib gələn.
***Ərtoğrul*** - igid şahin, igid qartal; qəhrəman, alp, bahadur.
***Ərtuqay*** - igid Tuqay, qəhrəman Tuqay.
***Ərtur//Ərtürk*** - igid, qəhrəman türk; döyüşkən, vuruşqan türk.
***Ərturan*** - Turan ölkəsinin igidi; mərd, qəhrəman turanlı.
***Əryavuz*** - qəzəbli, sərt, tez özündən çıxan adam.
***Ərzan*** (ə.,f.) - ərz (Yer, planet, ölkə) sözü və –an şəkilçisindən düzəlmiş, «planetlər, ölkələr» deməkdir.
***Ərzulla*** (ə.) – Allahın ərzi, Tanrının torpağı, planetləri.
***Əsabalı//Əsəbəli//Əsabəli*** (ə.) - Əli tərəfdarı;Alı əshabəsi.
***Əsəd*** (ə.) - aslan, şir; igid, qəhrəman, cəsur.
***Əsədalı//Əsədəli*** (ə.) – aslan, şir Əli; igid, qəhrəman, cəsur Əli.
***Əsədulla*** (ə.) - Allahın aslanı.
***Əsgər*** - sıravi döyüşçü.
***Əsgərağa*** - bax: Əsgər və Ağa; döyüşçü ağa.
***Əsgərəli//Əsgərali***- Əli əsgəri, Əlinin əsgəri.
***Əslalı//Əsləli*** (ə.) - əsil Əli, həqiqi Əli; Əli nəsilli, Əli nəcabətli.
***Əslxan//Əsilxan//Əslixan*** - xan nəslindən olan; həqiqi xan.

***Əsrar*** (ə.) – sirlər, müəmmalar.
***Əsvar//Əsvər*** (ə.) - hündür, uca divarlar.
***Əşir*** - bax: Aşir.
***Əşrəf*** (ə.) - ən şərəfli, ən şərafətli, çox əziz, hörmətli.
***Əşrəfalı//Əşrəfəli*** (ə.) - ən şərəfli Əli, ən şərafətli, əziz, hörmətli Əli.
***Əta*** (ə.) - bəxş, bəxşetmə.
***Ətaulla*** (ə.) –«əta» (pay, bəxşiş) və «ulla» (Allah) sözlərindən yaranmış, «Allahın bəxşişi, Tanrının payı» deməkdir.
***Əvəz*** - qarşılıq, kiminsə yerini tutan.
***Əvəzağa*** - bax: Əvəz və Ağa.
***Əvəzalı//Əvəzəli*** (ə.) - Əli əvəzi, Əliyə əvəz olan.
***Əvəzbala*** - bax; Əvəz və Bala.
***Əvəzxan*** - Əvəz xan; xanın əvəzi, xana bərabər, xanın yerini tutan.
***Əyalət*** (ə.) - mərkəz olmayan, mərkəzdən uzaq yer.
***Əyan***, ***Əyanə*** (ə.) - aydın, aşkar olan..
***Əyar*** (ə.) - qızılın saflıq, xalislik dərəcəsi; təmiz, düz, namuslu.
***Əyyam*** (ə.) - günlər, çağ, zaman, dövr.
***Əyyar*** (ə.) - çoxbilmiş, kələkbaz.
***Əyyub//Əyub***, ***Əyyubə*** (ə.) - dözüm, səbir (q.y. dilində "təqib olunan" deməkdir).
***Əzəl*** (ə.) - əvvəl, qabaq, irəli.
***Əzələddin*** (ə.) - dinin əvvəli, dinin əzəli.
***Əzəlxan*** - daimi xan, həmişəlik xan; ilk xan.
***Əzəlnur***(ə.) - daimi işıq, əbədi nur; ilkin işıq.
***Əzəlşah***(ə.,f.) - daimi şah, əbədi şah; ilk şah.
***Əzəm*** (ə.) - ən böyük, çox hörmətli, ən görkəmli.
***Əzim***, ***Əzimə*** (ə.) - böyük, ali, ulu, əzəmətli, cah-cəlallı.
***Əzimağa*** - bax: Əzim və Ağa.
***Əzimalı//Əziməli*** (ə.) - böyük, ali, ulu, əzəmətli, cah-cəlallı Əli.
***Əzimbala*** - bax: Əzim və Bala.
***Əzimxan*** - bax: Əzim və Xan.
***Əziz, Əzizə*** (ə.) - sevimli, istəkli, ürəyə yaxın.
***Əzizağa*** (ə.,t,) - sevimli ağa, istəkli ağa.
***Əzizalı//Əzizəli//Əzzalı*** (ə.) - sevimli Alı, sevimli Əli.
***Əzizbala*** - sevimli bala, çox istəkli övlad.
***Əzizəddin*** (ə.) - dinin əzizi, dinin sevimlisi.
***Əzizxan*** (ə.,t.) - sevimli xan, istəkli xan.
***Əzizşah*** - sevimli şah, ləyaqətli şah, qüdrətli şah.

***Əzizulla*** (ə.) - Allahın əzizi, Tanrının sevimlisi.
***Əzməddin*** (ə.) - dinin əzmi, dinin məramı.
***Əzmi*** (ə.) - qəti məqsədə aid, mərama məxsus.
***Əzmkar//Əzimkar//Əzmidar*** (ə.,f.) - öz məqsədini həyata keçirməyə çalışan.
***Əzmulla*** (ə.) - Allahın qəti niyyəti.

## ꕤ F ꕤ

***Fabil, Fabilə*** (ə.) - iş görən, işləyən, təsvir edən.
***Fadil, Fadilə*** (ə.) - bax: Fazil, Fazilə.
***Fahim, Fahimə***(ə.) - çox qüvvətli, güclü; etibar və nüfuz sahibi.
***Faxir***, ***Faxirə//Fəxirə*** (ə.) - fəxr edən; qiymətli, gözəl, parlaq.
***Faid***, ***Faidə*** (ə.) – fayda, xeyir, qazanc, mənfəət, gəlir.
***Faiq//Fayiq***, ***Faiqə//Fayiqə*** (ə.) - üstün, əla, seçmə.
***Fail//Fael, Failə*** (ə.) - iş görən, yaradan; əməklə məşğul olan.
***Failiyyət//Fəaliyyət*** (ə.) - fəallıq; təsirlilik.
***Faiz//Fayiz, Faizə//Fayizə*** (ə.) - dolu, bol; qalib, müzəffər.
***Faizalı//Faizəli*** (ə.) - zəngin Əli; qalib, müzəffər Əli.
***Fakir***, ***Fakirə*** (ə.) - yoxsul, kasıb; möcüzələr göstərən.
***Faməli*** (f.,ə.) - Əli rəngi, Əli görkəmli.
***Famil***, ***Familə//Familət*** (l.) - ailə, nəsil adı; İlkin mənası “qul sahibi, quldar“ olmuşdur; ə. vaqif, bilən, məlumatlı.
***Farid//Fərid, Faridə//Fəridə*** (ə.) - tək, misilsiz, nadir, yeganə (t. od işığı, günəş parıltısı).
***Fariq***, ***Fariqə*** (ə.) - ayıran, fərqləndirən, seçən.
***Faris***, ***Farisə*** (ə.) - atlı; bacarıqlı; igid, qəhrəman.
***Fariz***, ***Farizə*** (ə.) - fərz edən, təxmin edən.
***Farmud//Fərmud***, ***Fərmudə*** (f.) - əmr edilmiş, buyurulmuş.
***Faruq***, ***Faruqə*** (ə.) - fərq qoya bilən, yaxşını pisdən ayıran; gözüaçıq.
***Fasih, Fasihə*** (ə.) – fəsahətlə danışan, gözəl və aydın danışıq qabiliyyətinə malik olan.
***Fateh, Fatehə*** (ə.) - fəth edən, işğalçı; açan; başlayıcı.
***Fayaz*** (ə.) - bolluq, artıqlıq, bərəkət.
***Fazil***, ***Fazilə//Fəzilə//Fazilət*** (ə.) - fəzilət sahibi, fəzilətli, bilikli; müdriklik, kamillik.

***Felman, Felmanə*** (ə.) - “iş, hərəkət, əməl; həqiqət; fitnə” mənasında olan “fel və insan” mənasında olan “man” sözündən yaranmışdır. “İş; əməl; həqiqət; fitnə adamı” mənasındadır.
***Fevral*** (l.) - ilin 2-ci ayı (Ölüm allahı Februs adındandır).
***Fevzi***, ***Fevziyyə*** (ə.) - qalib gələn, müzəffər.
***Feysəl*** (ə.) – hakim, hökmdar; qərar, hökm, həll etmə.
***Feyzəddin*** (ə.) - dinə fayda verən, dinə xeyir gətirən.
***Feyzi, Feyziyə*** (ə.) - bolluq, bərəkət; xeyir, fayda; ləzzət, həzz.
***Feyzulla*** (ə.) - Allahın neməti, Tanrının kərəmi.
***Fəcri, Fəcriyyə*** (ə.) - sübh çağı, dan yerinin ağarması ilə bağlı olan.
***Fəda//Fəday, Fədayə*** (ə.) - amal uğrunda özünü qurban vermə.
***Fədai//Fiday*** (ə.,t.) - məslək yolunda canından keçən.
***Fədail*** (ə., t.) - el və məslək yolunda canından keçənlər.
***Fədakar*** (ə.,f.) - hər cür igidlik və qəhrəmanlığa hazır olan.
***Fəğan//Fəqan//Fəqani***, ***Fəğanə//Fəqanə*** (f.) - fəryad, ah-nalə.
***Fəhim, Fəhimə*** (ə.) - ağıllı, zəkalı, dərrakəli, zirək.
***Fəhmi, Fəhmiyyə*** (ə.) - anlayış, anlaq, idrak, zəka, anlama.
***Fəhmil*** (ə.) – anlayışlı, zəkalı, idraklı, dərrakəli.
***Fəhmin***, ***Fəhminə*** (ə.) - sənin fəhmin (bax: Fəhmi).
***Fəxarət*** (f.) - fəxr etmə, qürrələnmə, öyünmə.
***Fəxralı//Fəxrəli*** (ə.) - Alı fəxri, Əli iftixarı.
***Fəxrəd*** - "Fəxrəddin" adının əzizləmə forması.
***Fəxrəddin*** (ə.) - dinin fəxri, dinin iftixarı.
***Fəxri*** (ə.) - hörmətli, şərəfli, şərəfləndirən.
***Fələk***, ***Fəlakə*** (ə.) - göy, səma, asiman; kainat.
***Fələki*** (ə.) - fələyə mənsub, göyə mənsub; qismət, bəxt, müqəddərat.
***Fərahim*** (f.) - toplu, yığcam, toplanmış, cəm edilmiş.
***Fəraməz//Fərəməz//Fəramiz//Fəramuz*** (f.) - bağışlayan, əfv edən.
***Fəran***, ***Fəranə*** (ə.) - çörəkbişirən, çörəkçi; t. anın fəri (işığı), zamanın odu.
***Fərasət*** (ə.) - ayıqlıq; tez anlama, qavrama bacarığı; işıqlı üz.
***Fərda*** (f.) - sabah, ertəsi gün; gələcək ("fər" od, işıq, Günəşlə bağlıdır).
***Fərdalı//Fərdəli*** (ə.) - tək Əli, vahid Alı.
***Fərdan, Fərdanə*** (ə.,f.) - yeganə, ürəyəyatan, yeganə gözəl oğlan və qız.
***Fərdi, Fərdiyə//Fərdiyyə//Fərdiyyət*** (ə.) - təkbaşına, yalnız olaraq, tək olaraq; bir kəsə məxsus olan; şəxsi; xüsusilik, fərdilik.
***Fərdim//Fərdin*** - mənim bircəm, sənin bircən; mənim odum, işıq yandıranım.

***Fərəc*** (ə.) - şadlıq, sevinc; təsəlli, təskin.
***Fərəcalı//Fərəcəli*** (ə.) - Əli sevinci, Əli şadlığı; Əli təskini.
***Fərəculla*** (ə.) - Allahın təsəllisi, Tanrının təskinliyi.
***Fərhad//Fəhrad*** (f.) - anlayan, başa düşən; zehinli; fədakar aşiq (t. odun işığı, Günəşin parıltısı).
***Fərhan//Fərxan, Fərxanə//Fərhanə*** (ə.) - şən, şad, sevincək; xoşbəxt.
***Fərhəng*** (f.) - elm, məlumat; maarif, mədəniyyət.
***Fərhun//Fərxun, Fərhunə//Fərxunə*** (ə.) – sevinc, fərəh, şadlıq; uğurlu, bəxtiyar, xoşbəxt.
***Fəridəddin*** (ə.) - dinin ən yaxşı nümayəndəsi, dinin misilsiz təmsilçisi (t. dinin işığı, dinin Günəşi).
***Fəriz***, ***Fərizə*** (ə.) - icrası vacib olan iş; borc, miras (t. işığın izi).
***Fərqan//Fərqani*** (ə.) - fərqləndirən, fərq qoyan; odu ayıran, işığı seçən.
***Fərman*** (f.) - əmr, buyruq, hökm, qərar ( t. adam işığı - hökmdar işığı, hökmdarın odu).
***Fərmail//Fərmayıl*** (ə.) - əmr, sərəncam və buyruqlar.
***Fərmayış*** (f.) - buyurma, əmr etmə; buyuruq, əmr, qulluq.
***Fərmuz, Fərmuzə*** (ə.) - əmr edilmiş; bəyənilmiş.
***Fərraş*** (ə.) - xidmətçi, polis məmuru.
***Fərrux***, ***Fərruxə*** (f.) - xoşbəxt, bəxtiyar, ağgün; işıqlı üz, sifət.
***Fəryad*** (f.) - acı-acı bağırma; nalə, fəğan, ah-nalə.
***Fərzail//Fərzayıl***(ə.) - vacib və zəruri olanlar, sanılanlar, hesab edilənlər.
***Fərzalı//Fərzəli*** (ə.) - Alı taleyi, Əli gümanı.
***Fərzan//Fərzani, Fərzanə*** (ə.) - alim, bilici, elmli, həkim; başqalarından fərqlənən.
***Fərzəddin//Fərzuyəddin*** (ə.) - dinin gümanı, dinin lazım bildiyi.
***Fərzənd*** (f.) - övlad, oğul-uşaq; oddan doğulan, işıq övladı.
***Fərzi, Fərziyyə//Fərziyə*** (ə.) - fərzə aid, gümana məxsus, ehtimal olunan.
***Fərzin***, ***Fərzinə*** (ə.) - bəxt, tale.
***Fərzulla*** (ə.) - Allahın gümanı, Tanrının zəruri sandığı.
***Fəsaləddin*** (ə.) – «fəsal», «din» sözlərindən və «əd» ünsüründən düzəlmiş, «dinin hökmü, qərarı; dinin təfsilatı, hərtərəfli izahı» deməkdir.
***Fəsat//Fəsad*** (ə.) - qarışıqlıq, nifaq; çaşqınlıq; qan alan.
***Fəsatxan*** (ə.,t.) - nifaq salan xan; intiqam alan xan.
***Fəsih, Fəsihə*** (ə.) - fəsahətlə danışan; gözəl, aydın, geniş danışan.
***Fəsil*** (ə.) - ilin bölündüyü dörd mövsümdən biri; mövsüm.

***Fəsilxan*** (ə.,t.) - fəslin xanı, mövsümün xanı.
***Fəsli***(ə.) - ayrılığa aid; hökmə, qərara məxsus; fəslə, bölməyə aid.
***Fətağa//Fətiağa*** (ə.,t.) - fateh ağa, qalib ağa, işğalçı ağa.
***Fətdan, Fətdanə*** (ə.) - cazibəli, cəzb edən, məftun edən.
***Fətəli//Fətalı*** (ə.) - Əli fəthi, Əli qələbəsi.
***Fəthi, Fəthiyyə*** (ə.) - zəbt etmə, istila etmə.
***Fəti//Fətiş*** - "fət" ilə başlayan adların qısaltma və əzizləmə şəkli.
***Fətixan*** (ə.,t.) - fəth edən, istilaçı xan; igid hökmdar.
***Fəttah//Fətta*** (ə.) - açan, açıcı; işğalçı.
***Fəttahxan*** (ə.,t.) – «fəttah» və «xan» sözlərindən düzəlmiş, «işğalçı xan, işğalçı hökmdar» deməkdir.
***Fəttan, Fəttanə*** (ə.) – fitnəkar, araqarışdıran; cazibəli, cəzb edən, məftun edən.
***Fətulla*** (ə.) - Allahın fəthi; Tanrının fatehi.
***Fəyyaz//Feyyaz***, ***Fəyyazə*** (ə.) - dopdolu; əliaçıq, səxavətli.
***Fəyzan, Fəyzanə*** (ə.) - "fəyə zan" sözündən olub, daşma, coşma, qaynama; bolluq mənasındadır.
***Fəzahir//Fəzair*** (ə.) - zahir olan, meydana gələn.
***Fəzail//Fəzayıl*** (ə.) - elm və bilikdə üstünlüklər; fəzilətlər.
***Fəzalət, Fəzilət*** (ə.) - ağıl, kamal; məziyyət, ləyaqət; hünər, mərifət; bilik, alicənablıq.
***Fəzl//Fəzli*** (ə.) - ləyaqət, fəzilət; fayda, xeyir; məziyyət; bəxşiş, mərhəmət.
***Fəzləddin*** (ə.) - dinin fəziləti, dinin ləyaqəti, faydası, xeyiri.
***Fəzlim//Fəzlin*** (ə.,t.) - mənim ləyaqətim, fəzilətim; sənin ləyaqətin, fəzilətin.
***Fəzlulla*** (ə.) - Allahın mərhəməti (bəxşişi), Tanrının fəziləti.
***Fidail*** (ə.) - fədakar, çalışqan; sədaqətli.
***Fikrət*** (ə.) - məna, ideya; düşüncə, fikirləşmə.
***Fikri***, ***Fikriyyə*** (ə.) - əqli, zehni; ağıl, düşüncə (fikir) ilə bağlı olan.
***Fimar,Fimarə*** (ə.,f.- ə.lat.) - əsl ilan; əsl kişi; əsl gözəl körpə.
***Firad//Firat*** - işıqlı ad; təmiz, saf ad; fərdilər.
***Firaddin*** - dinin təmiz adı; dinin işıqlı adı.
***Firail//Firayıl*** - ulduzlu, üstün.
***Firavan*** (f.) - çox, bol, çoxlu, varlı, dövlətli.
***Firdos//Firdus*** - "Firdovsi" adının təhrif formaları.
***Firdost//Firdust*** - odun, işığın dostu; odpərəst, atəşpərəst.
***Firdovsi***, ***Firdovsiyyə//Firdovsə*** (f.) - cənnət, behişt; cənnətə, behiştə aid olan.

***Firəddin*** (ə.) - dinin qol-budağı, işığı; yaradılmış, xəlq edilmiş.
***Firəng*** (f.) - «avropalı, fransız» mənasındadır.
***Firidun//Firudin//Firuddin//Feyruddin*** - odun işığı, odun parıltısı (f. çox güclü, çox qüvvətli).
***Firqay, Firqayə*** (ə.,t.) - ayrılıq ayı.
***Firqə, Firqiyə*** (ə.) - böyük dəstə; partiya.
***Firqət//Fürqət*** (ə.) - ayrılıq, fəraq, hicran.
***Firsət//Fürsət*** (ə.) -əlverişli an, imkan, məqam; münasib vaxt.
***Firuz//Fehruz//Feyruz//Feruz*** (f.) - qalib, müzəffər; xoşbəxt; işıqlı üz; üzün odu.
***Firzad*** - oddan törəyən, od nəslindən olan; gözəl oğlan.
***Fisun//Füsun, Fisunə//Füsunə*** (ə.) - sehir, cadu, ovsun; gözbağlayıcı; işvə, naz.
***Fitat*** (ə.) - hər şeyi fəth edən; gözəllər gözəli.
***Fitrət*** (ə.) - yaradılış, xilqət, təbiət, xasiyyət; istedad.
***Fövqan***, ***Fövqanə*** (ə.) - üstdə olan, yuxarıda olan.
***Fövqi,Fövqiyə//Fövqiyyə*** (ə.) - fövqə aid, üstə məxsus; yuxarı.
***Fövri,Fövriyə// Fövriyyə*** (ə.) - cəld,çevik; tezlik, dərhal, tezliklə.
***Fövzi,Fövziyə//Fövziyyə*** (ə.) - müvəffəqiyyət, qalibiyyət; qələbə.
***Fuad*** (ə.) - ürək, könül, qəlb.
***Fulad*** (ə.) - əsli f. polad.
***Furqan//Fürqan,Furqanə//Fürqanə*** (ə.) - Qurani-Kərimə verilən addan yayılmışdır. “Yaxşını pisdən ayıran, fərqləndirən” mənasındadır.
***Fürsəddin*** (ə.) - dinin fürsəti, dinin imkanı.
***Füzuli*** (ə.) - fəzilətli, bilikli; uzunçu.

## **G**

***Gavi//Gevi*** (ə.) - güclü, qüvvətli.
***Gerçək*** - doğru, düz, həqiqət.
***German*** - almanlar, alman xalqının adı.
***Gənçağa*** - gənc ağa, yeniyetmə ağa, cavan ağa.
***Gəncalı//Gəncəli*** (t.,ə.) - gənc Alı, gənc Əli; Gəncə şəhərindən olan.
***Gəncalp*** - gənc bahadır, gənc qəhrəman.
***Gəncamal*** (f.,ə.) - gənc əməllər, işlər; arzular; ümidlər.
***Gəncə*** (f.) - xəzinə (Azərbaycanın eyni adlı şəhərinin adındandır); türk tayfalarından biri.
***Gəncər*** - gənc igid, cavan qəhrəman.

***Gəncəvi*** - Gəncə şəhərində anadan olan və ya yaşayan.
***Gənci*** - gəncə məxsus olan, cavana aid olan.(bax: Gəncəvi).
***Gənclik*** - insanın yeniyetməlikdən yetkinliyədək olan ömrü.
***Gəncsoy*** - cavan nəsildən olan, yeni nəslin əsasını qoyan.
***Gənctəkin*** - gənc təkin, cavan təkin (varisliyə hüququ olan xanzadə).
***Gəray*** - igid, qəhrəman; güclü, qüvvətli; y. və l. dilinə "geraus", r. dilinə isə "geroy", ingilis dilinə "hero" şəklində keçmişdir (Krım xanlığında 364 (1428-1792) il hakimiyyət sürmüş Gərayilər sülaləsinin adı "gəray" etnonimi ilə bağlıdır).
***Gərayxan*** - böyük xan, kişi kimi güclü xan; Gəray xan.
***Gərək*** - lazım, zəruri.
***Girami*** (f.) - əziz, istəkli, hörmətli.
***Girdiman*** – eyni adlı Azərbaycan dövlətinin adındandır.
***Girman (f.)*** - qala; İranda yer adı.
***Gorus*** - Azərbaycanın qədim ərazisi olan Zəngəzur mahalında yerləşən çay, rayon və şəhərin adındandır. Hazırda Ermənistan ərazisindədir.
***Göksəl*** - asimana aid olan, göyə mənsub olan.
***Görkəm*** - görünüş, görüntü; böyüklük.
***Görkər*** - gözəl igid, qəşəng pəhləvan; gözəl görünüşlü adam.
***Görklü*** - gözəl, qəşəng görünüşlü, görkəmli.
***Gövhəri*** (f.) - gövhərlə bağlı olan, gövhərdən düzəlmiş əşya, zərgər; əsil-nəcabətli.
***Göyçə*** - "göy" sözünün əzizləmə forması (Azərbaycanın qədim torpaqları olan Göyçə mahalının adındandır. Hazırda Ermənistan ərazisindədir).
***Göydəmir*** - tünd kül rəngində olan dəmir.
***Göyər*** - göy türklərdən olan qəhrəman; göytürk.
***Göyərbəy*** - göy türklərindən olan qəhrəman bəy; göytürk bəyi.
***Göyərxan*** - göy türklərindən olan qəhrəman xan; göytürk xanı.
***Göyxan*** - göyün xanı, göyə hakim olan xan.
***Göyinam*** - göyə inam, Allaha inam.
***Göylər*** - göy türklər (Qədim türk xalqlarında "göy" bütün dünya deməkdir. Bu isə bütün dünyaya hakim olmaq deməkdir).
***Göylüxan*** - Göylü xanı, Göylüdən olan xan.
***Göynur*** - göyün nuru; göyün Günəşi; göy türklərinin başçısı.
***Göyruh*** - türk ruhu; göy kimi geniş və saf ruh.
***Göysaf*** - göy kimi saf; göy türklər kimi saf.
***Göytac*** - göyün tacı - Günəşi; göy türklərin hökmdarı.

***Göytəkin*** - göyün təki; göy türklərinin xanzadəsi.
***Göytürk*** - azad, sərbəst, müstəqil türk.
***Göyüş*** - göytəhər, gömgöy, tünd-göy.
***Gözəlağa*** – «gözəl» və «ağa» sözlərindən düzəlmiş, «gözəl ağa, xoşa gələn hökmdar» deməkdir.
***Gözəlxan*** - qəşəng xan, yaraşıqlı xan.
***Gurdan*** - parlaq, şəfəq, gur olan işıq.
***Gursoy*** - qüvvətli nəsil, sürətlə irəliləyən əcdad; böyük əsil-nəcabətli soya bağlı.
***Gurtəkin*** - qüvvətli, qüdrətli təkin; sürətli təkin.
***Gülabba*** - "Gülbaba" adının dəyişdirilmiş forması.
***Gülağa*** **-** gül kimi ağa; pak və müqəddəs seyid.
***Gülalı//Güləli*** (f.,ə.) - gül Alı, gül Əli.
***Gülaməd*** (f.) - gül gəlişi, gülün yetişməsi.
***Güləməddin*** (f.,ə.) - din gülünün gəlişi, din gülünün yetişməsi.
***Gülbaba*** - babanın gülü, gül kimi baba.
***Gülbaxış*** (f.,ə.) - bağışlanmış gül, hədiyyə olunmuş gül.
***Gülbala*** - gül kimi bala; gözəl, qəşəng, məsum uşaq.
***Güldadaş*** - gül kimi qardaş.
***Güldaməd*** - gül dəstəsi, buket.
***Güldar*** - gül sahibi; gül saxlayan gülçü.
***Güldinar*** (f.,ə.) - gül kimi qızıl pul vahidi.
***Güldəmir*** - gül kimi dəmir.
***Güleyxan*** - gül, ey xan; sevin, ey xan.
***Güləhməd*** (f.,ə.) - gül kimi Əhməd.
***Güləş*** - üzügülər, şad görünən, daim gülümsəyən.
***Gülheybət*** (f.,ə.) - qorxulu gül; hörmətli, izzətli gül; ləyaqətli gül.
***Gülhəsən//Güləsən*** (f.,ə.) - gül kimi Həsən.
***Gülhüseyn***(f.,ə.) - gül kimi Hüseyn.
***Gülxan*** – gül xanı; xanın gülü; xan oğlu.
***Güliddin//Güləddin*** (f.,ə.) - dinin gülü, dinin çiçəyi.
***Gülmalı*** - güldən olan oğlan, gülə layiq oğlan; gözəl,qəşəng.
***Gülman, Gülmanə*** - gül kimi oğlan, çiçək kimi qız.
***Gülməmməd//Gülmət*** (f.,ə.) - gül kimi Məmməd.
***Gülmərdan*** - gül kimi kişilər; çiçək kimi mərdlər.
***Gülməşəkər*** - (əsli f. gülbəşəkər) şəkərli gül; gül mürəbbəsi; şirin, xoş, xoşa gələn.
***Gülmir, Gülmira//Gülmirə*** - gül kimi əmir (ağa, başçı, rəis; seyid).

***Gülmirzə*** - gül kimi Mirzə (bax).
***Gülmurad*** - gül kimi Murad (bax).
***Gülmusa*** (f.,ə.) - gül kimi Musa, çiçək kimi Musa.
***Gülniyaz*** (f.) - gül kimi hədiyyə, çiçək kimi hədiyyə.
***Güloğlan*** - gül kimi oğlan; gözəl, göyçək oğlan.
***Gülrza*** (t.,ə.) – «gül» və «rza» (razı, məmnun) sözlərindən düzəlmiş, «güldən məmnun, razı» deməkdir.
***Gülümsər*** - gülümsəyən, gülən, təbəssümlü.
***Gülverdi//Gülverən*** - gülün verdiyi, gül tərəfindən verilən.
***Gülzaman*** - gül kimi Zaman.
***Gümrah*** (f.) - sağlam, qıvraq, möhkəm, qivvətli; çevik.
***Gümüştəgin//Gümüştəkin*** - gümüşə bənzər, gümüş kimi, gümüş kimi parlaq və qiymətli təkin (xanzadə).
***Günalı//Günəli*** (t.,ə.) - Gün kimi Əli.
***Günar//Günər*** - günün igidi, qəhrəmanı; işıqlı ər; Gün kimi oğlan.
***Günbəy*** - Gün kimi bəy, Günə bənzər bəy; odlu-alovlu bəy.
***Gündüz*** - gün işığı; işıqlı vaxt, aydınlıq, səhər.
***Günxan*** - Gün kimi xan, Günə bənzər xan; alovlu, alovlu xan.
***Günsel*** - Gün seli; Günəş seli, işığı.
***Günyaz, Günyazə*** - bahar Günəşi, bahar günü.
***Gürgan, Gürganə*** - əslən "qor" və "qan"; oddan qorunmaq; oddan qorunma.
***Gürxan*** - güclü, qüvvətli xan.
***Gürzalı//Gürzəli*** (f.,ə.) - Əlinin toppuzu, Əlinin gürzü.
***Güvən*** - arxalanma yeri; arxalanmalı adam; arxa, dayaq.
***Güvənc*** - arxa, dayaq; arxalanma, etibar etmə yeri.
***Güvəndik*** - arxalandıq, bel bağladıq, etibar etdik.
***Güzəmalı//Güzəməli*** (t.,ə.) - güzəm (payızın əvvəlində qırxılan qoyun-quzu yunu) Əli; yun qırxımı zamanı doğulan Əli.

## H

***Habil//Həbil*** (y.) - meh, yel, nəsim (Adəm peyğəmbərin oğlunun adı).
***Hacabbas//Hacıabbas*** (ə.) - Hacı Abbas; Həccə getmiş Abbas.
***Hacağa//Hacıağa*** (ə.,t.) - Hacı Ağa; Həccə getmiş seyid.
***Hacalı//Hacəli//Hacıəli*** (ə.) - Hacı Alı və ya Əli; Həccə getmiş Alı və ya Əli.
***Hacat//Hacət*** (ə.) - ehtiyaclar; əşyalar; ehtiyac, əşya.
***Hacəmi//Hacıəmi*** (ə.,t.) - Hacı əmi; Həccə getmiş əmi.

***Hacı*** (ə.) - Məkkədə həcc mərasimi icra edənlərə verilən fəxri dini titul.
***Hacıbaba*** (ə.,t.) - Hacı Baba, Həccə getmiş Baba.
***Hacıbala*** - bax: Hacı və Bala.
***Hacıbəy*** - Məkkədəki Kəbəni ziyarət etmiş bəy.
***Hacıbuta*** (ə.,t.) - Hacı Buta; həccə getmiş qönçə kimi təravətli.
***Hacıdadaş*** - bax: Hacı və Dadaş.
***Hacıdayı*** - Məkkədəki Kəbəni ziyarət etmiş dayı.
***Hacıxan*** (ə.,t.) - Həcc ziyarətinə getmiş xan.
***Hacıxəlil*** - bax: Hacı və Xəlil.
***Hacıkərim*** - bax: Hacı və Kərim.
***Hacıqasım*** (ə.) - bax: Hacı və Qasım; ziyarətə gedən Qasım.
***Hacıqəmbər//Hacıqənbər*** - bax: Hacı və Qənbər.
***Hacımehdi*** (ə.) - bax: Hacı və Mehdi; ziyarətə gedən Mehdi.
***Hacıqulu*** (ə.,t.) - Allahın Hacı qulu.
***Hacımuxtar*** - bax: Hacı və Muxtar.
***Hacımurad*** - bax: Hacı və Murad.
***Hacırəhim*** - bax: Hacı və Rəhim.
***Hacısəlim*** - bax: Hacı və Səlim.
***Hacıvəli*** (ə.) - Hacı Vəli; mömin, dindar Vəli.
***Hacızaman*** - bax: Hacı və Zaman.
***Hacib***, ***Hacibə*** (ə.) - qapıçı; Orta əsrlərdə şərq hökmdarlarının baş vəziri.
***Hadı//Hadi*** (ə.) - doğru yol göstərən, düz yola çağıran.
***Hadis*** (ə.) - hədis bilən, hədis söyləyən.
***Hafid, Hafidə*** (ə.) - nəvə.
***Hafiq***, ***Hafiqə*** (ə.) - nəvə, törəmə.
***Hafis//Hafiz***, ***Hafisə//Hafizə//Havzə//Hafizət*** (ə.) - "Quran"ı əzbər bilən; hafizəli.
***Hafizulla***(ə.) - Allahın qoruyanı, hifz edəni.
***Hakif*** (ə.) - qeybdən gələn səs.
***Hakim, Hakimə*** (ə.) - məhkəmə sədri; hökm çıxaran; əyalət hakimi.
***Haqqı//Həqqi*** (ə.) - Allah adamı; həqiqət adamı.
***Haqqulu***(ə.,t.) - Haqqın qulu, Allahın qulu.
***Haqlıbəy*** - haqlı olan bəy; həyata haqlı gələn oğlan.
***Haqlıxan*** - haqlı olan xan; həyata haqlı gələn xan.
***Haqlışad*** - haqlı olan şad; həyata haqlı gələn şad (varisliyə hüququ olmayan xanzadə).
***Haqnəzər***(ə.) - Haqqın nəzəri, Allahın nəzəri altında olan.

***Haqsevən//Haqsevər*** (ə.,t.) - Allahı, həqiqəti sevən, düzgünlüyü müdafiə edən.
***Haqverdi//Haxverdi//Haqverən*** (ə.,t.) - Haqq verdi, Allah verdi.
***Halalbəy*** - halal bəy, halal olan bəy; halal verilmiş bəy.
***Halalxan*** - halal xan, halal olan xan; halal verilmiş xan.
***Halalşad*** - halal şad, halal olan şad; halal verilmiş şad (varisliyə hüququ olmayan xanzadə).
***Halaltəkin*** - halal təkin, halal olan təkin; halal verilmiş təkin (varisliyə hüququ olan xanzadə).
***Halay//Haley*** - dairə, dövrə.
***Halət*** (ə.) - vəziyyət, durum, hal, keyfiyyət, biçim.
***Halik*** (ə.) - Allah ("Xalıq" adının Türkiyədə işlənən forması).
***Haman*** (f.) - hər hansı şəxsi göstərmək üçün işlədilən işarə əvəzliyi; həmin.
***Hamanbəy*** - həmin bəy; haqqında danışılan bəy.
***Hamanxan*** - həmin xan; gözlənilən xan.
***Hami*** (ə.) - saxlayan, qoruyan, arxa duran, himayə edən.
***Hamid, Hamidə*** (ə.) - həmd edən; tərif söyləyən.
***Hamil*** (ə.) - yüklü, yüklənmiş; malik olan; sahib, yiyə.
***Hamilbəy*** (ə.,t.) - yüklü, yüklənmiş bəy; malik olan, sahib bəy.
***Hamilxan*** (ə.,t.) - yüklü, yüklənmiş xan; malik olan, sahib xan.
***Hamlet***(i.) - kənd; hər şeyə şübhə ilə yanaşan, cəld və qəti hərəkət etməyi bacarmayan.
***Haris, Harisə*** (ə.) - həris, xəsis; hiyləgər; qoruyan, gözətçi.
***Harun//Haron*** (y.) - varlı, dövlətli, sərvətli; inad, inadkar.
***Harunalı//Harunəli*** (y.,ə.) - varlı, dövlətli, sərvətli Əli.
***Harunbəy*** (y.,ə.) - Harun bəy; varlı, dövlətli bəy.
***Harunxan*** (y.,ə.) - Harun xan; varlı, dövlətli xan.
***Hasil//Həsil, Hasilə//Həsilə*** (ə.) - bitən, göyərən; vücuda gələn; hesablayan.
***Haşım//Haşim*** (ə.) - çörək doğrayan; sınan, sındıran.
***Hatəm//Hətəm*** (ə.) - qət edən, əmr edən, başçı, hökmdar; qanun verən; əliaçıq, səxavətli.
***Hatəmxan//Hətəmxan*** (ə.,t.) - əmr edən, qanun verən xan; comərd, səxavətli hakim.
***Hatif, Hatifə*** (ə.) - qeybdən gələn səs; dəruni səs.
***Havadar*** (ə.) - tərəf saxlayan; tərəfdar, havadar; aşiq, sevən
***Havar*** (f.) - tərəfdar, məsləkdaş, ardıcıl; xəbər, müjdə.

***Havasət//Havosət*** (ə.) - havanın üzü; hava üzlü.
***Hayil***, ***Hayilə*** (ə.) - dəyişmiş, dəyişilmiş; qorxunc, hövlnak.
***Hazar//Həzar, Həzarə***(f.) - min atlı və ya piyadadan ibarət hərbi hissə; min əsgərə bərabər(övlad); bülbül.
***Hazarxan//Həzarxan//Həzərxan***(f.,t.) - alay xanı, polk komandiri.
***Hazim, Hazimə*** (ə.) - ehtiyatlı olan, diqqətli, diqqətcil, anlayan, həzm edən.
***Hekayət*** (ə.) - əhvalat, sərgüzəşt, hekayə, qəziyyə.
***Heybət*** (ə.) - qorxu və ya hörmət hissi oyadan görkəm, ləyaqət.
***Heybətalı//Heybətəli*** (ə.) - Əli ləyaqəti, Əli qorxu və ya hörməti.
***Heybətulla*** (ə.) - Allah əzəməti, ləyaqəti, Tanrı qorxusu.
***Heydər*** (ə.) - şir, aslan; cəsur, igid.
***Heydəralı//Heydərəli*** (ə.) - igid Əli, cəsur Əli.
***Heydərxan*** (ə.,t.) - Heydər xan; cəsur, igid xan.
***Heydərqulu*** (ə.,t.) - Allahın cəsur, igid qulu.
***Heyət*** (ə.) - təşkilat və ya kollektivin üzvləri; bir qrup adam.
***Heykəl*** (ə.) - daşdan, tuncdan və s. hazırlanmış insan və ya heyvan surəti.
***Heyrəddin*** - bax: Xeyrəddin.
***Heyrət*** (ə.) - çaşqınlıq halı; təəccüb; heyranlıq.
***Heyrətdin//Heyrəddin*** (ə.) – dinə valeh olmuş, heyran olmuş.
***Həbib//Həbi, Həbibə*** (ə.) - sevimli, sevilən, istəkli, dost.
***Həbibulla*** (ə.) - Allahın sevimlisi, Tanrının istəklisi.
***Həbiş*** - "Həbib" və tərkibində bu söz olan mürəkkəb adların ixtisar-əzizləmə forması.
***Həbulla*** - "Həbibulla" adının ixtisar forması.
***Həddad*** (ə.) - dəmirçi.
***Həkim***, ***Həkimə*** (ə.) - müdrik; təbib, doktor; mütəfəkkir, filosof; alim.
***Həkimxan*** (ə.,t.) – «həkim» və «xan» sözlərindən düzəlmiş, « təbib xan, alim hakim» deməkdir.
***Həkkak*** (ə.) – oymaçı, polad qələmlə bərk materiallar üzərində yazılar, nəqşlər oyan sənətkar.
***Həqiqi*** (ə.) - mövcud olan, gerçək, real.
***Həqiri*** (ə.) - qədir-qiyməti olmayan; hörmətsiz tutulan; görkəmsiz.
***Həqqi*** (ə.) – doğruluq, ədalət tərəfdarı; tanrıya məxsus.
***Həmdəm*** (f.) - yaxın yoldaş, yaxın dost, sirdaş; dərdə şərik.
***Həmdi, Həmdiyyə*** - "Həmdulla" adının ixtisar və əzizləmə şəkli; duaya, sitayişə aid; şükür, mədh.

***Həmdulla//Həmidulla*** (ə.) - Allahı mədh etmə; Allaha sitayiş; Allaha şükür, təşəkkür, minnətdarlıq.
***Həməl*** (ə.) – quzu, Quzu bürcü; Quzu bürcündə doğulan.
***Həməlxan*** (ə.,t.) - Həməl xan; Quzu bürcündə anadan olan xan.
***Həmid***, ***Həmidə*** (ə.) - şükr edən, təşəkkür edən; şükr edilən, bəyənilən.
***Həmidağa*** (ə.,t.) - şükür edən ağa; şükür edilən, bəyənilən ağa.
***Həmiddin*** (ə.) - şükür edilən din; dinin şükür edəni, bəyəniləni.
***Həminağa*** - həmin ağa, elə ağa, bu ağa, gözlənilən ağa.
***Həmrah*** (f.) - yoldaş, yol yoldaşı.
***Həmzad*** (f.) - yoldaş, bir yaşlı; insanla eyni vaxtda doğulan ruh.
***Həmzalı//Həmzəli*** (ə.) - Həmzə Əli və ya Alı.
***Həmzat//Həmzət*** (f.) - eyni nəsildən, eyni kökdən olanlar.
***Həmzə*** (ə.) - isti, yandırıcı, yandıran, qaynar; çılğın.
***Həmzəbəy*** - bax: Həmzə və Bəy.
***Həmzəxan*** - bax: Həmzə və Xan.
***Həndəm*** - "Həmdəm" (bax) adının dəyişdirilmiş forması.
***Hənəfi*** (ə.) - Əbu Hənifə təriqətinə mənsub olan.
***Hənifə*** (ə.) - həqiqi, əsl, xalis, təmiz.
***Hənnan*** (ə.) - çox mərhəmətli, çox rəhmli; evli kişi.
***Hərbi, Hərbiyə*** (ə.) - hərbə, müharibəyə aid olan, müharibə ilə əlaqədar olan.
***Həsən*** (ə.) - gözəl, göyçək, yaxşı (İmam Əlinin oğlu).
***Həsənağa*** (ə.,t.) - Həsən ağa; gözəl ağa, göyçək ağa.
***Həsənalı//Həsənəli*** (ə.) - bax: Həsən və Əli; gözəl Alı, göyçək Əli.
***Həsənbala*** - bax: Həsən və Bala.
***Həsənxan*** - bax: Həsən və Xan.
***Həsənqulu*** - bax: Həsən və Qulu.
***Həsənpaşa*** (ə.,t.) - Həsən paşa, paşa olan Həsən; baş ağa Həsən.
***Həsi*** - "Həsən" adının əzizləmə forması; möhkəm, möhkəmləndirilmiş.
***Həsib*** - ləyaqəti olan, mötəbər, dəyərli; köklü; əsilli.
***Həsrət*** (ə.) - niskil, qəm, qüssə, gözü yolda qalma.
***Həşim*** (ə.) - hökmdarın yaxın adamları; hörmətli, möhtərəm.
***Həvəs*** (ə.) - bir şeylə məşğul olma, bir iş görmə arzusu, meyl, istək.
***Həzər*** (ə.) - saqınma, uzaq olma, ehtiyat etmə, qorunma, çəkinmə, özünü gözləmə.
***Həzi*** (ə.) - "həz" hecası ilə başlanan adların ixtisar - əzizləmə forması; ön, qabaq; cənab.
***Həzin***, ***Həzinə*** (ə.) - hüznlü, kədərli, yanğılı, qəmli.

***Həzrət*** (ə.) - cənab; müqəddəs və hörmətli şəxs.
***Həzrətalı//Həzrətəli*** (ə.) - cənab Əli, müqəddəs Əli.
***Həzrətxan*** - hörmətli xan, cənab xan.
***Həzrətqulu*** (ə.,t.) - Allahın qulu; müqəddəs adamın qulu.
***Həzrətşah*** - hörmətli şah, cənab hökmdar.
***Hibətulla*** (ə.) - Allahın verdiyi, Tanrının bəxşişi.
***Hicrət*** (ə.) - başqa yerə getmə, köçmə (Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köçməsi - 16 iyul 622-ci il; bu vaxtdan başlanan islam tarixi).
***Hidayət*** (ə.) - doğru yola çağırma.
***Hikmət*** (ə.) - müdriklik, alimlik, həkimlik; gizli sirr, qəribə şey.
***Hikmətalı//Hikmətəli*** - Əli hikmətli; Əli bəxşişi.
***Hikmətxan*** - bax: Hikmət və Xan.
***Hikmətulla*** (ə.) - Allahın müdrikliyi. Tanrının hikməti.
***Hilal//Hiləl***, ***Hilalə*** (ə.) - təzə Ay, Ay parçası, aypara.
***Himalay*** (sansktrik) - qar məskəni (Cin, Hindistan, Nepal və Pakistan ərazisində yerləşən ən hündür dağ silsiləsi).
***Himmət//Hümmət//Hümbət*** (ə.) - səy, cəhd, çalışma, əzm; dilək, məram; lütf, himayə, yardım.
***Hizbulla*** (ə.) - "hizb" - tayfa, zümrə; hissə, qisim; partiya və "Allah" sözlərindən yaranmışdır.
***Höccət//Hüccət*** (ə.) - alim; mübahisə edən.
***Höccətağa//Hiccətağa*** - alim Ağa, mübahisə edən Ağa.
***Höccətalı//Höccətəli//Hüccətalı//Hüccətəli*** (ə.) - alim Əli; mübahisə edən Əli.
***Höccətqulu//Hüccətqulu*** (ə.,t.) - alimin qulu, mübahisə edənin qulu.
***Höccətulla//Hüccətulla*** (ə.) - ilahiyyatşünas alim; elmi dərəcə.
***Hökmalı//Hökməli*** (ə.) - Əlı hökmü (əmri), Əli sərəncamı.
***Hökmdar*** (ə.) - hökm edən; hakim, ölkənin başçısı.
***Hökmulla*** (ə.) - Allahın əmri (buyuruğu).
***Hökumət//Hökümət*** (ə.) - bir ölkəni idarə edən; idarəedici orqan; idarə üsulu.
***Hüküm*** (ə.) - əmr, buyruq, sərəncam; hökumət, idarə etmə.
***Hörmət//Hürmət*** (ə.) - ehtiram, sayğı; şərəf, şan, heysiyyət.
***Hörmətxan//Hürmətxan*** - sayılan xan, şöhrətli, şanlı xan.
***Hörmüz//Hürmüz*** - atəşpərəstlik dinində xeyir Allahı Ahuramazda adının sadələşdirilmiş forması.
***Hunay*** - Hun ayı; Hun kişisi; igidlik, qəhrəmanlıq.
***Huşəng//Huşən//Hüşəng*** (f.) – ağıllı, dərrakəli, şüurlu.

***Huşyar//Hüşyar*** (f.) - ayıq, sayıq, ağıllı, fərasətli; diqqətli.
***Hüquq*** (ə.) - "insanlar arasındakı münasibətləri nizama salan qanunlar" toplusu.
***Hümam*** (ə.) - çalışqan adam, qeyrətli, hümmət sahibi.
***Hümbət//Hümmət*** (ə.) - comərdlik; çalışqanlıq; səy.
***Hümehr//Hümeyir//Hümeyr*** (ə.) - qırmızı.
***Hümmətalı//Hümmətəli*** (ə.) - Alı cəhdi, Əli qeyrəti, təşəbbüsü.
***Hümmətyar*** - çalışan, çalışqan, səy edən, fəaliyyət göstərənin dostu.
***Hünər*** (f.) - bacarıq, məharət, qabiliyyət.
***Hüsam*** (ə.) - qılınc.
***Hüsaməddin*** (ə.) - dinin qılıncı.
***Hüsaməli*** (ə.) - Əli qılıncı, Əlinin qılıncı.
***Hüseyn*** (ə.) - gözəl, göyçək, yaxşı (İmam Əlinin kiçik oğlu).
***Hüseynağa*** (ə.,t.) - cənab Hüseyn (İmam Hüseynə işarədir).
***Hüseynalı//Hüseynəli*** (ə.) - Hüseyn və Əli adlarından düzəlmişdir.
***Hüseynbala*** (ə.,t.) - Hüseyn və Bala sözlərindən yaranmışdır.
***Hüseynxan*** - bax: Hüseyn və Xan.
***Hüseynqulu*** (ə.,t.) - Hüseynin qulu, Hüseynin köləsi.
***Hüseynyar*** (ə.,f.) - Hüseynin dostu, Hüseynin köməyi.
***Hüsən//Hüsü*** - Hüseyn (bax) adının qısaldılmış və əzizləmə forması.
***Hüsnü*** (ə.) - gözəllik, camal.

## ꕥ X ꕥ

***Xacə//Xocay//Xoca*** - tacir; müəllim, alim, həkim; molla, seyid; qoca; vəzirlərin fəxri titulu; hərəmxana işçisi, axta.
***Xadim***, ***Xadimə*** (ə.) - xidmət edən, xidmətçi.
***Xaqan*** - qara (böyük) xan, xanlar xanı, hökmdar.
***Xaqani//Xəqani*** - xaqana aid olan, hakimə mənsub olan.
***Xaləddin//Xələddin//Xaliyəddin//Xaliddin//Xalyəddin//Xalidin*** (ə.) - əbədi din; dinin əbədiliyi; təmizlənmiş; ürəkli, cəsarətli.
***Xalıq//Xaliq***, ***Xaliqə*** (ə.) - yaradan, xəlq edən; Allah, Tanrı.
***Xalıqverdi*** (ə.,t.) - Allahın verdiyi, Tanrının bəxş etdiyi.
***Xalid//Xəlid, Xalidə//Xəlidə*** (ə.) - əbədi, ölməz, daimi.
***Xalis***, ***Xalisə//Xalisət*** (ə.) - təmiz, saf, qatışığı olmayan.
***Xamid, Xamidə*** (ə.) - şöhrətləndirmə, tərif etmə.
***Xamis//Xamiz***, ***Xamisə//Xamizə*** (ə.) - beşinci; beşinci övlad.
***Xamməd//Xəmməd*** - "Xanməmməd" adının qısaldılmış forması.

***Xan*** - ağa, hökmdar; qədim türklərdə və bir çox Şərq ölkələrində hökmdar titulu.
***Xanağa*** - xan ağa, hökmdar ağa;  böyük ağa, ulu ağa.
***Xanalı//Xanəli*** (t.,ə.) - xan Əli; böyük oğul.
***Xanbaba*** – xan baba, xan kimi baba, hökmdar baba, hökmdar ata.
***Xanbaxış*** - xan tərəfindən verilən bəxşeyiş, xan hədiyyəsi.
***Xanbala*** - xan bala, hökmdar bala, hökmdar övladı; xan kimi bala.
***Xanbəy*** - bax: Xan və Bəy.
***Xanbudaq*** – əsas qol, böyük şaxə.
***Xanbulud*** - xan Bulud, Bulud xan; bulud kimi xan.
***Xanbuta//Xanbutay*** - xan gül, xan qönçə; xan oğlu, xan övladı.
***Xancan*** - xan ürəkli, xan kimi olan.
***Xançoban*** - xan coban, xan kimi çoban, xana layiq çoban.
***Xandadaş*** - bax: Xan və Dadaş.
***Xandədə*** - bax: Xan və Dədə.
***Xandəmir//Xantemir*** - dəmir kimi xan, möhkəm xan.
***Xandəniz*** - xan Dəniz, Dəniz xan; dəniz xanı; dəniz kimi xan.
***Xanəhməd*** - bax: Xan və Əhməd.
***Xanəmir*** (t.,ə.) - xan Əmir, hökmdar Əmir.
***Xanəndə*** (f.) - el şənliklərində oxuyan peşəkar müğənni.
***Xanər*** - ər xan, igid xan, qəhrəman xan, qoçaq xan.
***Xangəldi*** - hökmdar gəldi; xan doğuldu.
***Xangiz*** **–** Elgiz, Çingiz adına uyğunlaşdırılmışdır.
***Xanhəsən*** (t.,ə.) - xan Həsən, hökmdar Həsən, ağa Həsən.
***Xanhüseyn*** (t.,ə.) -xan Hüseyn, hökmdar Hüseyn, ağa Hüseyn.
***Xanış*** - "Xan" və tərkibində "xan" titulu olan adların əzizləmə forması.
***Xankərəm*** (t.,ə.) - xan Kərəm, Kərəm xan; mərhəmət, lütf, lütfkarlıq, alicənablıq xanı.
***Xankərim*** (t.,ə.) - xan Kərim, Kərim xan; lütfkar, mərhəmətli, alicənab, əliaçıq xan.
***Xankişi*** - xan kimi kişi, cənab kişi; kişi hökmdar.
***Xanqalı*** – daimi xan qalası, həmişəlik hökmdar olası.
***Xanqardaş*** - bax: Xan və Qardaş.
***Xanqulu*** - Allahın xan qulu, Allahın hökmdar qulu; xanın oğlu.
***Xanlar*** - "xan" titulunun cəmi; hökmdarlar.
***Xanməmməd*** - bax: Xan və Məmməd.
***Xanmirzə*** (t.,f.) - xan oğlu, xan nəslindən olan; baş mirzə; xan mirzəsi.
***Xanmurad*** - bax: Xan və Murad.

***Xannam*** (t.,f.) - xan adlı, xan şöhrətli; adlı-sanlı xan.
***Xannur, Xannurə*** (t.,ə.) - xanın nuru, işığı; hökmdarın nuru, işığı.
***Xanoğlan*** - xan oğlan, hökmdar oğlu; xan kimi oğlan.
***Xanpaşa*** - xan Paşa; xanın sərkərdəsi. ordu başçısı.
***Xanpolad//Xanbulat*** - xan Polad; polad kimi möhkəm xan.
***Xanrza*** (t.,ə.) - xan Rza, hökmdar Rza; xan kimi Rza.
***Xansevən//Xansevər*** - xanı sevən, hökmdarı sevər.
***Xansoltan//Xansultan*** (t.,ə.) – soltanların xanı, sultanların hökmdarı.
***Xansuvar*** - xanın atlı qvardiyası; atlılar başçısı; çox mahir minici.
***Xantəkin*** - xan kimi, xan təki; xanın varis oğluna verilən titul.
***Xantural*** - xana bənzəyən Tural; dəyişməyən, eyni vəziyyətdə qalan xan.
***Xanverdi//Xanverən*** - xan verdi; xan bəxş etdi, xanın verdiyi.
***Xanvəli*** - bax: Xan və Vəli.
***Xanzadə*** (t.,f.) - xan oğlu, xan övladı, xan nəslindən olan.
***Xariq, Xariqə*** (ə.) - qeyri-adi, heyranlıq oyadan, çox qəribə; möcüzə.
***Xaris, Xarisə*** (ə.) - qoruyan, müdafiə edən, gözətçi; bacarıqlı; gözəllik.
***Xasay*** - idarə edən; ən yaxşı döyüşçü; xalis Ay, əsl Ay.
***Xasbəy*** - xalis bəy, əsl bəy; bəy kimi olan oğlan.
***Xası//Xasi*** (ə.) - saf, təmiz, xalis, qarışıqsız.
***Xasməmməd*** (ə.) - Məmmədə məxsus olan, Məmməd kimi, Məmməd xasiyyətli.
***Xasmurad*** (ə.) - Murada məxsus olan, Murad xasiyyətli.
***Xaspolad//Xasbulat*** (ə.,f.) - saf polad, xalis polad; möhkəm, sağlam.
***Xatəm*** (ə.) - möhür, damğa; üzük; sonuncu, axırıncı; son.
***Xatir*** (ə.) - insanın yadda saxlama qabiliyyəti; yaddaş.
***Xeybər*** - Ərəbistanda qəsəbə, Əfqanıstan və Pakistan arasında dağ keçidinin adındandır.
***Xeyir*** (ə.) - fayda, mənfəət; yaxşılıq.
***Xeyirbəy*** (ə.,t.) - xeyir verən bəy; yaxşı hökmdar, xeyirxah bəy.
***Xeyirxah*** (ə.,f.) - hamının yaxşılığını istəyən, kömək edən, qayğıkeş.
***Xeyirxan*** (ə.,t.) - ləyaqətli xan, faydalı xan; xeyir verən xan.
***Xeyrəddin*** (ə.) - dinin xeyri, dinin faydası; dinə xeyir verən.
***Xeyrulla (ə.)*** - Allahın xeyiri, Tanrının rəhmi.
***Xələf*** (ə.) - varis, övlad; sonra gələn nəsil.
***Xəlfə*** (ə.) - toy və yas mərasimlərini idarə edənlərə verilən ad.
***Xəlfəli*** (ə.) - Xəlifə Əli; Əlinin xələfi.
***Xəlgüllah//Xəlqulla*** (ə.) - Allahın xəlq etdiyi, Tanrının yaratdığı.

***Xəlif//Xəlifə*** (ə.) - canişin; islamiyyətdə Məhəmməd peyğəmbərdən sonra xilafətin hökmdarı; mollaxanada mollanın köməkçisi.
***Xəlil//Xiləl//Xiləli, Xəlilə*** (ə.) - yaxın yoldaş, sevimli dost.
***Xəlilulla*** (ə.) - Allahın sevimli dostu.
***Xəlqan*** (ə.) - xalq içindən çıxan, xalq tərəfdarı, xalqı sevən.
***Xəluq, Xəluqə*** (ə.) - gözəl xasiyyətli, mehriban, xoşrəftar.
***Xəmsə*** (ə.) – beş, beşlik; Nizaminin «Xəmsə»sindən yayılmış, ailədə 5-ci oğlan uşaqlarına verilir.
***Xəncəl//Xəncər*** (f.) - ucu sivri, hər iki tərəfi iti olan silah növü.
***Xəndan***, ***Xəndanə*** (f.) - gülən, güləyən; şad, şən.
***Xətai//Xətayi*** - məşhur Azərbaycan şairi və dövlət xadimi Şah İsmayılın bu təxəllüsü tədqiqatlarda "Xətay, Kitay türklərindən olan", "xəta törədən, əlindən xəta çıxan" və "Allah, Tanrı" kimi izah edilir. Çinin ən qədim adı olan “Kitay”, “ki” - od, Günəş, “tay” - dağ sözlərindən düzəlmiş, “Günəşli dağ” və ya “Günəşli ölkə” mənasında işlənir. Zənnimizcə, Ş.İ.Xətainin Kitay türklərindən olması ehtimalı daha düzgündür.
***Xətib//Xatib, Xətibə//Xatibə*** (ə.) - nişanlı; xütbə oxuyan, natiq, vaiz.
***Xəyal***, ***Xəyalə*** (ə.) - təxəyyül; fikir, düşüncə.
***Xəyyad//Xəyyat*** (ə.) - dərzi, paltar tikən.
***Xəyyam*** (ə.) - xeymə-çadır tikən usta.
***Xəzan***, ***Xəzanə*** (f.) - payız; yarpaqların saralıb tökülməsi; yarpaqtökümü.
***Xəzər, Xəzəriyyə*** - eyni adlı türk tayfasının və dənizin adındandır dəniz qızı.
***Xəzri*** - Abşeron yarımadasında dənizdən əsən şiddətli külək.
***Xıdır//Xızır*** - yaşıl, yaşıllıq; kömək edən, yardım göstərən; Xıdır//Xızır peyğəmbərin adından yaranmışdır.
***Xıdırəlı//Xıdırəli//Xızırəlı//Xızırəli*** (t.,ə.) - kömək edən, yardım göstərən Əli.
***Xıdırnəbi*** (ə.) – yaşıllıq peyğəmbəri; çətinliyə düşənlərə kömək edən peyğəmbər.
***Xilqət*** (ə.) - yaratma; yaradılma, xəlq olunma.
***Xislət*** (ə.) – xasiyyət, təbiət.
***Xiyaban*** (f.) - tərəflərində ağac əkilmiş enli, uzun küçə və ya yol; böyük küçə; prospekt.
***Xocalı//Xocəli*** (t.,ə.) - Xoca Alı, Xoca Əli; eyni adlı şəhər.
***Xocam*** - ərim; müəllimim; həkimim; tacirim və s.

***Xocaverdi*** - Xocanın verdiyi, seyidin verdiyi və s.
***Xosrov*** (f.) - hakim, hökmdar; xeyirxah, xeyir verən. Qədim fars hökmdarlarının və onların ədəbi-bədii obrazlarının adından yayılmışdır.
***Xoşan*** - xoş an, xoş zaman; xoş anda doğulan.
***Xoşbəxt*** (f.) - bəxtiyar, ağgün, bəxtli; uğurlu.
***Xotkar//Xotgər//Xutkar*** - hökmdar, başçı.
***Xubalı//Xubəli*** (f.,ə.) - yaxşı Alı, gözəl Əli.
***Xuban*** (f.) - yaxşılar; gözəllər, göyçəklər.
***Xublar*** (f.,t.) - yaxşılar, gözəllər, göyçəklər.
***Xubyar*** (f.) - yaxşı yar, sevgili; gözəl dost.
***Xudabaxış*** (f.) - Allah tərəfindən bəxş olunan, Tanrı hədiyyəsi.
***Xudabəndə*** (f.) - Allahın qulu, Tanrı köləsi.
***Xudadad//Xudadat*** (f.) - Allah vergisi, Tanrı verən.
***Xudafər//Xudafir*** (f.) - Allahın işığı, odu; Tanrının alovu, parıltısı.
***Xudai//Xuday//Xudayi*** (f.) - Tanrıya bağlı olan, Allahın yaratdığı.
***Xudakərim*** (f.,ə.) - Allah səxavətlidir, Tanrı alicənab və kömək edəndir.
***Xudaqulu*** (f.,t.) - Allahın qulu, Tanrının köləsi.
***Xudam*** (f.,t.) - mənim Xudam, mənim Allahım, mənim Tanrım.
***Xudamir*** (f.) - Xudanın əmiri, Allahın xəlifəsi, Tanrının komandiri.
***Xudan*** (f.,t.) - sənin Xudan, sənin Allahın, sənin Tanrın.
***Xudanəzər*** (f.,ə.) –Allahın mərhəməti; Tanrının iltifatı (ilə doğulan oğlan).
***Xudar*** (f.) - özünü qoruyan, ehtiyatlı; səbirli, təmkinli.
***Xudaş*** - "Xuda" ilə başlayan adların əzizləmə forması.
***Xudaşirin*** (f.) - Allah şirinliyi, Tanrı şirinliyi.
***Xudat*** - "Xudadad" (bax) adının ixtisar forması.
***Xudaverdi//Xudaverən*** (f.,t.) - Allahın verdiyi, Tanrının bəxşişi.
***Xudavənd*** (f.) - ata, başçı; Allah, Tanrı.
***Xudayar//Xudiyar*** (f.) - Allahın dostu, allahsevər; Allah köməyi. Tanrı yardımı.
***Xudayat//Xudayət*** (f.,ə.) - Xudanın (Allahın) əli.
***Xudayim*** (f.,t.) – qibləgahım, Tanrım, padşahım; Allaha olan sevgi qədər əziz.
***Xuddam*** (ə.) - "Xadim"in cəmi; xadimlər, xidmət edənlər.
***Xudu*** - xoşbəxt, uğurlu (Qədim t. dillərində işlənən "qud, qut" sözü ilə əlaqədardır. Bəlkə də, f. "xuda" teonimi də bununla bağlıdır).

***Xuduş*** - birinci tərəfi "xuda" ilə başlanan mürəkkəb adların əzizləmə forması.
***Xurşid//Xurşud, Xurşidə*** (f.) - Günəş, Günəş şüası.

## ꕥ İ ꕥ

***İba*** (ə.) - razı olmama, qəbul etməmə; imtina.
***İbad*** (ə.) - Allahın qulları, bəndələri.
***İbadulla*** (ə.) - Allahın qulları, köləlləri, bəndələri.
***İbarət*** (ə.) - mütəşəkkil, düzəlmiş, tərtib olunmuş.
***İbi//İbiş*** - "İbrahim" adının əzizləmə forması.
***İbniamin*** (ə.) - Aminin oğlu, Aminin övladı.
***İbrahim//İbreyim*** (ə.) - atam yüksəkdir; xalqların atası (Yəhudi peyğəmbəri olan "Avraam" adının ərəbləşmiş forması).
***İbrahimxəlil*** (ə.) - dost İbrahim, sevimli İbrahim.
***İbrət*** (ə.) - nümunə; nəsihət, öyüd.
***İcaz*** (ə.) - qısaltma; siyahı (Zənnimizcə, ad "möcüzə" mənasında olan "ecaz" sözünün dəyişdirilmiş formasıdır).
***İdeal*** (fr.) - ən yüksək məqsəd; qayə, amal.
***İdman*** (ə.) - orqanizmi möhkəmlətmək məqsədilə edilən bədən hərəkətləri.
***İdrak*** (ə.) - dərk etmə, başa düşmə.
***İdris*** (ə.) - öyrənmək (Əfsanəvi peyğəmbərlərdən, qədim y. "Hadras" adının ərəbləşmiş forması).
***İfaq, İfaqət*** (ə.) - sağalma, yaxşılaşma, səhhəti düzəlmə.
***İffətəli*** (ə.) - saf Əli, təmiz Əli.
***İftar*** (ə.) - oruc açma, oruc açma vaxtı və bu zaman yeyilən yemək.
***İftixar*** (ə.) -fəxr, fəxr etmə; öyünmə, şərəf hesab etmə.
***İgid*** - qoçaq, qəhrəman, bahadır.
***İgidcan*** - qoçaq, qəhrəman, cəsur olan kişi.
***İgidəli//İgidalı*** - igid Əli, qorxmaz Əli, cəsur Alı.
***İgidər*** - qoçaq, qəhrəman, cəsur olan kişi.
***İgidxan*** - qoçaq, cəsarətli, cəsur xan.
***İgidpaşa*** - igid paşa, qəhrəman paşa; igid kimi oğlan.
***İhliman*** - bax: Əhliman.
***İhsan*** (ə.) - bəxşiş, pay, hədiyyə. Bax: Ehsan.
***İxtiyar*** (ə.) - haqq, hüquq; öz iradəsi ilə hərəkət etmə; qoca.
***İkram*** (ə.) - hörmət, ehtiram, sayğı.
***İkramalı//İkraməli*** (ə.) - Əli ehtiramı; Alı hörməti.

***İkraməddin*** (ə.) - dinin hörməti, dinin ehtiramı.
***İqamət*** (ə.) - oturma, sakin olma; yaşayış yeri.
***İqbal***, ***İqbalə*** (ə.) - bəxt, tale, işi uğurlu olma.
***İqdam*** (ə.) - irəliləyiş, təşəbbüs etmə, başlama.
***İqlim***, ***İqlimə*** (ə.) - ab-hava; xoş xasiyyət (yunanca «klima» sözündəndir).
***İqrar***, ***İqrarə*** (ə.) - boynuna alma, etiraf, təsdiqetmə;şüur.
***İqtidar*** (ə.) - qüvvət, taqət, güc; bacarıq; hakimiyyət.
***İlahəddin*** (ə.) - dinin Allahı, dinin Tanrısı, Allahın dini.
***İlal*** - il (ölkə, vilayət), el alan, ölkələr fəth edən.
***İlarslan*** - elin, yurdun aslanı; igid, qorxmaz.
***İlbaşı*** - elin başçısı, yurdun rəhbəri; dövlət başçısı.
***İldar*** - bax: Eldar; elini sevən, yurda bağlı igid.
***İldəniz*** - bax: Eldəniz.
***İldırım*** - şimşək, havada yığılmış atmosfer elektrikinin ani parıltısı.
***İldız//İlduz, İldıza//İlduza*** - bax: Ulduz.
***İlgiz//İlkiz*** - ilk iz, ilk yol, ilk cığır; ilkin; ilk övlad.
***İlgün*** - bax: Elgin.
***İlğım*** - quru düzlərdə, səhralarda buxarın yerə yığılıb uzaqdan su mənbəyi kimi görünməsi.
***İlham***, ***İlhamə//İlhamiyyə//İlhamiyə*** (ə.) - ruhlanma, coşma, cuşa gəlmə.
***İlhaməddin*** (ə.) - dinin ilhamı, dinin coşması.
***İlhaməli*** (ə.) - Əli ilhamı, Əli coşğunluğu.
***İlhami*** (ə.) – ilhamla bağlı, ilhama aid olan.
***İlhüseyn*** (t.,ə.) - ilin-elin Hüseyni, yurdun Hüseyni.
***İlxas*** (t.,ə.) - ilin (ölkənin, dövlətin) xüsusi, əlahiddə şəxsi.
***İlig*** - şahzadə, hökmdar övladı.
***İlkağa*** - ilk ağa, birinci ağa; ailənin ilk oğlu.
***İlkər*** - ilk ər, birinci oğul, ilk igid.
***İlkin***, ***İlkinə*** - ilk, birinci; ilk övlad.
***İlkinər*** - ilk ər, birinci ər; ilk qəhrəman.
***İlknur, İlknurə*** - ilk işıq, nur: birinci uşaq, övlad.
***İlkün, İlkünə*** - ilk səda, ilk səs, ilk övlad.
***İlqar***, ***İlqarə*** (ə.) - söz vermə, əhd, vəd.
***İlman, İlmanə*** - il - el adamı, elə yaxın olan.
***İlnamə*** (t.,f.) - ilin (ölkənin, elin, vilayətin) məktubu; ilin kitabı.
***İlnar, İlnarə*** (t.,ə.) - elin odu, ölkənin, yurdun odu.
***İlnur, İlnurə*** (t.,ə.) - elin nuru, ölkənin, yurdun nuru.
***İlşad*** - bax: Elşad.

***İltəkin*** - bax: Eltəkin.
***İltifat*** (ə.) - mehribanlıq, mərhəmət, lütfkarlıq, hüsn-rəğbət.
***İltimas*** (ə.) - xahiş, rica, yalvarma, diləmə.
***İltizam*** (ə.) - borc, vəzifə; məsuliyyət.
***İlvin*** (a.) - ilin, elin nüfuzlu, hörmətli, etibarlı dostu. Bax: Elvin.
***İlyar*** (t.,f.) - elin, ilin dostu, sevimlisi; elin sevimlisi.
***İlyas*** (ə.) - həmişəcavan, həmişəyaşıl; Allahın gücü və qüdrəti.
***İlzər*** (t.,f.) - ilin (elin, ölkənin, vilayətin) zəri, sərvəti.
***İmad*** (ə.) - dirək, dayaq, sütun.
***İmadəddin*** (ə.) - dinin dirəyi, dinin sütunu; dinin dayağı.
***İmam, İmamə*** (ə.) - qabaqda gedən, lider, dini işlərə baxan ruhani; məzhəb və təriqət başçısı.
***İmamalı//İmaməli*** (ə.) - imam Əli, imam Alı.
***İmamcan*** (ə.,f.) - imamın canı, imamın ürəyi.
***İmaməddin*** (ə.) - dinin imamı, dinin başçısı.
***İmamət*** (ə.) - imamlıq, məzhəb işlərinə rəhbərlik etmə, dini rəhbərlik, imam vəzifəsi.
***İmamhəsən*** (ə.) - qabaqda gedən Həsən; lider Həsən.
***İmamhüseyn*** (ə.) - qabaqda gedən Hüseyn; lider Hüseyn.
***İmamxan*** - bax: İmam və Xan.
***İmamir, İmamirə*** (ə.,f.) - qabaqda gedən əmir; lider əmir.
***İmamqulu*** - bax: İmam və Qulu.
***İmamnəzər*** - bax: İmam və Nəzər.
***İmamverdi*** (ə.,t.) - imam verdi, imamın bəxşişi.
***İmamyar*** (ə.,f.) - imamın dostu, imamın yoldaşı.
***İmamzadə*** (ə.,f.) - imam oğlu, imam övladı; etiqaddan törəmiş.
***İman*** (ə.) - inanma, dərin inam, etiqad.
***İmanalı//İmanəli*** (ə.) - Əli etiqadı, Alı inamı.
***İmanxan*** - bax: İman və Xan.
***İmanqulu*** - İmanın qulu, imanın köləsi.
***İmanverdi*** - imanın verdiyi, imanın bəxş etdiyi.
***İmanyar*** (ə.,f.) – «iman» (etiqad) və «yar» (dost, tay, bərabər) sözlərindən yaranmış, «etiqada bərabər, inama bərabər» deməkdir.
***İmar*** (ə.) - yəhər; qoşqu ləvazimatı.
***İmaş*** - “İmam” və “İman” ilə başlanan adların əzizləmə forması.
***İmdad*** (ə.) - kömək, yardım; dada çatmaq.
***İmdadi*** (ə.) - köməyə, yardıma aid olan.
***İmir//İmri*** - şah arı, hökmdar arı; türk tayfalarından biri.

***İmkan, İmkanə*** (ə.) - mümkün olma; mümkünlük.
***İmran, İmranə*** (ə.) - məskunlaşma; abadlıq, tərəqqi, mədəniyyət.
***İmrə*** (t.) – «emre» sözündəndir, aşiq, eşqə mübtəla; böyük qardaş» deməkdir.
***İmrəli*** (t.,ə.) - imir tayfasından olan Əli.
***İmrən*** - qibtə etmək; görülən bir şeyi istəmək hissi.
***İmribəy*** - arı bəy; sancan bəy; imir tayfasından olan bəy.
***İmrixan*** - arı xan; sancan xan; imir tayfasından olan xan.
***İmriz//İmruz***, ***İmruzə*** (f.) - bu gün (bax: Emruz).
***İnad*** (ə.) - əzm, dəyanət, səbat.
***İnal*** - hakim, hökmdar; xanzadə; dost, yoldaş.
***İnalxan*** - hakim xan, hökmdar xan; xanzadə; dost xan.
***İnalşad*** - hakimin varisliyə hüququ olmayan oğlu; hökmdar oğlu.
***İnaltəkin*** - hökmdarın varisi; hakimin varisliyə hüququ olan varisi.
***İnam*** - inanma, etibar.
***İnanc*** - inanma, inam, etibar; hamıya inanma; etiqad.
***İnancbəy*** - inanılan bəy, etibar edilən bəy.
***İnancxan*** - inanılan xan, etibar edilən xan.
***İnanxan*** - etimad göstərilən xan, güvənilən xan.
***İnar, İnarə*** (ə.) - işıqlı, nurlu, aydın.
***İnayət*** (ə.) - kömək, qayğı, diqqət.
***İnfil*** (ə.) - utanma; acığı tutma; həyəcana gəlmə, coşma.
***İnkişaf*** (ə.) - irəliləmə, qabağa getmə.
***İnqilab*** (ə.) - dəyişiklik, çevriliş; cəsarətli, yenilikçi.
***İnsaf***, ***İnsafə*** (ə.) - ədalət, ədalətlilik; şəfqət, rəhm.
***İnsan*** (ə.) - adam; yer üzündə ilk peyğəmbər və insan Adəm peyğəmbər olmuşdur.
***İnşad*** (ə.) - ifadəli oxuma.
***İnşallah*** (ə.) - Allah qoysa; əgər Allah istəsə.
***İntiqam*** (ə.) - qisas, əvəzə-əvəz; igid, qəhrəman, mübariz.
***İntizam*** (ə.) - nizam, nizam-intizam, qayda-qanun.
***İrad*** (ə.) - söyləmə, demə; danışma.
***İramin*** - "Ramin" (bax) adının dəyişdirilmiş forması.
***İrəm*** (ə.) - Behişt, Cənnət (Şərq əsatirində Yəməndə olduğu göstərilən əfsanəvi bağ).
***İrfan, İrfanə*** (ə.) - bilik, məlumat; maarif, mədəniyyət.
***İrşad*** (ə.) - rəhbərlik, doğru yol göstərmə.
***İrza*** - "Rza" (bax) adının dəyişdirilmiş forması.

***İsa*** (ə.) - Allahın köməyi, Tanrının yardımı, mərhəməti (y."Yexoşua", yun. "İisus" adının ərəbləşmiş forması).
***İsababa*** - bax: İsa və Baba.
***İsabala*** (ə.,t.) - İsa balası, balaca İsa.
***İsaxan*** - bax: İsa və Xan.
***İsaq//İsak*** - "İshaq" (bax) adındandır.
***İsamalı//İsaməli*** (ə.) - İsam olan Əli, İsaya bərabər olan Əli.
***İsaməddin*** (ə.) - dinin köməyi, dinin yardımı.
***İsaverdi*** (ə.,t.) - İsa peyğəmbərin verdiyi; İsa verdi.
***İsbat*** (ə.) - sübut, əsaslandırma, sübut etmə.
***İsfahan*** (f.) - hərbi düşərgədə (İranın eyni adlı şəhərinin adındandır).
***İsfar*** (ə.) - işıldama, parıldama; göstərmə; bir işi açma.
***İsfəndiyar*** (f.) - Allahın bağışladığı, Tanrının hədiyyə etdiyi.
***İsgəndər//İskəndər*** - igid sərkərdə, mərd döyüşçü (yun. adı "Alexoaner"in ə. forması).
***İshaq*** (ə.) - gülüş, gülmə, gülüşmə (Qədim y. adı "İshaq"ın ə. forması).
***İsi*** - "İsa" adı ilə başlanan mürəkkəb adların əzizləmə forması.
***İslah*** (ə.) - qüsur və nöqsanları aradan qaldırma.
***İslam*** (ə.) - müsəlmanlıq; sülh, barışıq; itaətkarlıq.
***İsmayıl*** (ə.) - Allah eşidər, Allah xəbər tutar (y. adı "Yismayel"in ə. forması).
***İsməli*** (ə.) - adı Əlidir, Əli ilə eyni adlıdır.
***İsməndiyar*** (ə.,f.) - adca, adına görə dost, yoldaş, yardımçı olan.
***İsmətulla*** (ə.) - qoruyucu, Allahın müdafiəçisi, Tanrının qoruyucusu.
***İsmi*** (ə.) – «ism» sözündən olub, «ad» deməkdir və adı olan, tanınmış, şöhrətli» deməkdir.
***İsmibəy*** (ə.,t.) - «ismi» və «bəy» sözlərindən düzəlmiş, «adı bəy olan, bəyin adını daşıyan» deməkdir.
***İsmidar*** (ə.,f.) - adı-sanı olan; ad-san, şöhrət sahibi.
***İsmixan//İsimxan*** (f.,t.) - İsmi xan, adı xan olan.
***İsmiyar*** (ə.,f.) - ada dost, yoldaş, yardımçı olan; dost, yoldaş adı.
***İsrafil*** (y.) - odlu, atəşli; atəşin, yandırıcı.
***İsrail*** (y.) - mübariz Allah, mübariz Tanrı. «Bibliya» şəcərəsində baş yəhudi allahı İzrailin adında da "ra" işlənmişdir. İzrailin sevimli arvadı Ra-il, böyük oğlu isə Raben adını daşıyır. Ra-il, yəni Ra-tanrı, Ra-ben, yəni Ra-oğul deməkdir. Onun Rabin, Ramin, Ramen, Ra-man, Ruben və s. formaları vardır. Germanların büt allahı Robin-qut, hind tanrısı Ramin (dev) kimi formaları mövcuddur. İsrafil, Əzrayıl,

Cəbrayıl və s. adlarında da "ra" işlənmişdir. (O.Süleymenov. AZ-Ya. Bakı, 1993, səh.241-243).
***İstambul//İstanbul*** (yun.) - "şəhərə gedirəm" mənasında olan "istin polis" sözünün dəyişilmiş forması; t. islambol (Türkiyədə ən böyük şəhər).
***İstəm*** - istək, arzu, dilək, tələb, iradə.
***İstəməli*** - istəməyə, sevilməyə layiq; xoşqılıq, istiqanlı, adamayovuşan, mehriban.
***İstəmi*** - istək, istəmək, axtarmaq, arzu ilə bağlı, azad, sərbəst.
***İşxan*** (f.) - onlar; sufi rəhbər; türk xalqlarında dindar.
***İşıq*** - nur, ziya, şüa; işıqlandırma.
***İtayət*** (ə.) - tabe olma, boyun əymə, sözə baxma; üzüyola olma.
***İttifaq*** (ə.) - birləşmə; birgə fəaliyyət üçün razılaşma..
***İyisoy*** - nəcib nəsilli; tanınmış nəsildən olan.
***İzafət*** (ə.) - əlavə, artıq.
***İzahət*** (ə.) - aydınlaşdırma, şərh etmə, bəyan etmə.
***İzdiham*** (ə.) - insan kütləsi, çox qələbəlik, çoxlu adam.
***İzzəddin*** (ə.) - dinin şərəfi, dinin namusu, dinin qeyrəti.
***İzzət*** (ə.) - hörmət, şərəf, etibar; namus, qeyrət, ismət.
***İzzətağa*** - bax: İzzət və Ağa.
***İzzətəli*** (ə.) - Əli hörməti, Əli şərəfi.
***İzzətqulu*** (ə.,t.) - hörmətin qulu, şərəfin köləsi.
***İzzətulla*** (ə.) - Allahın hörməti, Tanrının şərəfi.
***İzzixan*** (ə.,t.) - səbirli, ləyaqətli, dözümlü xan; dəyər, etibar və hörmət ilə bağlı olan xan.

## ꟿ K ꟿ

***Kabul*** - t. bacarıqlı; əf. mal anbarı, Əfqanıstanın mərkəzi.
***Kabus*** (ə.) - qarabasma; dəhşət.
***Kafiəddin*** (ə.) – dini qane edən, din üçün yetərli.
***Kahin//Kain*** (ə.) - qədim Misir və israillilərdə qeybdən xəbər verən ruhani.
***Kahya//Kəhya*** – «kahya» sözündən olub «kəndxuda, kəndin başçısı deməkdir.
***Kair*** - bax: Qahir.
***Kalam*** (ə.) - hikmətamiz söz, nəsihətamiz ifadə.
***Kamal//Kəmal, Kamalə//Kəmalə*** (ə.) - yetkinlik, kamillik.

***Kamaləddin//Kəmaləddin*** (ə.) - dinin kamilliyi, yetkinliyi.
***Kamallı*** (ə.,t.) - yetkin olan, nöqsansız, bilikli, əxlaqlı, mənəviyyatca tam olan.
***Kaman, Kamanə//Kəmanə*** - ox atmaq üçün istifadə olunan kaman; musiqi aləti.
***Kamandar//Kəmandar*** (t.,f.) - kamanla silahlanmış, ox atan (Rus-Avropa mənşəli komanda, komandir, komandan, komendant və s. kimi sözlər də "kaman" ilə əlaqədardır. Ox və kamandan ilk dəfə türklər istifadə etmişlər).
***Kamanxan*** - kaman kimi xan; kaman çalan xan.
***Kamannur*** (t.,ə.) - kamanın nuru; kamanın işığı, sehri.
***Kamanyar*** (t.,f.) - kamanın dostu, kamanın yoldaşı.
***Kamanzar//Kamanzər*** (t.,f.) - kamanın iniltisi, naləsi.
***Kamayıl//Kəmayıl*** (f.,t.) - kam (arzu, məqsəd, istək, məram) və "ayıl" felindən yaranmış və "arzum, ayıl" mənasındadır.
***Kambay//Kanbay*** - bax: Qambay//Qanbay.
***Kami*** (ə.) - istək, dilək, arzu; amal, məqsəd, murad, məramla bağlı olan.
***Kamibəy*** - istək, arzu ilə həyata gələn bəy.
***Kamixan*** - istək, arzu ilə həyata gələn xan.
***Kamil, Kamilə//Kamilla*** (ə.) - yetkin, bitkin; mükəmməl.
***Kamilbəy*** (ə.,t.) - Kamil bəy; yetkin bəy, kamil bəy.
***Kamiran//Kamran*** (f.) - arzusuna nail olan, bəxtiyar, kam alan.
***Kamyab//Kəmyab*** (f.) - kamına çatmış, arzusuna yetmiş.
***Kantemir//Kantəmir*** - bax: Qantemir.
***Kapitan*** (fr.) - zabit rütbəsi və bu rütbəni daşıyan şəxs.
***Karlen*** - "Karl" (Marks) və "Lenin" adlarının ilk hecalarından yaranmışdır; İngiliscə insan; ər; mərd; igid deməkdir.
***Karmen*** (l.) - nəğmə, mahnı.
***Karpat*** - Avropanın ən böyük dağlarından birinin adı.
***Kaşif*** (ə.) - kəşf edən, meydana çıxaran, hər hansı sahədə yenilik yaradan.
***Kaşqar*** - qədim Uyğur şəhərinin adındandır. Çincə şəhər, dağ, düzənlik.
***Katib***, ***Katibə*** (ə.) - hər hansı idarənin yazı-pozu işini icra edən şəxs.
***Kavı*** (ə.) - güclü, qüvvətli.
***Kavi*** (ə.) - yağıntı, yağmur; güclü, qüvvətli.
***Kavus*** (f.) - köklü, möhkəm; təmiz; parlaq; sərv ağacı.
***Kazak*** - əsgər; süvari dəstəsi; könüllü, sərbəst; qoçaq.

***Kazbek*** - kaz tayfasının bəyi, kasların böyüyü (Qafqazın silsilə dağlarından biri).
***Kazım*** (ə.) - hirsini uda bilən, hövsələli, səbirli.
***Kazımalı//Kazıməli*** - bax: Kazım və Əli; qəzəbini udan Əli.
***Keykavus*** (f.) - hökmdar Kavus, padşah Kavus.
***Kəbə*** (ə.) - Məkkədə müsəlmanların əsas ibadətgahı; mərkəz.
***Kəbir, Kəbirə*** (ə.) - böyük, ulu.
***Kəbiran*** (ə.) - böyük, ulu olan; yaşlı, dünyagörmüş olan.
***Kəbirəddin*** (ə.) - dinin böyüyü.
***Kəbirulla*** (ə.) - Allahın böyük adamı.
***Kəblağa*** - "Kərbəlayi Ağa" antroponiminin ixtisar forması.
***Kəlam, Kəlamə*** (ə.) - söz, kəlmə, ifadə; nitq, danışıq.
***Kəlbalı//Kəlbəli*** (ə.) - Əlinin iti (Sufilik təsəvvürləri ilə bağlıdır).
***Kəlbi*** - "Kəlbəli" (bax) adının qısaldılmış forması.
***Kələntər*** - rəhbər, başçı (Səfəvilər dövründə şəhər başçısı və vergi yığan).
***Kəlimulla*** (ə.) - Allahla söhbət edən (Musa peyğəmbərin epiteti).
***Kəmənd*** - qədim müharibələrdə düşməni tutmaq üçün istifadə olunan ilməkli kəndir.
***Kəmiyyət*** (ə.) - miqdar, qədər, say, ədəd və s.
***Kənan, Kənanə*** (ə.) - gözəl oğlan; Fələstin və Finikiya ərazilərinin qədim adı.
***Kəngər*** - qədim t. qəbilələrindən birinin adı.
***Kəntər//Kəndər*** - şəhərli, şəhər adamı, şəhərli kişi.
***Kəramət//Kərimət*** (ə.) - səxavət; nəciblik, alicənablıq.
***Kərbəlayı//Kəblayı*** (ə.) - Kərbəla şəhərində İmam Əlinin məzarını ziyarət edənlərə verilən fəxri ad.
***Kərəm*** (ə.) - mərhəmət, lütf, lütfkarlıq, alicənablıq.
***Kərəmağa*** - bax: Kərəm və Ağa.
***Kərəməddin*** (ə.) - dinin alicənablığı, comərdliyi; mərhəməti, mehribanlığı.
***Kərəməli*** (ə.) - Əli kəraməti, Əli comərdliyi.
***Kərəmulla*** (ə.) - Allahın kərəmi, Tanrının mərhəməti.
***Kərəz*** - Osmanlı türkcəsində "böyük və dərin qab", Azərbaycan dialektlərində "kərəzlənmək" - "vurmağa hazırlaşmaq" kimi mənaları var.
***Kərim, Kərimə*** (ə.) - lütfkar, mərhəmətli; , alicənab, əliaçıq.
***Kərimağa*** - bax: Kərim və Ağa.

***Kərimbala*** - bax: Kərim və Bala.
***Kərimxan*** - bax: Kərim və Xan.
***Kərimşah*** (ə.,f.) - səxavətli şah, mərhəmətli şah.
***Kərimulla*** (ə.) - Allahın lütfkar adamı, Tanrının alicənab adamı.
***Kəriş*** - "Kərim" ilə başlanan mürəkkəb adların əzizləmə forması.
***Kərrar*** (ə.) - ilk dəfə geri çəkiləndən sonra təkrar hücuma keçmə, hücumçu.
***Kəsmət*** - şərtləşmə, razılaşma, sözləşmə.
***Kəsra//Kəsrah*** - İranda Sasanilər sülaləsinə mənsub olan şahlara verilən ümumi addır. "Xosrov" sözü də etimoloji cəhətdən bu adla bağlıdır.
***Kəşfi, Kəşfiyyə*** (ə.) - açma, ortaya çıxarma ilə, kəşflə bağlı olan, kəşf etməyə aid olan.
***Kətan//Kətən***, ***Katana//Kətanə*** (ə.) - saplağından lif, toxumundan yağ hazırlanan bitki.
***Kəyan*** (f.) - qədim İran şahlarının ümumi adı.
***Kəyum*** (f.) - əfsanəyə görə, İranın ilk əfsanəvi padşahı olan "Kəyumərs" adının ixtisar forması.
***Kiçik*** - həcmcə, ölçücə xırda, balaca olan.
***Kiçikbəy*** - kiçik bəy, balaca bəy.
***Kiçikxan*** - kiçik xan, balaca xan.
***Kirman*** - qala, istehkam; İranda şəhər adı.
***Kişi*** - cinscə qadının əksi; ər; adam, şəxs.
***Kişizadə*** - kişi övladı; əsilli, soylu; kübar, tanınmış.
***Kişvəri*** (f.) - ölkəyə məxsus olan, məmləkətə aid olan.
***Kitay*** - "ki" - od, Günəş, "tay" - dağ sözlərindən düzəlmiş, "Günəşli dağ", "Günəşli ölkə" mənasında işlənir (Çinin ən qədim adı).
***Knyaz*** - tayfa başçısı, qəbilə başçısı; fəxri titul. (Zənnimizcə, xan və az sözlərindən yaranmışdır).
***Kolatan*** - qol-budaq atma, genişlənmə, inkişaf etmə, artma, yayılma.
***Kolçak*** - qolçak, iş zamanı qola taxılan xüsusi qol geyimi; Rus tarixində əks-inqilabçı kimi tanınan admiral A.V.Kolçak (1874-1920) elə bu adla tarixdə qalmışdır.
***Komendant*** (fr.) - qala və ya istehkamlarda qoşun başçısı.
***Kommunist*** (l.) - Kommunist partiyasının üzvü, kommunaçı.
***Komsomol*** - rus dilində "Kommunist Gənclər Təşkilatı" mürəkkəb adının ixtisar forması.

***Komunar*** - 1871-ci ildə “Paris kommunası” və 1918-ci ildə “Bakı kommunası”nı yaradanların ümumi adı.
***Konto//Köntöy*** - həm daxilən, həm də xaricdən kobud olan.
***Koroğlu*** - xalq qəhrəmanı Rövşənin ikinci adından yayılmışdır.
***Köçəri//Köçər*** - oturaq həyat keçirməyən, köçəri həyat keçirən.
***Kral*** (l.) - Böyük Karlın adındandır.
***Krım*** - hazırda Ukrayna Respublikası ərazisində olan eyni adlı türk torpaqlarının (Krım yarımadası) adındandır.
***Kutays//Kutais*** - “Kutaisi” şəhərinin (gürcü dilində “kuito” - “daşlı yer” mənasındadır) adındandır.
***Kürdoğlu*** - kürdün oğlu, kürdün övladı.
***Kürən*** - saçı, tükü parıltı sarı, qırmızı rəngdə olan.
***Kürşad*** - ağlağan, qışqırıcı, şıltaq; pak, təmiz şad (xanlığa hüququ olmayan xanzadə).

## ꕤ Q ꕤ

***Qabil, Qabilə*** (yəh.) - qabiliyyətli, istedadlı, zehinli (Adəm peyğəmbərin oğlunun adı).
***Qabiliyyət*** (ə.) - istedad, fitri zəka, hər şeyi tez qavrama, tez mənimsəmə bacarığı.
***Qacar*** - qədim türkdilli tayfalardan birinin adı.
***Qaçabəy*** - qaçan, yüyürən bəy.
***Qaçaxan*** - qaçan, yüyürən xan.
***Qaçaq*** - doğma yurdundan qaçqın düşən, zülmkarlara qarşı vuruşan el qəhrəmanı.
***Qaçay*** - qaçan, yüyürən; yüyürək; qoç ər, igid.
***Qaçmaz*** - döyüşdən qaçmaz, möhkəm dayanar.
***Qadir//Qədir, Qadirə//Qədirə*** (ə.) - qüdrətli, qüvvətli, bacarıqlı; Allahın epitetlərindən biri.
***Qaffar//Qafar//Qəfər//Qafır*** (ə.) - bağışlayan, əfv edən; mərhəmətli Allahın epitetlərindən biri.
***Qafil***, ***Qafilə*** (ə.) - karvan, yola çıxan dəstə; xəbərsiz, diqqətsiz, fürsəti əldən verən.
***Qafqaz*** - Qafqaz sıra dağlarının adındandır.
***Qaflan//Qaplan*** - aslan, şir, pələng; igid, qoçaq, qəhrəman.
***Qafur*** (ə.) - bağışlanmış, əfv edilmiş, günahlarından keçilmiş.
***Qahir***, ***Qahirə//Qəhirə*** (ə.) - üstün gələn, qalib.

***Qail***, ***Qailə*** (ə.) - deyən, söyləyən; inanan; etiraf edən.
***Qaim//Qayım//Qayim, Qaimə*** (ə.) - ayaq üstə duran; öz yerində olan, yerini tutan; qiyam edən.
***Qala*** - ən çox dairəvi şəkildə olan yüksək, möhkəm müdafiə tikililəri; bürc; möhkəm arxa, dayaq.
***Qalabəy//Qalabəyi*** - qala rəisi, şəhər komendantı.
***Qalaç*** - "qal" və "aç" sözlərindən yaranmışdır. Oğuz xan ən bacarıqlı əsgər olan Tömürdü Kağula "qal və divarları qızıldan, pəncərələri gümüşdən və tavanı dəmirdən olan evi aç, sonra orduya qoşul" demişdir. "Xalac" adlı türk boyunun adı da buradandır.
***Qalaçı*** - qala tikən, qala ucaldan; qalaç tayfasının tərəfdarı.
***Qalaxan*** - qala xanı - qala rəisi.
***Qalamirzə*** - bax: Qala və Mirzə.
***Qalası*** - yaşayan, sağ qalan, ölməyən.
***Qalayçı*** - mis qabları qalaylayan usta; qabağardan.
***Qalxan*** - qalan xan, yaşayan xan; düşmən zərbəsindən qorunmaq üçün istifadə olunan silah növü.
***Qalib***, ***Qalibə*** (ə.) - üstün gələn, qələbə çalan, müzəffər.
***Qalibiyyət*** (ə.) - fəaliyyət sahəsində üstünlük, müvəffəqiyyət; qalib gəlmə, qələbə.
***Qambay//Qanbay//Qamboy*** - cadugər bəy, şaman bəy; böyük (baş) cadugər və ya şaman (Türk dillərində "qam" - "cadugər", "şaman" mənasında işlədilir); yetkin bəy, məmnun bəy, varlı bəy; ulu nəsil, böyük tayfa.
***Qamət*** (ə.) - boy, boy-buxun, qədd.
***Qamətdin*** (ə.) - dinin boyu, qaməti; dinin genişliyi, fəxri.
***Qamil*** (ə.) - zəhmət sahibi, işçi, işgüzar.
***Qanı//Qəni, Qəniyyə*** (ə.) - dövlətli, varlı, sərvət sahibi.
***Qanqa*** (sanskritcə "çay") - Hindistan və Banqladeşdə eyni adlı çay adından.
***Qanpolad*** - polad kimi möhkəm xan; qüvvətli, güclü, yenilməz.
***Qantemir//Qantəmir//Qəndəmir*** - möhkəm dəmir; sarsılmaz, yenilməz; qanı dəmir kimi olan.
***Qantural*** - heç dəyişməyən, eyni vəziyyətdə qalan qan (xan).
***Qanvoy*** (r.) - "konvoy" sözündən olub, "hərbi mühafizə dəstəsi" deməkdir.
***Qaplan*** – yırtıcı heyvan, bəbir; igid, qoçaq, cəsarətli.
***Qara*** - ağın əksi olan rəng; güclü, qüvvətli; böyük; titul.

***Qarabala*** - qara oğlan; güclü, qüvvətli oğlan.
***Qarabay//Qarabəy*** - qara bəy; rəngi qara olan bəy; böyük, qüdrətli, güclü.
***Qarabudaq*** - böyük və güclü budaq; igid, qəhrəman Budaq.
***Qarabuğa*** - böyük, güclü buğa; cəngavər, igid, qəhrəman.
***Qaraca*** - əzəmətli, nəhəng, güclü.
***Qaradağ*** - əzəmətli, böyük, yüksək dağ; əzəmətli dağ kimi oğlan.
***Qaraxan*** - böyük, qüvvətli xan, güclü xan, igid xan.
***Qarakişi*** - böyük, güclü kişi, qüvvətli adam.
***Qaraqaya*** - nəhəng qaya, əzəmətli qaya; möhkəm, qüdrətli, güclü.
***Qaraquş*** - qara quş; böyük quş; çalağan; cəsur insan.
***Qaraman*** - qara rəngli, qaraşın, qarabuğdayı adam.
***Qaraş*** - qaraşın; böyük, nəhəng, əzəmətli.
***Qaratay*** - böyüklərə, güclülərə bənzəyən; böyük, əzəmətli dağ.
***Qarayusif*** - qara Yusif; igid, qəhrəman, güclü Yusif.
***Qardaş*** - əsli "qarındaş" olub, bir anadan doğulan oğlanların qohumluq münasibətini bildirir.
***Qardaşağa*** - böyük qardaş; bax: Qardaş və Ağa.
***Qardaşalı//Qardaşəli*** (t.,ə.) - qardaş Alı, qardaş Əli.
***Qardaşbala*** - kiçik qardaş; bax: Qardaş və Bala.
***Qardaşxan*** - Qardaş xan; xan kimi qardaş.
***Qartal*** - vüqarlı və qüvvətli quş; qorxmaz, cəngavər, bahadır; totem.
***Qaryağdı*** - türkdilli tayfalardan birinin adı.
***Qasım*** (ə.) - bölən, bölüşdürən, bölücü, pay verən.
***Qasımalı//Qasıməli*** (ə.) - pay bölüşdürən Əli; Əlinin verdiyi pay.
***Qasımxan*** - bax: Qasım və Xan.
***Qasırğa*** - fırtına, boran, güclü və şiddətli külək.
***Qasib, Qasibə*** (ə.) - zorla alan, qəsb edən, mənimsəyən.
***Qasid*** (ə.) - xəbər aparıb-gətirən, çapar, poçtalyon.
***Qasir***(ə.) - nöqsanlı, qüsurlu (Sufi təsəvvürləri ilə bağlıdır).
***Qaşqay*** - nişan; xoşbəxt; müqəddəs; türk tayfalarından birinin adı.
***Qaya*** - iri və sərt daş,dağın irəli çıxan hissəsi; möhkəm, yenilməz, sarsılmaz.
***Qayacan*** - qaya kimi möhkəm bədənli, qaya kimi sərt və möhkəm insan.
***Qayaxan*** - möhkəm xan, yenilməz xan.
***Qayaruh*** - qaya kimi əzəmətli, möhkəm ruh.
***Qayatəkin*** - qayaya bənzəyən, qaya kimi; Qaya Təkin (atasından sonra xan olmağa hüququ olan varis).

***Qaybalı// Qeybalı// Qeybəli// Qayvalı//Qayıbalı//Qayıbəli*** (ə.) - qeyb olan Əli, gizli Alı.
***Qayə*** (ə.) - məqsəd, amal, dilək.
***Qayıb// Qayib//Qaib*** (ə.) - gözlə görünməyən, məkanı bilinməyən; Allah, Tanrı.
***Qayıbəy*** - "qayı" (möhkəm, sağlam, qüvvətli, sərt) "bəy" sözlərindən düzəlmişdir. "Qayı"nın sel, daşqın, uçqun mənası da vardır.
***Qayıbxan*** - gözə görünməyən, yeri bilinməyən xan, müqəddəs xan.
***Qayıxan*** - möhkəm, sağlam xan; daşqın, sel kimi xan.
***Qayım*** (ə.) - birinin yerini tutan; bərk, möhkəm; simic, xəsis; namaz qılan.
***Qayımağa*** (ə.,t.) - möhkəm, mətanətli ağa; iradəli ağa.
***Qayıtmaz*** - geri dönməz, əbədi yaşar.
***Qaysın*** - qayıdan, dönən; hiss edən, diqqətli olan; qoruyan.
***Qazan*** - ad qazanma; əldə etmə, mənfəət götürmə.
***Qazı//Qazi*** (ə.) - dini rütbə, vəzifə; din uğrunda döyüşdə qalib çıxan; şəriət məhkəməsinin hakimi.
***Qazıağa// Qaziağa*** (ə.,t.)- Qazı ağa; din yolunda müharibədə qalib gələn ağa.
***Qazıbəy//Qazibəy*** (ə.,t.) - Qazı//Qazi xan; şəriət məhkəməsi olan bəy.
***Qazıxan//Qazixan*** (ə.,t.) - Qazı//Qazi xan; şəriət məhkəməsi olan xan.
***Qazıməmməd*** (ə.)- Qazi Məmməd,qalib Məmməd.
***Qaziəhməd//Qazəhməd//Qazıəhməd*** (ə.) - qazi Əhməd; din uğrunda döyüşdə qalib gələn Əhməd; şəriət məhkəməsinin hakimi Əhməd.
***Qeybulla*** (ə.) - Allahın qeybi, gözəgörünməzliyi.
***Qeyrət*** (ə.) - vətənin, xalqın, ailənin şərəfini, namusunu qoruma, müdafiə etmə.
***Qeys*** (ə.) - ölçü, miqdar, meyar; yağış, yağmur.
***Qeysəddin*** (ə.) - dinin ölçüsü, dinin meyarı.
***Qeysər*** (ə.) - hökmdar, padşah, şah, hakim. Tədqiqatlarda "Sezar" adının müsəlman dünyasındakı variantı kimi izah edilir. Zənnimizcə, ərəb mənşəli hesab edilən bu ad əslində iki sözdən ibarətdir; "qey"(key-keyan-kayan-kahin) və türk mənşəli "sər"(sar-çar; "sar" qədim türklərdə totem və ən böyük tayfa adlarından biri olmuşdur) sözlərindən düzəlmiş və ad bütövlükdə "gələcəkdən xəbər verən sar" mənasındadır. Avropa ölkələrində geniş yayılmış kesar, kayzer, emissar, komissar və s. sözlərdəki "sar, zer" də bununla bağlıdır.
***Qəbil*** (ə.) - cür, növ, kimi, cins.

***Qəbul, Qəbulə*** (ə.) - başqaları tərəfindən verilən, təklif olunan, göndərilən əşyanı alma.
***Qədəm*** (ə.) - addım; ayaq; gəliş.
***Qədəməli*** (ə.) - Əli qədəmi; Əli uğuru.
***Qədəmxan*** - xan qədəmi; xan uğuru.
***Qədəmşah*** - şah qədəmi; şah uğuru.
***Qədim***, ***Qədimə*** (ə.) - köhnə, əski, köhnədənqalma, əvvəlki. Allahın epitetlərindən biridir.
***Qədimağa*** (ə.,t.) - köhnə ağa, əvvəlki ağa, əski sahibkar.
***Qədimalı//Qədiməli*** - bax: Qədim və Əli.
***Qədimbala*** - bax: Qədim və Bala.
***Qədimxan*** - dünyagörmüş, təcrübəli xan.
***Qədimşah*** - dünyagörmüş, təcrübəli şah.
***Qədirəddin*** (ə.) - dinin qiyməti, dəyəri, ləyaqəti, hörməti, şərəfi.
***Qədri*** (ə.) - qiymətli, layiqli.
***Qəflət*** (ə.) - xəbərsizlik, qafillik.
***Qəhəd*** (ə.) - qıtlıq, yoxluq.
***Qəhər*** (ə.) - qəzəb, hirs, hiddət; dilxorluq, pərtlik.
***Qəhhar*** (ə.) - qəhr edən, acıqlı; son dərəcə qüvvətli; böyük fateh; müzəffər; Allahın adlarından biri.
***Qəhrəman*** (f.) - igid, qoçaq, cəsur, bahadır.
***Qəlbi*** - yüksək, hündür, uca.
***Qəlbibəy*** - yüksək, hündür, uca bəy.
***Qəlbixan*** - yüksək, hündür, uca xan.
***Qəlbinur*** (ə.) - qəlbi işıqlı olan, ürəyi nurlu olan.
***Qələbə*** (ə.) - qalib gəlmə; üstünlük.
***Qələm*** (ə.) - mürəkkəblə yazmaq üçün yazı aləti.
***Qələmxan*** - bax: Qələm və Xan.
***Qələmnur*** (ə.) - nurlu, parlaq qələm, işıqlı rəsm (əsəri).
***Qələndar//Qələndər*** (f.) - dünyadan əl çəkib həqiqət axtaran adam; filosof; dərviş.
***Qəmbər//Qənbər*** - çaydaşı; çox möhkəm, sağlam. Ərəbcə « torağay» anlamındadır.
***Qəmbəralı//Qənbəralı//Qəmbərəli//Qənbərəli*** (ə.) - Alının Qəmbəri, Əlinin Qənbəri; Əlinin nökəri (Qəmbər Həzrət Əlinin nökəri olmuşdur).
***Qəmərxan*** (ə.,t.) - Aya bənzər xan, Ay kimi xan.
***Qəmərşah*** (ə.,f.) - Aya bənzər şah.

***Qəmküsar*** (ə.,f.) - qəm dağıdan, təsəlli verən.
***Qəmlo*** - "qambay"la əlaqədar olub, "şaman ər" mənasındadır.
***Qənaət*** (ə.) - hər hansı şeydən az-az istifadə etmə.
***Qəndalı//Qəndəli*** (ə.) - şirin Alı, şəkər Əli.
***Qəndil***, ***Qəndilə//Qəndili*** (ə.) - asma lampa; çilçıraq; xoşbəxt.
***Qənimət*** (ə.) - həyatda, döyüşdə əldə edilən şey.
***Qənizadə*** (ə.,f.) - Qəninin oğlu; varlı oğlu, dövlətli övladı.
***Qərib*** (ə.) - yad, özgə, gəlmə, yadelli; yaxın adam.
***Qəribağa*** - bax: Qərib və Ağa.
***Qəribalı//Qəribəli*** - bax: Qərib və Əli.
***Qəribcan*** (ə.,f.) - qəribə bir can sahibi, bambaşqa adam.
***Qəribxan*** - bax: Qərib və Xan.
***Qəşəm*** (ə.) - fikirləşmədən, götür-qoy etmədən.
***Qəti*** (ə.) - ayırd etmə; qərar çıxarma; kəskin.
***Qətil*** (ə.) - öldürmə, öldürülmə, qətl edilmə, şəbih; dini tamaşa.
***Qətran*** (ə.) – qara rəngli, kəskin qoxulu, yapışqanlı maddə; qara, sağlam oğlan.
***Qəyyum*** (ə.) - hər hansı şəxsi himayə edən. (Allahın epitetlərindən biri).
***Qəyyur//Qəyyar*** (ə.) - qeyrət çəkən; çox çalışan.
***Qəzənfər*** (ə.) - aslan, şir; güclü, qüvvətli.
***Qılıc//Qılınc*** - xəncərdən böyük, əyri və ya düz, hər iki tərəfi iti kəsərli silah.
***Qılıcxan//Qılıncxan*** - bax: Qılınc və Xan.
***Qılman***, ***Qılmanə*** (ə.) - Cənnətdə oğlan qulluqçuları; gözəl oğlan, qəşəng övlad.
***Qızğın*** - coşqun, atəşin, alovlu, şiddətli; hiddətlənmiş.
***Qibləli*** (ə.) - Əli qibləsi.
***Qinyaz*** - bax: Knyaz.
***Qismət*** (ə.) - hissə, pay, çirə; parça, tikə; tale.
***Qivami*** (ə.) - duruş; dayaq; məna, məzmun.
***Qiyam*** (ə.) - ayağa qalxma, qalxma; qarşıdurma, üsyan.
***Qiyaməddin*** (ə.) - dinin yüksəlişi; dinin təntənəsi.
***Qiyamət*** (ə.) - ayağa qaldırma; məhşər günü; təntənə.
***Qiyas*** (ə.) - müqayisə, tutuşdurma; ölçü, kömək. (Allahın epitetlərindən biri).
***Qiyasəddin//Qiyasətdin*** (ə.) - dinin köməyi, dinin yardımı.
***Qoca*** - yaşlı, ağsaqqal; müdrik, bilici (Fars mənşəli hesab edilən "xacə, xoca" sözləri də "qoca"dan törəmiş və islamdan əvvəl yaranmışdır).
***Qocaman*** - yaşlı adam; təcrübəli, öz işinin ustası olan sənətkar.

***Qoçaq*** - igid, qorxmaz, cəsarətli, şücaətli; mərd, əliaçıq, səxavətli.
***Qoçalı//Qoçəli*** (t.,ə.) - qoç igid, qəhrəman, cəsur Əli.
***Qoçər*** - qoç ər, qoçaq adam, döyüşkən əsgər.
***Qoçubəy*** - igid bəy, qoçaq bəy.
***Qonaq*** - mehman, müsafir; müvəqqəti olaraq başqasının evində qalmaq; «qonmaq» sözü ilə bağlıdır.
***Qonaqbəy*** – gələn adam; qonaq gəlmiş hörmətli bəy (oğlan).
***Qonur*** - şabalıd, açıq-qəhvəyi rəng, qumral rəng; cəsur, qorxmaz; çıxaran, dartan.
***Qorçu//Qoçu*** - tonqal yandıran; sərhəd qoruyucusu; hökmdarın qoruyucusu - cangüdəni (Əvvəllər qorçular sərhəddə baş verən hadisəni böyük tonqal yandırmaqla gözətçi məntəqələrinə xəbər çatdırardılar. Sonralar odlu silahdan istifadə edən döyüşçülərə də "qorçu"lar deyildi. İlk odlu silahları hökmdarın cangüdən və qvardiyası gəzdirdikləri üçün onlar da "qorçu" adlandılar. XX əsrdə isə "qorçu" - "qoçu" şəklinə düşdü).
***Qorxmaz*** - qorxmayan, çəkinməyən; igid, cəsur.
***Qorqud//Qurqut//Qorqut*** - uğurlu od, xoşbəxt od; hər şeyi bilən, gələcəkdən xəbər verən.
***Qoşqar*** - daşlıq, qayalıq dağ;dağ vüqarlı, dağ gövdəli. (Eyni adlı dağ adından yayılmışdır.
***Qoşun*** - alay, hərbi hissə, silahlı əsgər birliyi; ordunun bir hissəsi.
***Qoşunağa*** - qoşun ağası, alay böyüyü.
***Qoşunalı//Qoşunəli*** - Qoşun və Əli adlarındandır.
***Qubad*** (f.) - tikanlı və iri yarpaqlı ağac.
***Qubaddin*** (f.,ə.) - dinin Qubadı; dinin tikanlı və iri yarpaqlı ağacı.
***Qubalı*** - Qubada anadan olan və ya orada yaşayan.
***Qulam*** - oğlan; cavan qulluqçu.
***Qulamağa*** - bax: Qulam və Ağa.
***Qulaməddin*** (ə.) - dinin qulamı, dinin qulluqçusu.
***Qulaməli*** (ə.) - Qulam və Əli; cavan Əli.
***Qulamhüseyn*** (ə.) - Qulam və Huseyn, cavan Hüseyn.
***Qulamxan*** - cavan xan; bax: Qulam və Xan.
***Qulammirzə//Qulamirzə*** - cavan mirzə; bax: Qulam və Mirzə.
***Qulamrza*** - cavan Rza; bax: Qulam və Rza.
***Qulamyar*** (ə.,f.) - Qulamın (bax) köməkçisi, dostu.
***Qulqafa*** - qul başı; qul başçısı; qulların böyüyü.
***Qulu*** - Allahın qulu, Tanrının qulu.

***Quluxan*** - Qulu xan; "Allahın qulu olan xan" mənasındadır.
***Quluş*** - “Qulu” adının əzizləmə forması.
***Qulyar*** (t.,f.) - qulların dostu, yoldaşı; qullara kömək edən.
***Quman*** - sarı, sarışın; türk tayfalarından biri; Qu quşu kimi adam.
***Qumanbəy*** - sarı, sarışın bəy; Qu quşuna bənzəyən bəy.
***Qumanxan*** - sarı, sarışın xan; Qu quşuna bənzəyən xan.
***Qurban*** - müəyyən məqsədlə özünü fəda etmə; əlamətdar hadisə ilə əlaqədar heyvan kəsmə.
***Qurbanalı//Qurbanəli*** (ə.) - Əli qurbanı, özünü Əliyə fəda etmə.
***Qurbanxan*** - xanın qurbanı; bax: Qurban və Xan.
***Qureyiş*** (ə.) - ərəb qəbilələrindən birinin adı.
***Qureyşin*** (ə.) - Qüreyş qəbiləsinə mənsub adam; həmin qəbilədən olan Məhəmməd peyğəmbərə verilən ad.
***Qurtuluş*** - xilas, nicat, azadlıq; azad olma, xilas olma, nicat tapma.
***Quşdan*** - q.t. tayfalarından birinin adındandır.
***Qutluq*** - xoşbəxt, uğurlu, bəxtiyar.
***Qutlutəkin*** - xoşbəxt, uğurlu, bəxtiyar təkin (varisliyə hüququ olan xanzadə).
***Qüdrət*** (ə.) - güc, qüvvət, taqət.
***Qüdrətalı//Qüdrətəli*** (ə.) - Əli qüdrəti, Alı gücü.
***Qüdrətulla*** (ə.) - Allahın qüdrəti, Tanrının gücü; sarsılmaz.
***Qüdsi, Qüdsiyyə*** (ə.) - müqəddəs, təmiz, pak.
***Qürbət//Qurbət*** (ə.) - qəriblik, yad ölkə; yaxınlıq.
***Qürbətalı//Qürbətəli//Qurbətalı//Qurbətəli*** (ə.) - Əlidən uzaq düşmüş. Alıdan uzaqda yaşayan.
***Qürur*** (ə.) - iftixar, mənlik hissi, təmkin.
***Qütbəddin*** (ə.) - dinin qütbü; dinin rəhbəri.
***Qütbi, Qütbiyyə*** (ə.) - qütbə aid olan; əlçatmaz.
***Qüvvət*** (ə.) - güc, zor; bacarıq, istedad; hiss, duyğu.

## ᘓ L ᘐ

***Labud//Labüd, Labudə//Ləbudə// Labüdə*** (ə.) - mütləq; məcburən, hökmən.
***Laçın*** - şahinlər sinfindən alıcı quş; hünərli, cəsarətli; q.t.qəbilələrindən biri.
***Lahuti*** (ə.) - ilahiyyat elminə mənsub; İlahi.
***Layiq***, ***Layiqə*** (ə.) - münasib, yaraşan.
***Lazar*** (i.) - “lazar” sözündən olub “optik kvant generatoru” deməkdir.

***Lazım//Lazımat//Lazimat, Lazimə*** (ə.) - gərəkli, lüzumlu, vacib, zəruri.
***Leysan***, ***Leysanə*** (ə.) - güclü yağış, şıdırığı yağış; sel gətirən yağış.
***Ləbib, Ləbibə*** (ə.) - ağıllı, zəkalı, sağlam düşüncəli, ehtiyatlı.
***Lələ*** - keçmişdə varlı ailələrdə oğlanların tərbiyəsi ilə məşğul olan; bəzi yerlərdə böyük qardaşa da "lələ" deyirlər.
***Lələbəy*** - lələ bəy; böyük qardaş.
***Lənkəran*** - Azərbaycanın eyni adlı şəhər, dağ, çay və s. adındandır.
***Lətif***, ***Lətifə//Lətifət*** (ə.) - zərif, qəşəng, incə; mülayim, xoş.
***Ləzgi*** - Dağıstan və Azərbaycanda yaşayan xalqlardan birinin adı.
***Ləziz, Ləzizə*** (ə.) - dadlı, ləzzətli, xoşagələn; sevinc, xoşbəxtlik.
***Loğman***, ***Loğmanə*** (ə., əsli qəd.yun.) - bütün xəstəlikləri müalicə edən həkim.
***Lütfəddin*** (ə.) - dinin mərhəməti, dinin rəhmi.
***Lütfəli*** (ə.) - Əlinin lütfü, Əlinin mərhəməti.
***Lütfi//Lütfü//Lütvi*** (ə.) - xeyirxah, mərhəmətli, mehriban; lütflü.
***Lütfiyar//Lütfüyar*** (ə.,f.) - yarın mərhəməti, sevgilinin mehribanlığı.
***Lütfulla//Lütvulla*** (ə.) - Allahın lütfi, Tanrının xeyirxahlığı.

## M

***Maarif//Marif***, ***Maarifə//Marifə*** (ə.) - əldə edilən təhsil, savad, bilik.
***Mabud//Məbud//Məhbud*** (ə.) - ibadət edən (Allahın epitetlərindən biri).
***Macarxan*** - macar xanı; Macar xan; macarıstanlı xan.
***Madar*** - ən istəkli, ən əziz; arxa, ümidgah.
***Madər*** (f.) - ana.
***Mafər*** (ə.) - imkan, macal; şəffaf su.
***Mahal*** (ə.) - vilayət, böyük inzibati-ərazi vahidi.
***Mahəddin//Mahyəddin//Məhyəddin//Məhəddin//Məhiyəddin*** (f.,ə.) - dini ehya edən, dini dirçəldən; dinin beşiyi.
***Mahil, Mahilə*** (f.,t.) - ilin, elin Ayı; Ay sifətli oğlan və ya qız.
***Mahir***, ***Mahirə*** (ə.) - məharətli, bacarıqlı; püxtələşmiş.
***Mahmud*** (ə.) - təriflənmiş, şöhrətlənmiş; tərifəlayiq.
***Mahmudağa*** (ə.,t.) - Mahmud ağa; Mahmud kimi ağa.
***Mahmudalı//Mahmudəli*** (ə.) - bax: Mahmud və Əli.
***Mahmudbəy*** (ə.,t.) - Mahmud bəy; Mahmud kimi bəy.
***Mahmudxan*** (ə.,t.) - Mahmud xan; Mahmud kimi xan.
***Mahur***, ***Mahurə*** - Azərbaycanın klassik muğamlarından birinin adı.
***Maxluq//Məxluq, Məxluqə*** (ə.) - yaradılmış, xəlq olunmuş; xalq.

***Mail//Mayıl//Mayil*, *Mailə//Mayilə*** (ə.) - meyilli, meyl edən, həvəsli; sevən, istəyən, vurğun.
***Mais//Mayıs//Mayis*, *Maisə//Mayisə*** (l.) - ilin beşinci ayı; may(ayı).
***Makedon*** - Makedoniyalı İskəndərin vətəninin adındandır.
***Maksim*** (yun.) – böyük, ulu; axmaq, maymaq, oğru jarqonunda xoşsifət.
***Maqbet*** (i.) - V.Şekspirin qəhrəmanlarından biri.
***Maqsud//Məqsud, Maqsudə//Məqsudə*** (ə.) - niyyət, məqsəd, məram, arzu.
***Malay*** - gənc, cavan, yeniyetmə.
***Malik*, *Malikə*** (ə.) - sahib, yiyə; mülk sahibi.
***Mamay*** - səhrada daş heykəl, Məhəmməd adının qədim variantı.
***Manaf//Mənəf//Mənaf*** (ə.) - yüksək (Kəbədə olan qədim bütlərdən birinin adı).
***Manar//Minor*** (ə.) - siqnal, mayak; minarə; yol göstərən.
***Mansur//Mənsur*, *Mansurə//Mənsurə*** (ə.) - qalib, müzəffər.
***Marabəy//Marıbəy*** (f.,t.) - ilan bəy; ilan kimi bəy; ilana bənzər bəy.
***Marağa*** - ilan ağa; ilan kimi ağa; Cənubi Azərbaycanda eyni adlı şəhər.
***Marat*** - pusmağa, nəyi isə qorumağa təhrik etmək.
***Mari*** (f.) - ilan; gözəlin ilan kimi saçı; Suriyada şəhər, Rusiyada türkdilli Muxtar Respublika adındandır.
***Marks//Markus*** - XIX əsr alman filosofu Karlın soyadı.
***Marlen*** - Marks və Lenin adlarının ilk hecalarından yaranmışdır.
***Marsel*** - Fransanın eyni adlı şəhərinin adındandır.
***Masəl*** (ə.) - keçmişdə olan hadisə və əhvalat.
***Maşa*** - ocaqdan od və ya qızmar bir şeyi götürmək üçün metal alət.
***Maşallah*** (ə.) - Allahın istədiyi şey (tərif); Allah gözdən saxlasın! Afərin! Mərhəba!
***Mayor*** (l.) - kapitandan sonra gələn zabit rütbəsi və mayor rütbəli adam; qabaqda gedən mer.
***Maysər*** - Mayıl (ata) və Səhər (ana) adlarının ilk hecalarından yaradılmışdır.
***Mazan*** (ə.) - ölçü, tərəzi; Tərəzi bürcü.
***Mehbala//Mehbalı*** - "Məhbulla" adının təhrif olunmuş forması.
***Mehbulla//Meybulla*** (f.,ə.) - Möhübulla. Allahı sevən, Allaha sevgi; ilahi məhəbbət.
***Mehdi//Mehti*** (ə.) - düz yol tutan (XII imam).
***Mehdixan*** - bax: Mehdi və Xan.

***Mehdiqulu*** (ə.,t.) - Mehdinin (XII imam Mehdi Sahibzamanın) qulu.
***Mehman***, ***Mehmanə*** (f.) - qonaq.
***Mehmandar*** (f.) - qonaqpərəst, qonaqsevən.
***Mehmanyar*** (f.,t.) - qonağı sevən; qonaqpərəst.
***Mehrab*** (ə.) - məsciddə namaz guşəsi.
***Mehrac//Merac*** (ə.) - islam dini əfsanəsinə görə, Məhəmməd peyğəmbərin Allahla danışmaq üçün göyə çıxması; qalxma.
***Mehralı//Mehrəli*** (f.,ə.) - Əli mehri, Alı sevgisi.
***Mehran, Mehranə*** (f.,) - sevən, məhəbbət bəsləyən, vurulan.
***Mehrdad*** (f.) - Günəşin töhfəsi, Günəşin bəxşişi.
***Mehrəddin*** (f.,ə.) - din sevgisi; din məhəbbəti; dinə olan sevgi.
***Mehrulla*** (f.,ə.) - Allah məhəbbəti, Tanrı sevgisi.
***Melis*** - Marks, Engels, Lenin və Stalin adından.
***Memar//Mimar*** (ə.) - memar, arxitektor.
***Meyar*** (ə.) - çəki, qiymət və saflıq dərəcəsini göstərən ölçü.
***Meydan*** (f.) - açıq və geniş sahə.
***Meydanalı//Meydanəli*** (f.,ə.) - Əli meydanı.
***Meyxoş*** (f.) - turş ilə şirin arasında orta dad; turşaşirin.
***Məcdəddin*** (ə.) - dinin böyüklüyü, şanı, şərəfi.
***Məcdi*** (ə.) - böyüklük, ululuq; şan, şərəflə əlaqəli.
***Məcid, Məcidə*** (ə.) - əzəmətli, görkəmli (Allahın epitetlərindən biri).
***Məcməddin*** (ə.) - dinin toplanışı, yığıncağı, qovşağı.
***Məcnun, Məcnunə*** (ə.) - dəli; eşqə tutulmuş, vurğun.
***Məcruh, Məcruhə*** (ə.) - yaralanmış, yaralı.
***Mədaxil*** (ə.) - daxil olunacaq şeylər, gəlirlər; qazanc, gəlir.
***Mədayin*** (ə.) - Mədinə (Mədain) adının cəmi; Mədinələr, şəhərlər.
***Məddah*** (ə.) - mədh edən, tərifləyən.
***Mədəd//Mədət*** (ə.) - kömək, yardım, aman, imdad.
***Mədi, Mədihə*** (ə.) - tərifə layiq iş, hərəkət və ya şəxs.
***Mədiyar*** (mac.) - macarlar; Macarıstan Respublikasının əsas əhalisi.
***Məfruz***, ***Məfruzə*** (ə.) - fərz olunan, nəzərdə tutulan.
***Məftun***, ***Məftunə*** (ə.) - vurğun, aşiq; heyran olmuş; valeh olmuş.
***Məftur***, ***Məfturə*** (ə.) - heyran olmuş; valeh olmuş.
***Məğrub***, ***Məğrubə*** (ə.) - qərb, günbatan.
***Məğrur***, ***Məğrurə*** (ə.) - qürurlu, vüqarlı, mənlik hissi olan.
***Məharət*** (ə.) - ustalıq, qabiliyyət, bacarıq, hünər.
***Məhbub***, ***Məhbubə*** (ə.) - sevilən, məşuq; sevgili; dost.

***Məhcur, Məhcurə*** (ə.) – uzaqda qalmış, unudulmuş, atılmış, tərk edilmiş. XVIII əsr Azərbaycan şairi Məhcur Şirvaninin təxəllüsündən yayılmışdır.
***Məhəd//Məhət*** (ə.) - əsli "məhd"dir və beşik deməkdir.
***Məhəmməd*** (ə.) - bəyənilən, tərifəlayiq (Sonuncu peyğəmbərin adındandır).
***Məhəmmədağa*** - bax: Məhəmməd və Ağa.
***Məhəmmədəli*** - bax: Məhəmməd və Əli.
***Məhəmmədqulu*** - bax: Məhəmməd və Qulu.
***Məhəmmədvəli*** - bax: Məhəmməd və Vəli.
***Məhər*** - "Məhərrəm" (bax) adının qısaltma forması.
***Məhərrəm*** (ə.) - qadağan edilmiş, haram (Ərəb qəməri təqviminin birinci ayının adındandır).
***Məhkəmə (ə.)*** - cinayət işlərinə və mülki mübahisələrə baxan ədliyyə orqanı.
***Məhrəm*** (ə.) - yaxın dost, yaxın adam.
***Məhvər//Mehvər*** (ə.) - öz ətrafında fırlanan bir şeyin ortasından keçən mil, ox.
***Məhzum, Məhzumə*** (ə.) - məğlub edən, qalib gələn.
***Məhzun***, ***Məhzunə*** (ə.) - qəmli, kədərli, həzin.
***Məkan***, ***Məkanə*** (ə.) - yer; yurd, məskən.
***Məkrub, Məkrubə*** (ə.) - kədərli, qəmli, məyus.
***Məqam*** (ə.) - zaman, vaxt, an.
***Məqatil*** (ə.) - qətl yerləri.
***Məqsəd*** (ə.) - dilək, arzu, niyyət, məram; murad.
***Məqsud***, ***Məqsudə*** (ə.) - istənilən, arzu edilən şey.
***Məqsum, Məqsumə*** (ə.) - alın yazısı, tale; bölünən, bölünmüş.
***Məlik*** (ə.) - hökmdar, hakim (Allahın epitetlərindən biri).
***Məlikabbas*** - bax: Məlik və Abbas.
***Məlikaslan*** (ə., t) – «məlik» (hökmdar) və «aslan» (şir) sözlərindən düzəlmiş, qüdrətli hökmdar deməkdir.
***Məlikcümşüd*** - bax: Məlik və Cümşüd.
***Məlikəhməd*** - bax: Məlik və Əhməd.
***Məlikəjdər*** - bax: Məlik və Əjdər.
***Məlikəli//Məlkəli*** (ə.) - şah Əli, hökmdar Əli.
***Məlikheydər*** - bax: Məlik və Heydər.
***Məlikhüseyn*** - bax: Məlik və Hüseyn.
***Məlikməmməd*** (ə.) - hökmdar Məmməd, şah Məmməd.
***Məlikmirzə*** - bax: Məlik və Mirzə.

***Məlikşah*** (ə.,f.) - şahlar şahı, hökmdarlar hökmdarı.
***Məlikyegan*** (ə.,f.)– «məlik» və «yeganə» sözlərindən yaranmış, «hökmdar şah, böyük hökmdar» deməkdir.
***Məlum*** (ə.) - aşkar, aydın, bəlli olan, bilinən; haqq.
***Məlumat*** (ə.) - bir şey haqqında bilik, xəbər.
***Məmduh, Məmduhə*** (ə.) - öyülmüş, təriflənmiş; bəyənilən.
***Məmi//Məmiş*** - "Məhəmməd" və "Məmməd" komponentli adların əzizləmə forması.
***Məmməd*** - "Məhəmməd" adının qısaldılmış forması.
***Məmmədağa*** - bax: Məmməd və Ağa.
***Məmmədarif*** (ə.) - Məmməd və Arif.
***Məmmədbağır*** - bax: Məmməd və Bağır.
***Məmmədcan*** (ə.,f.) - Məmmədin ürəyi, canı, ruhu; Məmməd kimi.
***Məmmədcəfər*** (ə.) - bax: Məhəmməd və Cəfər.
***Məmmədəli//Məmmədalı*** (ə.) - Məmməd və Əli (IV xəlifə və I imam).
***Məmmədəmin*** (ə.) - bax: Məmməd və Əmin (Məhəmməd Peyğəmbərin epitetlərindən biri.
***Məmmədəzim*** (ə.) - bax: Məmməd və Əzim (Məhəmməd peyğəmbərin epitetlərindən biri).
***Məmmədhənifə*** (ə.) - bax: Məmməd və Hənifə.
***Məmmədhəsən*** (ə.) - bax: Məmməd və Həsən.
***Məmmədhüseyn*** - bax: Məmməd və Hüseyn.
***Məmmədxan*** - bax: Məməd və Xan.
***Məmmədismayıl*** - bax: Məmməd və İsmayıl.
***Məmmədiyyə*** (ə.) - Məhəmmədin dinindən olan; müsəlman.
***Məmmədkazım*** (ə.) - bax: Məmməd və Kazım.
***Məmmədkərim*** (ə.) - bax: Məmməd və Kərim.
***Məmmədqafur*** (ə.) - bax: Məmməd və Qafur.
***Məmmədqasım -*** bax: Məmməd və Qasım.
***Məmmədqulu*** - bax: Məmməd və Qulu.
***Məmmədnağı*** (ə.) - bax: Məmməd və Nağı.
***Məmmədnəbi*** - bax: Məmməd və Nəbi.
***Məmmədniyaz*** (ə.,f.) - bax: Məmməd və Niyaz.
***Məmmədrahim// Məmmədrəhim*** (ə.) - bax: Məmməd və Rahim.
***Məmmədrəsul*** (ə.) - bax: Məmməd və Rəsul.
***Məmmədrza*** (ə.) - bax: Məmməd və Rza.
***Məmmədsəlim*** (ə.) - bax: Məmməd və Səlim.
***Məmmədşah*** - bax: Məmməd və Şah.

***Məmmədtağı*** - bax: Məmməd və Tağı.
***Məmmədvəli*** (ə.) - bax: Məmməd və Vəli.
***Məmmədyar*** (ə.,f.) - Məmmədin dostu, Məmmədin yoldaşı.
***Məmnun***, ***Məmnunə*** (ə.) - razı olan, razı, xoşhal.
***Məmur, Məmurə*** (ə.) - əmr almış, bir iş tapşırılmış; idarədə yazı ilə məşğul olan adam.
***Mənsim//Mənsum, Mənsima//Mənsumə//Mənsuma*** - "Məsumə" adının dəyişdirilmiş şəkli.
***Mənsur, Mənsurə*** (ə.) - qələbə çalmış, üstün gəlmiş; nəsrlə yazılmış şeir.
***Mənşur***, ***Mənşurə*** (ə.) - yayılmış, çap olunmuş; hökmdar fərmanı.
***Məntiq, Məntiqə*** (ə.) – təfəkkürün qanun və normaları haqqında elm; qanunauyğun, zəruri; düz; nitq, dil; söhbət, müsahibə.
***Mənuçöhr//Mənüçöhr//Məniçöhr*** (f.) - Mənu nəslindən olan, Mənu sifətli.
***Mənzum***, ***Mənzumə*** (ə.) –nizama düzülmüş; sıra, düzüm; müntəzəm; şeir, poema.
***Mənzur***, ***Mənzurə*** (ə.) - nəzərdə tutulmuş, arzu edilmiş.
***Mərahim//Mərayim*** (ə.) - mərhəmətlər; yaxşılıqlar.
***Mərasim***//***Məraşim*** (ə.) - rəsmi ayinlər; təntənə, şənlik.
***Mərdağa*** (f.,t.) - qəhrəman, igid ağa; əliaçıq, səxavətli ağa.
***Mərdalı//Mərdəli*** (f.,ə.) - Əli alicanablığı, Əli vəfası; Əli kimi igid, cəsur.
***Mərdan***, ***Mərdanə*** (f.) - kişilər, mərdlər, ərlər.
***Mərdanalı//Mərdanəli*** - bax: Mərdan, Alı və Əli.
***Mərdanət*** - "Mərdan" (bax) adından düzəlmişdir.
***Mərdi*** (f.) - mərdlik, kişilik; kişiyə xas olan. "Mərd" ilə başlanan adların ixtisar şəkli.
***Mərkəz*** (ə.) - hər hansı şey və yerin ortası.
***Məruf*** (ə.) - məlum, hər kəsin bildiyi, bilinən.
***Mərval*** (ə.) – çaxmaqdaşı; möhkəm, sağlam oğlan.
***Mərvan//Mərvin, Mərvanə//Mərvinə.*** (ə.) - çaxmaqdaşlı, çaxmaq daşı olan.
***Məsail*** (ə.) - məsələlər.
***Məsdər*** (ə.) - mənşə, mənbə.
***Məsfur, Məsfurə*** (ə.) - yazılmış, qeyd olunmuş; taledə yazılan övlad.
***Məshur, Məshurə*** (ə.) - məftun edilmiş; sehrlənmiş aşiq.
***Məsih*** (y.) - Allahın mərhəməti (bax: İsa).
***Məsim***//***Məsum//Məsun***, ***Məsimə//Məsumə//Məhsumə*** (ə.) - təmiz, pak; günahsız.

***Məsləhət*** (ə.) - tövsiyə.
***Məsmalı//Məsməli*** (ə.) - təmiz, pak; günahsız Əli(Məsuməli adının təhrif forması).
***Məsrur***, ***Məsrurə*** (ə.) - şad, şən, sevincək.
***Məstalı//Məstəli*** (f.,ə.) - Əliyə məftun olma, Əliyə pərəstiş etmə.
***Məstan***, ***Məstanə*** (f.) - kefli, məst, xumar.
***Məstur, Məsturə*** (ə.) - təmiz, bakir; örtülü, qapalı; təvazökar; yazılmış.
***Məsud***, ***Məsudə*** (ə.) - xoşbəxt, bəxtiyar, ağgün, şad.
***Məşədalı//Məşədəli*** (ə.) - bax: Məşədi və Əli.
***Məşədi//Məşdi*** (ə.) - İranın Xorasan-Məşhəd şəhərində dəfn olunmuş müqəddəslərin məzarını ziyarət edən müsəlmanlara verilən dini fəxri ad.
***Məşədiabidin*** - bax: Məşədi və Abidin.
***Məşədibəy*** - bax: Məşədi və Bəy.
***Məşədixan*** (ə.,t.) – Məşhəd şəhərini ziyarət etmiş xan, hökmdar.
***Məşhur***, ***Məşhurə*** (ə.) - adlı, adlı-sanlı, tanınmış.
***Məşkur, Məşkur***ə (ə.) - şükr edilən, şükrə layiq, təşəkkürə layiq.
***Məşuq***, ***Məşuqə*** (ə.) - sevilən, istənilən, sevgili, istəkli.
***Məti//Mətiş*** - "mət" hecası ilə başlanan adların əzizləmə forması.
***Mətin*** (ə.) - mətanətli, davamlı, səbatlı, sarsılmaz; bərk, möhkəm.
***Mətləb, Mətlubə*** (ə.) - arzu, istək, məqsəd, dilək; işin mahiyyəti, məsələnin məğzi.
***Məzahim//Məzaim*** (ə.) - əziyyət verən; maneə, əngəl; əmək; əziyyətli.
***Məzahir*** (ə.) - görünənlər, zahir olanlar; nümayişlər.
***Məzbur***, ***Məzburə*** (ə.) - haqqında danışılmış.
***Məzdək*** (f.) - yaradan, yaradıcı; Tanrı.
***Məzhər*** (ə.) - təzahür; yetişmə, nail olma; canlanma.
***Məzid*** (ə.) - artırma, çoxaltma; əlavə etmə.
***Məzkur***, ***Məzkurə*** (ə.) - zikr olunmuş, haqqında danışılmış; yuxarıdakı.
***Məzlum*** (ə.) - zülm çəkmiş, zülm olunmuş, zülm çəkən.
***Midhad//Midhəd//Mithət// Mithat*** (ə.) - mədh etmə, öymə, tərifləmə.
***Miğdad//Miqdad//Mığdad//Miğdat//Miqdat//Muğdət//Müğdət//Muqdət //Müqdət*** (ə.) - Məhəmməd peyğəmbərin ən yaxın adamı və çobanı olmuşdur.
***Mihad*** (ə.) - döşək.
***Mikail//Mikayıl*** (y.) - Əsli "Mikael"dir. Qədim y. Allahı Yaxveyə bərabər olan, Tanrıya müqabil olan. Dini rəvayətə görə, dörd mələkdən biri - canlıların ruzisini təmin edən mələyin adıdır.

***Miknət*** (ə.) - bacarıq, iqtidar; dövlət.
***Miqyas*** (ə.) - ölçü, ölçü aləti; geniş, əhatəli, vüsətli.
***Millət*** (ə.) - insanların tarixən dil, ərazi, iqtisadi həyat və psixi ümumiliyi əsasında əmələ gəlmiş sabit birliyi.
***Minacəddin*** (ə.) - “minacat” və “din” sözlərindən əmələ gəlmiş və dinin minacat deyəni - minacatçısı, azançısı.
***Minaxan*** (ə.,t.) - mina kimi qiymətli xan; minaçıların başçısı.
***Minalı//Minəli*** - min Əli, Əli minincisi.
***Minas*** (q.,t.) – «binas» etnonimindəndir, «güclü, qüdrətli; min aslan gücü olan» deməkdir.
***Minasaz*** (f.) - qiymətli metaldan hazırlanmış əşyaların üzərinə mina ilə naxış vuran, mina vuran sənətkar, minaçı; zərgər; naxışçı.
***Minbaşı*** - min əsgərin başçısı, alay komandiri (Hazırda Türkiyə və İranda).
***Minəxan*** - min əsgərə xan olan; minbaşı; sərkərdə.
***Minnət*** (ə.) - edilən yaxşılıq və hörmətə qarşı duyulan borcluluq hissi, özünü borclu bilmək.
***Mintemir*** - dəmirdən olan, möhkəm bədənli, dəmir kimi sərt və sağlam.
***Minyaşar*** - min il yaşayan, uzun ömür sürən.
***Mir*** - ə. "Əmir" sözünün farslaşmış forması; rəis, başçı, ağa; Məhəmməd peyğəmbərin nəslindən olanların (seyidlərin) adlarına artırılan dini titul.
***Mirab*** (f.) - keçmişdə suvarma işlərini idarə edən şəxs (əmir).
***Mirabbas*** (ə.) - mir (əmir): ağa, cənab, başçı, rəis; seyidlərin adlarına artırılaraq onların Məhəmməd peyğəmbərin nəslindən olduğunu bildirir; Seyid Abbas.
***Mirağa*** (f.,t.) - seyid ağa, ağa seyid.
***Miralay*** (ə.,t.) - alay əmiri, polkovnik.
***Miralı//Mirəli*** (ə.) - seyid nəslindən olan Əli; əmir Əli; rəis, başçı Əli.
***Miran*** (f.) - ağalar, seyidlər.
***Miranşah*** (f.) - əmirlər şahı, əmirlər hökmdarı.
***Mirbaba*** - bax: Mir və Baba.
***Mirbağır*** - bax: Mir və Bağır.
***Mirbala*** - bax: Mir və Bala.
***Mirbəşir*** - bax: Mir və Bəşir.
***Mircalal//Mircəlal*** - bax: Mir və Calal, Cəlal.
***Mircamal*** (ə.) – seyid Camal; ağa, rəis, başçı Camal.

***Mircavad*** (ə.) - Mir Cavad; səxavətli rəis, qəlbigeniş rəhbər.
***Mircəfər*** - bax: Mir və Cəfər.
***Mirdaməd*** (ə.,f.) - təzə bəylərin əmiri, təzə bəylərin ən üstünü.
***Mirəhməd*** (ə.) - Mir Əhməd; Seyid Əhməd.
***Mirelyas//Mirilyas*** (ə.) - Mir İlyas, seyid Elyas.
***Mirələm*** (f.,ə.) - əmirin bayrağı; bayraqların başı.
***Mirəziz*** (ə.) - Mir Əziz; seyid Əziz; sevimli rəis, istəkli rəhbər.
***Mirfərəc*** - bax: Mir və Fərəc.
***Mirhacı*** (f.,ə.) - Mir Hacı; Seyid Hacı; hacıların başçısı.
***Mirhadı*** - bax: Mir və Hadı.
***Mirhaşım*** - bax: Mir və Haşım.
***Mirhəbib*** - bax: Mir və Həbib.
***Mirhəsən*** - bax: Mir və Həsən.
***Mirhuseyn*** - bax: Mir və Hüseyn.
***Mirxalıq*** - bax: Mir və Xalıq.
***Mirxəlil*** - bax: Mir və Xəlil.
***Mirxıdır*** - bax: Mir və Xıdır.
***Miri*** (ə.) - seyid nəslindən olan, seyidə aid.
***Miriş*** - "mir" ilə başlanan adların əzizləmə forması.
***Mirkalam//Mirkəlam*** (ə.) - çox gözəl, xoş və yaxşı danışan.
***Mirkamal*** - bax: Mir və Kamal.
***Mirkazım*** - bax: Mir və Kazım.
***Mirkərim*** - bax: Mir və Kərim.
***Mirqasım*** (ə.) –seyid Qasım; ağa, rəis, başçı, cənab Qasım.
***Mirqələm*** - bax: Mir və Qələm.
***Mirmehdi*** - bax: Mir və Mehdi.
***Mirpaşa*** - bax: Mir və Paşa.
***Mirrəhim*** - bax: Mir və Rəhim.
***Mirsadıq*** - bax: Mir və Sadıq.
***Mirsəfi*** - bax: Mir və Səfi.
***Mirsəftər*** - bax: Mir və Səftər.
***Mirsəid*** - bax: Mir və Səid.
***Mirsəlim*** - bax: Mir və Səlim.
***Mirşəfi*** - bax: Mir və Şəfi.
***Mirşərif*** - bax: Mir və Şərif.
***Mirtahir*** - bax: Mir və Tahir.
***Miryasin*** - bax: Mir və Yasin.
***Miryəhya*** - bax: Mir və Yəhya.

***Miryusif*** - bax: Mir və Yusif.
***Mirzağa//Mirzəağa*** - bax: Mirzə və Ağa.
***Mirzalı//Mirzəli*** (ə.) - Mirzə Əli, Mirzə Alı.
***Mirzə*** (ə.,f.) - "əmir" və "zadə" sözlərinin birləşməsindən düzəlmiş və "əmir oğlu, əmir nəslindən olan" mənasındadır. Sonralar "hörmətli, möhtərəm; savadlı, oxumuş, katib" mənalarında da işlənmişdir. "Mirzə" əsl addan əvvəl gələndə "savadlı, oxumuş" mənasında ləqəb, sonra gələndə isə titul bildirir: Mirzə Cəlil, Sam Mirzə.
***Mirzəbaba*** - bax: Mirzə və Baba.
***Mirzəbala*** - bax: Mirzə və Bala.
***Mirzəcan*** (f.) - Mirzənin canı, ürəyi; Mirzə ruhlu, ürəkli adam.
***Mirzəhəsən*** - bax: Mirzə və Həsən.
***Mirzəhüseyn*** - bax: Mirzə və Hüseyn.
***Mirzəxan*** - bax: Mirzə və Xan.
***Mirzəkişi*** - Mirzə və kişi sözlərindən yaranmışdır.
***Mirzəqulu*** - bax: Mirzə və Qulu.
***Mirzəmi*** - Mirzə əmi.
***Mirzəyar*** - mirzəni sevən, mirzənin dostu, köməyi.
***Misəllim//Müsəllim*** (ə.) - təslim edən, tapşıran.
***Misgər*** (f.) - misdən müxtəlif qablar qayıran usta.
***Misgin//Miskin*** (ə.) - fağır, biçarə, bədbəxt, yazıq.
***Misir*** (ə.) - böyük şəhər, iri yaşayış məntəqəsi (Misir ƏR-nin adındandır).
***Misirxan*** - Misir xanı, böyük şəhərin xanı.
***Misri*** - Misrə məxsus; misirli; Koroğlunun qılıncına verilən ad.
***Mişkat*** (ə.) – çıraq qoyulan qab; şamdan; evin, nəslin odunu qoruyub saxlaya bilən oğul.
***Mizam//Mizan*** (ə.) - ölçü, meyar, çəki, tərəzi; səviyyə, dərəcə; nizam, qayda.
***Mobid//Mobit//Möbid*** (ə.) - zərdüşt dininə məxsus kahin; bilikli, alim.
***Mobil, Mobilə*** - "Müqbil" (bax) adının dəyişdirilmiş şəkli.
***Molla*** (ə.) - ağa, cənab, sahib (Böyük ruhani alimi, qazı; xacə, dini məktəblərdə dərs deyən müəllim - moula və ya mövla).
***Mollaağa*** (ə.,t.) - Molla Ağa; "bizim ağamız" mənasında olan "maulana" sonralar "molla" və "müəllim" (ilk ərəb məktəblərində şagirdlərə dərs deyən şəxslərə "maulana" şəklində müraciət edərmişlər) formasına düşmüşdür.
***Möcüz***, ***Möcüzə*** (ə.) - xariqə, qeyri-adi, heyrət doğuran.

***Möhbala*** - "Mehbala" adının (bax) dəyişilmiş forması.
***Möhbəddin*** (ə.) - əsli "mühibbəddin"dir; dini sevən, dinə bağlı olan.
***Möhkəm*** (ə.) - davamlı, bərk; sağlam.
***Möhlət*** (ə.) - vaxt vermə; müddət; icazəli vaxt.
***Möhnət*** (ə.) - əziyyət, zəhmət, qayğı, kədər, qüssə; bəla, müsibət.
***Möhsim//Möhsüm*** - "Möhsün"ün (bax) dəyişdirilmiş forması.
***Möhsün//Mövsün//Mönsün//Mövsüm,Möhsünə//Mövsünə//Mövsümə*** (ə.) - yaxşılıq edən, xeyirxah, xeyirli.
***Möhtərəm*** (ə.) - ehtirama layiq, əziz, hörmətli.
***Möhtəsib*** (ə.) - bələdiyyə rəisi; şəriət işlərinə nəzarət edən.
***Möhtəsim*** (ə.) - Allah tərəfindən müdafiə olunan, Allahın müdafiə etdiyi.
***Möhübbət//Mühübbət*** (ə.) - sevgi, eşq, məhəbbət.
***Mömin***, ***Möminə*** (ə.) - dindar kişi (və ya qadın).
***Mötəbər*** (ə.) - etibarlı, inanılmış, hörmətli, nüfuzlu.
***Mötəşəm//Möhtəşəm*** (ə.) - əzəmətli, öz böyüklüyü ilə insanı valeh edən, həşəmətli, ehtişamlı, göz qamaşdıran.
***Mövla*** (ə.) - cənab, ağa; yaradan, yaradıcı; Allah, Tanrı.
***Mövlam//Möylam//Mevlam*** (ə.,t.) - mənim Tanrım; mənim ağam.
***Mövlamqulu*** (ə.,t.) - Tanrının qulu; ağanın köləsi.
***Mövlamverdi//Mövlanverdi*** (ə.,t.) - Tanrım verdi; Ağam verdi.
***Mövlan//Mevlan*** (ə.,t.) - sənin Tanrın, sənin ağan.
***Mövlanə*** (ə.) - Şərqdə hörmət üçün bəzi islam alim və şairlərinə verilən ad.
***Mövlud//Mövlüd// Mehlud//Meylud, Mövludə//Mehludə//Meyludə*** (ə.) - doğum, doğuluş, doğulma; peyğəmbərin doğum günü, ad günü.
***Mövluddin//Mövlüddin*** (ə.) - dinin doğuluşu, dinin zühuru.
***Mövsüm***, ***Mövsümə//Mövsumə*** (ə.) - fəsil, ilin 4 fəslindən hər biri, bir şeyin müəyyən vaxtı; adlandırılmış, qeyd olunmuş.
***Muğan*** - muğlar; muğların yaşadığı yer (Muğ qədim hun-türk tayfalarından birinin adıdır və "tərifləmək, şöhrətləndirmək" kimi də izah edilir).
***Muğbil//Müqbil//Muqbil*** (ə.) - taleyi yaxşı gətirən, xoşbəxt, bəxtiyar, ağgün.
***Muğum//Müğüm, Muğumə*** (ə.) - daimi, əbədi, çox yaşayan, möhkəm.
***Muğumalı//Muğuməli*** (ə.) - daimi, əbədi, çox yaşayan; möhkəm Əli.
***Muxtar*** (ə.) - seçilmiş (Məhəmməd peyğəmbərin epitetlərindən biri).

***Mukafat//Mükafat*** (ə.) - insan fəaliyyətini qeyd etmək üçün ona verilən bəxşiş, qiymətli hədiyyə.
***Munis***, ***Munisə*** (ə.) - ünsiyyət saxlayan, mehriban.
***Murad*** (ə.) - arzu, məqsəd, niyyət, istək, dilək.
***Muradalı//Muradəli*** - bax: Murad, Alı və Əli.
***Muradxan*** (ə.,t.) - Murad xan; hökmdarın arzusu, xanın diləyi.
***Murğuz//Murquz*** (ə.,t.) - oğuz quşu; taxıllar fəsiləsindən qarğıdalıya bənzər bitki.
***Murtuz//Murtuza//Murtaza//Mürtəza//Murtəz*** (ə.) - seçilmiş, razılaşdırılmış, arzu edilən (İmam Əlinin epitetlərindəndir).
***Murtuzalı//Murtuzəli*** (ə.) - Mürtəza Əli, seçilmiş, bəyənilmiş Əli.
***Murtuzqulu*** (ə.,t.) - Mürtəza Əlinin qulu.
***Musa*** (ə.) - suya batmaqdan qurtulmuş, sudan xilas olmuş ("Bibliya"da adı çəkilmiş əfsanəvi Moşa peyğəmbərin qədim y. adının ə. forması).
***Musaxan*** (ə.,t.) - Musa xan; xan, hökmdar Musa.
***Musavər*** (ə.) - Musa mömini; Musaya inanan.
***Museyib//Müseyib*** (ə.) - ehtiyatlı hərəkət edən, ehtimalla iş görən.
***Musəddin*** (ə.) - Musa peyğəmbərin dini; Musa peyğəmbər tərəfindən yaradılan din.
***Musəvi*** (ə.) - yəhudi; Musa dinindən olan.
***Mustafa*** (ə.) - seçilmiş, bəyənilmiş (Məhəmməd peyğəmbərin epitetlərindən biri).
***Muştaq//Müştaq//Miştaq*** (ə.) - arzu edilən, arzulanan.
***Muştuluq*** - xeyir xəbər, sevindirici və xoş söz; müjdə; şad xəbər gətirənə verilən hədiyyə, bəxşiş.
***Mutlu*** - xoşbəxt, firavan.
***Mutluağa*** - xoşbəxt ağa, firavan ağa.
***Mutlualp*** - xoşbəxt igid, xoşbəxt qəhrəman.
***Mutlubay//Mutlubəy*** - xoşbəxt bəy, firavan bəy.
***Mutluxan*** - xoşbəxt xan, firavan xan.
***Mutu*** (q.,t.) – qaşqabaqlı; qaşqabaqlı oğlan.
***Müasir*** (ə.) - başqaları ilə eyni dövrdə yaşayan; çağdaş.
***Müaviyyə//Maviyə*** (ə.) - "göy rəng" ifadəsinin cəmi; gömgöy.
***Mübadil*** (ə.) – «mübadilə» sözündən olub, bir şey verib əvəzində başqa bir şey alma; dəyişmə.
***Mübarək//Nübarək*** (ə.) - gözaydınlığı vermə; mübarək olsun.
***Mübariz//Mübarizə*** (ə.) - mübarizə aparan, çalışan; döyüşçü, vuruşan.

***Mübaşir*** (ə.) - İranda kəndi idarə etmək üçün mülkədarın təyin etdiyi adam.
***Mübəşşir*** (ə.) - xoş xəbər gətirən, muştuluqçu, muştuluq gətirən.
***Mübin*** (ə.) - yaxşını və pisi, düzgünü və yalanı ayıran; açıq, aydın, aşkar, bəlli olan.
***Mücahid*** (ə.) - fədai, inqilabçı, üsyançı.
***Müctəba//Müştəba*** (ə.) - seçilmiş, seçkin, bəyənilmiş.
***Müdafiə//Müdafə*** (ə.) - hücumdan qorunma, hücuma qarşı durma.
***Müdavim*** (ə.) - davam edən, davamlı; tələbə.
***Müdrik, Müdrikə*** (ə.) - dərin dərrakəli, çox ağıllı, çox dərin düşünən, aqil, dünyagörmüş; kamala yetmiş.
***Müdvar*** - "ümidvar" sözünün qısaldılmış forması.
***Müfid, Müfidə*** (ə.) - faydalı, mənfəətli, xeyirli, əlverişli; yarayan, ibrətamiz.
***Müfti*** (ə.) - hüquq məsələləri üzrə fitva verməyə ixtiyarı olan, yüksək vəzifəli ruhani; sünnilərin dini işlərinə rəhbərlik edən ruhani.
***Mühacir*** (ə.) - müxtəlif səbəbdən vətəndən kənarda yaşayan adam.
***Mühafiz*** (ə.) - mühafizə edən, qoruyan; mühafizəçi.
***Müharib//Mühariba*** (ə.) - savaşan, vuruşan; döyüşçü, cəngavər.
***Mühəddin*** (ə.) - hüdud qoyan, məhdudlaşdıran; təyin edən, müəyyənləşdirən.
***Mühib, Mühibə*** (ə.) - sevən, aşiq olan; dost.
***Mühid//Mühit*** (ə.) - hər hansı boşluğu dolduran və müəyyən xassələrə malik olan maddə, cisimlər.
***Mühidalı//Mühidəli//Mühitalı//Mühitəli*** (ə.) - mühitin Əlisi; maddə və cismin Əlisi.
***Mühidbəy//Mühitbəy*** (ə.,t.) – mühitin bəyi; maddə və cismin bəyi.
***Mühiddin//Mühəddin*** (ə.) - dinin mühiti; dinin canlandırılması.
***Mühidxan//Mühitxan*** (ə.,t.) - mühitin xanı; maddə və cismin xanı.
***Müxalif*** (ə.) - zidd, əks, qarşı, əleyhinə olan.
***Müxlis//Muxlis, Muxlisə//Müxlisə//Muxlisət*** (ə.) - xalis, təmiz; səmimi olan, sədaqətli.
***Müxtədir*** (ə.) - güclü, qüvvətli.
***Müjdə*** (f.) - şad, sevindirici xəbər.
***Mükalim*** (ə.) - həmsöhbət, tərəf müqabili.
***Mükərrəm*** (ə.) - səxavətli, əliaçıq,kəramətli.
***Müqabil//Müğabil*** (ə.) - üzbəüz, qarşı tərəf, qarşı-qarşıya.
***Müqəddəm*** (ə.) - qabaqda olan; qabaq, əvvəl.

***Müqəddər*** (ə.) - bəlli olan, təyin olunmuş; anlaşılan.
***Müqəddəs*** (ə.) - Allaha aid olan, Tanrıya məxsus olan.
***Müqim//Mukim*** (ə.) - yaşayan, duran, qalan, əbədi, həmişəlik.
***Müqtədir*** (ə.) - qüdrətli, güclü; bacarıqlı, iqtidarlı, məharətli.
***Mülahiz*** (ə.) - seyr edən; düşünən, fikirləşən, əlavə edən.
***Mülazim*** (ə.) - lazımi, gərəkli; yavər, cangüdən, leytenant.
***Mülkalı//Mülkəli*** (ə.) - torpaq sahibi olan Əli, mülk sahibi Əli.
***Mülkədar*** (ə.,f.) - torpaq sahibi olan zadəgan, mülk sahibi.
***Mülkibəy//Mülkübəy*** (ə.,t.) - torpaq sahibi olan bəy, mülk sahibi olan bəy; bəy mülkü.
***Mülkixan//Mülküxan*** (ə.,t.) - mülkü olan xan, torpaq sahibi olan xan, xan mülkü.
***Mülkişah//Mülküşah*** (ə.,t.) - şah mülkü; torpaq, mülk sahibi olan şah.
***Mümtaz//Mumtaz*** (ə.) - başqalarından seçilən, seçilmiş, gözəl, əla.
***Münasib*** (ə.) - uyğun, müvafiq, yaraşan.
***Münif//Münifə*** (ə.) - yüksək, ali, ulu, böyük.
***Münir//Munir//Minur, Munirə//Münirə//Minirə//Minurə*** (ə.) - parlaq, nurlandıran, işıq verən, işıqlı.
***Münsif***, ***Münsifə*** (ə.) - mübahisəli işi həll edən şəxs.
***Müntəzir*** (ə.) - intizar çəkən, gözləyən; ümid bəsləyən.
***Müraciət*** (ə.) - birinə üz tutub söylənilən söz, çağırış; xahiş.
***Mürid, Müridə*** (ə.) - şagird; tərəfdar, ardıcıl; hər hansı təriqət şeyxinin ardınca gedən.
***Mürsəl*** (ə.) - elçi, Allah tərəfindən göndərilmiş adam; peyğəmbər.
***Mürşid//Mürşüd***, ***Mürşidə//Mürşüdə*** (ə.) - yolgöstərən, rəhbər, şeyx, müəllim, təriqət başçısı.
***Mürşidalı//Mürşidəli//Mürşüdalı//Mürşüdəli*** (ə.) - yolgöstərən rəhbər, müəllim Əli.
***Mürüvvət*** (ə.) - mərdlik, comərdlik; mərhəmət, insanlıq.
***Mürvət*** - bax: Mürüvvət.
***Müsafir***, ***Müsafirə*** (ə.) - səfər edən, səfərə gedən; səyahətçi; qonaq.
***Müsahib*** (ə.) - biri ilə söhbət edən, söhbətdə iştirak edən.
***Müsaid*** (ə.) - kömək edən; köməkçi.
***Müsbət*** (ə.) - sübut olunmuş, etiraz doğurmayan; yaxşı.
***Müsəddiq*** (ə.) - təsdiq edən, doğru sayan; yoxlayan; dostluq edən.
***Müsəf*** (ə.) - saf, təmiz, qarışığı olmayan; saflaşdırılmış.
***Müsəllim*** (ə.) – təslim edən, tapşıran.
***Müsəmma*** (ə.) - adlandırılan; adlı, adlanan.

***Müsənnif*** (ə.) - müəllif, əsəri yazan; bəstəkar.
***Müsəvvir*** (ə.) - təsvir edən, çəkən, rəssam.
***Müslim//Müslüm***, ***Müslimə//Müslümə*** (ə.) - müsəlman.
***Müstacab//Müstəcab//Müstəcəb//Müstəcib*** (ə.) - istəyi yerinə yetirilən, xahişi qəbula keçən.
***Müstəqim*** (ə.) - düz, doğru; sağlam; düzünə.
***Müşavir*** (ə.) - məsləhət verən, məsləhətçi, məşvərətçi.
***Müşfiq//Müşviq***, ***Müşviqə//Müşfiqə*** (ə.) - şəfqətli, mehriban, mərhəmətli.
***Mütalib//Mütəllib*** (ə.) - tələb edən, tələbkar; iddiaçı.
***Müştəb*** (ə.) - şübhə, şübhə doğuran; aydın olmayan.
***Mütəllim*** (ə.) - elm öyrənən, dərs alan; "Mütəəllim"- "tələbə" sözündəndir.
***Müzafəddin*** (ə.) - dinə əlavə.
***Müzahim//Məzaim*** (ə.) - zəhmət verən, əziyyətə salan.
***Müzahir***, ***Müzahirə*** (ə.) - bir şeyin zahir olduğu, baş verdiyi yer.
***Müzakir*** (ə.) - mərd adam; danışıq aparma, fikir mübadiləsi etmə.
***Müzamil*** (ə.) - məzəmmətlənən, danlanan.
***Müzəffər*** (ə.) - qalib, qələbə çalmış, zəfər qazanmış.

## ꕤ N ꕤ

***Nabatalı//Nabatəli//Nobatalı//Nobatəli*** (f.,ə.) - Nabat Əli, şirin Alı, Əli.
***Nabati//Nəbati*** (ə.) - bitkiyə aid olan, bitkiyə oxşayan, bitkidən olan.
***Nabil//Nəbil, Nabilə//Nəbilə*** (ə.) - fəzilətli, zəkalı, zəka sahibi; ağıllı, tərbiyəli, gözəl xasiyyətli.
***Nabir, Nabirə*** (f.) - nəvə.
***Nabit*** (ə.) - böyüyən, yetişən, çiçəklənən, boy atan.
***Naci// Nəci, Naciyyə//Naciyə*** (ə.) - nicat tapan, xilas olan; qurtaran, sərbəstliyə çıxan.
***Nacib, Nacibə//Nəcibə*** (ə.) - adlı, sanlı, nəcabətli, alicənab, bağışlanılan.
***Nadi, Nadiyə*** (ə.) - bağıran, çağıran, çığıran, qışqıran; rus.- "Nadya" adının ixtisar forması.
***Nadim//Nədim***, ***Nadimə//Nədimə*** (ə.) - şahın, hakimin həmsöhbəti; müsahibini əyləndirməyi bacaran; səmimi yoldaş.
***Nadir***, ***Nadirə*** (ə.) - aztapılan, az əldə edilən, qeyri-adi.
***Nadirşah//Nədirşah*** (ə.,f.) - Nadir şah; aztapılan şah, qeyri-adi şah;

***Nafiq, Nafiqə*** (ə.) - xeyir, mənfəət verən, xeyirxah.
***Nafil, Nafilə//Nəfilə*** (ə.) – bihudə, hədər, boş yerə, nahaq.
***Nafis***, ***Nafisə//Nəfisə//Nəfisət*** (ə.) - nəfis şey, incə şey, zərif şey.
***Nafiz***, ***Nafizə*** (ə.) - nüfuz edən, təsir göstərən; nüfuzlu.
***Nağdalı//Nağdəli//Nəğdəli*** - "Nəqdi-Əli" izafətindəndir; Əlinin verdiyi.
***Nağdı*** (ə.) - pul; var-dövlət, sərvət; mövcud olan, əldə olan.
***Nağı//Nəği*** (ə.) - qarışıqsız, qatışıqsız, saf, təmiz, xalis.
***Nahid***, ***Nahidə*** (ə.) - həddi-büluğa çatmış, yeniyetmə; Zöhrə ulduzu.
***Nahil, Nahilə*** (ə.) - xurma ağacı; mumdan düzəldilmiş süni ağac.
***Naxçıvan*** - dünyanın nəqşi, cahanın bəzəyi mənasında olan "nəqşi cahan" sözlərindən yaranmışdır.
***Naib//Nayıb//Nayib***, ***Naibə//Nayibə*** (ə.) - müavin, canişin; vəkil.
***Naibəli*** (ə.) - Əli köməkçisi, Əli canişini.
***Naiq//Nayiq*** (ə.) - od, alov, şölə.
***Nail//Nayil***, ***Nailə//Nayilə*** (ə.) - arzusuna yetişən, istəyinə çatan.
***Naim//Nayim***, ***Naimə//Nayimə*** (ə.) - yatan, yuxuda olan; yumşaq, sümüksüz.
***Nair//Nayır//Nayir***, ***Nairə//Nayirə*** (ə.) - od, alov, şölə, işıq saçan; dost, yoldaş.
***Nakam*** (f.) - kamına çatmamış, arzusu yerinə yetməmiş.
***Naqil*** (ə.) – daşıyan, bir yerdən başqa yerə aparan, nəql edən, danışan, istiliyi, elektriki, səsi başqa cismə keçirən.
***Naqim//Nəqim, Naqimə//Nəqimə*** (ə.) - lağım; xoşbəxtlik, salamatlıq.
***Namaz*** (f.) - müsəlmanların gündə beş dəfə müəyyən qaydalar üzrə icra etdikləri ibadət.
***Namazalı//Namazəli*** (f.,ə.) - Əli namazı, Alı namazı.
***Namdar*** (f.) - adlı-sanlı; igid, qəhrəman.
***Naməddin*** (f.,ə.) - dinin adı, şanı, şöhrəti.
***Namət*** (f.,ə.) - adı bəlli, adlı, adlar.
***Nami***, ***Namiyə*** (ə.) - adlı, məşhur, adlı-sanlı.
***Namid, Namidə*** (ə.) - adlı, adı olan, adlanmış.
***Namik//Namiq***, ***Namiqə*** (ə.) - bəzəyən, zinətləndirən, süsləyən.
***Namiqkamal*** (ə.) - bax: Namiq və Kamal.
***Namil, Namilə*** (f.,t.) - adla, ada aid, adı ilə; ilin adlısı.
***Namizəd*** (f.) - bir işə, qulluğa təyin və ya qəbul edilməsi nəzərdə tutulan adam; nişanlı, adaxlı.
***Namus*** (yun.) - şərəf, qeyrət, heysiyyət.

***Narkom*** (r.) - “narodnıy komissar” birləşməsinin ilk hecalarından düzəlmişdir.
***Narsud*** (r.) - “narodnıy sud” sözlərindən düzəlmişdir.
***Naseh//Nasih***, ***Nasihə//Nasiyə***//***Nasya*** (ə.) - nəsihət verən, öyüd verən.
***Nasib//Nəsib, Nasibə//Nəsibə*** (ə.) - yaxın, doğma; əsil-nəcabətli, qohum.
***Nasif//Nəsif, Nasifə//Nəsifə*** (ə.) - yetişmiş meyvə, qadın örpəyi, kişi papağı; zolaqlı parça.
***Nasir***, ***Nasirə*** (ə.) - qalib, müzəffər.
***Naşid, Naşidə*** (ə.) - şeir oxuyan, şeir yazan, ahəngdar oxuyan.
***Naşir*** (ə.) - nəşr edən; yayan.
***Natiq***, ***Natiqə*** (ə.) - nitq söyləyən, yaxşı danışan.
***Nazif//Nəzif***, ***Nazifə//Nəzifə*** (ə.) - pak, təmiz, saf.
***Nazil***, ***Nazilə//Nəzilə*** (ə.) - düşən, enən; qonaq, mehman.
***Nazim***, ***Nazimə*** (ə.) - nizama salan; nəzmə çəkən.
***Nazir***, ***Nazirə*** (ə.) - nəzarət edən, nəzarətçi; nazirliyə başçılıq edən.
***Nehman//Neman//Neyman//Niman*** (ə.) - qan; qırmızı.
***Nemət//Nəmət*** (ə.) - sərvət, dövlət.
***Nemətdin//Neyməddin*** (ə.) - dinin sərvəti, varı, dövləti.
***Nemətulla*** (ə.) - Allahın neməti, Tanrının sərvəti.
***Neysan***, ***Neysanə*** (f.) - Rum təqviminə görə aprel ayı və bu ayda yağan yağış.
***Neyzən*** (f.) - tütək çalan, ney çalan.
***Nəbahət*** (ə.) - şan, şöhrət, şərəf.
***Nəbi//Nabi*** (ə.) - peyğəmbər, rəsul; xəbər verən, xəbər gətirən.
***Nəbiulla***//***Nəbiyulla*** (ə.) - Allahın peyğəmbəri.
***Nəbiyəddin*** (ə.) - dinin nəbisi, dinin peyğəmbəri.
***Nəcdət//Nəjdəd -*** (ə.) - igidlik, qəhrəmanlıq, şücaət.
***Nəcəf*** (ə.) - Məkkə və Mədinə yolunda yerləşən şəhərin adındandır. IV xəlifə Həzrət Əlinin məzarı bu şəhərdə yerləşdiyi üçün "Məşhəd Əli", "Əlinin dəfn olunduğu yer", "Nəcəf əl-Kufə" də adlanır.
***Nəcəfağa*** - bax: Nəcəf və Ağa.
***Nəcəfalı//Nəcəfəli*** (ə.) - Əli şəhəri, Alı şəhəri, Əli Nəcəfi.
***Nəcəfxan*** - bax: Nəcəf və Xan.
***Nəcəfqulu*** (ə.,t.) - Əlinin qəbri olan yerin qulu; Əlinin qulu.
***Nəcib***, ***Nəcibə*** (ə.) - nəcabətli, yaxşı nəsilli; ürəyitəmiz.
***Nəcibalı//Nəcibəli*** (ə.) - nəcabətli Əli; ürəyitəmiz Alı; Əli nəcabətli.
***Nəcibəddin*** (ə.) – «nəcib» və «din» sözlərindən düzəlmiş, «dinin nəcabətli nümayəndəsi, təmsilçisi» deməkdir.

***Nəcibulla*** (ə.) - Allahın nəcib adamı, Tanrının nəcabətli adamı.
***Nəcim, Nəcimə*** (ə.) - ulduz.
***Nəcməddin*** (ə.) - dinin ulduzu.
***Nəcmi, Nəcmiyyə*** (ə.) - ulduza aid, ulduza məxsus olan.
***Nəcmulla*** (ə.) - Allahın ulduzu, Tanrının ulduzu.
***Nədamət//Nidamət*** (ə) - peşimançılıq.
***Nəfi*** (ə.) - faydalı, xeyirli, qazancla əlaqəli olan.
***Nəğməddin*** (ə.) - dinin nəğməsi, dinin şərqisi.
***Nəhməd//Nəhmət*** (ə.) - şükrü-səna edirik.
***Nəhmədulla//Nəhmətulla*** (ə.) - Allahın hərisi, Tanrının doymaz bəndəsi.
***Nəim***, ***Nəimə*** (ə.) - nemətli, bol; xoşbəxt yaşayan, bəxtiyar yaşayan.
***Nəiməddin*** (ə.) - dinin neməti, dinin xoşbəxti.
***Nəimi*** (ə.) - nemət, bolluq, sərvət içində yaşama.
***Nəmrud*** - qədim Babilistanın əfsanəvi hökmdarının adı.
***Nərbala*** (f.,t.) - nər balası; nər kimi bala; igid bala, cəsur övlad; qəhrəman.
***Nərçə*** (f.,t.) - balaca erkək dəvə balası.
***Nəriman//Nərman***, ***Nərmanə*** (f.) - döyüşkən, cəsur, igid, qəhrəman.
***Nərmi*** (f.) - yumşaq, lətif, mülayim.
***Nəroğlan*** (f.,t.) - qəhrəman oğlan, igid və cəsur oğlan.
***Nərtəkin*** - nər təkin, igid kimi, qəhrəman təki(n); qəhrəman varis.
***Nəsibəli*** (ə.) - Əli dostu, Əli əsilli.
***Nəsibulla*** (ə.) - Allahın dostu, Tanrının yaxını.
***Nəsil*** (ə.) - əcdadı bir olan qohumlar silsiləsi.
***Nəsiman*** (ə.) - gözəl meh, ürəyəyatan səba yeli.
***Nəsimi***, ***Nəsimə*** (ə.) - səhər mehi, xəfif və lətif meh.
***Nəsir//Nəsur***, ***Nəsirə//Nəsurə*** (ə.) - köməkçi, tərəfdar, əldən tutan.
***Nəslixan*** - xan nəslindən, soyundan olan, əsilli, nəsilli.
***Nəslişah*** - şah nəslindən, soyundan olan, əsilli, köklü.
***Nəsrəddin*** (ə.) - dinin köməyi, dinin yardımı.
***Nəsrulla*** (ə.) - Allahın köməkçisi, Tanrının yardımçısı.
***Nəşat*** (ə.) - sevinc, şən olma, kef, şadlıq.
***Nəşət*** (ə.) - törəmə, hasil olma, yetişmə, meydana gəlmə; irəliləmə.
***Nəvahi*** (ə.) - qadağan olunmuş işlər və ya şeylər; şəriətə zidd hərəkətlər.
***Nəvai*** (f.) - səsi olan; nəğməli; ahəngdar, lətif.
***Nəvazi*** (f.) – oxşanan, əzizlənən; çalınan (musiqi).

***Nəvva*** (f.) **-** avaz, ahəng, musiqi səsi.
***Nəvvab*** (ə.) - naiblər, canişinlər, vəkillər.
***Nəvvar, Nəvvarə*** (ə.) - işıq verən, nur saçan.
***Nəyyur, Nəyyurə*** (ə.) - işıqlı, parlaq, nurlu; işıqlı cizim.
***Nəzər*** (ə.) - baxış, baxma; fikir, mülahizə.
***Nəzərağa*** - bax: Nəzər və Ağa.
***Nəzəralı//Nəzərəli*** (ə.) - Əli nəzəri.
***Nəzərxan*** - bax: Nəzər və Xan.
***Nəzih, Nəzihə//Nəzixə*** (ə.) – təmiz, əxlaqlı, saf, pak; dost, məsləhətçi.
***Nəzir***, ***Nəzirə*** (ə.) - pay; bənzər, oxşar, misal, tay.
***Nəziralı//Nəzirəli*** (ə.) - Əli nəzəri.
***Nəzirməmməd*** (ə.) - Məhəmməd nəziri.
***Nəzmi, Nəzmiyyə//Nəzmiyyət*** (ə.) - nizama düzmək, şeir; mənzumə, şeiriyyət, poeziya.
***Nəzrəddin*** (ə.) - dinin nəziri; dinin təzəliyi, təravəti.
***Nicat//Nəcat//Nəcati//Nicati*** (ə.) - qurtuluş; xilas olma, azad olma.
***Niftalı//Niftəli*** (ə.) - Əslində "nütfə" (toxum, maya) və "Əli" (bax) sözlərindən əmələ gəlmiş və "Əli övladı" mənasındadır.
***Nifti*** (ə.) - "Niftəli" adının ixtisar-əzizləmə forması; qəzəb, coşma.
***Niftulla*** (ə.) - Allahın övladı, Allahın yaratdığı.
***Nihad//Nihat//Niyad*** (f.) - yaradılmış, xilqət; təbiət, xasiyyət.
***Nihal//Niyal***, ***Nihalə//Niyalə*** (f.) - cavan ağac, fidan; gənc, yeniyetmə.
***Nihan***, ***Nihanə*** (f.) - gizli saxlanmış, məxfi; qaib.
***Nijad//Nijat*** (f.) - soy, kök, nəsil, nəsəb.
***Nikbin*** (f.) - həyatdan razı, şən, ümidli, gələcəyə inanan.
***Nikbur//Nikpur*** - f. "nik"(yaxşı, xoş) və "bur"(bir), "pur"(pir-od, ocaq; övlad) sözlərindən düzəlmiş, "yaxşı od, xoş ocaq; yaxşı oğul, yaxşı övlad"(övlad, xüsusən oğlan atanın biri - piri-odu, ocağı hesab edilir) mənasındadır.
***Niqay, Niqayə*** (f.,t.) - gözəl ay; gözəl uşaq.
***Nisan*** (ə.) - Roma təqvimindən aprel ayına uyğun gələn ay və həmin ayda yağan ilk yağış.
***Nisar***, ***Nisarə*** (ə.) - bağışlama, qurban etmə, qurban vermə.
***Nişad//Nişat*** (ə.) - sevinc, şadlıq.
***Nişan***, ***Nişanə*** (f.) - əsər, əlamət, iz; nişanlanma.
***Niyaməddin*** (ə.) - dinin qını (qılınc, xəncər); dinin bolluğu.
***Niyaz*** (f.) - yalvarış, xahiş; ehtiyac; hədiyyə, bəxşiş.
***Niyazalı//Niyazəli*** (ə.) - Əli hədiyyəsi, Alı bəxşişi.

***Niyazi*** (f.) - nəzir-niyazla bağlı olan; yalvarışla əlaqədar olan.
***Niyətağa*** (ə.,t.) - ağanın qəsdi, məramı; ağanın məqsədi.
***Niyətxan//Niyyətxan*** (ə.,t.) - xanın qəsdi, məramı, məqsədi.
***Niyətşah//Niyyətşah*** (ə.,f.) - şah məramı, hökmdar arzusu.
***Nizam*** (ə.) - qayda-qanun, intizam.
***Nizaməddin*** (ə.) - dinin qayda-qanunu, dinin nizamı.
***Nizami*** (ə.) - qayda-qanunlu, nizamlı; nizama düzən; nəzmə çəkən.
***Nizəxan*** (f.,t.) - xanın silahı, xanın nizəsi; xanın müdafiəçisi.
***Nodar//Nodər*** - Nadir adının acar dilində dəyişdirilmiş forması.
***Nofəl*** (ə.) - əlavə edilən, üstünə gələn, artırılan; hədiyyə, bəxşiş; qənimət.
***Nofər*** (f.) - yeni işıq, təzə parıltı; yeni igid, qəhrəman.
***Noqay//Noğay//Nuğay//Nuqay*** - türk tayfalarından birinin adı (XIII əsr Qızıl Orda sərkərdəsi Noğayın adındandır. Hazırda 70 min nəfərdir, Dağıstan, Çeçenistan və s. yerlərdə yaşayırlar); möhkəm, sağlam; yaradıcı.
***Novruz*** (f.) - yeni gün; Bahar bayramı.
***Novruzağa*** - bax: Novruz və Ağa.
***Novruzalı//Novruzəli*** (f.,ə.) - Əlinin yeni günü, Alının təzə günü.
***Novruzbala*** - bax: Novruz və Bala.
***Novruzxan*** - bax: Novruz və Xan.
***Novruzqulu*** - bax: Novruz və Qulu.
***Noyabr***(l.) - təqvim ilinin 11-ci ayı.
***Noyan*** - sərkərdə, komandir; general.
***Nöhbaba//Nuhbaba*** (y.,t.) - Nuhun babası; baba Nuh.
***Növcavan//Nöycavan//Nöycuvan*** (f.) - yeniyetmə, gənc.
***Növrəs//Növrəst//Novrəs***, ***Novrəstə//Nüvrəstə//Növrəstə*** (f.) - yeniyetmə, gənc, cavan.
***Nuh*** (y.) - sakitlik, rahatlıq, sakit olma, rahat olma (Qədim yəhudi əfsanəvi Noah peyğəmbərin ərəb dilində adı).
***Nuhalı//Nuhəli*** (y.,ə.) - Əlinin sakitliyi; sakit, rahat Əli.
***Nuhbala//Nöhbala*** - Nuh bala, balaca Nuh..
***Nuhəddin*** (ə.) - dinin Nuhu.
***Nuhu*** - Allahın Nuhu; Nuh kimi, Nuha aid olan.
***Nur***, ***Nurə*** (ə.) - işıq, aydınlıq, parlaqlıq; hörmət, şan, şöhrət.
***Nurad*** (ə.,t.) - nurlu ad, işıqlı ad.
***Nurağa*** - bax: Nur və Ağa.
***Nural*** (ə.,t.) - işıq al, nurlan, şövqlən; al-qırmızı.

***Nuralı//Nurəli*** (ə.) - Əlinin işığı, Alının nuru.
***Nuramməd*** - Nur Məmməd; nurlu, işıqlı Məmməd.
***Nuran//Nurani***, ***Nuranə*** (ə.,f.) - nur kimi, işıq kimi; nursaçan.
***Nurbaba*** - bax: Nur və Baba.
***Nurbala*** - bax: Nur və Bala.
***Nurçin*** (ə.,f.) - nur yığan, işıq toplayan.
***Nurəddin//Nurətdin//Nürəddin//Nürətdin//Nuriddin*** (ə.) - dinin nuru, dinin işığı.
***Nurəhməd*** (ə.) - Əhmədin (Məhəmməd peyğəmbərin epiteti) nuru, Əhmədin işığı.
***Nurhan, Nurhanə*** (ə.,f.) – «nur» sözü və «-han» şəkilçisindən düzəlmiş, «nurlu, işıqlı» deməkdir.
***Nurhəsən*** (ə.) - Həsənin nuru, Həsənin işığı, aydınlığı.
***Nurhüseyn*** (ə.) - Hüseynin nuru, Hüseynin işığı, aydınlığı.
***Nurxan*** - Nur xan; nurlu xan, işıqlı xan.
***Nuri, Nuriyyə//Nuriyyat//Nuriyyət*** (ə.) - işığa aid olan, işıqlı, aydınlaşmış.
***Nurid***, ***Nuridə*** (ə.,f.) - gözün işığı, gözün nuru. “Nurdidə” adındandır.
***Nurkan, Nurkanə*** (ə.) - nur, işıq mədəni, nur, işıq mənbəyi; qanı nurlu olan.
***Nurkişi*** - nur kişi, nurani kişi.
***Nurqamət*** (ə.) - nur qamətli, boy-buxunu nurlu.
***Nurlan***, ***Nurlana//Nurlanə*** - nur saçan, işıqlanan, parlayan (“Svetlana” adının yarımkalkası).
***Nurlu*** (ə.,t.) - işıqlı, aydın, parlaq.
***Nurman, Nurmanə*** - nurdan olan adam, nurdan yaranmış; nurlu adam.
***Nurmədəd*** (ə.) - Nur Mədəd; nurlu, işıqlı Mədəd.
***Nurməmməd*** (ə.) - Məmmədin nuru, Məmmədin işığı.
***Nurpaşa*** (ə.,t.) - Nur Paşa; nurlu, işıqlı paşa; paşanın nuru.
***Nurruh*** (ə.) - ruhun nuru, işığı; ruhun aydınlığı.
***Nursal***, ***Nursalə*** (ə.,t.) - nur sal, işıq sal, parla.
***Nursan***, ***Nursanə*** (ə.,t.) - işıqsan, parlaqsan; şöhrət işığı.
***Nursay*** (ə.,t.) - “nur” və «say» sözlərindən düzəlmiş, «nurlu, işıqlı say» deməkdir.
***Nurşad*** (ə.,t.) - nurlu şad, işıqlı oğlan, nurlu xanzadə.
***Nurşan//Nurşən*** - işıq çoxalan yer; işıq sevinci, işıqlı görünən.
***Nurşid//Nurşud*** (ə.) - nurun şüası, parıltısı, nurun ziyası.
***Nurtay//Nurtək*** (ə.,t.) - nura tay olan; nur, işıq kimi.

***Nuru*** (ə.) - nurlu; "nur" ilə başlanan adların ixtisar-əzizləmə forması.
***Nurulla*** (ə.) - Allahın nuru, Tanrının işığı.
***Nuruş*** - "nur" hecası ilə başlanan adların əzizləmə forması.
***Nurzaman*** (ə.) - zamanın nuru, işığı, parıltısı; zamanın nuru.
***Nuşirəvan*** (f.) - ölməz ürək, daimi qəlb ("Ənuşirəvan" adının ixtisar forması).
***Nücəba*** (ə.) - nəcib adamlar, əsilli adamlar.
***Nüdrət*** (ə.) - az tapılan, nadir, seyrək hallarda olan.
***Nümayiş*** (f.) - nəyin isə göstərilməsi, göstərmə.
***Nüsrəddin//Nüsrətdin*** (ə.) - dinin qələbəsi, dinin köməyi.
***Nüsrət*** (ə.) - qələbə; kömək, yardım.
***Nüsrətalı//Nüsrətəli*** (ə.) - Əli köməyi, Alı yardımı.
***Nüsrətulla*** (ə.) - Allahın köməyi, Tanrının yardımı.

## ꕥ O ꕥ

***Obrik*** - kələ-kötür, çuxurlu, qazılmış yer; səngər, xəndək.
***Ocaq*** - od və -caq; od yandırılan yer; pir, müqəddəs yer, yurd.
***Ocaqalı//Ocaqəli*** (t.,ə.) - Əli piri, Alı ocağı.
***Ocaqxan*** - bax: Ocaq və Xan; xan ocağı, xana aid ocaq.
***Ocaqqulu*** - müqəddəs yerin qulu; ocağın qulu, od qulluqçusu (Zərdüştlükdə).
***Ocaqverdi*** - ocağın verdiyi, ocağın bəxş etdiyi.
***Ocaqverən*** - ocağın bağışladığı, ocaq tərəfindən verilən.
***Odabaş//Odabaşı*** - yeniçəri ordusunda bəzi zabitlərə verilən ad; keçmişdə karvansaralarda baş inzibatçı.
***Oday*** - od Ay; odlu Ay; odlu Ay kimi oğlan.
***Odel*** - Od eli; elin odu; elin müdafiəçisi.
***Odelbəy//Odilbəy*** - Od elinin bəyi; Odel bəy; od kimi elin bəyi.
***Odelxan//Odilxan*** - Od elinin xanı; Odil xan; od kimi elin xanı.
***Odər*** - od və ər (kişi) sözlərindən düzəlmiş, «odlu, alovlu, yanar (kişi)» deməkdir. Zərdüştlüyə görə xeyir allahı Ahuraməzda və onun xanımı Hörmətin kiçik oğlunun adıdır. Odər – od, alov tanrısı sayılmışdır.
***Odtəkin*** - oddan törəyən təkin (varis, xanzadə).
***Oğul*** - kişi cinsindən olan uşaq; igid, qəhrəman (Qədim türklərdə titul).
***Oğulbala*** - oğul balası, oğul kimi bala, igid oğlan.
***Oğulbay//Oğulbəy*** - oğul kimi bəy; bəy kimi oğul.

***Oğulxan*** - xan oğul; xan kimi oğul, xana layiq oğul.
***Oğuz*** - davamlı, artan nəsil (Qədim türk tayfalarından birinin adı).
***Oxçu//Okuş*** - oxla silahlanmış; oxçu.
***Oktaş*** - ox kimi daş; cəsur, qəhrəman, yenilməz.
***Oktürk*** - ox kimi türk.
***Oqtay//Oktay*** - ox kimi dağ, şiş uclu dağ.
***Onbaşı*** - orduda on əsgərə başçılıq edən şəxs.
***Orbay//Orbəy//Orbək*** - ər, igid bəy; türk tayfalarından birinin adı; təpə, torpaq təpə və bəy; düşərgə, qərargah, ordugah və bəy və s.
***Ordubad*** - xan yurdu, xanın yerləşdiyi yer - paytaxt.
***Orduxan*** - Ordu xan; ordu xanı, ordu başçısı, sərkərdə.
***Orxan***, ***Orxanə*** - ər xan, igid xan; qəhrəman, bahadır.
***Orman***, ***Ormanə*** - meşə, meşəlik.
***Oruc*** (f.) - müsəlmanlığın beş əsas şərtindən biri.
***Orucağa*** - bax: Oruc və Ağa.
***Orucalı//Orucəli*** (ə.) - Əli orucu, Alı orucu.
***Orucbala*** - bax: Oruc və Bala.
***Orucbəy*** (f.,t.) - Oruc bəy, Oruc ağa; bəy kimi Oruc.
***Orucxan*** (f.,t.) - Oruc xan, Oruc ağa; orucluqda anadan olan xan.
***Oruz*** - bax: Aruz.
***Osman*** (ə.) - ağırtərpənən, astagəl; ağıllı, zəkalı, əxlaqlı şəxs. (III xəlifənin adı).
***Osmanbəy*** (ə.,t.) – Osman (bax) bəy; astagəl bəy, ağır tərpənən ağa.
***Osmanxan*** (ə.,t.) – Osman (bax) xan; astagəl xan, ağır tərpənən hökmdar.
***Otay, Otayə*** - Ayın atəşi, odu; zəif atəş, kiçik od.
***Otello*** - ərəbcə "Ətaulla" (Allahverdi) mavr adının ingilis dilində assimilyasiya edilmiş variantı. Adı t. "od elli, od elindən çıxan; elin odu, elin işığı; igid, qəhrəman" kimi də izah etmək olar. "Atilla" adının dəyişdirilmiş forması.
***Ovçu*** - ovla, ovçuluqla məşğul olan adam.
***Ovçuxan//Ovxan*** - ovçu xan, ov ilə məşğul olan xan.
***Ovqat*** (ə.) - vaxt, zaman; əhval-ruhiyyə, ruhi vəziyyət.
***Ozal*** - şəxsi (Azərbaycanda Türkiyə Respublikasının keçmiş prezidenti Turqut Ozalın adından yayılmışdır).
***Ozan*** - aşıq, el şairi, el sənətkarı.

## ஐ Ö ঔ

***Öcal*** - intiqam alma, əvəz çıxma.
***Öcalan*** - intiqam alan, intiqamçı, qisas alan.
***Ölməz*** - həmişə yaşayan; əbədi, həmişəlik.
***Ömər//Omar*** (ə.) - həyati, ölməzlik, dirilik, canlılıq (II xəlifənin adı).
***Ömrüm*** (ə.,t.) - mənim ömrüm, mənim həyatım.
***Ömür*** (ə.) - həyat. “Həyat” qadın adının kişi üçün variantı.
***Ömüralı//Ömürəli//Ömralı//Ömrəli*** (ə.) - Əli həyatı, Alı ömrü.
***Ömürbay//Ömürbəy*** (ə.,t.) - ömrün bəyi, hökmdarı; ömrün qidavericisi.
***Ömürtay*** (ə.,t.) - ömürə bərabər, ömürə tay olan oğul; ömür dağı.
***Önal*** - yüksək, uca.
***Öncül*** - qabaqcıl; başçı, öndə gedən, başçılıq edən.
***Öndər*** - həmişə öndə olan; qabaqcıl, lider, rəhbər.
***Önər*** - öncül ər, qabaqcıl qəhrəman.
***Önərağa*** - öncül ər olan ağa; qabaqcıl qəhrəman olan ağa.
***Önərbəy*** - öncül ər olan bəy; qabaqcıl qəhrəman olan bəy.
***Önərxan*** - öncül ər olan xan, qabaqcıl qəhrəman olan xan.
***Öngün*** - əvvəlki gün, ötən gün, keçən gün.
***Örgün*** - taxt, taxt-tac, səltənət.
***Örxan*** - bax: Orxan.
***Örxun*** - ər hun, igid, qəhrəman hun.
***Örnək*** - nümunə, nümunə olan; həmişə qabaqcıl olan.
***Ötər*** - qabağa keçər, qabaqcıl olar, hamını geridə qoyar.
***Ötərxan*** - qabağa ötən, gəlib-keçən xan; oxuyan xan.
***Ötgün//Ötkün***, ***Ötgünə//Ötkünə*** - üstün; ötən, keçən; qüvvətli.
***Ötkəm*** - dilli-dilavər, dikbaş, təkəbbürlü.
***Ötkən*** - yer Tanrısı.
***Övliya*** (ə.) - peyğəmbərlər; müqəddəs, təmiz, pak.
***Övsəd//Övsət*** (ə.) - orta, ortancıl; yarı, yarımçıq; keyfiyyətlər; təriflər.
***Öyüd*** - nəsihət, məsləhət.
***Özal*** - bax: Ozal.
***Özbək//Özbəy*** - sağlam ürək; zatında bəylik olan, dözümlü, qoçaq, igid (XIV əsrdə yaşayan Özbək xanın adındandır).
***Özcan*** - güclü ruh, təməli möhkəm qoyulmuş varlıq; sağlam.
***Özdəmir*** - xalis dəmir, özü dəmir kimi möhkəm və sağlam olan; qoçaq, qəhrəman.
***Özərbay//Özərbəy*** - öz-özlüyündə bəy olan, həqiqi bəy olan.

***Özərxan*** - öz-özlüyündə xan olan, həqiqi xan olan.
***Özərk*** - sərbəst, azad, müstəqil, muxtar, muxtariyyət.
***Özgənc*** - cavan varlıq, güclü varlıq, təməli güclü olan.
***Özgün, Özgünə*** - qatışığı olmayan, xalis, orijinal.
***Özgür*** - azad, müstəqil, asılı olmayan, sərbəst.
***Özxan*** - özünə doğma, əziz olan xan; əsil xan nəslindən olan.
***Özsoy*** - əsl-nəsəbli varlıq, əcdadı, cinsi güclü olan.
***Öztürk*** - mənşəcə türk olan; türkün özü.
***Özübəy*** - özü bəy olan; bəyin özü.
***Özüxan*** - özü xan olan; xanın özü.
***Özül*** - bünövrə, təməl, əsas.
***Özülbəy*** - əsas bəy, bəy nəslindən olan; bəyliyin bünövrəsi.
***Özüldağ//Özültay*** - təməl dağ (tay); tayın (dağın) özülü.
***Özülxan*** - bünövrə xan, xan nəslindən olan; xanlığın əsası.
***Özümxan*** - özümə bənzəyən xan; özümə oxşayan oğul.

## ☙ P ❧

***Padar*** - əbədi; boylu-buxunlu; güclü; xoşbəxt, uğurlu; türk tayfalarından birinin adı.
***Padarxan*** - əbədi xan; kök xan; güclü, uğurlu xan.
***Pakər*** **-** təmiz, sağlam adam; möhkəm əsgər, mətin kişi.
***Palatəkin*** **-** qılınc, qəmə kimi kəskin olan təkin.
***Palatimur*** **-** Timurun qılıncı, Timurun qəməsi.
***Palatürk*** - türk qəməsi.
***Palavand*** – «pala» (qəmə, bıçaq) və «vand» (düz) sözlərindən düzəlmiş, «düz bıçaq, iti qəmə» deməkdir.
***Panalı//Panəli*** (f.,ə.) - Əlinin öyüdü, Əlinin nəsihəti.
***Papı*** - nadir adlardandır və İranda yaşayan bir türk tayfasının adındandır (Cəbrayıl rayonunda kənd).
***Paris, Parisə*** (fr.) - Fransanın paytaxtı Parijin adındandır. Parisə məxsus; parisli (Bunun türk mənşəli olması haqqında məlumatlar da vardır).
***Pasiban*** (f.) - qarovulçu, qoruyucu, keşikçi, nəzarətçi.
***Paşa*** - "baş ağa" birləşməsinin ixtisar forması (Bəzi müsəlman ölkələrində yüksək hərbi və mülki vəzifə sahiblərinə verilən ad).
***Paşabala*** - bax: Paşa və Bala.
***Paşaəli//Paşəli*** - bax: Paşa və Əli.

***Paşaxan*** - bax: Paşa və Xan.
***Paşazadə*** (t.,f.) - paşa oğlu, paşa nəslindən olan oğul.
***Paydar*** (t.,f.) - payı olan, hədiyyə sahibi; bəxti olan.
***Payız*** (f.) - ilin yaydan sonra gələn fəsli. "Xəzan" və ya "quz(güz)" sözlərinin dəyişdirilmiş forması kimi də izah edilir.
***Pektaş*** - "bektaş" sözündən olub "vergi yığmaq ixtiyarı verən sənəd" mənasındadır.
***Pektürk*** - güclü türk; dözümlü türk.
***Peykan, Peykanə*** (f) - əsl mənası oxun ucundakı sivri dəmir olub, klassik ədəbiyyatda «kirpik (gözəlin kirpiyi)» mənasında işlənmişdir.
***Peyman***, ***Peymanə*** (f.) - əhd, and; əhd-peyman.
***Pəhləvan//Pəhlivan*** (f.) - çox güclü adam; qəhrəman, igid.
***Pələng*** - pişik cinsindən dərisi zolaqlı, iri, yırtıcı heyvan; qaplan.
***Pənah*** (f.) - sığınma, himayə; ümid; yardımçı, köməkçi.
***Pənahalı//Pənahəli*** (f.,ə.) - Əli pənahı, Alıya sığınma.
***Pəncə*** (f) - əlin içi və barmaqlar, ayağın dabandan başqa alt hissəsi; qüvvət, güc, zor, məngənə.
***Pəncəli//Pəncalı*** (f.,ə.) - Əli pəncəsi, Əlinin əli; Əlinin gücü, qüvvəsi; iri əl-ayaqlı.
***Pərtov*** (f.) - işıq, ziya, şüa, parlaqlıq, parıltı; səliqəsiz, nizamsız; narahat, sakitlik bilməyən (Adın "pər" hissəsi türk dillərində "par"- işıq kimi də izah olunur).
***Pərvan, Pərvanə*** (f) - uçan, qanadlanan; daim oda, işığa can atan kiçik kəpənək.
***Pərvaz*** (f.) - uçma, üçüş, qanadlanma.
***Pərvin***, ***Pərvinə*** (f.) - Ülkər, Sürəyya, Yeddiqardaş (ulduzları).
***Pərviz, Pərvizə//Pərvuzə*** (f.) - parlaq, aydın; uçan, qanadlanan.
***Pınar//Pinar***, ***Pinarə//Pınara*** - bulaq; bulaq kimi saf, büllur.
***Pirağa*** - bax: Pir və Ağa ("pir - od, ocaq" kimi mənalara malikdir).
***Piralı//Pirəli*** (t.,ə.) - Alının odu, Əlinin ocağı.
***Piran//Pirani, Piranə*** - nur sahibi, ocaq sahibi; müdrik, qoca.
***Pirbala*** - pirin balası, pirin köməyi ilə həyata gələn.
***Pirbudaq*** - pirin budağı, pirin köməyi ilə həyata gələnlərdən biri.
***Pircamal*** - "pir" (müdrik, qoca) və «camal» (üz, sima) sözlərindən düzəlmiş, «müqəddəs, müdrik simalı» deməkdir.
***Pircan*** - piri sevən, ocağı istəyən; pircanlı, ocaqcanlı; ocağın ruhu.
***Pirdaş*** - pirin daşı; pirin köməyi ilə həyata gələn oğlan.
***Pirəddin*** (t.,ə.) - dinin odu, dinin ocağı, dinin işığı.

***Pirəhməd*** – tərifə layiq, müqəddəs ocaq; müqəddəs Əhməd; Əhmədin ocağı.
***Piri*** - "pir" sözü ilə başlanan adların əzizləmə forması (Bu vaxta qədər f. mənşəli hesab edilən "pir" türk sözüdür və "bir" - Günəş və ya Tanrı, "pir" - "Tanrı" mənasında "od, ocaq" deməkdir).
***Pirim*** - mənim odum, mənim ocağım, mənim işığım, mənim Tanrım.
***Pirkamal*** **-** "Pir" (qoca, ocaq, müdrik, müqəddəs,) və «kamal» (Kamal-ağıl) sözlərindən düzəlmiş, «Kamal ocağı», «ağıllı qoca» deməkdir.
***Pirqulu*** - pirin qulu, pirin köləsi.
***Pirmədəd*** (t.,ə.) - Pir Mədəd; pirin köməyi, pirin yardımı, ocağın bəxşişi.
***Pirməmməd*** (t.,ə.) - Pir Məmməd; Məmmədin piri, Məmmədin ocağı.
***Pirnəzər*** (t.,ə.) - müqəddəslərin iltifatı.
***Pirnur, Pirnurə*** (f.,ə.) - həddən artıq işıqlı, nurlu.
***Pirsaat*** - Azərbaycanın eyni adlı çayının adındandır.
***Pirtəkin*** - od kimi, ocaq təki(n); odun varisi, oddan törəyən.
***Pirulla*** (t.,ə.) - Allahın odu, Tanrının ocağı.
***Piruz*** - bax: Firuz.
***Pirverdi*** - pir verdi, ocaq verdi; nəzir-niyaz verdi; Allah verdi.
***Pirvəli*** (t.,ə.) - Pir Vəli; Allahın himayə etdiyi, pirin qoruduğu.
***Pirzaman*** - "pir" və «zaman» sözlərindən düzəlmiş, «dövrün bilicisi, zamanın müqəddəs adamı» deməkdir.
***Pişan*** (f.) - alın, qaşqa; qaşqası olan.
***Pişkin*** - yaxşı bişmiş, tam bişmiş; təcrübəli, ustalaşmış, yetişmiş, yetkin, yetkinləşmiş.
***Pişnamaz*** (f.) – namaz zamanı qabaqda duran din xadimi.
***Pişvəri*** (f.) - qabaqdan gedən.
***Polad*** (f.) - möhkəm metal; sağlam, güclü.
***Poladxan*** - polad kimi xan; güclü, qüvvətli xan.
***Pünhan***, ***Pünhanə*** (f.) - heç kəsin bilmədiyi, gizli, xəlvəti.

## R

***Rabi//Rəbi*** (ə.) - bahar, yaz; IV övlad (Bahar da ilin dörd fəslindən-övladından biridir).
***Rabid*** (ə.) - varlığın, mövcudiyyətin sahibi; Allaha sitayişin adı.
***Rabil//Rabel***, ***Rabilə//Rəbilə*** (ə.,t.) - "rəbb" (Allah, Tanrı; sahib, yiyə) və "il" sözündən düzəlmiş, "elin böyüyü, sahibi" mənasındadır.

***Rabin//Ravin, Rabinə*** (ə.) - "rəbb" və "bin" - övlad sözlərindən düzəlmiş və "Allah oğlu, Tanrı övladı" mənasındadır.
***Rabit***, ***Rabitə*** (ə.) - əlaqə, birlik; münasibət (valideynlər arasında).
***Rac, Racə*** (hind) - hökmdar; aid olma, daxil olma; qayıtma; Allah, Tanrı.
***Racəddin*** (hind, ə.) - dinin hökmdarı; Allah.
***Raci***, ***Raciyə*** (ə.) - rica edən, xahiş edən.
***Racih, Racihə*** (ə.) - başqasından üstün tutulan.
***Radil, Radilə//Rədilə*** (ə.) - bir-birinin ardınca gedən; sonradan, cərgə; iz bilən, yol bilən.
***Raf//Rafi//Rəfi, Rafiyə//Rəfiyyə*** (ə.) - yüksək, uca, hündür, ali, ülü.
***Rafael//Rəfael//Rəfail//Rəfayel//Rəfayil//Rəfayıl, Rəfailə*** (y.) - Allah sağaltdı (Tanrının buyruğunu yerinə yetirən mələklərdən birinin adıdır).
***Rafaət*** (ə.) - yüksək rütbə, mənsəb.
***Rafəddin*** (ə.) - dini qaldıran, dini ucaldan.
***Rafər*** (f.) - yol bilən, bələdçi.
***Rafət//Rəfət// Rəfad//Rəfat//Rafat*** (ə.) - qaldıran, ucaldan; vəkillik, böyük rütbə; lütf; mehribanlıq.
***Rafi*** (ə.) – «rafe» sözündən düzəlmiş, «yüksələn, qaldıran, ucaldan» deməkdir.
***Rafiq//Rəfiq***, ***Rafiqə//Rəfiqə*** (ə.) - yoldaş, dost, sirdaş, ortaq, şərik.
***Rafil***, ***Rafilə*** (ə.,t.) - yüksələn il və ya el, ucalan il və ya el; gözəl, qəşəng.
***Rafis//Rafiz***, ***Rafisə//Rafizə*** (ə.) - inkar edən, əleyhinə çıxan; əl çəkən (Əbubəkr, Ömər və Osmanın xəlifəliyini qəbul etməyən şiələr "rafizilər" adlanmışlar).
***Rahab*** (f.) - sevinc suyu, şadlıq suyu, kef suyu; sevinc gətirən.
***Rahəddin*** (f.,ə.) - dinin yolu.
***Rahat//Rahət*** (ə.) - dinc, sakit.
***Rahib***, ***Rahibə*** (ə.) - monastrda yaşayan və ömrünü ibadətlə keçirən, xristian dindarı, tərki-dünya.
***Rahid, Rahidə*** (ə.) - bax: Raid.
***Rahil***, ***Rahilə//Rəhilə*** (ə.) - mərhələ, keçid, dərəcə, pillə; yola getmə, yola düşmə; Günəş Allahı; Allahın sevimlisi.
***Rahim//Rəhim***, ***Rahimə//Rəhimə*** (ə.) - rəhmli, ürəyiyumşaq.
***Raid, Raida//Raidə//Rayidə//Rəidə*** (ə.) - gurlayan, gurultu, göy gurultusuna bənzəyən səs; araşdırıcı.

***Raif//Rauf***, ***Raifə//Rayifə*** (ə.) - mehriban, şəfqətli, rəhmdil ("Günəş Allahı" mənasındadır. "Od" anlayışı ilə əlaqədar olan bütün adlar isə ancaq müsbət çalarlı olur).
***Raiq, Raiqə//Rayiqə*** - saf, xalis, səlis.
***Rail//Rayıl//Rayil, Railə//Rayilə*** - q.y. Günəş Allahı; Allahın sevimlisi, ilahi sevgisi; ə. özül; bir nəslin, qəbilənin başçısı.
***Rais//Rəis***, ***Raisə//Rayisə//Rəisə//Raisa*** (ə.) - rəhbər, başçı.
***Rakib//Rakif***, ***Rakibə//Rakifə*** (ə.) - keşikdə, mühafizədə dayanan; sərnişin.
***Rakid***, ***Rakidə*** (ə.) - sakit, hərəkətsiz; boyun əyən.
***Raqib//Raqub//Rəqib//Rağib***, ***Raqibə//Rəqibə*** (ə.) - istəyən, rəğbət bəsləyən, arzulayan, qoruyan; biri ilə rəqabət edən, inkar edən; mühafizəçi.
***Raqif//Raquf***, ***Raqifə//Raqufə*** (ə.) - arzu edən, istəyən, nəyinsə arzusunda olan.
***Raqim, Raqimə*** (ə.) - yazan, cızan, şəkil çəkən.
***Ram*** (f.) - tabe olan, qulaq asan.
***Ramal//Rəmal***, ***Ramalə//Rəmalə*** (ə.) - rəmmal, rəml atan, falçı.
***Raman//Rəman***, ***Ramanə//Rəmanə*** -Ra (Günəş, Tanrı - ASE. VII. səh. 53), man (adam); Günəş adamı, Tanrı övladı.
***Ramazan*** (ə.) - isti, bürkü (Ərəb qəməri təqviminin IX - orucluq ayının adı).
***Ramdar//Rəmdar*** (ə.) - rəml atan, fal açan, falçı.
***Ramella//Romella*** (ə.) - Allahı istəyən, sevən; İraqda yer adı.
***Raməddin//Ramiddin*** (ə.) - ram edən din, cəlb edən din.
***Rami*** (f.) - ram edən, tabe etdirən; atıcı, mərmiatan.
***Ramid***, ***Ramidə//Rəmidə*** (ə.,t.) - yandıran, yandırıcı; Günəşin odu, Günəşin şüası.
***Ramiq***, ***Ramiqə*** (ə.) - diqqətlə baxan, gözlərini zilləyən, nəzər salan.
***Ramil//Rəmil***, ***Ramilə//Rəmilə*** (ə.) - rəmlçi, rəml atan, torpaqla fala baxan.
***Ramin***, ***Raminə*** (ə.) - atıcı, mərmi atan; ib. Günəş oğlu, Günəş övladı.
***Ramiş//Rəmiş*** (f.) - musiqi, çalğı.
***Ramiz//Rəmiz//Rəmis//Ramis***, ***Ramizə//Ramisə//Rəmizə//Rəmisə*** (ə.) - rəmzlə danışan, üstüörtülü danışan.
***Ramzan//Rəmzan, Ramzanə//Rəmzanə*** (ə.) - bax: Ramdar və Ramiz.
***Rasəddin//Rəsəddin*** (ə.) - dinin başçısı, din rəhbəri.
***Rasət*** (f.) - çatan, yetişən, müvəffəq olan.

***Rasətdin*** (f.,ə.) - dinə yetişən, imana çatan.
***Rasi*** (ə.) – «rasih» sözündən düzəlmiş, «sağlam, möhkəm» deməkdir.
***Rasib, Rasibə*** (ə.) - imtahandan çıxmamış; xılt, sulu şeylərin toplusu.
***Rasid//Rəsid***, ***Rasidə//Rəsidə*** (f.) - çatmış, nail olmuş, yetişmiş.
***Rasif***, ***Rasifə*** (ə.) - möhkəm, dözümlü.
***Rasih***, ***Rasihə*** (ə.) - sağlam, dözümlü; möhkəm özüllü.
***Rasiq, Rasiqə*** (ə.) -dərin bilikli, elmli, savadlı.
***Rasil***, ***Rasilə*** (f.) - elçi, nümayəndə.
***Rasim***, ***Rasimə*** (ə.) - rəssam, şəkilçəkən, rəsm çəkən.
***Ratib, Ratibə*** (ə.) - yaş, nəm, islanmış; sulu meyvə; təzə, yaşıl, yaşıllıq.
***Raufəddin*** (ə.) - mehriban, şəfqətli din; dinin şərəfi, mehribanlıq.
***Raul*** (a.) - "rad"-"işıq", "vulf"-"qurd, canavar" sözlərindən düzəlmiş və "işıqlı qurd" mənasındadır.
***Ravi***, ***Raviyə//Raviyyə*** (ə.) - rəvayət edən, nağıl söyləyən; fikir, xəyal.
***Ravil, Ravilə*** (ə.) - gənc, cavan; yaz günəşi; səyahətçi.
***Rayət*** (ə.) - bayraq, ələm.
***Rayib, Rayibə*** (ə.) – şübhə, şəkk; maraq.
***Rayon*** (fr.) - bir ərazinin müəyyən coğrafi, iqtisadi cəhətdən vəhdət təşkil edən hissəsi.
***Razi//Rəzi//Razif, Razifə//Raziyyə//Raziyə//Rəziyə*** (ə.) - bir şeydən razı olan, məmnun, sirli.
***Raziq, Raziqə*** - bax: Razzaq.
***Razil, Razilə*** (f.) – sirli, əsrarəngiz gözəl qız.
***Razim, Razimə*** (ə.) - döyüş, vuruş, müharibə.
***Razin*** - Rusiyada kəndli hərəkatının (1670-1671-ci illər) başçısı S.T.Razinin adından yayılmışdır.
***Razmi, Razmiyyə*** (ə.) - döyüş, döyüşlər, vuruş, vuruşlar, müharibə, müharibələr.
***Razzaq//Rəzzaq*** (ə.) - ruzi verən, bəsləyən.
***Real//Rial, Riala//Rialə*** (l.) - həqiqətdə gerçək olan; obyektiv varlıq.
***Renad//Renat//Rinad//Rinat*** (l.) - dirilmiş, dirçəlmiş, yenidən canlanmış.
***Restun*** - bax: Ərəstun.
***Rey*** - eyni adlı hind rejissoru (XX əsr), türk bəstəkarı (XIX əsr) və İran şəhərinin adındandır.
***Rəbbani*** (ə.) - Allaha mənsub, ilahi.
***Rəbbi*** (ə.) - mənim ağam (əsli qədim yəhudi sözüdür); müəllim, Allah.
***Rəbbin*** (q.,y.) - din xadimi.

***Rəbib//Rəbibə*** (ə.) - şagird; yetişdirmə.
***Rəca//Rica//Rəcai//Rəcayi*** (ə.) - xahiş və istəklə əlaqədar; ümid və diləklə bağlı olan.
***Rəcəb*** (ə.) - əzəmətli, heybətli, çox hörmətli (Ərəb qəməri təqviminin VII ayı, Məhəmməd peyğəmbərin merac etdiyi ay).
***Rəcəbağa*** - bax: Rəcəb və Ağa.
***Rəcəbalı//Rəcəbəli*** - bax: Rəcəb və Əli.
***Rəcəbxan*** - bax: Rəcəb və Xan.
***Rəfaət//Rəfayət*** (ə.) - xoşbəxtlik, bolluq, firavanlıq.
***Rəfaqət*** (ə.) - yoldaşlıq, şəriklik; yol yoldaşlığı.
***Rəfayəddin//Rəfaəddin*** (ə.) - dinin bolluğu, dinin xoşbəxtliyi.
***Rəfrəf*** - Məhəmməd peyğəmbərin (s.) merac zamanı mindiyi ikinci xəyali atın adı.
***Rəftar*** (f.) - kiməsə qarşı göstərilən münasibət; davranış, hərəkət tərzi.
***Rəğbət*** (ə.) - istək, arzu.
***Rəhbər*** (f.) - hər hansı insan qrupunun ideoloqu, başçısı, yol göstərəni, bir işi idarə edən.
***Rəhimdil//Rəhmdil*** (ə.) - rəhimli, ürəyiyumşaq; acıyan.
***Rəhiməli*** (ə.) - Əli rəhmi, Əlinin yazığı gələn.
***Rəhimulla*** (ə.) - Allahın rəhmi, Tanrının yazığı gələn.
***Rəhman, Rəhmanə*** (ə.) - rəhmli, şəfqətli,mərhəmətli (Allahın epitetlərindən biri).
***Rəhmət//Rəhməti*** (ə.) - yazığı gələn, rəhm edən; bağışlayan, bəxşiş verən.
***Rəhmətulla*** (ə.) – Allahın rəhmi, Tanrının şəfqəti.
***Rəhmi, Rəhmiyə//Rəhmiyyə*** (ə.) - acıma, mərhəmət, rəhmlə əlaqədar olan.
***Rəisəddin*** (ə.) - dinin başçısı, dinin rəisi.
***Rəisət//Riyasət*** (ə.) – başçılıq, sədrlik, rəislik.
***Rəmzi***, ***Rəmziyə//Ramziyyə//Rəmziyyə*** (ə.) - işarə; rəmzlə ifadə olunan; üstüörtülü bildirilən.
***Rəmzulla*** (ə.) - Allahın işarəsi, Tanrının rəmzi.
***Rəncbər*** (f.) - zəhmətkeş, əməkçi, muzdur; əkinçi; kəndli.
***Rəsi*** (f.) - yetişən, çatan; dolğun, nöqsansız.
***Rəsib, Rəsibə//Rəsubə*** (ə.) - sualtı qaya; bax: Rasib.
***Rəsidəddin*** (f.,ə.) - nöqsansız din, yetkin din.
***Rəsmi, Rəsmiyə//Rəsmiyyə//Rəsmiyyət*** (ə.) - rəsmi olma, rəsmilik.
***Rəsul*** (ə.) - peyğəmbər, nəbi; səfir, elçi.

***Rəşad//Rişad//Rəşat, Rəşadə*** (ə.) - ağıllılıq; ağıllı olma; doğru yol, nicat yolu.
***Rəşadət*** (ə.) - igidlik, qəhrəmanlıq, qoçaqlıq.
***Rəşan, Rəşanə*** (ə.) - titrəyərək, titrəyə-titrəyə.
***Rəşid***, ***Rəşidə*** (ə.) - igid, qəhrəman; qorxmaz; düzgün, doğru.
***Rəşidəddin*** (ə.) - dinin (məzhəb) başçısı, din qəhrəmanı.
***Rəşiq, Rəşiqə*** (ə.) - gözəl, nəfis, zərif.
***Rəvail*** (f.) - layiq, münasib, yararlı.
***Rəvan***, ***Rəvanə*** (f.) - axıcı; yaxşı öyrənilmiş; həyat.
***Rəvayət*** (ə.) - nağıl, hekayə; nağıl etmə, hekayə etmə, xəbər.
***Rəvil, Rəvilə*** (ə.) - təmtəraqlı, möhtəşəm; dolu, bol.
***Rəvvaq*** (ə.) - təmiz, şəffaf.
***Rəyasət*** (ə.) - rəislik, başçılıq, rəhbərlik.
***Riad//Riyad, Riada//Riadə//Riyada//Riyadə*** - Səudiyyə Ərəbistanı paytaxtının adındandır; bağça, güllük.
***Riayət*** (ə.) - gözləmə, sayğı; əməl etmə, yerinə yetmə.
***Rifah*** (ə.) - xoş güzəran, firavanlıq, bolluq, rahatlıq.
***Rifqi, Rifqiyə*** (ə.) - yumşaqla, mülayimliklə əlaqədar olan; yoldaşlıqla bağlı olan.
***Rizman//Ruzman, Rizmanə//Ruzmanə*** (f.,ə.) - günlü, gündüzlük, azuqəli, ruzili, qismətli.
***Rizvan***, ***Rizvanə//Rizvaniyyə//Rizvaniyə*** (ə.) - razılıq, məmnunluq (Cənnət gözətçisi və qapıçısı olan mələyin adı).
***Roman*** (l.) - rumlu, Rumdan olan.
***Romil//Romul, Romilə*** (yun.) - güc, qüvvət.
***Rövnək//Rövnəq//Rönənq*** (ə.) - parlaqlıq, gözəllik, zinət; lətafət; işıq.
***Rövşən***, ***Rövşanə//Rövşənə//Röşənə//Rövşənək*** (f.) - işıqlıq, aydınlıq; aşkar.
***Rövzat//Rövzət*** (ə.) - Cənnət bağı, Behişt; mərsiyə, dini hekayə.
***Röyal***, ***Röyalə*** (f.) - kral, qeysər, çar, padşah.
***Rubail//Rübail//Rübayıl*** (ə.) - dördlük, dörd misralıq klassik şeir forması. Adətən, ailədə 4-cü oğlan uşağına verilir.
***Rufan, Rufanə//Rüfanə*** (ə.) - ruhən, ruhca; mənəvi cəhətdən.
***Rufat//Rafat//Rifat//Rifad//Rifət//Rofət//Röfət//Rafət//Rüfət//Rufət //Ürfət*** (ə.) - yüksək mənsəb, yuxarı rütbə; yüksəklik; ucalan.
***Ruhəddin*** (ə.) - dinin ruhu, dinin canı.
***Ruhi, Ruhiyyə//Ruhidə*** (ə.) - ruha və cana mənsub olan; ruhlu, ruhlu olan; canlı, təsirli, hərəkətli.

***Ruhin*** - sənin ruhun, sənin canın; canlı, ruhlu.
***Ruhlan***, ***Ruhlanə*** - canlan; hərəkətə gəl, fəaliyyət göstər.
***Ruhulla//Rufulla*** (ə.) - Allahın ruhu (İsa peyğəmbərin epiteti).
***Rumxan*** - Rum xanı; rumlu xan; Rumun hökmdarı.
***Rumi, Rumiya//Rumiyə//Rumiyyə*** (ə.) - Anadoluya aid olan, anadolulu; Türkiyədə yaşayan yunan; Rumdan olan; ağ üzlü rum gözəli.
***Ruslan***, ***Ruslanə*** - bax: Arslan və Aslan.
***Ruşan, Ruşanə*** (f.,t.) - "rusi", "dağ keçidi", -an məkan bildirən şəkilçidir (İsmayıllı rayonunda kənd, Tacikistanda eyni adlı dağ, qəsəbə, aşırım vardır. Bax: Uruşan.
***Ruzbeh*** (f.) - xoşbəxt, bəxtiyar, ağgün.
***Ruzi//Ruzu*** (f.) - azuqə, ərzaq; qismət.
***Ruzim*** - mənim ruzim, mənim azuqəm, qismətim.
***Ruzvelt*** - ABŞ-ın prezidenti F.D.Ruzvelt (1882-1945) adındandır.
***Rüknəddin*** (ə.) - dinin sütunu, dinin dayağı, dinin əsası.
***Rüstəm*** (f.) - sağlam, cüssəli; güclü, pəhləvan.
***Rüstəmağa*** - bax: Rüstəm və Ağa.
***Rüstəmalı//Rüstəməli*** (f.,ə.) - igid Əli, qəhrəman Əli, pəhləvan Əli.
***Rüstəmbəy*** (f.,t.) - Rüstəm bəy; igid, qəhrəman bəy; sağlam, cüssəli bəy.
***Rüşdi//Rüştü, Rüşdiyə//Ruşdiyə//Rüştiyə//Ruşdiyyə//Ruştiyyə*** (ə.) - doğru yolla getmə, doğru yolu tapma; inkişaf etmiş.
***Rza//Riza*** (ə.) - razılıq, razı qalma, məmnunluq (VIII imam Əli ibn Musanın epiteti).
***Rzaağa//Rzağa*** (ə.,t.) - bax: Rza və Ağa.
***Rzababa*** - bax: Rza və Baba.
***Rzabala*** - bax: Rza və Bala.
***Rzabəy*** (ə.,t.) - Rza bəy.
***Rzaxan*** (ə.,t.) - Rza xan.
***Rzaqulu*** (ə.,t.) - Rzanın qulu, Rzanın köləsi.
***Rzalı*** - bax: Rza və Əli; Əlinin razılığı, iradəsi; Əli məmnunluğu.
***Rzasəməd*** (ə.) - bax: Rza və Səməd (Allahın epitetlərindən biri).

## S

***Saabxan*** (ə.,t.) - əliaçıq, səxavətli xan; dikbaş, boyun əyməyən xan.
***Saadulla* (ə) -** Allahın bəxş etdiyi səadət, bəxt.
***Saat*** (ə.) - vaxtı təyin edən cihaz; 60 dəqiqəlik vaxt ölçüsü.

***Sabahəddin//Səbahəddin*** (ə.) - dinin sabahı, səhəri; dinin gözəlliyi; dinin məşəli.
***Sabahət*** (ə.) - gözəllik, yenilik, təzəlik.
***Sabbar //Səbbar*** (ə.) - çox səbirli, dözümlü, təmkinli.
***Sabdin*** (ə.) - dinin mehi, nəsimi, dinin şəhəri.
***Sabih, Sabiha//Sabihə*** (ə.) - gözəl, lətif, məlahətli.
***Sabiq***, ***Sabiqə//Səbiqə*** (ə.) - əvvəlki, keçmişdə olmuş.
***Sabil*** (ə) – qapalı adam, azdanışan.
***Sabir***, ***Sabirə//Səbirə*** (ə.) - səbirli, dözümlü, səbir edən.
***Sabircan*** (ə.,f.) - Sabir canlı, Sabir ruhlu; Sabir can.
***Sabit***, ***Sabitə*** (ə.) - səbatlı, möhkəm; məğlubedilməz; hərəkətsiz.
***Sabitnur*** (ə.) – sabit və nur sözlərindən düzəlmiş, «möhkəm işıq, məğlubedilməz nur» deməkdir.
***Sabur, Saburə*** (ə.) - çox dözümlü, çox səbirli olan, təmkinli.
***Sabutay*** (ə.,t.) - dəyişməyən qəhrəman, möhkəm xarakterli igid.
***Sacid, Sacidə*** (ə.) - səcdə eləyən, dua edən.
***Sadad***//***Sədad*** (ə.) - doğruluq, haqq, insaf.
***Sadail*** (ə.) - sədalar, səslər.
***Sadat//Sədat*** (ə.) - seyidlər; doğruluq, doğru, haqq, insaf (əsli «sədad»dır).
***Sadatxan*** - bax: Sadat və Xan.
***Sadatqulu*** - bax: Sadat və Qulu.
***Saday***, ***Sadayə*** - sayılan, hörmət edilən, hörmətli.
***Sadəddin//Sadətdin*** (ə.) - dinə başçılıq edən, dinə rəhbərlik edən; dinin səadəti.
***Sadıq//Sadiq//Sadıx***, ***Sadiqə//Sədiqə*** (ə.) - dost; sədaqətli, vəfalı; doğru, düzgün.
***Sadıqcan*** (ə.,f.) - Sadıq ruhlu, ürəkli; Sadıq kimi.
***Sadıqəli//Sadiqəli*** (ə.) - Əlinin dostu; Əliyə sədaqətli olan.
***Sadir***, ***Sadirə*** (ə.) - zahir olan; verilən.
***Safa*** (ə.) - sevinc, şadlıq; zövq, ləzzət; saflıq, rahat; aydınlıq.
***Safadur//Səfadur*** (ə.,f.) - səfalı, tamaşalı.
***Safalı//Səfalı*** (ə.,t.) ürəkaçan , gözəl; zövq verən, xoşagələn.
***Safəddin*** (ə.) - dinin safı, dinin təmizi.
***Safi***, ***Safiyə//Safiyyə//Səfiyyə//Səfiyə//Safiyyət*** (ə.) - təmizlik, saflıq, xalislik.
***Sağman*** - davamlı, dözümlü, dəyanətli; qüsursuz, nöqsansız; sarsılmaz.

***Sahib//Sahab, Sahabə//Sahibə//Səhibə*** (ə.) - yiyə; yoldaş, dost; qoruyan, arxa duran.
***Sahibağa*** (ə.,t.) - Sahib ağa; ağanın sahibi.
***Sahibəddin*** (ə.) - dinin sahibi, dini təsis edən.
***Sahibəli*** (ə.) - bax: Sahib və Əli.
***Sahibxan*** (ə.,t.) - sahiblərin xanı.
***Sahil, Sahilə*** (ə.) - dəniz, göl, çay və su anbarının kənarı.
***Sahir, Sahirə*** (ə.) - sehr edən, sehrbaz, cadugər.
***Saib***, ***Saibə*** (ə.) - səxavətli, əliaçıq.
***Said***, ***Saidə*** (ə.) – yüksək yerə qalxan, yuxarı çıxan.
***Sail***, ***Sailə*** (ə.) - soruşan, sual edən; hücumçu; dilənçi.
***Saim, Saimə*** (ə.) - əslində "soum"dandır; oruc tutan, oruclu.
***Sait*** (ə.) - səsli, hay-küyly.
***Sakin***, ***Sakinə//Səkinə*** (ə.) - sakit, dinc; könül rahatlığı.
***Sakit***, ***Sakitə*** (ə.) - dinc, mülayim, həlim, yumşaqxasiyyətli.
***Saqi*** (ə.) -su verən, su satan; içki məclislərində şərab paylayan.
***Saqib//Saqif//Sakif***, ***Saqibə//Saqibət*** (ə.) - çox parlaq, çox işıqlı; dələn, deşən.
***Salah//Saleh//Salih, Salihə//Salehə*** (ə.) - xeyirxah, yaxşılıq edən, saf əxlaqlı.
***Salahəddin//Səlahəddin//Saləddin*** (ə.) - dinin yaxşılığı, dinin səadəti; dinin asayişi.
***Salam//Salami//Səlami*** (ə.) - sülh; sağlamlıq; sağlıq (Allahın epitetlərindən biri).
***Salamat//Səlamət*** (ə.) - sağ, diri, sağ-salamat.
***Salamulla*** (ə.) - Allahın sülh və əmin-amanlığı, Allahın salamı.
***Salar*** - başçı, rəis; komandir, sərkərdə.
***Salavat*** (ə.) - Məhəmməd peyğəmbər və imamların şəninə oxunan dua.
***Salxab*** (ə.,f.) - soyulmuş dərinin suyu.
***Salidar//Səlidar*** (ə.,f.) - ikinci gün.
***Salif, Salifə*** (ə.) - keçən, keçmiş.
***Salik*** (ə.) - bir yol ilə gedən; bir həqiqətə sahib olan.
***Salikbəy*** - tövsiyə olunmuş bəy, məsləhət görülmüş bəy.
***Salikxan*** - tövsiyə olunmuş xan, məsləhət görülmüş xan.
***Salim, Salimə*** - bax: Salamat, Səlim.
***Salis***, ***Salisə*** (ə.) - üçüncü (oğul və ya qız).
***Salisxan*** (ə.,t.) – üçüncü hökmdar; üçüncü nəslin davamçısı.
***Salman//Selman*** (ə.) - itaətkar, sağlam, sağ-salamat.

***Saltan*** - "Sultan" adından törəmiş, tək, yeganə, xüsusi və s. mənalarındadır.
***Saltıq*** - mütləq, mütləqiyyət; adət-ənənələrə əməl eləyən; tərbiyəvi, əxlaqi; topal, axsaq, şil.
***Salur*** - vuruşqan, qəhrəman, sərkərdə; qədim t. tayfalarından birinin adı.
***Salyan, Salyanə//Səlyanə*** - bərə yeri, salların sahilə yan aldığı yer (Salyan şəhəri və rayonunun adındandır).
***Sam*** (ə.) - isti ölkələrdə əsən güclü külək, səmum küləyi.
***Saman*** (f.) - dövlət, sərvət; rahat, aram; nizam-intizam.
***Sambur*** (ə.,t.) – «sam» (acı, isti) və q.t. «bur» (külək) sözlərindən yaranmış, «acı külək», «Səmum küləyi» deməkdir.
***Saməd//Samət*** (ə.) – azdanışan, sakit adam.
***Samı//Sami***, ***Samiə//Samiyə*** (f.) - eşidən; yüksək, ali (Allaha verilən epitetlərdən biri).
***Samid***, ***Samidə*** (ə.) - bərk, möhkəm; məğrur, vüqarlı.
***Samiddin//Saməddin//Samətdin*** (ə.) - dinin vüqarı, dinin dözümlüsü, dinin əbədiliyi.
***Samih, Samihə*** (ə.) – əliaçıq, comərd, səxavətli.
***Samiq***, ***Samiqə*** (ə.) - hündürboylu, boyu uca olan.
***Samil, Samilə//Səmilə*** (ə.) - artıq, artıq olan şey, artım.
***Samir***, ***Samirə//Səmirə*** (ə.) - həmsöhbət, söhbət yoldaşı.
***Samiran*** (ə.,f.) - müsahib, həmsöhbət olan.
***Samit***, ***Samitə*** (ə.) - səssiz, sakit, susmuş.
***Samiyəddin*** (ə.) - yüksək, ali din, dinin yüksəkliyi.
***Samux*** - üç çay qolu (Samux çayı və rayonunun adındandır).
***Samur*** - qiymətli xəzi olan yırtıcı heyvan (Eyni adlı çay, qəsəbə və dağın adındandır); ə. az danışan, sakit adam.
***Sanalp*** (f.,t.) - adlı-sanlı qəhrəman; igidin şöhrəti, igidin hörməti.
***Sanar*** - sayar; hörmət edər; künc-bucaq; tayfa adı.
***Sanbay//Sanbəy*** - hörmətli bay, bəy, nüfuzlu, adlı-sanlı bəy.
***Sani, Saniyə*** (ə.) - ikinci (oğul və ya qız)(Müqəddəs Məryəm nəzərdə tutulur).
***Sapmaz*** - dönməz, tutduğu yolu davam etdirən.
***Sarab//Sərab*** (f.) - bulağın, çayın mənbəyi; ilğım; xəyal.
***Sarail*** (ə.) - xalis, saf olan.
***Sarar, Sararə*** - əhatə eləmə, ətrafı tutma; qucaqlama; sarıma, bağlama.

***Sarxan//Sərxan//Sarıxan//Saruxan*** - baş xan, böyük xan, xanlarxanı (Sar-şahinlər sinfinə mənsub olan, suda, quruda və dağ zirvələrində yaşayan yırtıcı quşdur. Qədim türklərdə totem və etnonim olan bu söz "dünya, kainat" mənasında olan "Sarı-Günəş" ilə əlaqədardır).
***Sarəddin*** (f.,ə.) - dinin başçısı, dinin rəhbəri.
***Sarəng*** (f.) - qara rəngli kiçik quş, klassik muğamlardan birinin adı.
***Sarı*** - rəng mənasından başqa, qədim türklərdə Günəş, Ay, ulduz, dünya, kainat; etnonim, totem; qızıl; yetkin, kamil və s. mənalarda işlənmişdir.
***Sarıbaba*** - bax: Sarı və Baba.
***Sarıbala*** - bax: Sarı və Bala.
***Sarıbay//Sarıbəy*** - sarı rəngli bəy; dolğun, yetkin bəy.
***Sarif*** (ə.) – müəyyən, aydın.
***Sarman*** - nəhəng, böyük, iri, azman; sarışın rəngli insan.
***Sarmat***- bağlamaq, sarımaq; dolamaq.
***Saroğlan*** - sarı oğlan, sarışın oğlan.
***Sarvan//Sərvan//Sarban, Sarbanə //Sərbanə***(f.) - karvanbaşı, karvana rəhbərlik edən; ailə başçısı.
***Savab*** (ə.) - əməl, xeyir iş, xeyirxah iş; təmənnasız kömək.
***Savaddin*** (ə.) - dini savad, din ilə əlaqədar olan savad.
***Savadxan*** (ə.,t.) - yazı-pozu bilən xan, savadlı xan.
***Savalan*** - əzəmətli, sarsılmaz (Cənubi Azərbaycanda dağ adındandır).
***Sayad//Sayyad//Səyyad***, ***Sayadə//Səyyadə*** (ə.) - ovçu; adı sayılan, hörmətli.
***Sayadulla//Səyadulla//Səydulla*** (ə.) - adı sayılan Allah, hörmətli Allah.
***Sayat*** - adlı-sanlı, ad-sanı ehtiramla çəkilən, adı ilə tanınan.
***Saydar*** (m.,f.) - xeyirxahlıq, gözəllik sahibi.
***Saydın*** - saydın, hesabladın; hörmət etdin, bəyəndin.
***Sayıq***, ***Sayıqə*** - ayıq, ehtiyatlı, gözüaçıq.
***Sayıl*** – sayılan, hörmət olan, hörmət edilən.
***Sayir***, ***Sayirə*** (ə.) - seyr edən, hərəkət edən; keçən, gəzən.
***Sayqın//Sayqun*** - hörmət edilən, ehtiram göstərilən; hörmətə, ehtirama layiq olan adam.
***Saytəkin*** - hörmətəlayiq şahzadə, sayılan, ehtirama layiq olan xanzadə.
***Sazalı*** (ə.) - sayılan, gümrah Əli.
***Sehran***, ***Sehranə//Sehri*** (ə.) - sehrbaz; sehrləyən; insanı məftun edən sehrə məxsus; cazibə.

***Sehrəddin*** (ə.) - dinin sehri, tilsimi.
***Selen*** - səs, ün.
***Sevdik*** - istədik, vurulduq, eşqə düşdük.
***Sevdim*** - məhəbbət saldım, eşqə düşdüm, vuruldum.
***Sevdimalı//Sevdiməli//Söydümalı*** - Alını sevdim, Əlini sevdim.
***Sevdiyar*** - yar sevdi, gözəl sevdi.
***Sevindik*** - şadlandıq, sevincək olduq.
***Sevindim*** - şadlandım, sevincək oldum.
***Seyfalı//Seyfəli*** (ə.) - Alı qılıncı, Əlinin qılıncı.
***Seyfəddin*** (ə.) - dinin qılıncı; inam qılıncı.
***Seyfəl*** (ə.) - "Əlinin qılıncı" ifadəsinin ixtisar forması.
***Seyfəlmülk*** (ə.) - əslində "Seyfəlmüluk" - məliklərin, hökmdarların qılıncı.
***Seyfi*** (ə.) - qılınca aid olan, qılınca məxsus ("Seyf" komponentli ərəb adlarının qısaltması.
***Seyfulla*** (ə.) - Allahın qılıncı, Tanrının qılıncı.
***Seyfur***, ***Seyfurə*** (f.) - ipək, qumaş.
***Seyhan, Seyhanə*** - Aralıq dənizininin İskəndərun körfəzinə tökülən bir çayın adıdır. Anadolu türkləri bu adı Seyhun və Ceyhun çaylarının adlarına uyğunlaşdırmışlar.
***Seyhun***, ***Seyhunə*** - sey (su, çay) və hun (etnonim): Hun suyu, Hun çayı; nərə çəkən, qışqıran (Sır Dərya çayının qədim adı).
***Seyxan*** - ə. şəhərdən şəhərə səyahət; t. gözəl xan; Türkiyədə çay adı.
***Seyid//Seyyid*** (ə.) - cənab, ağa, başçı; Məhəmməd peyğəmbərin nəslindən olanlara verilən dini titul.
***Seyidağa//Səidağa*** (ə.,t.) - Səid ağa; xoşbəxt ağa.
***Seyidalı//Seyidəli*** (ə.) - rəhbər Alı, cənab Əli, ağa Alı, başçı Əli.
***Seyidbala*** - bax: Seyid və Bala.
***Seyidcəfər*** - bax: Seyid və Cəfər.
***Seyidəhməd*** - bax: Seyid və Əhməd.
***Seyidəşrəf*** - bax: Seyid və Əşrəf.
***Seyidxan*** (ə.,t.) – Seyid xan; başçı xan, rəhbər hökmdar.
***Seyidrza*** - bax: Seyid və Rza.
***Seyidyəhya*** - bax: Seyid və Yəhya.
***Seylab*** - güclü sel, sel suyu.
***Seylan***, ***Seylanə*** - Şri Lanka dövlətinin 1972-ci ilə qədər daşıdığı Seylon adındandır.
***Seymur***, ***Seymurə*** - sirləri üzə çıxaran, gizli işləri açan.

***Seyran***, ***Seyranə*** (ə.) - gəzinti, tamaşa; seyr etmə.
***Seyrgah*** (ə.) - seyr yeri, gəzinti yeri, tamaşa yeri.
***Seyruz*** (f.) - “Süruş” (“mələk” mənasındadır) adının dəyişdirilmiş formasıdır. Bax: Süruş.
***Seyyab//Səyyab//Səyyaf*** (ə.) - qılıncla silahlanmış, əli qılınclı; cəllad; qoçaq, igid; üç ulduzdan biri.
***Sevan*** - Qərbi Azərbaycanda olan Göyçə gölünün ermeniləşdirilmiş adı.
***Səadətdin*** (ə.) - dinin sevinci, dinin məmnunluğu.
***Səbahəddin*** (ə.) - dinin sübhü; dinin səhəri.
***Səbahət*** (ə.) - gözəllik, hüsn, lətafət; suda üzmə.
***Səbail//Səbayıl//Səbayel*** - ə. mehli, nəsimli; t. Səba ili; yaylı el, dövlətli el; dəniz gözətçisi.
***Səbi, Səbiyyə//Səbiyə*** (ə.) - cavan, gənc; yeniyetmə; uşaq.
***Səbil, Səbilə*** (ə.) - yol; yol üzərində savab üçün su saxlanan bina; ehsan üçün paylanan su və ya hər şey.
***Səbri, Səbriyyə*** (ə.) - səbirli; dözümlü.
***Səbrulla*** (ə.) - Allahın səbri.
***Səbuhi*** (ə.) - səhərə aid olan, sübhə mənsub olan; səhər mehi.
***Səbzalı//Səbzəli*** (f.,ə.) - səbzə (əla kişmiş; göyərti; göylük, yaşıllıq) Alı və ya Əli ("Göy" sözü rəng mənasından başqa, xeyir, bərəkət, bolluq, xoşbəxtlik, sevinc, gənclik mənalarında da işlənir. Bu baxımdan, ad "Əlinin bəxş etdiyi nemət, sevinc" mənasındadır).
***Səbzixan*** (f.,t.) - yaşıl xan; qarabəniz xan.
***Səbzulla*** (f.,ə.) - Allahın yaşıllığı, göylüyü.
***Səccad***, ***Səccadə*** (ə.) - canamaz; üzərində namaz qılınan kiçik xalça və ya qumaşdan tikilmiş döşənək; müqəddəs.
***Sədail//Sədayıl//Sədayel*** (ə.,t.) - elin səsi, ilin səsi; elin sədası.
***Sədi*** (ə.) - xoşbəxt, bəxtiyar; xoşbəxtliklə, bəxtəvərliklə əlaqəli olan.
***Sədiman*** (ə.,t.) - xoşbəxt adam, bəxtiyar insan, uğurlu kişi.
***Sədirəli*** - bax: Sədr və Əli.
***Sədirxan*** - bax: Sədr və Xan.
***Sədiyar//Sədyar*** (ə.,f.) - xoşbəxt dost, bəxtiyar yoldaş.
***Sədnik*** (f.) - yüzbaşı; atlı.
***Sədr//Sədir, Sədirə*** (ə.) - qəlb; hər şeyin başı, əvvəli; baş nazir, hökumət başçısı.
***Sədra*** (ə.) - baş; sədr, başçı, rəis.
***Sədrəddin*** (ə.) - dinin qəlbi; dinin başçısı, dinin rəhbəri.

***Sədri//Sadri, Sədriyyə*** (ə.) - sədrə aid olan; əla düyü növü.
***Sədulla*** (ə.) - Allahın xoşbəxti, Tanrının bəxtiyarı; Allahın bəxş etdiyi.
***Səfa, Səfayət//Səfaət//Səfaqət//Səfayə*** (ə.) - saflıq, təmizlik; rahatlıq; zövq, ləzzət, kef.
***Səfadar*** (ə.,f.) - saflığı sevən; təmizkar; rahatlıq sevən.
***Səfail//Səfayıl*** (ə.,t.) - elin safı; ilin təmizi; saf elli, təmiz eldən olan.
***Səfban*** (ə.) - daş, qaya; yenilməz, möhkəm, dözümlü.
***Səfdər//Səftər*** (ə.,f.) - düşmən əsgərlərinin səfini dağıdan; igid, qəhrəman.
***Səfdərağa//Səftərağa*** - bax: Səfdər və Ağa.
***Səfdərbala//Səftərbala*** - bax: Səfdər və Bala.
***Səfdərəli//Səftərəli*** - bax: Səfdər və Əli.
***Səfər*** (ə.) - ərəb qəməri təqviminin II ayı; yola düşmə, səyahət.
***Səfərağa*** - bax: Səfər və Ağa.
***Səfəralı//Səfərəli*** - bax: Səfər və Əli//Alı.
***Səfərbala*** - bax: Səfər və Bala.
***Səfərçin*** (ə.,f.) - səfərdə toplayan, yığan.
***Səfərqulu*** - bax: Səfər və Qulu.
***Səfəvi*** (ə.) – «səf» və «əvi» - saf, xalis, təmiz deməkdir. Azərbaycan şairi və dövlət xadimi Şah İsmayıl Xətainin yaratdığı Azərbaycan dövləti məhz 1501-1731- ci illərdə bu adla fəaliyyət göstərmişdir.
***Səfxan*** (ə.,t.) - hökmdar dəstəsi; xan sırası.
***Səfi***, ***Səfiyə//Səfiyyə*** (ə.) - saf, təmiz; seçilmiş dost, səmimi yoldaş.
***Səfiağa*** (ə.,t.) - saf ağa, təmiz ağa, seçilmiş ağa.
***Səfiəddin*** (ə.) - dinin təmizliyi, saflığı; dininə sədaqətli adam.
***Səfixan*** - bax: Səfi və Xan.
***Səfiqulu*** - bax: Səfi və Qulu.
***Səfiyar//Səfyar*** (ə.,f.) -saf dost, təmiz dost; seçilmiş yoldaş.
***Səfiyəddin//Səfiəddin*** (ə.) - dinin safı, dinin təmizi; dinin seçilmişi.
***Səfiyulla//Səfiulla*** (ə.) - Allahın təmiz bəndəsi.
***Səftərqulu//Səfdərqulu*** (f.,t.) - qəhrəmanın qulu, igidin nökəri.
***Səfvan*** (ə.) – sıra-sıra, cərgə ilə düzülmüş; silsilə (dağ).
***Səfvət*** (ə.) - saflıq, xalislik, təmizlik.
***Səgrək*** - cəld, cürətli, iti, yaxşı at çapan.
***Səhabəddin*** (ə.) - Məhəmməd peyğəmbərin tərəfdarları, dinin dostları, tərəfdarları.
***Səhhət*** (ə.) - sağlamlıq, cansağlığı.
***Səhman*** (ə.) -səhman, səliqə, qayda-qanun.

***Səhlədar*** (ə.,f.) - xoşluq gətirən, müjdəçi.
***Səhliyar*** (ə.,f.) – çöldə, düzəngahda dost olan.
***Səhnam*** (ə.) - orta, aralıq, meydan.
***Səhrab*** (ə., f.) - sehrli su, çay suyu, həmişə axar su.
***Səhrad*** (ə.) - çöllük, səhralıq.
***Səxavəddin//Səxavəttin*** (ə.) - dinin səxavəti, dinin comərdliyi.
***Səxavət*** (ə.) - əliaçıqlıq, comərdlik, ürəyiaçıqlıq.
***Səid***, ***Səidə*** (ə.) - xoşbəxt, bəxtiyar, ağgün.
***Səqləb*** - çoxlu sərvət verən (Oğuz Kağanın ana şəhəri).
***Səlaəddin//Səlahəddin*** (ə.) – dinin bəyəndiyi, dinin asayişi, çağırışı, dəvəti.
***Səlahət*** (ə.) - xeyirxahlıq, yaxşılıq.
***Səlcuq*** - qədim türk tayfalarından birinin adı.
***Sələf*** (ə.) - əcdad.
***Səlim//Selim***, ***Səlimə//Səlimət*** (ə.) - sağlam; bütöv, tam.
***Səlimağa*** - bax: Səlim və Ağa.
***Səlimcan*** (ə.,f.) - canı sağlam olan, gümrah; doğruçu, nöqsansız.
***Səlimxan*** - bax: Səlim və Xan.
***Səməd//Saməd//Samət*** (ə.) - əbədi, daimi, həmişəlik.
***Səmədağa*** - bax: Səməd və Ağa.
***Səməddin//Saməddin//Samətdin*** (ə.) - əbədi din, daimi din; dinin əbədisi.
***Səmədxan*** - bax: Səməd və Xan.
***Səmədulla*** (ə.) - Allah əbədidir; əbədi olan Allah.
***Səmənd*** (f.) - qızılı və boz rəng arasında olan qırmızı kəhər at.
***Səməndər*** (f.) - odda yaşayan əfsanəvi quş.
***Səmər*** (ə.) - meyvə; fayda, mənfəət.
***Səmərxan*** (ə., t.) - faydalı, fayda verən xan.
***Səmid, Səmidə*** (ə.) - sakit, tərpənməz, susan, möhkəm dayanan, laldinməz.
***Səmidağa*** - bax: Səmid və Ağa.
***Səmidəli*** - bax: bax: Səmid və Əli.
***Səmidxan//Səmitxan*** - bax: Səmid və Xan.
***Səmiran, Səmra*** (ə.) - söhbətcil; ədəbi; sözeşidən.
***Sənan***, ***Sənanə*** (ə.) - işlək, çalışqan, zəhmətsevər; tariflənən, mədh edilən, kəskin, sivri; Ərəb tarixçisi Tariq ibn Sənanın adından yaranmışdır. Səna dağı və şəhərinin adı da məhz onun adı ilə bağlıdır.
***Səncər*** - əzab verən, incidən; yarıb keçən; başçı, bayraqdar.

***Səngər*** (f.,t.) - daş kimi ər, daş kimi qəhrəman; möhkəm igid.
***Səngir//Səngür, Səngirə//Səngürə*** - dağ çıxıntısı; divarın sonu, çıxıntısı.
***Səraslan//Saraslan*** - sar//sər qəbiləsindən olan qəhrəman(aslan).
***Sərab//Sirab*** (f.) - çeşmə, bulağın və çayın başlanğıcı, baş su.
***Sərad*** (f.,t.) - baş ad, əsas ad; adların ən yaxşısı.
***Sərbaz*** (f.) - əsgər.
***Sərdab*** (f.) - zirzəmi; yeraltı su anbarı.
***Sərdar*** (f.) - komandan; vali, canişin; başçı.
***Sərəddin*** (f.,ə.) – dinin başçısı, dinin rəisi.
***Sərəncam*** (f.) - əmr, göstəriş, buyuruq.
***Sərəstan*** (f.) - "sər" (baş, böyük, ağa) və "asitan" astana, kandar, sarayın giriş qapısı) sözlərindən düzəlmiş, eşik ağası, saray qapısının rəhbəri mənasındadır.
***Sərhəd//Sərhad*** (f.,ə.) - hədd, hüdud; mərz.
***Sərhəddin*** (f.,ə.) - dinin sərhəddi, dinin baş mərzi.
***Sərhəng*** (f.) - qoşun böyüyü, sərkərdə.
***Sərxoş*** (f.) - məst, bərk kefli.
***Sərkar//Sərkər//Sərgar//Sərgər*** (f.) - başçı, böyük, cənab.
***Sərməd*** (ə.) - əbədi, yox olmayan, həmişəlik.
***Sərməs//Sərməst*** (f.) - sərxoş, kefli, xumar.
***Sərrac//Sarrac//Sarac*** (f.) - yəhər, palan və s. hazırlayan, təmir edən və ya satan.
***Sərraf*** (ə.) - hər şeydən başı çıxan.
***Sərrast*** (f.) – düz, düzgün, dəqiq; hədəfi düz vuran.
***Sərsəng*** (f.) – «sər» (baş, böyük) və «səng» (daş) sözlərindən düzəlmiş «böyük, daş» deməkdir.
***Sərtac*** (f.) - başa geyilən tac, baş geyimi; hörmətli, hörmətə layiq, möhtərəm.
***Sərtib*** (f.) - qoşun komandiri, komandan; general.
***Sərvər//Səlvər*** (f.) - başçı, rəis, yolgöstərən.
***Sərvət*** (ə.) - var, dövlət.
***Səttar*** (ə.) - eyibləri gizlədən, nöqsanları örtən; bağışlayan.
***Səttarxan*** (ə.,t.) - bağışlayanın xanı; Allahın xanı(Məşhur inqilabçı Səttar xanın adındandır).
***Səttarqulu*** (ə.,t.) - bağışlayanın qulu; Allahın qulu.
***Səyahət*** (ə.) - müəyyən məqsədlə başqa ölkələrə getmə.
***Səyavuş//Siyavuş*** (f.) - qara atlı, qara ata minmiş.
***Səyyaf*** (ə.) – qılıncla silahlanmış, yaxşı qılınc oynadan; igid, qoçaq.

***Səyyah*** (ə.) - səyahətçi, səyahət edən.
***Səyyar***, ***Səyyarə*** (ə.) - planet, hərəkətdə olan, dövr edən.
***Səyyub*** (ə.) - təşəbbüs edən adam.
***Sınaq*** - sınaq işi, imtahan.
***Sidqi***, ***Sidqiyə//Sidqiyyə*** (ə.) - dost; dosta məxsus.
***Sidqulla*** (ə.) - Allahın dostu.
***Sifariş*** (f.) - tapşırma; tapşırıq vermə; tapşırılmış iş və ya şey.
***Silahəddin*** (ə.) – dinin silahı, dinin yarağı.
***Simar//Simir*** (f.) - səmərələr, cücərtilər, irəliləyişlər.
***Simnar***, ***Simnarə*** - Sim nəslinə mənsub olan (Sim Nuh peyğəmbərin oğludur); böyük sənətkar; istedadlı memar.
***Simurğ//Simurq*** (f.) - qara rəngli böyük quş (İran əsatirinə görə Elbrus-Qaf dağında yaşayan iri bir quş, Ənqa quşu).
***Sina*** (f.) - ağsaqqal, başçı, rəis.
***Sinan*** (ə.) - süngü, nizənin ucu.
***Sirac//Surac*** - "çıraq" sözünün ərəb və farslaşmış forması; çilçıraq, lampa; məşəl.
***Siracəddin//Suracəddin//Sirəcəddin*** (t.,ə.) - dinin çırağı, dinin məşəli.
***Sirafil*** - bax: İsrafil.
***Siraq//Sirəq*** - "sir" (sur, sür-od, işıq) və "aq"(böyük) sözlərindən düzəlmiş, "böyük od, nəhəng işıq" mənasındadır; "çıraq" sözünün farslaşmış forması.
***Sirbay//Sirbəy*** - varlı əsgər, varlı bəy.
***Sircan*** (ə.,f.) - ürək sirri, doymuş könül.
***Sirdaş*** (f.,t.) - yoldaş, dost; bir oddan olanlar.
***Sirəddin//Siriddin*** (f.,ə.) - dinin sirri.
***Sirməmməd*** (ə.) - Məmmədin sirri.
***Sirulla*** (ə.) - Allahın sirri, Allahın niyyəti.
***Sirus//Siruş*** (f.) - “Sürüş” (bax) adının dəyişikliyə uğramış forması.
***Siyab*** (ə.,f.) - qara su; böyük su; müqəddəs su; Cənnət suyu.
***Siyasət*** (ə.) - mənafeyə uyğun fəaliyyət; hiylə, fəndgirlik.
***Sofi//Sofu*** (ə.) - dini ehkamlardan əsla kənara çıxmayan adam; zahid, dindar.
***Sofiq*** (ə.) - sufizm tərəfdarı; dindar, zahid.
***Sofiyar*** (ə.,f.) - sofilərin dostu; dindar, zahidləri sevən.
***Sofiyəddin*** (ə.) - dinin zahidi, dinin təbliğatçısı.
***Sokrat*** (yun.) - Əsli “sozo” (qurtarmaq, azad etmək) və “kratos” (hakimiyyət, güc, qüvvət) sözlərindəndir və “öz hakimiyyətini saxla-

yan” mənasındadır (Məşhur Yunan filosofu Sokratın adından yayılmışdır).
***Soltan//Sultan, Sultanə*** (ə.) - hökmdar, hakim, şah, dövlət başçısı.
***Soltanağa//Sultanağa*** - bax: Soltan və Ağa.
***Soltanbəy//Sultanbəy*** - bax: Soltan və Bəy.
***Soltanəli//Sultanəli//Soltanalı//Sultanalı*** - bax: Soltan və Əli.
***Soltanxan//Sultanxan*** - bax: Soltan və Xan.
***Soltanpaşa//Sultanpaşa*** - bax: Soltan və Paşa.
***Soltanşah//Sultanşah*** - bax: Soltan və Şah.
***Soraq*** – axtarma, xəbər, məlumat.
***Sovet*** (r.) - məsləhət, məşvərət.
***Soyalp*** - igid nəsilli, qəhrəman soylu; igidin nəsli.
***Soyər*** - soylu, köklü kişi; əsil-nəcabətli soydan olan ər.
***Söhbət*** (ə.) - danışıq, müsahibə, fikir mübadiləsi.
***Söhrab*** (f.) - qızartı, parıltı; yaqut; qırmızı, tünd qırmızı.
***Sönməz*** - həmişə yanan, heç vaxt sönməyən.
***Sövdəgər*** (ə.,t.) - tacir.
***Spartak*** (l.) - e.ə. I əsrdə Roma qulları üsyanının rəhbərinin adı; tapdalamaq; zadəgan; əsilzadə.
***Suad*** (ə.) – yüksəliş; t. Su kimi təmiz və uzunömürlü oğlan.
***Sucaət//Sucayət//Sücaət//Sücayət*** (ə.) - igidlik, cəsarət; qoçaqlıq, mərdlik.
***Sucəddin//Sücaəddin//Sücəddin*** (ə.) - dinin igidlik, sücaət göstərəni.
***Sudayar//Sudyar*** (f.) - faydalı, xeyirli dost.
***Sudeyf//Sideif//Südeif*** (f.) - kiçik sədəf.
***Sufyan*** (ə.) - əsmə, titrəmə.
***Sulay, Sulayə*** - gözəl ayələr; gözəl Ay; gözəl övladlar.
***Sulduz, Sulduza*** - ulduz; cığataylarda tayfa adı; Cənubi Azərbaycanda şəhər adı.
***Suliddin*** (ə.) - əsli “usuluddin” olub, dinin qaydaları, dinin üsulları mənasındadır.
***Sumbat*** - ox atan, qıy vuran; boy-buxun, qədd-qamət, görünüş.
***Sumər*** - türk xalqlarının ulu babası hesab edilən və miladdan əvvəl 4-cü minillikdən Mesopotamiyanın güneyində məskunlaşmış şumerlərin (sumerlər) adındandır. Bu ad Türkiyədə çox geniş yayılmışdır.
***Sunay, Sunayə*** - verilən, təqdim olunan, ikram edilən; ithaf olunan.
***Suralp*** (f.,t.) - igidin toy-büsatı, qəhrəmanın şənliyi.
***Suraxan*** - güclü, qüdrətli xan, hökmdar.

***Suraydın*** – şadlıq, aydın, gözaydınlığı.
***Surəddin*** (ə.) - dinin “Quran” (114 fəslindən hər biri) surəsi.
***Surət*** (ə.) - zahiri görünüş; üz, sifət; təmizlik; gözəllik.
***Surxay*** - Ay işığı; düyünləri açan; şan-şöhrətli igid.
***Suvar*** - Sabir (Sapir, Savir, Savar) etnonimindəndir.
***Sübhan//Subhan***, ***Subhanə//Sübhanə*** (ə.) - tərif, alqış; eşq olsun! Əhsən!
***Sübhanverdi//Subhaneverdi*** (ə.,t.) - mədh olunanın (Allahın) verdiyi, bəxş etdiyi.
***Sübhəddin*** (ə.) - dinin sübhü, dinin başlanğıcı, dinin səhəri.
***Sübhi***, ***Sübhiyyə*** (ə.) - sübh olan, sübhə aid olan, səhərki.
***Süheyl, Süheyla//Süheylə*** (ə.) - göy üzünün güneyində çox parlaq bir ulduz. Yəməndən daha yaxşı göründüyü üçün “süheyli-Yəmani” də adlanır.
***Süleyman*** (y.) - sülh, əmin-amanlıq, sakitlik (Əfsanəvi peyğəmbərlərdən qədim yəhudi Selomo adının ərəb forması).
***Süləddin//Süleddin//Sülhəddin*** (ə.) - dinin sülhü, dinin əmin-amanlığı, dinin barışı.
***Sülhi//Sülhü, Sülhiyyə//Sülhüyyə*** (ə.) - barış, barışla bağlı olan, sülhə aid olan.
***Sünar//Sunar, Sünara//Sünarə//Sunara//Sunarə*** - təqdim olunan, verilən övlad.
***Sünay*** (ə.,t.) - Ayın işi, Ay yaradılışı.
***Sündüz*** - düz iş, düz əməl, düz yaradılış.
***Sürət*** (ə.) - hər hansı hərəkətin itilik, tezlik dərəcəsi.
***Süruri*** (ə.) - sevincə aid, şadlığa məxsus.
***Süruş//Suruş*** (f.) - Cəbrayılın adlarından biri.
***Sütun*** (ə.) - mərmərdən, daşdan və s. tikilmiş dirək.

## Ş

***Şaban//Şəban*** (ə.) - Ərəb qəməri təqviminin VIII ayı.
***Şabəddin//Şabiddin*** (ə.) - gənc din; dinin igidi, din qəhrəmanı; meteor; gözəl oğlan.
***Şabı*** (ə.) - cavana aid, gəncə məxsus; dəliqanlı, igid.
***Şad*** - xanın varisliyə hüququ olmayan qardaş və oğlanlarına verilən qədim türk titulu.
***Şadağa*** - şad (xanın varisliyə hüququ olmayan oğlanlarına verilən titul) Ağa; həmişə şən olan ağa.

***Şadalı//Şadəli*** (t.,ə.) - varis olmayan Əli oğlu, varis olmayan Alı övladı.
***Şadan*** (f.) - sevincək, xoşbəxt, sevincli; sevilənlər, şadlananlar.
***Şadbəy*** - varis olmayan bəy.
***Şadəddin//Şadətdin*** (t.,ə.) - dinin sevinci, dinin şadlığı; din övladı.
***Şadət*** - "Şəhadət" (bax) adının qısaldılmış forması.
***Şadxan*** - şad olan xan; sevinən xan, fərəhli xan.
***Şadi, Şadiyə//Şadya*** (f.) - sevinc, xoşbəxtlik, şadlıq, səadət, nəşə.
***Şadiman//Şadman*** - şad adam, sevinən adam, fərəhli şəxs.
***Şadkam*** (f.) - arzusuna çatmış, xoşbəxt.
***Şadulla*** (t.,ə.) - Allahın xoşbəxti, Tanrının şad olanı; Allah övladı.
***Şafaddin//Şafəddin//Şafiddin*** - dinin şəfa verəni, sağaldanı; sağaldan din.
***Şafalı*** (ə.,t.) - şəfa verən, sağaldan.
***Şafiq//Şofiq, Şafiqə//Şəfiqə//Şofiqə*** (ə.) - rəhmli, rəhmdil, şəfqətli, ürəyiyanan.
***Şah*** (f.) - keçmişdə bir çox şərq ölkələrində padşah və ya hökmdar titulu, bu titulu daşıyan şəxs. "Şah" ilə başlanan mürəkkəb adların kiçiltmə və əzizləmə forması.
***Şahab//Şəhab*** (ə.) - ildırımlı, ildırımgətirən, işıqsaçan; meteor; parıltı, alov.
***Şahabəddin//Şəhabəddin//Şihabəddin*** (ə.) - dinin şöləsi, parıltısı, alovu, ulduzu.
***Şahalı//Şaxalı//Şahəli//Şaxəli*** (f.,ə.) - Şah Əli, Şah Alı.
***Şahan***, ***Şahanə//Şəhanə*** (f.) - şaha aid, şahlığa məxsus, hökmdara layiq.
***Şahbaba//Şababa*** - bax: Şah və Baba.
***Şahbala//Şabala//Şaxbala*** - bax: Şah və Bala.
***Şahbaz*** (f.) - tərlan, şahin; qoçaq, igid.
***Şahbəddin*** (f.,ə.) - dinin ulduzu.
***Şahbəndə*** (f.) - Şahın qulu, köləsi.
***Şahbəndər*** (f.) - səfir; gömrük məmuru.
***Şahbəy*** - bax: Şah və Bəy.
***Şahbuz//Şaxbuz*** (f.,t.) - şah buzu; sıldırım, yalçın qaya.
***Şahcahan*** - bax: Şah və Cahan.
***Şahcamal*** - bax: Şah və Camal.
***Şahəddin*** (f.,ə.) - dinin şahı, dinin başçısı; Məhəmməd peyğəmbər.
***Şahəhməd*** (f.,ə.) - Şah Əhməd; dinin Əhmədi - Məhəmməd Peyğəmbəri.

***Şahənşah*** (f.) - şahlar şahı.
***Şahgəldi*** - şah kimi oğlan gəldi (doğuldu).
***Şahgül*** - şaha layiq gül, şah gülü.
***Şahhəsən//Şahəsən*** - bax: Şah və Həsən.
***Şahhüseyn//Şahüseyn*** - bax: Şah və Hüseyn.
***Şahi//Şayi*** (f.) - şaha məxsus; hökmdarlıq, şahlıq.
***Şahid***, ***Şahidə*** (ə.) - şahidlik edən; gözəl, göyçək.
***Şahiddin//Şaitdin*** (ə.) - dinin şahidliyi, dinin gözəli.
***Şahiq, Şahiqə*** (ə.) - yüksək, hündür.
***Şahin***, ***Şahinə*** (f.) - tərlan; qoçaq, igid, qorxmaz.
***Şahinbəy*** - şahin kimi bəy, şahinə bənzər bəy; igid, qoçaq, qəhrəman.
***Şahismayıl*** (f.,ə.) - Şah İsmayıl (XVI əsr məşhur Azərbaycan şairi və dövlət xadimi Şah İsmayılın adındandır).
***Şahkərəm*** - bax: Şah və Kərəm.
***Şahkərim*** - bax: Şah və Kərim.
***Şahqardaş*** - bax: Şah və Qardaş.
***Şahqulu//Şaxqulu*** (f.,t.) - şahın qulu.
***Şahlar*** - çox şah, çoxlu şah.
***Şahmalı*** (f.,t.) - şaha aid olan mal, hökmdar malı; padşah oğlu.
***Şahman//Şahmən*** (f.,t.) - mənim şahım; şah adamı.
***Şahmar*** (f.) - iri və çox zəhərli ilan; varlı; müdrik.
***Şahməmməd*** - bax: Şah və Məmməd.
***Şahmərdan*** (f.) - mərd şah (Həzrət Əlinin epitetlərindin biridir).
***Şahmir//Şahmur//Şamur, Şahmira//Şahmirə//Şahmurə//Şamurə*** - "Şah" və "Əmir" (bax) adlarından yaranmışdır.
***Şahmirzə//Şaxmirzə*** (f.,ə.) - şah oğlu; şah mirzəsi (bax: Mirzə).
***Şahmurad//Şahmuraz//Şaxmurad*** (f.,ə.) - şahın arzusu, şahın istəyi.
***Şahnar, Şahnara//Şahnarə*** (f.,ə.) - şah odu, alovu; odlar şahı.
***Şahnəzər*** (f.) - şahın nəzəri, şahın iltifatı.
***Şahnur***, ***Şahnurə*** (f.,ə.) - şahın nuru, şahın işığı.
***Şahpara*** (f.) - şahın bir hissəsi, hökmdarın parçası; şah oğlu.
***Şahpələng*** (f.,t.) - şahın pələngi, şahın qaplanı.
***Şahpur//Şapur*** (f.,t.) - şahın odu, şahın ocağı, şahın işığı; şahın oğlu, şah övladı (Bu vaxta qədər f. sözü hesab edilən "pur" t. mənşəlidir və ocaq, pir sözünün farslaşmış formasıdır. Ta qədim zamanlardan oğul atanın odu, işığı hesab edilir).
***Şahrud//Şəhrud, Şahrudə*** (f.) - şah çayı; baş çay, böyük çay.
***Şahruh//Şahrux*** (f.) - şah üzü, şah çöhrəsi.

***Şahruz//Şəhruz, Şahruzə*** (f.) - şahın günü, şahın gündüzü; şahın xoşbəxtliyi; çox gözəl.
***Şahrza//Şaxrza*** (f.,ə.) - Şah Rza.
***Şahsevən//Şahsevər*** - şahı sevən, şahı istəyən (I Şah Abbas (1571-1629) hakimiyyəti qüvvətləndirmək məqsədilə əfşar, qacar və b. türk tayfaları tərəfinə çəkərək onlardan ibarət "Şahsevən" adlı xüsusi qvardiya yartmışdı).
***Şahsəddin*** (f.,ə.) - dinin şah bəndi; dinin böyük müdafiəçisi.
***Şahsəf//Şasəf//Şasif*** (f.,ə.) - şah sırası, şah dəstəsi; şah astanası.
***Şahsultan*** - bax: Şah və Sultan.
***Şahsuvar//Şəhsuvar*** (f.) - şahın atlıları, şahın atlı qvardiyası; mahir süvari.
***Şahulla*** (f.,ə.) - Allahın şahı, Tanrının şahı, Allaha mənsub olan şah.
***Şahvar//Şəhvar, Şahvarə//Şəhvarə*** (f.) - padşaha layiq; şahanə.
***Şahverdi//Şaxverdi*** (f.,t.) - şahın verdiyi, Tanrının bəxşişi.
***Şahverən*** (f.,t.) - şahın verdiyi, şahın bağışladığı.
***Şahvələd*** (f.,ə.) - şah övladı, şahın vərəsəsi, şah oğlu.
***Şahvəli*** (f.) – şahın himayəçisi, qəyyumu; hökmdarın dostu.
***Şahzaman*** - bax: Şah və Zaman.
***Şaxgül*** - gül budağı; düz dayanmış gül.
***Şaiq***, ***Şaiqə*** (ə.) - şövqlü, həvəsli; gözəl, əla, parlaq.
***Şair***, ***Şairə*** (ə.) - şeir yazan şəxs.
***Şakir***, ***Şakirə*** (ə.) - təşəkkür edən, şükr edən, minnətdar.
***Şaman*** - sehrbaz, ovsunçu, cadugər; əsasən ruhlara, magiyaya inanan (şimal xalqlarında).
***Şamdan*** (f.) - şam qoymaq üçün altlıq.
***Şamdanbəy*** - bax: Şamdan və Bəy.
***Şaməd*** (ə.) - "Şəhamət"in (bax) dəyişikliyə uğramış şəkli; igidlik, qəhrəmanlıq, cəsarət; nəciblik; zəkalı və tədbirli.
***Şaməddin*** (f.,ə.) - dinin şamı, dinin çırağı; dinin Günəşi.
***Şaməli*** (f.,ə.) - Əli şamı, Əli işığı, Əli çırağı.
***Şamxal*** (f.) - iriçaplı və fitilli tüfəng; XIX əsrə qədər Dağıstanda "vali" mənasında işlənən titul.
***Şamxəlil*** (f.,ə.) - Xəlilin şamı (Xəlil-İbrahim peyğəmbərin "Allahın dostu" mənasında olan "Xəlilullah" epitetinin birinci tərəfi. Bax:Xəlil).
***Şamı//Şami*** (f.) - şamlı, Şam şəhərindən, suriyalı olan.
***Şamil//Şəmil, Şamilə//Şəmilə*** (ə.) - hər şeyi əhatə edən, tam; təbiət, xasiyyət; ləyaqət.

***Şamir*** (ə.) - təkəbbür, qürur, təşəxxüs.
***Şamiran*** (ə.) - təkəbbürlü, qürurlu.
***Şamməd//Şəmmad//Şəmməd*** - "Şəmm» və «mədh» sözlərindən düzəlmiş, «tərifəlayiq ətir» deməkdir.
***Şamo//Şamoy*** - "Şamil" (bax) adının qısaldılmış forması.
***Şamşad//Şəmşad//Şəmşəd//Şəmşid*** (f.) - şamın işığı; şamın sevinci, şamın şadlığı.
***Şanal*** - ad-sanı olan, şöhrətli, əzəmətli.
***Şanar//Şanər*** - şanlı, şöhrətli, adlı-sanlı ər; tanınmış qəhrəman.
***Şanxay*** (ç.) - dəniz önündə (Çində ən böyük şəhər).
***Şanlı*** - əzəmətli, qədr-qiymətli; ad-sanlı, şöhrətli; rütbəli, vəzifəli.
***Şayar//Şayər*** (f.) - hörmətli, möhtərəm.
***Şaynur,Şaynurə*** (f.,ə) - yararlı, münasib; nur, işıq.
***Şenalp*** - şən igid, məmnun qəhrəman, şad igid.
***Şenər//Şənər*** - şən igid, şən ər, şən oğlan.
***Şenlik//Şənlik*** - çal-çağır; şadlıq, sevinc, fərəh, təntənə, bayram.
***Şensoy*** - şən nəsilli, şad misilli; xoşbəxt nəsili olan.
***Şeri*** (ə.) - şeirə aid olan, şeirə məxsus olan.
***Şeybani*** (ə.) – qocalmış, saç-saqqalı ağarmış; müdrik (XIX əsr İran satirik şairi Əbu Nasir Şeybaninin təxəllüsündən yaranmışdır).
***Şeyda***, ***Şeydayə*** (f.) - dəlicəsinə vurulmuş, eşq dəlisi.
***Şeyx//Şeyxi//Şıx*** (ə.) - yaşlı adam, qoca; təriqət başçısı, rəis; yaxşı hədis söyləyən, usta.
***Şeyxalı//Şeyxəli//Şıxalı//Şıxəli//Şixəli*** - Şeyx Alı, Şeyx Əli; müqəddəs Əli.
***Şeyxəddin*** (ə.) - dinin şeyxi (Şeyx - titul; qəbilə başçısı; təriqət başçısı; pirə baxan, pirdə nəzir yığan adam).
***Şeyxulla*** (ə.) - Allahın şeyxi, Tanrının şeyxi.
***Şeyxzaman*** (ə.) - zamanın şeyxi, dövrün şeyxi.
***Şeyyub//Şöyüb*** (ə.) - saç-saqqal ağarması, çallıq, qocalıq, ixtiyarlıq.
***Şəbi*** (ə.) - gecəyə aid olan, axşama məxsus olan.
***Şəbinur*** (ə.) - gecə nuru, gecə işığı.
***Şəddad*** (ə.) - zalım, sərt, qaba (Ərəb qəbilələrindən birinin adı).
***Şəfadar*** (ə.) - şəfa yeri, sağalma məkanı.
***Şəfaət//Şəfahət//Şəfayət*** (ə.) - xahiş, istək, vasitəçilik.
***Şəfahəddin*** (ə.) - dinin xahişçisi, dinin vasitəçisi.
***Şəfail*** (ə.,t.) - elin şəfası, ilin şəfa yeri.
***Şəfi*** (ə.) - təmiz, saf; günahların bağışlanması.

***Şəfixan*** (ə.) - təmiz, saf xan; günahları bağışlayan xan.
***Şəfiq, Şəfiqə*** (ə.) - şəfqətli, mərhəmətli, canı yanan.
***Şəfiulla//Şəfulla*** (ə.) - günahları Allah tərəfindən bağışlanmış (Adəm peyğəmbərin epiteti).
***Şəfiyar*** (ə.,f.) - təmizliyin dostu, saflığın yoldaşı.
***Şəhadət*** (ə.) - şahidlik; şahidlik etmə; müsəlmanlığın ilk şərti olan kəlmələri demə.
***Şəhamət*** (ə.) - cəsurluq, şücaət göstərmə, igidlik.
***Şəhrəddin*** - ə. din Ayı, dinin qəməri Ayı; f.,ə. dinin şəhəri.
***Şəhriyar*** (f.) - hökmdar, şah; qüdrət və əzəmət sahibi.
***Şəxsiyyət*** (ə.) - xarakteri, əxlaqı, cəmiyyətdə mövqeyi və s. baxımından xüsusilə fərqlənən insan, şəxs, sima.
***Şəkərəlı//Şəkərəli*** (f.,ə.) - şirin Əli, şəkər Alı.
***Şəki,Şəkiyyə*** - sak adlı türk tayfasının və eyni adlı şəhərin adı.
***Şəkib, Şəkibə//Şəkubə*** (f.) - dözümlü, dözən, səbirli, səbir eyləyən.
***Şəkil, Şəkilə*** (ə.) - sifət, surət.
***Şəkur, Şəkurə//Şəkirə*** (ə.) - şükür edən, razılıq ifadə edən.
***Şəmi*** (ə.) - şam, qəndil, çıraq; "Şəm" ilə başlanan adların kiçiltmə və əzizləmə forması.
***Şəmistan*** (f.) - şamı olan yer; işığı olan ərazi.
***Şəmkir*** - Azərbaycanın eyni adlı çay, rayon və şəhərinin adındandır.
***Şəmsəddin*** (ə.) - dinin Günəşi.
***Şəmsi***, ***Şəmsiyyə//Şəmsiyyət*** (ə.) - Günəşə mənsub, Günəşə aid olan.
***Şəmsulla*** (ə.) - Allahın Günəşi, Tanrının Günəşi.
***Şəmşir*** (f.) - qılınc.
***Şərafəddin//Şərafətdin//Şərəfəddin*** (ə.) - dinin fəxri, dinin iftixarı.
***Şərbət*** (ə.) - meyvə şirəsi qatılmış şirin su.
***Şərbətalı//Şərbətəli*** (ə.) - şərbət Əli, şirin Alı; Əli şərbəti, Alı şərbəti.
***Şərəfağa*** - bax: Şərəf və Ağa.
***Şərəfxan*** - bax: Şərəf və Xan.
***Şərif***, ***Şərifə*** (ə.) - şərəfli, müqəddəs, məşhur; nəcib, əsil.
***Şərifağa*** - bax: Şərif və Ağa.
***Şərifalı//Şərifəli//Şərfəli//Şərfalı*** - bax: Şərif və Əli; Əli şərəfli, nəsli, nəcabəti.
***Şərifxan*** - bax: Şərif və Xan.
***Şərifulla*** (ə.) - Allahın şərəflisi, Allahın müqəddəsi; Allahın nəcibi.
***Şərur, Şərurə*** - Naxçıvan MR-nin eyni adlı rayonun adından törəmişdir; Şərurdan olan, şərurlu.

***Şəyyad*** (ə.) - suvaqçı, malakeş; üzə gülən; kələkbaz, hiyləgər, hoqqabaz.
***Şıxbaba*** - ə. "şeyx" (təriqət, ərəb ölkələrində isə qəbilə və ya tayfa başçısı) və "baba" sözlərindən yaranmışdır.
***Şıxbala*** - "şeyx" və "bala" sözlərindən yaranmışdır.
***Şıxəddin*** (ə.) - dinin şeyxi.
***Şıxəmir//Şıxamir*** (ə.) - şeyx əmir; şeyx hökmdar.
***Şıxəzizəddin*** (ə.) - dinin sevimli mürşidi, başçısı.
***Şıxı*** (ə.) - "şeyxi" sözündən olub, "şeyxə mənsub olan" deməkdir.
***Şıxkərim*** - "Şeyx Kərim" adlarından yaranmışdır.
***Şıxqaib//Şıxqayıb*** (ə.) - Şeyx Qaib; qeyb olan şeyx.
***Şıxlar*** (ə.,t.) - müqəddəslər, başçılar, rəhbərlər.
***Şıxməmməd*** (ə.) - "Şeyx Məmməd" adlarından yaranmışdır.
***Şıxmirzə*** - "Şeyx Mirzə" adlarından yaranmışdır.
***Şıxzadə*** (ə.,f.) - Şeyx oğlu; şeyxdən törəmiş oğlan.
***Şıxzaman*** - "Şeyx Zaman" adlarından yaranmışdır.
***Şidə*** - Xurşid (farsca Günəş deməkdir) adının ikinci hissəsini təşkil edən "şid" sözündən yaranmış, işıqlı və parlaq deməkdir.
***Şikar***, ***Şikarə*** (f.) - ov; ovlanan heyvan və ya quş.
***Şimşək*** - ildırım; parlaq, işıqsaçan.
***Şinasi//Şinasib//Şünasi*** (f.) - bilən, tanıyan, anlayan, bilgisi olan və bunlara aid və ya bunlara məxsus olan.
***Şir*** (f.) - qoçaq, igid mənalarında bir çox mürəkkəb adların yaranmasında iştirak edir.
***Şirağa*** - bax: Şir və Ağa.
***Şiralı//Şirəli*** (f.,ə.) - Əlinin şiri, Alının aslanı; qüvvətli, qorxmaz.
***Şiraslan*** - şir və aslan; qüvvətli; cəngavər, bahadır.
***Şiraz*** (f.) - şir ağzı (İranda eyni adlı şəhər adındandır).
***Şirazxan*** (f.,t.) - Şiraz xanı; şirazlı xan.
***Şirazi*** (f.) - Şiraza aid, Şiraz şəhərinə məxsus.
***Şirbaba*** - şir kimi baba; igid baba, qəhrəman baba.
***Şirbala*** - şir balası; şir kimi bala; igid, qoçaq övlad.
***Şirbəy*** - bax: Şir və Bəy.
***Şirdaməd*** (f.) - şir kimi kürəkən; sultanın kürəkəni.
***Şirəddin*** (f.,ə.) - dinin şiri, dinin aslanı.
***Şirəhməd*** - bax: Şir və Əhməd.
***Şirxan*** - bax: Şir və Xan.
***Şirixuda*** (f.) - Allahın şiri, Tanrının aslanı, Xudanın qaplanı.
***Şirinağa*** - şirin ağa; mehriban ağa, səmimi ağa, xoş ağa.

***Şirinalı//Şirinəli*** - bax: Şirin və Əli.
***Şirinbaba*** - bax: Şirin və Baba.
***Şirinbala*** - bax: Şirin və Bala.
***Şirindil*** - dili şirin olan; şirin, məzəli danışan.
***Şirinxan*** - bax: Şirin və Xan.
***Şirməmməd*** - bax: Şir və Məmməd.
***Şiroğlan*** - aslan kimi oğlan, igid oğlan.
***Şirulla*** (f.,ə.) - Allahın şiri, Tanrının qaplanı.
***Şiruyə//Şiruyyə//Şuriyyə//Şürüyə*** (f.) - şir üzlü, aslan təbiətli; qorxmaz, cəsarətli.
***Şirvan***, ***Şirvanə*** - Azərbaycanın tarixi ərazilərindən birinin adındandır. (Bu adın Qafqaz Albaniyasında yaşamış tayfalardan birinin adından olması da ehtimal olunur, "şirlər diyarı, şirlər məskəni" kimi də izah edilir).
***Şirvani*** - Şirvana məxsus olan, Şirvanda anadan olan və ya yaşayan.
***Şirzad*** (f.) - şir balası, şirdən törəyən; igid, qoçaq.
***Şirzaman*** - bax: Şir və Zaman.
***Şoran*** - şorların (türk tayfalarından biri) yaşadığı yer; duzlu yer; işıq saçan, işıqlı.
***Şöhlət//Şöhrət*** (ə.) - məşhurluq, ad-san, şan-şərəf.
***Şöhrəddin*** (ə.) - dinin şöhrəti.
***Şölət*** (ə.) - parıltı, alov, atəş.
***Şövqi//Şövqü***, ***Şövqiyyə*** (ə.) - arzu edən, istəyən; arzu edilən.
***Şubay//Şübay*** - hündürboylu, düz və uzun; əsgər, döyüşçü.
***Şulan//Şülən*** - "şölən" sözündən olub "ziyafət, dini, qonaqlıq" deməkdir.
***Şumar//Şümar, Şumarə//Şümarə*** (f.) - say, hesab; haqq-hesab; saat əqrəbi; yaraşıqlı boyu olan.
***Şurəddin//Şürəddin*** (f.,ə.) - dinin eşqi, dinin sevgisi.
***Şurulla*** (f.,ə.) - Allah eşqi, Tanrı sevgisi.
***Şüa*** (ə.) - işıq mənbəyindən gələn işıq teli.
***Şüca*** (ə.) - igid, qorxmaz, qəhrəman.
***Şücaəddin//Şücaətdin*** (ə.) - dinin arxası, dinin qoruyucusu.
***Şücaət//Şücayət*** (ə.) - igidlik, qəhrəmanlıq, cəsurluq.
***Şükran***, ***Şükranə*** (ə.) - yaxşılığı qiymətləndirmə, minnətdarlıq, təşəkkür.
***Şükrəddin//Şükürəddin*** (ə.) - dinə təşəkkür, dinə minnətdarlıq.
***Şükrət//Şokrət*** (ə.) - yaxşılığı qiymətləndirmək, təşəkkür etmək.

***Şükrətulla*** (ə.) - Allaha şükür olsun, Tanrının razılığı.
***Şükri//Şükür//Şükrü***, ***Şükriyyə*** (ə.) - razılıq, təşəkkür, minnətdarlıqla bağlı olan.
***Şükrulla//Şükürulla*** (ə.) - Allaha təşəkkür, Tanrıya minnətdarlıq.
***Şünasim*** - öyrənən, bilən, tanınan, anlayan, məlumatı olan.

## ➳ T ☙

***Taarif, Taarifə*** (ə.) - tanınmış əcdadı olan; tərifənmiş, öyülmüş.
***Taban -*** təməl, bünövrə; dayaq; düzənlik; mətinlik, dözüm.
***Tabəndə*** (f.) - parlayan, işıq saçan, işıq verən.
***Tabil, Tabilə*** (f.,t.) - ilin ziyası, elin işığı.
***Tacdar*** (f.) - taclı, tac sahibi; hökmdar.
***Tacəddin*** (f.,ə.) - dinin tacı; dinin başçısı, rəhbəri.
***Tacıbəy*** (f.,t.) – taslı bəy, hökmdarlıq, səlahiyyəti olan oğul.
***Tacib, Tacibə*** (ə.) - yerdəyişmə; calama; müavin; vəzir.
***Tacid, Tacidə*** - "Tacəddin" adının kiçiltmə və əzizləmə forması.
***Tacik*** (f.) - qorxaq, aciz, rəiyyət (Tacik dilində taclar - araqçın gəzdirənlər deməkdir).
***Tacir***, ***Tacirə*** (ə.) - ticarətlə məşğul olan.
***Tağar*** (ə.) - ordunu ərzaqla təmin etmək üçün rəiyyətdən yığılan natural vergi.
***Tağay//Taqay*** - dayı, ananın qardaşı.
***Tağı*** (ə.) - dindar, mömin, Allahdan qorxan.
***Tağman*** - dağ kimi adam, dağ gövdəli, möhkəm insan.
***Tahir***, ***Tahirə*** (ə.) - pak, təmiz; günahsız; ismətli, namuslu.
***Tair***, ***Tairə*** (ə.) – quş uçan.
***Taqət*** (ə.) - güc, qüvvət.
***Taqib, Taqibə*** (ə.) - təqib edən, ardınca gedən.
***Talay, Talayə*** - okean, dəniz, böyük çay; çox böyük.
***Talaybay//Talaybəy*** - böyük bay; dəniz kimi nəhəng bəy.
***Talayxan*** - böyük xan; dəniz kimi güclü xan.
***Tale*** (ə.) - qismət, bəxt; xoşbəxtlik ulduzu; doğan, çıxan (Günəş, Ay).
***Taleh***, ***Taləhə//Talihə*** (ə.) - nöqsanlı, eyibli; günahkar; islah olunmayan.
***Taleyran*** (fr.) - fransız diplomatı, Napoleon dövründə xarici işlər nazirinin adındandır.
***Taləddin*** (ə.) - dinin taleyi, dinin bəxti; dinin ucalması.
***Talıb//Talib***, ***Talibə*** (ə.) - tələbkar, istəyən; arzulayan.

***Talış*** - Azərbaycanda yaşayan irandilli kiçik xalq.
***Talışxan*** – Talış xan; talışların xanı, başçısı, hökmdarı.
***Taman*** – dağ ətəyi; tam, tamamlanmış; Bilgə xanın titullarından biri; Kaşğaridə çay adı.
***Tamerlan*** - "Teymurləng" adının Avropada işlənən forması.
***Tamər*** - nöqsanı olmayan, mükəmməl adam, yetkin igid.
***Tamidar*** (ə.,f.) - dad bilən, xörəyin dadını müəyyənləşdirən.
***Tanbay//Tanbəy*** - sübh vaxtının bəyi; şəfəq sökülən vaxtın bəyi.
***Tanıq//Tanık//Tanuq*** - şahid; nişan, göstərici, sübut.
***Tanış*** - tanışlığı olan, bir-birini tanıyan.
***Tanrıdağ*** - İlahi dağ, Allahın dağı. İndi Tyan-şan dağları adı ilə tanınır.
***Tanrıqulu//Tarqulu*** - Tanrının qulu, Allahın qulu. "Tanrı"-"dan" (sübh şəfəqi, od, Günəş) və "Ra" (qədim Misir mifologiyasına görə "Günəş allahı") sözlərindən düzəlmiş, Danra//Tanra//Tanrı şəklində dəyişmişdir. Tur, tir, tür, tör, dur sözləri də Tanrı, Tarı teonimi ilə əlaqədar olub, "ölüb-dirilmə" mənasındadır.
***Tanrıverdi//Tarıverdi//Tarverdi*** - Tanrı verdi, Tanrı bəxş etdi.
***Tapdıq*** - tapılmış, əldə edilmiş (Uzun müddət oğlu olmayanlar valideyn olduqda "oğul tapdıq", yəni "Allah verdi!" mənasında bu adı qoyurlar).
***Taran*** (yun.) - hücum növü, qədimdə divarları deşən alət.
***Tarxan//Tarıxan//Tərxan//Tərixan//Turxan*** - xandan törəyənlər, xan nəslindən olanlar ("tar" - "törəmək, yaradılış" sözləri ilə əlaqədardır), qədim türklərdə xüsusi imtiyaza malik olan titul sahibi.
***Tarıyel//Taryel*** - Tanrı yeli, Tanrı küləyi; elin Tanrısı; cəngavər; hökmdar.
***Tarif***, ***Tarifə*** (fr.) - rəsmən müəyyən edilmiş ödənc, vergi, rüsum, maaş və s. miqdarı.
***Tarix*** (ə.) - cəmiyyətin inkişafından bəhs edən elm; müəyyən bir işin görüldüyü vaxt.
***Tarik//Tariq*** (ə.) - dan ulduzu, Zöhrə. Əski türkcə: məhsul, taxıl; əkinçilik.
***Tariş*** - Tanrının dostu, Tanrı adamı (Qədim türk dillərində "eş, iş,"- "dost" mənasında işlənmişdir).
***Tarqut//Turqut*** - Tanrının xoşbəxti, Tanrının ucaltdığı ("Qut" qədim türk dillərində "ruh, can, uğurlu" mənasında işlənmişdir).
***Tarman*** - qalxmaq, yüksəlmək, ucalmaq.

***Tarzən*** (t.,f.) - tar çalan, tarçı.
***Taşər//Təşər*** - daş kimi möhkəm, sağlam, sərt kişi, sağlam kişi.
***Tatar*** - Tatarıstanda yaşayan türkdilli xalq; şəhərli olmayan, kəndli, qasid.
***Tatarbay//Tatarbəy*** - tatar millətindən olan bəy; kəndli bəy, qasid bəy.
***Tatarxan*** - tatar millətindən olan xan; kəndli xan; qasid xan.
***Tayfun*** (ç.) - tufan, fırtına.
***Tayxan*** - xanın tayı-tuşu, xana bənzəyən, xan kimi.
***Tehrab, Tehrabə*** (ə.,f.) - suyun dibi; sonbeşik.
***Tehran***, ***Tehranə*** (f.) - gözəl və təmiz şəhər (İİR-nin paytaxtı).
***Telman*** (a.) - Thalmann adının sadələşdirilmiş forması.
***Telnar//Telnur, Telnarə//Telnura//Telnurə*** - saçları parlaq və işıqlı olan.
***Temir//Teymur//Timur***, ***Teymurə*** - dəmir; möhkəm, sağlam; yenilməz.
***Temuçin//Temurçin//Teymurçin//Timuçin//Timurçin*** - igid Teymur, dözümlü Teymur.
***Tengiz//Təngiz*** - dəniz; genişlik, ənginlik.
***Tengizxan*** - bax: Tengiz və Xan.
***Teyfur//Təyfur***, ***Teyfurə//Təyfurə*** (ə.) - yuxu, yuxugörmə, yuxuda görülmüş.
***Teymurağa*** - bax: Teymur və Ağa.
***Teymurbəy*** - bax: Teymur və Bəy.
***Teymurxan//Temirxan*** - bax: Teymur və Xan; möhkəm, sarsılmaz hökmdar.
***Teymurşah*** - bax: Teymur və Şah.
***Teyyib//Teyub//Teyyub//Təyyub, Teyyubə//Teyyibə//Teybə//Təyibə //Təyyibə//Taibə*** (ə.) - yaxşı, xoşagələn, savab iş.
***Təbərxan*** (f.,t.) - baltalı xan, təbərzinli xan.
***Təbib***, ***Təbibə*** (f.) - həkim, doktor.
***Təbrik***, ***Təbrikə*** (ə.) - xoş xəbər, sevindirici hadisə, bayram; alqış.
***Təbriz***, ***Təbrizə*** - Azərbaycanın ən qədim şəhərlərindən birinin adındandır.
***Tədbir*** (ə.) - bir işi görmək, həyata keçirmək üsulu, vasitə; yol.
***Təfəkkür*** (ə.) – düşünsə, düşünmə, fikirləşmə.
***Təhmas//Təhməz*** - "Təhmasib" adının əzizləmə forması.
***Təhmasib*** (f.) - sağlam, güclü at; totemi at olan, at nəslindən olan.
***Təhmin, Təhminə*** (f.) - boylu-buxunlu, cüssəli; güclü-qüvvətli.

***Təhmiras//Təhmiraz//Təhmuras//Təhmuraz*** (f.) - at cinsli; bədəncə güclü. Ad əslində türk mənşəlidir, “teymur” (dəmir) və “as” sözlərindən düzəlmiş “dəmir aslan” mənasındadır.
***Təhsil*** (ə.) - oxumaqla elm və bilik əldə etmə.
***Təhsin***, ***Təhsinə*** (ə.) - bəzəmə, yaxşılaşdırma; alqışlama.
***Təkalp*** - yeganə igid, yalqız qəhrəman.
***Təkfur, Təkfurə*** - hakim, əmir, hökmdar; Bizans sərhədində vilayət valisi, başçısı.
***Təkin//Təgin*** - varisliyə hüququ olan xanzadə.
***Təqbir*** (ə.) – qismət, qiymətləndirmə; alın yazısı.
***Təqdim, Təqdimə*** (ə.) - bir şeyi vermə, təqdim etmə; hədiyyə.
***Təlatüm*** (ə.) - şiddətlə dalğalanma; coşma.
***Tələt*** (ə.) - üz, sifət, sima; parlaq.
***Təma//Təmo*** (ə.) –dadlı, tamlı, zövq verən, ləzzətli.
***Təməl*** (ə.) - özül, əsas, bünövrə; çıxma, doğulma; gözəllik, görkəm.
***Təmin, Təminə*** (ə.) – təchiz, xatircəmlik.
***Təmizxan*** - qarışığı olmayan, xalis xan; əsil xan, xanın özü.
***Təmkin***, ***Təmkinə*** (ə.) - ağırtəbiətlilik, vüqar, ciddilik; vüqar; soyuqqanlılıq.
***Tənur, Tənurə*** (ə.) - uzaqdan oda baxma; parıltı; təndir.
***Tənzil***, ***Tənzilə//Tanzilə*** (ə.) - narahatlığı endirmək; güzəşt; göydən endirmə.
***Tənzim***, ***Tənzimə*** (ə.) - sıralama, sıraya düzmə; nizama salma.
***Təpər*** - qeyrət, namus, bacarıq.
***Tərbiyət*** (ə.) – bəsləyib yetişdirmə, böyütmə, tərbiyə etmə; vərdiş etdirmə; alışdırma.
***Tərəqqi*** (ə.) - inkişaf, irəliləmə, irəliləyiş.
***Tərənnüm*** (ə.) - gözəl səslə yavaşdan oxuma, şeirdə təsvir etmə, şöhrətləndirmə.
***Tərif***, ***Tərifə*** (ə.) - mədh etmə, tərifləmə.
***Tərlan***, ***Tərlanə*** - şahin; ov quşu; igid, qəhrəman, qoçaq.
***Təsadüf*** (ə.) - baş vermiş gözlənilməyən hadisə.
***Təsgin//Təskin***, ***Təsginə//Təskinə*** (ə.) - sakitlik, dinclik.
***Təşəkkül*** (ə.) - müəyyən bir şəklə düşmə; təşkil olunma, vücuda gəlmə.
***Təşəkkür*** (ə.) - edilən diqqət və yaxşılığa görə razılıq və minnətdarlıq.
***Təşkilat*** (ə.) - "təşkil" sözünün cəmi; ictimai birləşmə, idarə.
***Təşrif***, ***Təşrifə*** (ə.) - şərəfləndirmə; gəlmə, gəliş.
***Təvəkkül*** (ə.) - ümidini Allaha bağlamaq.

***Təyyar***, ***Təyyarə*** (ə.) - uçan, üçücü.
***Təzəbəy*** - yeni bəy, evlənən.
***Təzəxan*** - təzə xan olan, yeni xan.
***Ticarət*** (ə.) - mal alıb-satma, geniş miqyasda alver, alqı-satqı.
***Tiflis, Tiflisə*** - tiflisli, Tiflis şəhərindən olan (Tiflis şəhərinin adındandır). Gürsü dilində «tbili» - isti deməkdir. Bu da şəhərdəki kükürdlü, isti su mənbələri ilə əlaqədardır.
***Tofid//Tohid***, ***Tofidə//Tohidə*** (ə.) - "tovhid" sözündəndir; Allahın birliyinə inanma.
***Tofiq***, ***Tofiqə*** (ə.) - kömək, köməklik; xoşbəxtlik.
***Toğan//Tuqan*** - şahin, toğrul.
***Toğrul*** - şahin; qoçaq, zirək (Qədim türklərdə totem).
***Toxtamış*** - sakit olmuş, özünü ələ almış.
***Tokay*** - toxuyan igid, vuran döyüşçü; çay kolu; sahildə meşə; bütöv Ay.
***Tomarxan//Tumarxan*** - tumar, sığal; ceyran dərisinə yazılmış və bükülmüş hökmdar məktubu kimi tumar xan.
***Tomas*** (l.,yun.) - əkizlər.
***Topçu*** - topçular alayında xidmət edən hərbiçi.
***Topçubaşı*** - topçuların komandiri, topçu dəstəsinin rəhbəri.
***Toran*** - alaqaranlıq; gündüzlə gecənin qovuşuğu (və əksinə).
***Toray//Turay***,***Torayə//Turayə*** - yaşayan Ay, ucalan Ay, açıq görünməyən Ay.
***Tovhid*** (ə.) -Allahın birliyinə inam.
***Toybəyi*** - toy məclisini idarə edən adam; sərpayı.
***Toyğun//Tuyğun*** - bax: Duyğun.
***Tudə*** (f.) - xalq, kütlə, yığın; təpə.
***Tufan*** - qasırğa, çovğun, boran, fırtına; çılğın, mübariz.
***Tuğay*** - sarı tuğ, yüksək bayraq (Qədimdə türk hökmdarlarının, vəzir və ya yüksək rütbəli şəxslərin baş geyimlərinə taxdıqları sarı tük dəstəsi və ya saçaq şəklində bəzək. Bu, Günəş və ya ucalığın rəmzi olmuşdur).
***Tuğluq*** - bolluq, çoxluq.
***Tuğral*** - Tuğra (bax) ilə əlaqəli olan, tuğraya aid olan.
***Tuğtəkin*** - tuğ kimi tayı-bərabəri olmayan, tuğ kimi yararlı, gərəkli olan.
***Tuqan*** – şahin.

***Tuqay//Tukay*** - alay (polk) ilə tümən (diviziya) arasındakı hərbi birlik; briqada; subasar meşəlik; çox gözəl, əziz.
***Tumar//Tomar***, ***Tamara//Tumara//Tumarə//Tomarə*** (ə.) - bükülü kağız; məktub; sığal.
***Tumas*** (ə.) - "təmas" sözündəndir; bir-birinə dəymə, toxunma; t.kök aslar; etnonim.
***Tuncalp//Tuncər*** - tunc kimi möhkəm igid, qəhrəman.
***Tuncel*** - tunc kimi möhkəm, dözümlü el; basılmaz Vətən.
***Turab, Turabə//Türabə*** (ə.) - torpaq, qum, toz.
***Turabi*** (ə.) - torpağa məxsus, quma aid.
***Tural, Turalə*** - yaşar, ölməz, əbədi; qalib gələn.
***Turalp*** - ölməz qəhrəman, yaşayan igid.
***Turan***, ***Turanə*** - türklərin vətəni, türk torpağı.
***Turani*** - Turana aid, Turana məxsus.
***Turay, Turayə*** - dayanan, duran Ay.
***Turbay//Turbəy*** - fəaliyyətdə olan bay, əbədi bay; həyatda möhkəm dayanan bəy.
***Turel*** - el yaşasın, yaşayan el, türklərin eli.
***Turğay//Turqay//Turkay//Türkay***,***Turğayə//Turqayə//Turkayə //Türkayə*** - türk kişisi, türk igidi; türk Ayı, türk gözəli.
***Turxan*** - turlar - türklər ölkəsinin xanı; Tur dağının xanı.
***Turqut//Türqut*** - durquzmaq, qaldırmaq, qalxmağa məcbur etmək (Qədim türk dillərində "qut" sözünün "ruh, can" və "yaşayan, duran ruh" kimi mənaları olmuşdur. "Qut" - "uğurlu, xoşbəxt, bəxtli" kimi mənalar da bildirmiş və eyni forma və mənada bəzi Avropa dillərinə də keçmişdir); türklərin yaşadığı xoşbəxt ölkə.
***Tusi*** (f.) - əbədi; davam etdirmə; dərman; Ay; təmizlik; yaddaşa kömək edən; İranda şəhər adı.
***Tuyğun***, ***Tuyğunə*** (f.) – laylı, lay-lay, qatlı.
***Tüğyan//Tuğyan***, ***Tuğyanə//Tüğyanə*** (ə.) - coşma, daşma; coşğunluq; azğınlıq.
***Türbət*** (ə.) - müqəddəs yerdən götürülmüş torpaq.
***Türbətalı//Türbətəli*** (ə.) - Əli türbəsi, Alı türbəsi.
***Türk*** - türk dilləri ailəsinə məxsus xalq və bu xalqa məxsus şəxs.
***Türkalp*** - türk igidi, türk qəhrəmanı, türk cəngavəri.
***Türkarslan*** - türk aslanı, türk şiri; türk qəhrəmanı.
***Türkazər*** – türk azərbaycanlı; azərbaycanlı türk.
***Türkel*** - türk eli, türk vətəni, türk məskəni.

***Türkev//Türkər*** - türk əri, türk kişisi, türk qəhrəmanı.
***Türkeş//Türkəş*** - türkün dostu, türkün yoldaşı.
***Türkman//Türkmən*** - Türk ulusundan olan adam; Türkə oxşayan; böyük türk.
***Türksoy*** - əcdadı türk olan, türk əsilli.
***Türkyılmaz*** - türk qoçağı, türk mərdi; qorxmaz türk.
***Türyan*** (ə.) - qaynayan, aşıb-daşan, qabaran (Eyni adlı çay adındandır).

## ꕥ U ꕥ

***Ubeyd//Übeyd//Uveyd//Üveyd//, Ubeyda//Uveyda//Übeydə//Üveydə*** (ə) **-** balaca qul, kiçik kölə, bəndə; tabe olmayan; adam, insan («Əbd» sözündəndir).
***Ubeydulla*** (ə.) - Allahın kiçik qulu, Tanrının kiçik köləsi.
***Ucabəy*** - böyük bəy, yüksək bəy, ad-sanlı bəy.
***Ucaxan*** - yüksək xan; ali, ülvi xan; arxa, himayəçi xan.
***Ucal*** - böyü, yüksəl, irəli get, ad-san qazan.
***Ucalbəy*** – ucalan, yüksələn bəy, hökmdar.
***Ucalxan*** - xan, ucal, böyü, yüksəl, irəli get, ad-san qazan.
***Ucalı*** - uca, ucaboy Alı; ucalan, yüksələn, ad-san qazanan.
***Ucanur*** - böyük nur, yüksək nur.
***Ucar*** - uçar; böyüyər, yüksələr, ad-san qazanar; uca ər (Eyni adlı rayon və şəhərin adındandır).
***Ucaruh*** - uca ruh, yüksək ruh; müqəddəs ruh.
***Ucatay*** - uca dağ, yüksək, hündür dağ, nəhəng dağ.
***Ucatəkin*** - xan olmağa layiq təkin (varis); ülvi varis.
***Uçqun*** - uçağan; çox sürətlə yeriyən, gedən.
***Uğur//Uğurlu*** - xoşbəxt, bəxtiyar, bəxtli, gözəl taleli.
***Uğurşad*** - xoşbəxt, şad, bəxtiyar xanzadə, xoşbəxt xan oğlu.
***Uğurtəkin*** - uğurlu varis, xoşbəxt xanzadə; bəxtiyar təkin.
***Uğuz*** - bax: Oğuz; davamlı, artan nəsil.
***Ulan*** – oğlan; yüngül süvari əsgəri və ya zabiti (Bu söz polyak və digər Avropa dillərinə də keçmişdir).
***Ulubay//Ulubəy//Uluqbəy//Uluğbay//Uluğbəy*** - böyük bəy, böyük hökmdar.
***Uluxan//Uluqxan //Ulxan*** - böyük xan, şöhrətli xan.
***Uluq*** - böyük, nəhəng.

***Ulunur*** - böyük nur, şöhrətli, adlı-sanlı nur.
***Uluruh*** - böyük ruh, şöhrətli, adlı-sanlı ruh.
***Ulus*** - el, oba, yurd, vətən.
***Ulusağa*** - el-oba ağası, yurdun böyüyü.
***Ulusbəy//Ulusxan*** - el-oba bəyi, xanı, yurdun böyüyü.
***Ulusoy*** - böyük nəsil, çox böyük əsil-nəsəbli.
***Ulutəkin*** - görkəmli şahzadə, tanınmış xanzadə; güclü-qüdrətli.
***Ulutürk*** - əzəmətli türk; əsil-nəsəbli türk.
***Ulvan, Ulvanə*** - bax: Ülvan, Ülvanə.
***Umar, Umara//Umarə*** - gözlənilər, könüldə tutular, istənilər, intizarı çəkilər.
***Umman//Ümman, Ummanə//Ümmanə*** (ə.) - okean, böyük dəniz; geniş su hövzəsi.
***Umud//Ümid***, ***Ümidə//Umudə//Ümüdə//Ümidiyyə*** - güman; çarə; həsrət, intizar.
***Umudalı//Umudəli//Ümidalı//Ümüdəli*** (t.,ə.) - Əli gümanı, Alı həsrəti.
***Umudgah//Ümidgah//Ümüdgah*** (f.) - ümid, umud, pənah yeri.
***Umudvar//Ümidvar//Ümüdvar*** - ümidli olma, ümid etmə; arxayın olma.
***Umudyar//Ümidyar*** (f.) - ümid etmənin dostu, ümidin yoldaşı.
***Umur*** - gözləyir, könlündə tutur, intizarını çəkir; maraq göstərir.
***Umural*** - təcrübəli, görüb-götürmüş; maraqlanan.
***Umurbay//Umurbəy*** - təcrübəli bəy, görüb-götürmüş bəy.
***Umurxan*** - təcrübəli xan, görüb-götürmüş xan.
***Uraqan*** - döyüşən, vuran, döyən, döyüşkən.
***Ural*** - dərəli-təpəli, enişli-yoxuşlu yer; qalası, istehkamı olan. Ural çayı, Ural dağlarının adı da bununla əlaqədardır. (Bunu xoşbəxtlik, “razılıq” kimi açıqlayanlar da vardır).
***Urfan//Ürfan***, ***Urfana//Urfanə//Ürfanə*** (ə.) - bilik, mərifət; ariflik; yaxşılıq.
***Urxan*** - ər xan, igid xan, qorxmaz xan, cəsur xan.
***Urşan//Uruşan*** - vuruşqan, savaşan, müharibə eyləyən.
***Uruf*** (ə.) - yaxşılıq, xeyirlik, xeyir.
***Uruğ*** - nəsil, əcdad, kök; qəbilə, tayfa.
***Uruş*** - ər kişi, igid kişi; qəhrəman; döyüş, vuruş, savaş.
***Uruz*** - igid uz, ər oğuz; qədim türklərdə titul.
**Uruzbay//Uruzbəy** - bəxti olan, taleli bəy; xoşbəxt bəy.
**Uruztəkin** - bəxti olan, taleli xanzadə; bəxtəvər xanzadə.
***Useyn*** - "Hüseyn" adının qısaldılmış forması.

***Ustac*** - sənətkar, öz peşəsinin mahir bilicisi.
***Ustad*** (f.) – məlumatlı, qabiliyyətli; müəllim, tərbiyəçi, öyrədən, mürşid.
***Usub//Usuf*** - "Yusif " adının qısaldılmış forması.
***Usubalı//Usubəli*** - bax: Yusif və Əli.
***Utku*** - qələbə, sevindirici nəticə.
***Utkun*** - qələbə çalan, zəfər qazanan şəxs.
***Utkuxan*** - qalib xan; sevindirən xan.
***Uveys//Üveys*** (ə.) - qurd balası, canavar balası; igid, qəhrəman.
***Uyar*** – müvafiq, uyğun gələn, münasib.
***Uyğun//Uyqun, Uyğunə//Uyqunə*** - uyar, müvafiq; düz gələn, müvafiq olan; müvafiq, münasib.
***Uyğur//Uyqur*** - uyğun gələn; qohum-əqraba; oyanma. Uyqur türklərinin adı.
***Uzun*** - boyu uzun olan; ucaboy; çox davam edən zaman kəsimi.
***Uzunağa//Uzunbay//Uzunbəy//Uzunxan*** - ucaboy ağa, bəy, xan; həyata gəlişi çox gözlənilən ağa, bəy, xan.

## ☙ Ü ❧

***Üfiq//Üfüq***, ***Üfiqə//Üfüqə*** (ə.) - görünən göy qübbəsi; ənginlik.
***Ülfəddin*** (ə.) - dinin ülfəti, əlaqəsi, dostluğu.
***Ülfət*** (ə.) - dostluq, yaxınlıq; birinə qəlbən bağlanma.
***Ülvan, Ülvanə*** (ə.) - məktubun əvvəli; lovğalıq.
***Ülvi***, ***Ülviyyə//Ülviyyət*** (ə.) - ali, uca, yüksək; göylə bağlı olan; İlahi.
***Ülvibəy//Ülvixan*** (ə.,t.) – ali, uca, yüksək bəy; göylə bağlı olan xan.
***Ümmət*** (ə.) - xalq, camaat; peyğəmbərə inanan adamlar.
***Ümmətalı//Ümmətəli*** (ə.) - Əli xalqı, Əli camaatı; Əlinin peyğəmbərə inanan adamları.
***Ümmətyar*** (ə.,f.) - xalqı, camaatı sevən; peyğəmbərə inananları sevən.
***Ünalp*** - igidin səsi, qəhrəmanın sədası; igidin şöhrəti.
***Ünlü*** - səsli; tanınmış, şöhrətli.
***Ünsal*** (t.,f.) - ilin şöhrəti.
***Ünsevər*** - şöhrət sevən; səs sevən.
***Ünsi//Ünsü*** (ə.) – alışqan, alışan, uyuşan,, ülfət bağlayan.
***Üntürk*** - adlı-sanlı türk, şöhrətli türk.
***Ünvan*** - hər hansı şəxs və ya əşyanın olduğu məkanın göstəricisi.
***Ürfan,Ürfanə*** (ə.) – yaxşılıq, xeyir, xeyirlik; adətlər, tədbirlər, hökmlər.

***Üzdön*** - istəyə üz döndərən; arzu ilə doğulan.
***Üzeyir*** (ə.) - güc, qüvvət, kömək, yardım; üzr istəmək, bağışlamaq.

## ꕥ V ꕥ

***Vacib, Vacibə*** (ə.) - lazım, labüd, zəruri.
***Vadid*** (f.) – yenidən görüş, yenidən baxış.
***Vahab//Vahib, Vahibə*** (ə.) - pay verən, əliaçıq, bağışlayan, səxavətli.
***Vahid***, ***Vahidə*** (ə.) - tək, bir; yeganə, tənha.
***Vahiddin*** (ə.) - dinin vahidliyi, təkliyi; vahid din.
***Vahidulla*** (ə.) - Allahın vahidi, Tanrının yeganəsi.
***Vaiz, Vaizə*** (ə.) - moizə edən, minbərdən vəz söyləyən; nəsihətçi.
***Vaqif***, ***Vaqifə*** (ə.) - xəbərdar, bilikli, məlumatlı.
***Valeh, Valehə*** (ə.) - heyran olmuş, məftun, vurğun.
***Vali***, ***Valiyə//Valiyyə*** (ə.) - vilayət hakimi, canişin.
***Valid***, ***Validə*** (ə.) - ata, ana.
***Vamiq***, ***Vamiqə*** (ə.) - sevən, vurulan, aşiq.
***Varaz*** - ər az, igid as; var olan azlar.
***Varis//Variz***, ***Varisə*** (ə.) - övlad, oğul, uşaq, vərəsə; nəslin davamçısı.
***Varsaq*** - ozan, aşıq; qəbilə və yer adı; aşıq şeiri janrı.
***Vasif***, ***Vasifə//Vəsifə*** (ə.) - tərənnüm edən, vəsf edən, təsvir edən.
***Vasil***, ***Vasilə//Vəsilə*** (ə.) - qovuşan, birləşən, vüsala çatan; bəhanə; üsul, yol.
***Vasim***, ***Vasimə//Vəsimə*** (ə.) - nişanlanmış; işarələnmiş, seçilmiş; gözəl, göyçək; qoşa çəkilən boya, rəng.
***Vazeh*** (ə.) - açıq, aşkar, aydın.
***Veniamin*** (q.,yəh.) - sağ əl; ən sevimli arvadın oğlu; ağsaqqalın oğlu; səadət; güc.
***Verdi*** - Allah verdi; (Tanrı tərəfindən) verilən.
***Veys//Veis//Veysi//Veyis, Veysiyyə*** (ə.) - güc, qüvvət; möhtac olan; kasıb, yoxsul.
***Veysal//Veysəl*** (ə.) - bax: Veys; dinə möhtac olan.
***Veysəddin//Veysələddin*** (ə.) - dinin gücü, qüvvəti; dinə möhtac olanların dini.
***Vəcdi, Vəcdiyə//Vəcdiyyə*** (ə.) - cuşə gəlmə, coşmaq; vəcdə gəlmək.
***Vədad//Vədat//Vidad*** (ə.) - sevgi, məhəbbət; dostluq.
***Vədadi//Vidadi*** (ə.) - dost; sevimli dost.
***Vəfadar//Vəfadur*** (ə.,f.) - vəfalı, sadiq.

***Vəfalı*** - vəfası olan, sədaqətli, etibarlı.
***Vəfiq, Vəfiqə*** (ə.) - uyğun, müvafiq, yekdil; dost, yoldaş.
***Vəhbi, Vəhbiyə//Vəhbiyyə*** (ə.) - Allah vergisi; Allah tərəfindən hədiyyə edilmiş.
***Vəhdəd//Vəhdət*** (ə.) - birlik, Allahın birliyi; birgə olma.
***Vəhdəddin*** (ə.) - dinin birliyinə inanan; dinin vəhdədi.
***Vəhiyəddin//Vəhyəddin*** (ə.) - dinin vəhyi (vəhy - Allah hökmünün peyğəmbərlərə verilməsi).
***Vəkalət*** (ə.) - başqasının işini görməyə təyin olunma, vəkillik; öz vəzifəsini başqasına tapşırma.
***Vəkil*** (ə.) - vəkalətlə iş görən; nümayəndə; canişin.
***Vələd//Vələt*** (ə.) - uşaq, övlad.
***Vələddin//Vəliəddin//Vəliyəddin//Vəliyyəddin*** (ə.) - dinin himayəçisi, dinin dostu, dini sevən.
***Vələhəd//Vəlhəd//Vəliəhd//Vəlihəd//Vəliəhəd*** (ə.) - hökmdarın varisi.
***Vələhməd//Vəliəhməd*** (ə.) - tərifəlayiq dost; Əhmədin dostu.
***Vəli*** (ə.) - dost, yoldaş, qayğı göstərən.
***Vəliağa*** - bax: Vəli və Ağa.
***Vəlibaba*** - bax: Vəli və Baba.
***Vəlibala*** - bax: Vəli və Bala.
***Vəlibəy*** - bax: Vəli və Bəy.
***Vəlican*** (ə.,f.) - Vəlinin canı, ürəyi, himayəçinin canı.
***Vəlixan*** - bax: Vəli və Xan.
***Vəlikram*** (ə.) - ehtiramla, hörmətlə.
***Vəliqulu*** - bax: Vəli və Qulu.
***Vəliməmməd*** (ə.) - bax: Vəli və Məmməd.
***Vəlimət*** (ə.) - qonaqlıq, ziyafət; Məhəmmədin dostu.
***Vəlimurad*** (ə.) - Vəlinin istəyi, dost arzusu; Muradın dostu.
***Vəlinur*** (ə.) - Vəlinin nuru, müqəddəsin işığı.
***Vəliş*** - "Vəli" ilə başlayan adların əzizləmə forması.
***Vəlişan*** (ə.) - Vəli əzəməti, Vəli şöhrəti.
***Vəlişağa*** - bax: Vəliş və Ağa.
***Vəlişbaba*** - bax: Vəliş və Baba.
***Vəlişbala*** - bax: Vəliş və Bala.
***Vəlişir*** (ə.,f.) – himayəçi aslan; igid dost.
***Vəliulla//Vəliyulla*** (ə.) - Allahın yaxın dostu (Həzrət Əlinin adlarından biridir).
***Vəliyar*** (ə.,f.) - sədaqətli dost, yoldaş; qayğıkeş, insanpərvər.

***Vəsadət*** (ə.) - “vəsadət” sözündən olub, “vasitəçilik”, “havadar çıxma”, “havadarlıq” mənasındadır.
***Vəsən//Vəsəni*** (ə.) - büt, sənəm; bütə sitayiş edən, bütpərəst.
***Vəsfəddin*** (ə.) - dinin keyfiyyəti; dini vəsf edən, dini tərifləyən.
***Vəsfiyar*** (ə.,f.) - sevgini tərifləyən, yarı vəsf edən.
***Vəsi*** (ə.) - hami, qəyyum.
***Vəssaf*** (ə.) - “vəssaf” sözündən olub, “vəsf edən, öyən, tərifləyən, mədh edən” anlamındadır.
***Vəssəlam*** (ə.) - sözün qisası, məsələ bitdi, bu qədər.
***Vətan//Vətən*** (ə.) - insanın doğulub böyüdüyü ölkə; doğma yurd, ana yurd.
***Vətəncan*** (ə.,f.) - vətən ruhu; vətəni, yurdu sevən.
***Vəzarət//Vəzirət*** (ə.) - vəzirlik, nazirlik (vəzifə və idarə).
***Vəzir***, ***Vəzirə*** (ə.) - hökmdarın dövlət işinə baxan vəkili; nazir.
***Vəzirxan*** (ə.,f.) - vəzir olan xan; xanın vəziri olan.
***Vəznəli*** (ə.) - Əli çəkisi; Əli ölçüsü.
***Vicdan*** (ə.) - qəlblə hiss etmə, dəruni duyğu; insaf, mənəvi məsuliyyət hissi.
***Vilayət*** (ə.) - ölkə, məmləkət, əyalət; müqəddəslik.
***Vildan*** (ə.) - “uşaq” sözünün cəmi, uşaqlar.
***Vilen*** - Vladimir İliç Leninin adından yaranmışdır.
***Vulkan*** – yanar dağ, od-alov püskürən dağ.
***Vurğun*** - sevmiş, vurulmuş, aşiq, məftun.
***Vüqar*** (ə.) - qürur, təmkin, ciddiyyət.
***Vüsal***, ***Vüsalə*** (ə.) - sevgiliyə çatma, yara qovuşma.
***Vüsali*** (ə.) - sevdiyinə, sevgisinə qovuşan, istəyinə çatan.
***Vüsət*** (ə.) - genişlik, açıqlıq, meydan; bolluq, rifah.
***Vüslət*** (ə.) - aşiqin vüsalı, sevgilisinə qovuşması.

## ☙ Y ❧

***Yadış//Yədiş*** - “yad” ünsürü ilə başlanan adların əzizləmə forması.
***Yadigar*** (f.) - xatirə olaraq verilən şey; xatirə.
***Yadulla//Yədulla*** (ə.) - Allahın əli, Tanrının əli.
***Yafəs//Yafət*** (ə.) - genişlik, açıqlıq (Nuh peyğəmbərin oğlu); etnonim.
***Yağmur*** - güclü yağış, yağıntı.
***Yağub//Yaqub*** (ə.) - ardınca, iz ilə gedən; dabanbasdı (qədim yəhudi "Yakov" adının ərəb forması).

***Yağubalı//Yağubəli//Yaqubalı//Yaqubəli*** - bax: Yağub və Əli.
***Yağubxan//Yaqubxan*** - bax: Yağub və Xan.
***Yahya//Yəhya*** (y.) - Allah verdi, Tanrı bəxş etdi.
***Yalçın*** - ot və s. bitməyən, çılpaq (qaya); əzəmətli.
***Yalçınbay//Yalçınbəy*** - sərt və çılpaq qaya kimi bəy; əzəmətli; görkəmli bəy.
***Yalçınxan*** - sərt və çılpaq qaya kimi xan; əzəmətli xan.
***Yamil, Yamilə*** (ə.) - gözəllik; sevimli; gözəl.
***Yamin, Yaminə*** (ə.) - gözəl, qəşəng; sağ.
***Yanar*** - odlu, alışqan, yanan, alovlanan.
***Yanardağ*** - vulkan; alovnanan dağ.
***Yanvar*** (l.) - Qriqoryan təqvim ilinin I ayı (Günəş və zaman allahı Yanusun adındandır).Yanvar ayında doğulan oğlanlara verilir.
***Yaralan*** - sevgili alan, gözəl alan, evlənən ("General-yaranal" sözünün təhrif edilmiş forması da ola bilər).
***Yaralı*** - yar alasıdır, sevgili alasıdır; evlənəsidir.
***Yaraşıq*** - bəzək, zinət.
***Yarbay//Yarbəy*** - qəza rəisi; zabit rütbəsi; müavin; bay və ya bəyin dostu, yoldaşı; bəyə tay olan.
***Yarəddin*** (f.,ə.) - dinin dostu, dinə yar olan.
***Yarəhməd*** (f.,ə.) - Əhmədin dostu, yoldaşı.
***Yarəli*** (f.,ə.) - Əli dostu, Əli yoldaşı.
***Yari//Yarı*** (f.) - dostluq, yoldaşlıq; yardım, kömək. "Yar" ilə başlanan adların əzizləmə forması.
***Yarlıq*** - fərman, buyruq; dostluq, yoldaşlıq; etiket.
***Yarməmməd*** (f.,ə.) - Məmmədin dostu, yardımçısı.
***Yarulla*** (f.,ə.) - Allahın dostu , Tanrının yoldaşı.
***Yasavul*** - vaxtilə yolların qorunmasına baxan məmur; polis nəfəri; zabit rütbəsi (çavuş).
***Yasəf*** - Allah topladı, Tanrı yığdı (Qədim yəhudi "İosaf" adının ərəb forması).
***Yasər//Yəsar*** - ə. var-dövlət; sol; t. ya sər, ya çar, ya başçı ( Sar, Sarı-Günəş və qədim türk etnonimi mənasındadır).
***Yasif*** (y.) - əsli "yoasaf" ("yəhoasaf"). Allah topladı, Tanrı artırdı, əlavə etdi.
***Yasin*** (ə.) - "Quran" ayələrindən birinin adı.
***Yasir*** (ə.) - rahatlandıran, yüngülləşdirən, rahat edən.
***Yaşa*** - afərin, var ola; yaşasın, ömürlü olsun; çox yaşasın.

***Yaşar*** - yaşayan, var olan; şər qüvvələrdən qorumaq.
***Yaşılxan*** - təzə, yeni xan, cavan xan.
***Yavər*** (f.) - köməkçi, yardımçı, müavin.
***Yavuz//Yavus*** - acıqlı, qəzəbli, qorxunc, zəhmli; cəsur, qoçaq; ağıllı.
***Yaybəyi*** - yayın bəyi, yayda doğulan bəy.
***Yaynur, Yaynurə*** (t.,ə.) - yayın nuru, işığı; nurlu, işıqlı yay.
***Yazarxan*** - yazıçı xan, şair xan; yazı-pozu ilə məşğul olan xan.
***Yediər//Yedigar//Yedigər//Yədigar*** - Böyük Ayı bürcünü təşkil edən yeddi ulduz topası.
***Yeksan*** - düz, tən, bərabər.
***Yelizar*** (y.) -Allah kömək etdi, Tanrı yardım etdi (Yəqin ki, addakı "zar" (sar) Günəş-Allah anlamındadır. Çünki yəhudi ruhanilərinin başlarına qoyduqları araqçın da Günəşin, dünyanın rəmzi hesab edilir).
***Yelman//Yelmən//Yeltəkin*** - yel kimi olan, yel kimi sürətli, cəld adam.
***Yelmar*** - iti sürünən sarı-qırmızı zəhərli ilan.
***Yemşan//Yemşən*** - yemişan, qırmızımtıl meyvəsi olan tikanlı kol bitkisi və onun meyvəsi; sərt, tikanlı, acıdil adam.
***Yenərxan*** - qalib gəlmiş xan, zəfər qazanmış xan.
***Yengibar*** - qalibiyyətin bəhrəsi, zəfər barı, qələbə meyvəsi.
***Yenibar*** - yeni bar (meyvə, məhsul); yeni oğlan.
***Yenilməz*** - möhkəm iradəli, sözündən dönməyən, məğlubedilməz.
***Yenisey*** - yeni çay, yeni su; böyük çay, bol sulu çay (Yenisey çayının adı ilə bağlıdır).
***Yeniş*** - yenən, qalib gələn, qəhrəman.
***Yeralı//Yerəli*** - yer alan, ölkələr zəbt edən; Əli yeri, Əli yurdu.
***Yetkin***, ***Yetkinə*** - yetkinləşmiş, kamilləşmiş, təcrübəli.
***Yəqinəli*** (ə.) – şəksiz, Əlidir, Əli kimidir, şübhəsiz, Əlidir.
***Yılmaz*** - səfərə çıxmış adam, yol gedən adam.
***Yolçu//Yoldar*** - yola, səfərə çıxmış adam, yol gedən adam.
***Yoldaş*** - arxadaş, dost, rəfiq.
***Yuhənnas//Yühənnas*** (y.) - İsa peyğəmbərdən əvvəl yaşamış Yəhya (bax) peyğəmbərin adındandır.
***Yunis//Yunus*** (y.) - göyərçin (qədim y. "İones" adının ə. forması).
***Yunsur*** (ə.) - ünsür, element.
***Yunusağa*** - bax: Yunus və Ağa.
***Yunisalı//Yunisəli//Yunusalı//Yunusəli*** - bax: Yunus və Əli.

***Yusif//Yusub//Yusup//Yusuf*** (y.) - artım, çoxaldılmış; Allah əlavə edər (qədim y. "İosif " adının ərəb forması).
***Yusubalı//Yusifəli//Yusubəli*** - bax: Yusif və Əli.
***Yüksək*** - uca, hündür.
***Yüksəl*** - böyü, ucal, ad-san qazan.
***Yüzasif*** - Yusif (bax) peyğəmbərə Misirdə verilən ikinci ad.
***Yüzbaşı*** - yüz əsgərin başçısı, batalyon komandiri.

## ꕥ Z ꕥ

***Zabil//Zabul***, ***Zabilə*** (f.) - Azərbaycan klassik muğamlarından birinin adı.
***Zabir, Zabirə*** (f.) - güclü, möhkəm; ə. müdafiə; quyunun çəpəri.
***Zabit*** (ə.) - yol göstərən, tənzimləyən.
***Zabitxan*** - bax: Zabit və Xan.
***Zabur*** (f.) - yazı, mətn; müqəddəs kitabın adı.
***Zahib, Zahibə*** (ə.) - yol gedən, yolçu.
***Zahid***, ***Zahidə*** (ə.) - abid, tərk-dünya olub, yalnız ibadət edən.
***Zahiddin*** (ə.) - dinin zahidi, dinin mömini.
***Zahir***, ***Zahirə*** (ə.) - açıq, aşkar, göz önündə olan.
***Zahirəddin*** (ə.) - dinin aşkarı, dinin göz önündə olanı.
***Zaid//Zayıd***, ***Zaida//Zaidə//Zayidə*** (ə.) - artan, üstünə gələn; iri, böyük.
***Zaiq//Zayiq***, ***Zaiqə//Zayiqə*** (ə.) - zövq, ləzzət alan.
***Zair//Zayir***, ***Zairə//Zayirə*** (ə.) - ziyarətçi, ziyarətə gedən; ziyarət edən.
***Zakir***, ***Zakirə*** (ə.) - zikr edən; yada salan, xatırlayan.
***Zal//Zalı*** (f.) - qoca, yaşlı, ağsaqqal, ixtiyar (ağ tüklərlə doğulduğu üçün).
***Zaləddin*** (f.,ə.) - dinin Zalı (O, əfsanəvi İran pəhləvanı olmuşdur).
***Zalxan*** - Zal kimi xan; qüdrətli pəhləvana bənzəyən xan.
***Zaman***, ***Zamanə//Zəmanə*** (ə.) - vaxt, dövr, zəmanə, çağ.
***Zamanxan*** - bax: Zaman və Xan.
***Zaməddin*** (ə.) - dinin zamanı, dövrü; zamanın dini.
***Zamiq, Zamiqə*** (ə.) - incəlikləri bilən; şücaətli.
***Zamil, Zamilə*** (ə.) - zamin olma; məsləkdaş, sirdaş, rəfiq.
***Zamin***, ***Zaminə//Zəminə*** (ə.) - zəmanət verən, öhdəsinə götürən.
***Zamir***, ***Zamirə*** (ə.) - arıq, incə, zərif; ürək, qəlb; vicdan, namus.

***Zati*** (ə.) - bünövrəsində olan, əslində və kökündə olan, əsəb-nəsəbli; fərdi.
***Zaur//Zavur*** (ə.) - ziyarətə gedən, ziyarətçi, zəvvar.
***Zavər*** (ə.) - "Zəvvar" sözündəndir, ziyarətçi; qulluqçu; qoca, güclü.
***Zehni//Zeni*** (ə.) - ağla məxsus, kamala aid, ağılla iş görən, istedadla bağlı olaraq.
***Zeybək*** - Türkiyədə yaşayan türk-etnik qrupu; qoçaq, igid, cəsur.
***Zeybər*** (f.) - hündür, yüksək, üstün; «zəbər» sözündəndir.
***Zeybulla*** (ə.) - Allahın bəzəyi, Tanrının zinəti, gözəlliyi.
***Zeyd*** (ə.) - artıran, çoxaldan.
***Zeydulla//Zeytulla*** (ə.) - artıran Allah, çoxaldan Tanrı.
***Zeyqam//Zeyqəm//Zeyqan*** (ə.) - aslan, şir.
***Zeynabdı*** (ə.) - "Zeynalabdin" (bax) adının dəyişdirilmiş forması.
***Zeynal*** (ə.) - "Zeynalabdin" adının ixtisar forması; bəzək, süs.
***Zeynalabdin*** (ə.) - abidlərin bəzəyi, dindarların süsü.
***Zeynəddin*** (ə.) - dinin bəzəyi, dinin yaraşığı.
***Zeyni*** (ə.) - bəzək, yaraşıq.
***Zeynulla*** (ə.) - Allahın bəzəyi, Tanrının yaraşığı.
***Zeynur, Zeynurə*** (ə.) - parlaqlıq, gözəllik, cəlal, gözəl görünüş.
***Zeytun, Zeytunə*** (ə.) - həmişəyaşıl ağac və onun meyvəsi.
***Zəbi, Zəbiyyə*** (ə.) - qurbanlıq, qurban kəsmə.
***Zəbibulla*** (ə.) - Allahın verdiyi məhsul, nemət, bəhrə.
***Zəbulla//Zəbiulla*** (ə.) - Allahın qurbanlığı, Tanrının qurbanı.
***Zəbun, Zəbunə//Zəbirə*** (f.) - zəif, gücsüz, düşkün; məğlubolma.
***Zəfər*** (ə.) - qələbə, qabiliyyət; məqsədə yetişmə.
***Zəfərəddin*** (ə.) - dinin qələbəsi, dinin uğuru, dinin zəfəri.
***Zəfərəli//Səfəralı*** (ə.) - Əli zəfəri; Əli qələbəsi.
***Zəhmət*** (ə.) - əmək, əmək fəaliyyəti; əzab, əziyyət.
***Zəhrəddin*** (ə.) - dinin gülü, dinin çiçəyi.
***Zəhrəli*** (ə.) - Əlinin gülü, Əlinin çiçəyi.
***Zəka, Zəkayə*** (ə.) - ağıl, fəhm, zehin; tez anlama qabiliyyəti.
***Zəkail*** (ə.) - zəkalı, zehinli.
***Zəkəriyyə*** (y.) - Əsli "Zəkəriya"dır. Avropada Zakar, Zaxar, Zakariy, Zaxariya və b. formalarda işlənir. Əfsanəvi yəhudi peyğəmbərinin adı olmuşdur. "Xatırlanan, Allahın yadda saxladığı adam" mənasındadır.
***Zəki***, ***Zəkiyyə*** (ə.) - ağıllı, zəkalı, tez başa düşən.
***Zəkiulla//Zəkulla*** (ə.) - Allahın ağıllı, zəkalı, düşüncəli bəndəsi.
***Zəkiyəddin*** (ə.) - dinin ağıllısı, dinin zəkalısı.

***Zəlim*** – «zalım» sözündən düzəlmiş, «zülümkar, zülm edən, qaniçən» deməkdir.
***Zəlimxan*** (ə.,t.) - zülm olunan xan, zülm çəkən xan. Adın "Səlim" (bax) ilə əlaqədər olması ehtimalı var.
***Zərbail*** (ə.) - zərbəli, güclü.
***Zərbala*** (ə.) - qızıl bala, qızıl kimi övlad.
***Zərbalı//Zərbəli*** (ə.) - Əli zərbəsi.
***Zərbi*** (ə.) - vuruşan, döyüşən; "Zərbəli" (bax) adının qısaltma forması.
***Zərdab//Zərdabi*** (f.) - sarı su; Zərdaba məxsus olan.
***Zərdüşt*** - atəşpərəstlik dininin banisi (Tarixçilər tərəfindən milliyyətcə azərbaycanlı olması sübut olunan bu şəxsin adının əsasında zər, zar, sar-od, Günəş durur).
***Zərgər*** (f.) - qızıl - gümüşdən bəzək şeyləri qayıran usta.
***Zərrab*** (ə.) - pulkəsən, sikkə vuran.
***Zikrəddin*** (ə.) - dinin xatırlaması; dinin yada salması.
***Zikrəli*** (ə.) - Əli zikri, Əli xatırlanması, Əli anılması.
***Zikri*** (ə.) – xatırlanan, yad olunan, təriflənən.
***Zikrulla*** (ə.) - Allahın anılması, Tanrının xatırlanması.
***Zilal*** (ə.) - kölgə; himayəçi, hami.
***Zilli*** (f.,t.) - ən yüksək və ən nazik səsi olan.
***Zimistan*** (f.) - qış.
***Zindafur//Zindavur*** (f.,ə.) - canlı işıq; sağlam nur; əbədi gözəllik.
***Zinəddin*** (ə.) - yaraşıqlı, gözəl din, dinin gözəlliyi.
***Zinətulla*** (ə.) - Allahın bəzəyi, Tanrı yaraşığı.
***Zinnur, Zinnurə*** (ə.) - işıqlı, aydın, ziyalı.
***Zirəddin*** (ə.) - dinin qolu, dinin vuran əli.
***Zirək//Zirəng*** (f.) - diribaş, cəld, çevik, bacarıqlı.
***Zirvə*** (ə.) - dağın ən yüksək nöqtəsi, təpəsi.
***Zişan, Zişanə*** (ə.) - şanlı, hörmətli.
***Ziya*** (ə.) - işıq, aydınlıq, nur, parıltı.
***Ziyad***, ***Ziyadə*** (ə.) - çox, artıq, çoxlu, xeyli.
***Ziyadar*** (ə.,f.) - işıqlı, nurlu.
***Ziyadxan*** - bax: Ziyad və Xan.
***Ziyaddin//Ziyaəddin//Ziyəddin*** (ə.) - dinin işığı, dinin nuru, ziyası.
***Ziyafəddin*** (ə.) - dinin işığı, dinin parıltısı.
***Ziyanur*** (ə.) - nurun ziyası, işığın parıltısı.
***Ziyar*** (ə.) - zəvvar, ziyarətçi.
***Ziyarət*** (ə.) - görməyə getmə; müqəddəs yerlərə getmə.

***Ziyatay*** (ə.,t.) - işığa bərabər olan, nura tay olan.
***Ziyataş*** (ə.,f.) - atəşin ziyası, odun işığı, parıltısı.
***Zoray, Zorayə*** (f.,t.) - qüvvətli, güclü; inadlı, qüdrətli; möhkəm.
***Zöhhak//Zöhhaq//Zəhhaq*** (ə.) - zalım, qaniçən hökmdar.
***Zöhrab*** - bax: Söhrab.
***Zöhralı//Zöhrəli*** (ə.) - Əlinin gündüz ruzisi, günortası.
***Zubeyr//Zubeyir//Zübeyir*** (ə.) - güclü, qüvvətli; ağıllı, düşüncəli.
***Zühtü, Zühtiyyə*** (ə.) - tərkidünya, dünya nemətlərindən əl çəkən, dünyaya rəğbət etməyən.
***Zülal***, ***Zülalə*** (ə.) - saf, sərin, dadlı su; təmizlik, saflıq.
***Zülfəli*** (f.,ə.) - Əlinin saçı.
***Zülfi//Zülfü*** (f.) - saçlı, telli.
***Zülfüqar//Zülfiqar*** (ə.) - ikiağızlı, ikitərəfli, ikifəqərəli (İmam Əlinin qılıncının adı).
***Zülqədər*** (ə.) - Səfəvilər dövründə fəal oğuz-türkmən tayfası; xoşbəxt, bəxti olan insan.

## 2. QADIN ADLARI

### ɞ A ɞ

***Ababil*** - bax: Əbabil.
***Abadət//Əbadət*** - bax: İbadət.
***Abagül*** - ata və anaya layiq gül; böyük gül. Hörmətli və yaşlı qadınlara verilən ad, titul. «Aba» müxtəlif türk dillərində ana, böyük bacı, əmi, ata mənasında işlənir (bax: Aba).
***Abayət//Abiyət*** (t.,ə.) - atalar, nənələr, ata-baba.
***Abgül//Abıgül//Abigül*** (f.) - gül suyu (bax: Gülab).
***Abhava//Abihava*** (f.) - iqlim.
***Abhəyat//Abihəyat//Abuhəyat*** (f.,ə.) - həyat suyu, dirilik suyu.
***Abxanım//Abıxanım*** - böyük xanım, baş xanım (bax: Abı).
***Abıtel//Abutel*** - mavi rəngli tel; göy telli qız.
***Abidə*** (ə.) - bax: Abid; heykəltaraşlıq, memarlıq, tarixi mədəniyyət və s. əsərləri; xatirə, yadigar və nişanə.
***Abla*** (t.) - böyük bacı; Osmanlı imperiyasında sarayda idarə, bölmə rəhbəri, başçısı.
***Açelya*** (yun.) - gözəl rəngli çiçəklər açan bitki və onun çiçəkləri.
***Açıqgül*** - açılmış gül, açılmış çiçək.
***Açılangül*** - açılan gül, açılan çiçək.
***Abuzəndə*** (f.) - su pərisi; su pərisi kimi gözəl qız.
***Adaxanım//Adxanım*** ( q.yəh.) - Ada xanımı; zinətli, qəşəng xanım.
***Adeliya*** (fr.) - nəcib, alicənab, əsilzadə.
***Adıdan*** - adı dan (sübh) olan; işıqlı qız.
***Adıgül*** - adı gül kimi olan.
***Adınur*** (t.,ə.) - adı od olan, adı işıq olan.
***Adızər*** (t.,f.) - adı qızıl olan; çox gözəl və qəşəng.
***Afaq//Afəq*** - "apağ" sözünün ərəbləşmiş forması (Zənnimizcə, ə. mənşəli hesab edilən "üfüq" də "apağ"la eyni kökdəndir).
***Afayat//Afayət//Afiyət//Afiyyə*** (ə.) - sağlamlıq, səhhət; güc, qüvvət; nuş olsun.
***Afər*** - farsca "yaradan, vücuda gətirən; yaradıcı" kimi izah olunan bu adın əsasında "fər" durur.
***Afərbəyim//Afərxanım*** (f.,t.)- yaradan, vücuda gətirən, yaradıcı bəyim və ya xanım.

***Afərdə//Afəridə//Afəridən*** (f.) - yaradılmış, vücuda gətirilmiş.
***Afərim*** - mənim Günəşim, mənim yaradanım, mənim Tanrım.
***Afərin*** (f.) - Sağ ol! Əhsən!
***Afət*** (ə.) - çox gözəl; dilbər; bəla, müsibət, fəlakət.
***Afiliya*** (l.) - Ofeliya adının dəyişdirilmiş forması.
***Afina*** (yun.) - müharibə, qələbə, həmçinin hikmət, bilik, peşə ilahəsi.
***Afrizə*** (f.) - Əfruzə adının dəyişdirilmiş forması.
***Afitab//Aftab*** (f.) - Günəş; nur, işıq; gözəl.
***Afiyət//Afyət*** (ə.) – can sağlığı, sağlamlıq; sağlam qız.
***Afurə//Afirə*** (ə.) - çiçək adı.
***Ağabacı*** - böyük bacı; hörmətli bacı.
***Ağabanu//Ağabani*** (t.,f.) - ağa xanım; ağa arvadı.
***Ağabəyi//Ağabəyim*** - kiçik qardaşların hörmət əlaməti olaraq böyük qardaş arvadlarına müraciət forması.
***Ağabibi*** - atanın böyük bacısına hörmət əlaməti olaraq müraciət forması.
***Ağabikə*** - bax: Bikə; böyük qız, böyük xanım.
***Ağadostu*** - hörmət əlaməti olaraq kiçik qardaş və bacıların böyük qardaş arvadlarına müraciət forması.
***Ağagəlin*** - evin böyük gəlini; böyük gəlin.
***Ağaxanım*** - bax: Ağa və Xanım; böyük xanım, seyid xanım.
***Ağaxatın//Ağaxatun*** - şah arvadı, şah xanımı.
***Ağanaz*** (t.,f.) - ağa nazı, qəmzəsi, nazlı ağa.
***Ağanənə//Ağannə//Ağənnə*** - böyük nənə; nəvələrin atanın anasına müraciət forması.
***Ağanisə*** (t.,ə.) - bax: Ağa və Nisə; böyük qadın, baş qadın.
***Ağbəniz*** - bənizi ağ olan, ağ üzlü, ağ sifətli, bəyaz simalı.
***Ağbikə*** - ərə getməmiş ağ qız, ağ dul qadın.
***Ağbuta*** - ağ qönçə; böyük qönçə.
***Ağca*** - çox ağ, lap ağ, ağappaq, dümağ.
***Ağcabəniz*** - ağca bənizli, ağuzlü; ağüzlü qız.
***Ağcagül*** - ağ gül, lap ağ çiçək, ağappaq gül.
***Ağcaxanım*** - ağ gülə bənzəyən qız; ağbədənli qız.
***Ağcaxatın//Ağcaxatun*** - ağ gülə bənzəyən xatın; ağbədənli xatın.
***Ağcaqız*** - ağ bədənli qız, ağüzlü qız.
***Ağcazər*** (t.,f) - ağ qızıl kimi qız; parlaq, gözəl qız.
***Ağçiçək*** – ağ çiçək, gül; böyük gül; ağ çiçək kimi gözəl qız.
***Ağgül*** - ağ rəngli gül, ağ çiçək, bəyaz gül.

***Ağgün*** - həyatı, günü xoş keçən, xoşbəxt, bəxtiyar.
***Ağxanım*** - ağ olan xanım (qız).
***Ağxatın//Ağxatun*** (t.) - ağbədənli xatın (qız).
***Ağqız*** - ağ bədəni olan qız.
***Ağnaz*** (t.,f.) - nazı çox olan ağ qız.
***Ağnisə*** - ağbədənli nisə (qız).
***Ağnur//Ağnurə//Ağanurə*** (t.,ə.) - ağ nurlu, işıqlı, parlaqlığı çox olan qız.
***Ağsurə*** (t.,ə.) - böyük rəis; qəhrəman uşaq; böyük surə.
***Ağtab*** (t.,f.) - ağ işıq; parlaq; çox gözəl.
***Ahəstə//Ayəstə*** (f.) - yavaş, ağır, aramla, tələsmədən.
***Ahu*** (f.) - ceyran; gözəl, ceyran kimi gözəl.
***Ahunur*** (f.,ə.) - ceyran nuru, işığı, işıqlı ceyran.
***Ahuzər*** (f.) - qızıl ahuyə bənzər gözəl qız.
***Axça//Akça*** - pul, var-dövlət; təmizlik, paklıq.
***Axırbəyim*** - sonuncu, axırıncı xanım.
***Axırca*** - sonuncu, axırıncı, sonbeşik.
***Axirə*** (ə) - «axirət» sözünün ixtisarı; son doğulan qız.
***Aida//Aidə//Ayda//Ayidə*** (ə.) - gəlir, mədaxil, xeyir (qədim yun. dilində "bülbül").
***Aişə//Ayişə//Ayşə*** (ə.) - diri, canlı, əbədi.
***Aişəxanım*** (ə.,t) - Aişə xanım; əbədi, yaşamalı xanım.
***Akçay*** - ağ çay, bəyaz çay; böyük çay; əzəmət.
***Akkuş*** - ağ quş, bəyaz quş; çox ağ və gözəl; böyük quş.
***Akpinar*** - şəffaf bulaq, saf bulaq; böyük bulaq; paklıq, təmizlik.
***Aqibət*** (ə.) - son, nəticə, nəhayət, tale.
***Alabikə*** - böyük qız.
***Alacan//Alcan//Alcanə*** - can ala; böyük can; gözəl can; böyük bədənli.
***Alagöz*** - alagözlü, iri və qəşəng gözləri olan.
***Alagül*** - böyük gül (qız).
***Alaxanım*** - böyük xanım (qız).
***Alanisə*** (t.,f.) - böyük nisə (qız).
***Alazər*** (t.,f.) - böyük zər (qız).
***Alçagül*** - alça gülü, çiçəyi; alça gülü kimi qız.
***Albina*** (l.) - ağ; ağ rəngli qız.
***Alçiçək*** - qırmızı çiçək, qırmızı gül; böyük çiçək.
***Aldona*** - qırmızı dan, geniş şəfəq; qırmızı donlu (Qırmızı - Günəş rəmzidir).

***Aleftina*** (q.yun.) - qaytarmaq; göstərmək; getmək; ehtiram.
***Aləmara*** (ə.,f.) - aləmi bəzəyən.
***Aləməfruz*** (ə.,f.) - dünyanı işıqlandıran.
***Aləmgül*** (ə.,f.) - aləm gül oldu; dünya güldü.
***Aləmnar*** (ə.) - aləmin-dünyanın odu, atəşi; Günəş kimi gözəl.
***Aləmnur*** (ə.) - dünyanın nuru, aləmin işığı; işıq aləmi.
***Aləmsuz*** (ə.,f.) - dünyanı yandıran; çox qəşəng.
***Aləmşad*** (ə.,f.) - aləmin sevinci, dünyanın şadlığı; dünyanın övladı.
***Aləmşən*** (ə.,f.) - xalqı şad və şən olan; dünyanın sevinci.
***Aləmtab*** (ə.,f.) - dünyanı işıqlandıran Ay.
***Aləmzar//Aləmzər*** (ə.,f.) - dünyanın qızılı; dünyanın Günəşi.
***Algül*** - qırmızı gül, qıpqırmızı gül kimi gözəl.
***Alidə*** (t.,f.) - alyanaqlı, lalə üzlü gözəl qız.
***Alihə*** (ə.) - bütlər; Allahlar, Tanrılar.
***Alisa//Alisə*** (ə.) - gözəl, qəşəng; cazibədar, cəlb edən.
***Aliyə//Alya*** (ə.) - yüksək, ən uca, ali.
***Alla*** (yun.) - başqası; sonra; ikinci.
***Alleytər*** (ə.,t.) - «Allah, qız yetər!» ifadəsinin ixtisar forması.
***Alma//Almayə*** - dadlı meyvə və ağacı; götürmə, alma; dəyişmə.
***Almagül*** - alma gülü; alma gülü kimi gözəl.
***Almaxanım*** - alma kimi xanım, al yanaqlı xanım.
***Almara//Almarə*** (t.,f.) - qırmızı ilan; qırmızı saç.
***Almas//Almaz*** - bərk, şəffaf qiymətli daş; yaraşıqlı, gözəl.
***Almayı*** **-** almaya bənzər; yanaqları yumru və qırmızı.
***Almina//Alminə*** (t.,ə.) - qırmızı mina, mina kimi qırmızı qız.
***Alnarə*** (t.,f.) - qırmızı nar; böyük nar; Günəş.
***Alnur//Alnurə*** (t.,ə.) - qırmızı işıq, parlaq işıq.
***Alsu*** – «al» (qırmızı) və «su» sözlərindən düzəlmiş və «qırmızı su kimi gözəl qız» deməkdir.
***Altac*** - parlaq tac, parıldayan, bərq vuran tac.
***Altunay*** - qırmızı, od rəngli Ay; qızılı Ay.
***Altungül*** - qızıl gülü, qızılgül; qızılgül kimi qız.
***Aludə//Alidə*** (f.) - müəyyən şeyə alışmaq; aşiq, vurğun.
***Alyanaq*** - yanaqları qırmızı olan.
***Anabacı*** - ana kimi bacı, anaya bənzər bacı.
***Anabəyim*** - anaya bənzər bəyim, ana bəyim.
***Anabikə*** - ana kimi bikə, ana, böyük bikə.
***Anacan*** - can ana, əziz ana.

***Anadil*** - ana dil, ulu dil, anadil quşu.
***Anagəlin*** - ana gəlini; böyük gəlin; həm ana, həm də qız olan övladım.
***Anagül*** - ananın gülü, anaya bənzər gül; gözəl qız.
***Anaxanım*** - ana kimi xanım; böyük xanım.
***Anaqız*** - ana kimi qız; böyük qız.
***Anası*** – «ana» sözü və –sı mənsubiyyət şəkilçisindən yaranmış və «əziz anam, anamız» deməkdir.
***Anaş*** - "ana" ilə başlanan adların əzizləmə forması.
***Anayə*** – ana; bütöv Aya bənzər qız; çox parlaq gözəl.
***Aniyə//Aniyyət*** (f.,ə) - gözəllik, cazibədarlıq.
***Anjela//Anjelika*** (yun.) - "anqelos" sözündəndir və mələkə, xəbər verən mənasındadır.
***Anna*** (y.) - gözəl, qəşəng, dilbər.
***Anuş*** (f.) - ölməz; xoşbəxt, bəxtiyar.
***Arasiyə//Arasiyyə*** (f.) - bəzənmiş, bəzəkli.
***Arasta//Arəstə//Arastə*** (f.) - bəzənmiş, bəzəkli, gözə xoş gələn.
***Arıqız*** - namuslu, tərbiyəli qız; bakirə qız; təmiz qız.
***Arifət*** (ə.) - bilən, bilikli; tanıyan qadın.
***Ariyə*** (ə.) - daimi olmayan, müvəqqəti.
***Arzu*** (f.) - dilək, istək; daxili ehtiyac, həvəs.
***Arzubəyim*** - istəkli, sevimli; arzulanan bəyim.
***Arzugül*** - arzu gülü, istək gülü; arzu olunan gül kimi qız.
***Arzuxanım*** - istəkli, sevimli, arzu olunan xanım.
***Asena//Aseyna*** – q.t. dillərində «əsən», «sağ-salamat» sözlərindən olub «assen» (sağlamlıq) sözü fransız dilinə də keçmişdir. XII əsr Bolqar çarının adı Asena olmuşdur.
***Asiman*** (f.) - göy, səma; göy, səma kimi gözəl qız.
***Asiya//Asiyə//Asya*** (y.) - gündoğan; mömin və təmiz qadın, mərhəmətli; üzü nurlu olan. İslam dininə görə, dünyanın dörd müqəddəs qadınından biridir. Əfsanəyə görə, bu qadın Musa peyğəmbəri əri Fironun əlindən qurtararaq Nil çayında boğulmaqdan xilas etmişdir; ə. qadın hakimi.
***Asiyabəyim//Asiyəbəyim//Asyabəyim*** - bax: Asiya və Bəyim; mömin bəyim.
***Asiyaxanım//Asiyəxanım//Asyaxanım*** - bax: Asiya və Xanım; mömin və təmiz xanım.
***Asudə*** (f.) - dinc, rahat.

***Aşafatma*** (t.,ə.) - "aşa" - "çox, artıq" deməkdir; daha qız (Fatma) bəsdir.
***Aşaxanım*** (ə.t.,) - haşa, heç vaxt, xanım.
***Atəşin*** (f.) - odlu, atəşli, hərarətli, təsirli.
***Atiyə//Atiyyə*** (ə.) - bağışlanan, bəxş edilən, verilən.
***Atlas//Atlaz*** (ə.) - hamar, parlaq ipək parça; zərif, incə.
***Avesta*** - atəşpərəstlərin dini kitabının adı.
***Aya//Ayə*** (ə.) - əlamət, nişan; «Quran»dakı cümlələrin hər biri.
***Ayan//Ayana//Ayanə*** (ə.)- gözlə görünən, açıq-aydın, aşkar; əyanlara layiq gözəl qız.
***Ayarxanım*** – «ayar» və «xanım» sözlərindən düzəlmiş, «ürəyiaçıq, gülərüzlü; iti gözlü» xanım mənasındadır.
***Ayat//Ayət*** (ə.) - "Quran" surələrindəki "ayə" sözünün cəmi; əlamət, nişan.
***Aybacı -*** Ay kimi gözəl bacı, Ayabənzər qəşəng qız.
***Aybədən -*** Ay kimi gözəl olan qız.
***Aybəniz*** - Ay bənizli, Ay üzlü; gözəl, qəşəng.
***Aybibi*** - Ay kimi bibi, Ay kimi xanım;. Ay xanım.
***Aybikə*** - Ay qızı, Ay xanımı; Ay kimi gözəl qız.
***Ayca*** - Ay kimi, Aya bənzər; Ay kimi işıqlı, parlaq olan gözəl.
***Aycamal*** - üzü Aya bənzəyən, Ay camallı, Ay simalı.
***Aycan*** - Ay ruhlu, Ay canlı; Ay kimi gözəl olan.
***Ayçiçək*** - Ay gülü, Ay çiçəyi; çox gözəl, qəşəng; sarı çiçək.
***Ayçin//Ayçinə*** - Ay kimi gözəl, Aya bənzər; sarışın qız.
***Ayçöhrə*** - çöhrəsi Aya bənzəyən, Ay üzlü, Ay simalı.
***Aydagül*** - Ay gülü; Ay çiçəyi; sarı gül.
***Aydan//Aydanə*** - Ay danı, Ay işığı; gözəl, göyçək; Aydan gələn gözəl.
***Aydəniz*** - Ay kimi parlaq; lap gözəl, olduqca qəşəng; Ay dənizi.
***Aydıngül*** - işıqlı, saf, təmiz gül; cəlbedici gözəl qız.
***Aydil*** - açıq, təmiz danışığı olan; Ay ürəkli, saf qəlbli gözəl.
***Ayəndam*** - Aya oxşayan; Ay əndamlı, bədəni Ay kimi gözəl.
***Ayəndən*** (f.) - gələn; gələcək zaman.
***Ayfər*** (t.,f.) - Ay işığı, Ay kimi parlaq qız.
***Aygöhər//Aygövhər*** (t.,f.) - Ay incisi; Ay kimi gözəl.
***Aygül//Aygülə*** - Ay çiçəyi, Ay gülü; sarı gül; olduqca gözəl, ən qəşəng.
***Aygün//Aygünə*** - Ay və Günəş; Ay və Günəş kimi gözəl.
***Ayxanım*** - Ay kimi gözəl xanım; ən qəşəng qız.
***Ayqabaq*** - Ay kimi geniş alınlı; ağ alınlı.

***Ayqan//Ayqanə*** - Ay kimi qanı olan; təmiz qanlı; qeyri-adi gözəl.
***Ayqız*** - Ay kimi qız; sarı qız; gözəl qız.
***Ayla*** - halə, şəfəq, parıltı.
***Aylan//Aylanə//Aylən*** - Ay ilə, Aya bənzər; Ay kimi gözəl.
***Aylin*** - Ayın ətrafındakı dairə; halə.
***Aymələk*** - Ay mələyi, Ay gözəli; Ay kimi mələk; gözəl, göyçək.
***Ayna*** - güzgü, şüşə; bədəni ağ və sağlam olan.
***Aynabəyim*** - ayna, güzgü kimi təmiz və gözəl bəyim.
***Aynagül*** (f.) - parlaq gül, ayna kimi parlaq qız.
***Aynaxanım*** - ayna kimi təmiz və gözəl xanım.
***Aynanisə*** (f.,ə.) – «ayna» və «nisə» sözlərindən düzəlmiş və «təmiz, saf qız» deməkdir.
***Aynaz*** - naz eləyən Ay, Ay kimi nazlı qız.
***Aynifər*** (ə.,t) - göz işığı, göz nuru; göz kimi parlaq qız.
***Aynisə*** - Ay qadın(lar)ı, Ay kimi gözəl qız.
***Aynişan*** - Ay nişanlı; Ayın nişanı; abırlı, həyalı, ismətli.
***Aynur//Aynurə*** - Ayın nuru, Ay işığı; Ay kimi gözəl; sarı qız.
***Aypar*** - Ay işığı; Ay kimi par-par yanan qız.
***Aypara//Ayparə*** - Ayın yarısı, Ay parçası; gözəl, qəşəng.
***Aypər//Aypəri*** (t.,f.) - Ayın pərisi, Ay kimi gözəl qız; Ay işığı.
***Aysabah*** (t.,ə.) - Ayın səhəri, Ayın sabahı.; gözəl, göyçək.
***Aysadə*** (t.,f.) - təbii, adi Ay; adi Ay kimi gözəl.
***Aysalı*** - Ay işığının düşdüyü yer; gözəl, göyçək ;Ay kimi parlayan.
***Aysan//Aysən*** - Aya bənzər, Ay kimi, Ay kimi gözəl qız.
***Aysar//Aysarı//Aysarə*** - Ay kimi sarı, Ay kimi qəşəng qız; xalis, saf Ay.
***Aysel*** - Ay işığı, Ay seli; gözəl, qəşəng qız.
***Aysəba*** (t.,ə.) - aylı gecədə əsən yüngül və lətif meh.
***Aysəhər*** - səhər görünən Ay; səhər Ayı kimi gözəl.
***Aysənəm*** (t.,ə.) - Ay kimi Sənəm (bax); Ay kimi gözəl qız.
***Aysima//Aysimə*** - siması Aya bənzəyən, Ay üzlü, çox gözəl qız.
***Aysoltan// Aysultan*** (t.,ə.) – «Ay» (planet) və «soltan// sultan» (hökmdar) sözlərindən yaranmış, «Ayın soltanı// sultanı» deməkdir.
***Aysona*** - Ay sonası, Aydan gəlmiş sona; Ay kimi gözəl.
***Aysoylu*** - Aydan törəyən, Ay nəslindən olan; Ay kimi gözəl qız.
***Aysu*** - Ay kimi gözəl, su kimi təmiz.
***Aysun//Aysuna//Aysunə*** - Ayın armağanı, hədiyyəsi, Ay kimi gözəl qız.
***Aysurə*** (t.,ə.) - Ay surəsi (surə-"Quran" fəsillərindən biri); Ay parçası.

***Aysurət*** - üzü Aya bənzəyən, Ay sifətli; çox gözəl.
***Ayşad*** - Aydan törəyən, Ay övladı; Ayın qızı; qəşəng.
***Ayşəxatın//Ayşaxatun*** (ə.,t.) - bax: Ayişə və Xatun; əbədi qadın; yaşayan xanım.
***Ayşən//Ayşanə//Ayşen//Ayşan*** - Ay kimi şən, Ay kimi şad olan; Ay kimi adlı-sanlı.
***Aytac*** (t.,f.) - Ayın tacı; Ay işığı; haləsi çox gözəl.
***Aytamam*** - bütöv Ay; ay tamam olanda doğulan.
***Aytel*** - saçları Ay kimi sarı olan, xurmayı saç.
***Aytək//Aytəkin*** - Ay kimi, sənin Ay kimin; Ayın varisi; çox gözəl.
***Aytən//Aytan*** - Ay kimi gözəl bədənli, Aya tən olan, Ay kimi qız.
***Ayulduz*** - Ay və ulduz kimi parlaq; olduqca gözəl.
***Ayüz//Ayüzlü*** - Ay kimi işıqlı üzü olan; Ay kimi gözəl qız.
***Ayyanar*** - Ay kimi yanan, Ay kimi parlaq, Ay kimi işıq saçan; gözəl.
***Ayyət*** (ə) - əlamət, nişanə; «Quran» cümlələrindən hər biri.
***Ayzadə*** (t.,f.) - Aydan doğulan, Ayın qızı; Ay kimi gözəl.
***Ayzangül*** - bax: Eyzangül.
***Ayzər*** (t.,f) - Ay zəri kimi parlaq; Ay kimi gözəl qız.
***Aza*** - r.sağaldan, şəfa verən; güclü, möhkəm; ə.əzab, əziyyət; hədiyyə; təsəlli.
***Azabəyim*** - şəfa, sevinc verən bəyim; hədiyyə olan bəyim.
***Azərin*** - az - oğuz ərlərinə məxsus gözəl; Azəri gözəli.
***Azərtac*** - az - oğuz ərlərinin tacı; Azərbaycan gözəli.
***Aziyə*** - t.azlardan, aslardan olan qız; assur dilində günçıxan, çıxış.
***Aznurə*** (t.,ə.) - işığı az olan; nuru az olan qız.
***Azra* -** bax: Əzra.

## B

***Bacı*** - ata-ananın qızlarının bir-birinə və qardaşlarına olan qohumluq münasibəti.
***Bacıgül*** - bacı güldür, bacı çiçəkdir; bacı gözəldir.
***Bacıxanım*** - bax: Bacı və Xanım; Xanım kimi bacı.
***Bacıqız*** - bacının qız övladı; bacı və qız sözlərindən yaranmışdır.
***Bacınur*** - bacı nurdur, bacı işıqdır; bacı qəşəngdir.
***Badam*** - ləpəsi yeyilən sərtqabıqlı meyvə.
***Badambəyim*** - bax: Badam və Bəyim; badam kimi qız.
***Badamgül*** - badam ağacının çiçəyi, badamın gülü.

***Badamxanım*** - bax: Badam və Xanım; badam kimi xanım.
***Badamnar*** (f.,ə) - odlu badam; badam odu.
***Badamnaz*** (f.) - nazlı badam kimi qız; badam nazlı qız.
***Badamnisə*** - badam kimi qız; badam kimi gözəl.
***Badamnur*** (f.,ə) - nurlu badam; badam nuru, işığı.
***Badamzər*** (f.) - badam zəri; qızıl badam; badam zəri kimi qız.
***Badəgül*** - "Bağdagül" adının təhrif olunmuş forması; gül içkisi.
***Badisaba//Badisəba//Badsəba*** (f.,ə.) - yüngül və lətif səhər mehi.
***Badisəfa//Badsəfa*** - "Badisəba" adının təhrif olunmuş forması.
***Bafta*** (f.) - güləbətin və ya ipək saplardan toxunmuş qaytan.
***Bağça*** - kiçik bağ, çiçəklik, güllük; gülüstan.
***Bağçagül*** - bağça gülü; gül bağçası; güllük, çiçəklik.
***Bağda*** - güllükdə, çiçəklikdə, meyvəlik sahəsində.
***Bağdad*** - Bağdad şəhərinin adındandır; "bağda" (Mannada "Baq", Midiyada "Baqa", türk dillərində "Bağa", "Bayat", İran dillərində "Bağa", slavyan dillərində "Boq", hind dilində "Bhaqa") sözü ilə əlaqədar olub, "Tanrı verdi" kimi izah edilir.
***Bağdadxanım*** - Bağdad xanımı, bağdadlı xanım; Bağdad gözəli.
***Bağdagül*** - bağda olan gül, bağdakı gül.
***Bağdaxanım*** - bağın xanımı, bağdakı xanım.
***Bağdaqız*** - bağda olan qız, bağdakı qız.
***Bahar//Baharə*** (f.) - yaz, yaz fəsli; gözəllik.
***Bahargül*** (f.) – bahar gülü kimi açılmış gül.
***Baharxanımı*** (f.,t.) - bahar kimi gözəl; bahar xanımı.
***Baharnisə*** (f.,ə) - bahar qızı, bahar kimi gözəl nisə.
***Baharşad//Baharşən*** - bahar sevinci, şənliyi; yaz şadlığı.
***Bahur//Bahurə*** (f.,ə.) - Cənnət gözəli; gözəl qız.
***Bakiyyə*** (ə.) - ədalətlik; qalıq, artıq; səxavətli.
***Balabacı*** - kiçik bacı, balaca bacı; bacıların balacası.
***Balabəyim*** - kiçik bəyim, balaca bəyim.
***Balabibi*** - yaşca kiçik bibilərə verilən ad.
***Balabikə*** - balaca bikə, kiçik bikə; balaca qız.
***Balaca*** - kiçik, ən kiçik qız, balaca qız.
***Balacaxanım*** - balaca xanım, kiçik xanım.
***Balaxanım*** - kiçik xanım, balaca xanım.
***Balaxatın//Balaxatun*** - kiçik xatın, balaca xatun.
***Balaqız*** - balaca qız, kiçik qız.
***Balanaz*** - bala, uşaq nazı; nazlı övlad, qız.

***Balanisə*** (t.,ə.) - balaca qız, kiçik Nisə (bax).
***Balı*** - "bal" ilə başlanan adların əzizləmə forması.
***Balınc//Balış*** - yastıq, içi quş tükü olan baş altı.
***Balqız*** - bal kimi qız, sevimli, gözəl qız.
***Ballı*** - bal kimi şirin qız.
***Ballıbəyim*** - ballı bəyim, bal kimi şirin qız.
***Ballıca*** - su kənarında bitən və yeyilən ot, pəncər.
***Ballıxanım*** - ballı xanım, bal kimi şirin xanım.
***Balsarı*** - bal rəngində, sarı rəngdə olan, bal rəngli qız.
***Banı//Banu*** (f.) - xanım; hökmdar arvadı.
***Banıçiçək//Banuçiçək*** (f.,t.) - çiçək kimi banu, gül kimi xanım; əlçatmaz gözəl.
***Banoş*** - "Banu" adının əzizləmə forması.
***Baratxanım*** (ə.,t) - Barat xanım; barat verən xanım; bədrlənmiş ay kimi xanım.
***Bastafa*** – «bas» (baş) və «tayfa» (tayfa, nəsil) sözlərindən düzəlmiş və «tayfanın, nəslin baş gözəli» deməkdir.
***Başxanım*** - baş xanım; xanımların başçısı.
***Bayaz//Bəyaz*** (ə.) - «bəyaz» sözündəndir; ağ, ağappaq; balaca dini kitabça.
***Bayramxatın//Bayramxatun*** - həmişə şad olan xanım, şənlik edən hökmdar qadını.
***Behnaz*** (ə.) - şanlı, şöhrətli; şərəfli, qürurlu.
***Bela*** (yəh.) - udum, qurtum; udma; qırma, məhv etmə.
***Bella*** (l.) - gözəl, qəşəng.
***Bədayə//Bədihə*** (ə.) - fikirləşmədən söylənən söz; bədahətən deyilən söz.
***Bədiəcamal*** – «Bədiə» və «camal» sözlərindən düzəlmiş, «misilsiz gözəl» deməkdir.
***Bədircahan*** (ə.,f.) - cahanın 14 gecəlik Ayı; gözəl sifət.
***Bədirnisə*** (ə.) - bütöv Ay kimi qız; gözəl üzlü qız.
***Bədiyə//Bədiyyə//Bədiə*** (ə.) - tayı-bərabəri olmayan şey, çox gözəl və nadir şey.
***Bəhər*** (f.) - meyvə, bar; çəkilən zəhmətin bəhəri.
***Bəhərçin//Bəhərçi*** (f.) - meyvə toplayan, bar yığan (və ya dərən).
***Bəhicə*** (ə.) - gözəl; şən, şirin; gülərüzlü.
***Bəhiyyə*** (ə.) - gözəl, göyçək, qəşəng.

***Bəhri*** - "bəhr" sözü ilə başlanan adların kiçiltmə forması; mavi gözlü qız.
***Bəhribəyim*** (ə.,t.) - dəniz qızı, dəniz bəyimi, su pərisi.
***Bəhrican*** (ə.,f.) - dənizin ruhu; can dənizi; su gözəli.
***Bəhrigül*** - dəniz çiçəyi, su gülü, su kimi saf və təmiz qız.
***Bəhrixanım*** (ə.,t.) - dəniz xanımı; dəniz pərisi.
***Bəhriqız*** (ə.,t.)- dəniz qızı, dəniz kimi gözəl qız.
***Bəhrinisə*** - dəniz qızları, dəniz gözəlləri; su pərisi.
***Bəhriyyə*** (ə.) - dənizə aid olan, dənizlə bağlı olan, dəniz qızı.
***Bəxtəvər*** (f.) - xoşbəxt, ağgün, bəxtiyar.
***Bəxtigül*** - bəxti gül kimi açılan, xoşbəxt.
***Bəxilə*** (f.,t.) - taleyi, qisməti ilə.
***Bəxtinur*** (f.,ə.) - bəxti nurlu, nur bəxtli; xoş taleli.
***Bəxtiyyə*** (f.,ə.) - qismətli, bəxtli, uğurlu.
***Bəxtli*** - xoşbəxt, bəxti gətirən, səadətli.
***Bəlqiyyə//Bəlqiyə*** (ə.) - bəlağətlə danışan, fikrini gözəl ifadə edən; gözəl, qəşəng.
***Bəlqiyyət//Balqiyət*** (ə.) - gözəl ifadə, gözəl üslub; həddi-büluğa çatma.
***Bənəfşə//Bənövşə*** - yazın əvvəlində açan xoş ətirli çiçək.
***Bənifə//Bənifər*** (ə.,t.) - «bəni» (ibn») - «övlad, nəsil, tayfa» və «fər» - «işıq, od, parıltı» sözlərindən yaranmış və «işıqdan, oddan törəyən, işıq övladı» mənasındadır.
***Bənigül*** (ə.,t.) - «bəni» (ibn») - «övlad, nəsil, tayfa» və «gül» sözlərindən yaranmış və «güldən törəyən, gül övladı» mənasındadır.
***Bənizər*** (ə.,f.) - «bəni» (ibn») - «övlad, nəsil, tayfa», «zər» isə «qızıl» deməkdir, «qızıl övladı, qızıl nəsli», məcazi mənada isə «qızıl kimi gözəl qız» mənasındadır.
***Bənurə*** (ə.) - işıqdan, oddan, nurdan törəyən; nurdan yaranan gözəl qız.
***Bərcis*** (f.) - Yupiter planeti; Müştəri ulduzu.
***Bərdə*** - piyaləli, kuzəli (A.Axundov); iplik sap (E.Əzizov); işıqlı aypara, mahir (Məmməd Elli); qol, ensiz çay; kölə, qul.
***Bəslər*** - bəsləyər, böyüdər, yaşadar, ərsəyə çatdırar.
***Bəstə*** - nəğmə, mahnı, hava; balaca, alçaq, balacaboy.
***Bəstəgül*** - bağlı gül, bağlanmış gül.
***Bəsti*** - bəsdir, daha qız lazım deyil, qız kifayətdir.
***Bəstibacı*** - daha bacı bəsdir, daha qız lazım deyil.
***Bəstigül*** - qız bəsdir, gül kifayətdir.

***Bəstiqız*** - daha qız bəsdir, kifayətdir.
***Bəşarət*** (ə.) - müjdə, muştuluq, xoş xəbər.
***Bətur//Bəturə//Bətirə*** - bax: Bədir, Bədurə.
***Bəyanə*** (ə.) - anlatma, söyləmə, bəyan etmə.
***Bəyaz*** (ə.) - ağ, ağ rəng.
***Bəygülü*** - bəy gülü; bəyə layiq gül; güllərin bəyi, gözəli.
***Bəyxanım*** – böyük xanım; bəy xanımı; bəyə layiq xanım.
***Bəyim*** - xanım, bəy arvadı, bəy qızı.
***Bəyimağa*** - bax: Bəyim və Ağa; bəyim olan ağa.
***Bəyimbacı*** - bax: Bəyim və Bacı; bəyim olan bacı.
***Bəyimcan*** - canlı, ürəkli bəyim; sevimli, istəkli xanım.
***Bəyimxanım*** - xanımlar xanımı; bəyim, xanım kimi qız.
***Bəyimnaz*** (t.,f.) - bəyimin nazı; nazlı bəyim.
***Bəyimnur*** (t.,ə.) - bəyimin nuru, nurlu, işıqlı bəyim.
***Bəyimsultan*** - bax:Bəyim və Sultan; bəyim olan sultan.
***Bəyimzər*** (t.,f.) - qızıl xanım, qızıl kimi xanım,
***Bəysurə*** (t.,ə.) - bəy surəsi; böyük surə.
***Bəyturə*** (t.,ə.) - böyük rəis, bəyin həkimi.
***Bəzək*** - bəzəyən, gözəllik verən şey; zinət, yaraşıq.
***Bəzər*** - bəzəyər, gözəlləşdirər, zinətləndirər.
***Bəzmicahan*** (f.) - dünyanın bəzəyi, aləmin gözəli.
***Bəzmixanım*** (f.,t.) - xanımların bəzəyi, gözəllərin xanımı.
***Bibi*** - atanın bacısını bildirən qohumluq termini.
***Bibigül*** - bibi kimi gül-gözəl qız.
***Bibixanım*** - Bibi xanım; xanım kimi bibi.
***Bibiqız*** - bibi kimi qız, bibiyə oxşayan qız.
***Bibinisə*** - bax: Bibi və Nisə; bibi kimi qız.
***Bikə*** - ərə getməmiş qız; təravətlilik.
***Bikəxanım*** - gözəl və təravətli xanım.
***Bildirçin*** - qırqovullar fəsiləsindən quş.
***Bilqeyis*** (ə.) - sərvət sahibi, dövlətdə tayı-bərabəri olmayan; ölçüsüz.
***Billurbanu//Büllurbanu*** (ə.,t) - billur kimi banu; parlaq, gözəl qız.
***Billurbəyim//Büllurbəyim//Büllürbəyim*** (ə.,t) - billur kimi bəyim; parlaq, gözəl qız.
***Billurə//Büllurə//Büllürə*** (ə.) - parlaq və şəffaf daş; gözəl qız.
***Billurxanım//Büllurxanım*** (ə.,t.) - billur kimi xanım; parlaq, gözəl qız.
***Billuri//Bülluri*** (ə.) - billura mənsub, billura bənzər.

***Billurnisə//Büllurnisə//Billürnisə//Büllürnisə*** (ə.) - billur kimi nisə, parlaq, gözəl qız.
***Binəzər*** (f.,ə.) - bitərəf, qərəzsiz, nəzərsiz, baxışsız, əvəzsiz, misilsiz.
***Bircə*** - tək, bir, bir dənə.
***Bircəbacı*** - yeganə, tək bacı; yeganə qız.
***Bircəbəyim*** - tayı olmayan bəyim, tayı olmayan qız.
***Bircəgül//Birgül//Bircəçiçək***- tək gül, bir çiçək, bircə gül; çox qəşəng.
***Bircəxanım//Birxanım*** - tayı olmayan xanım, yeganə xanım.
***Bircənaz*** (t.,f.) - bircə, təkcə naz; nazlı qız.
***Bircənisə*** - tək nisə, bircə nisə, tayı-bərabəri olmayan nisə.
***Bircənur*** (t.,ə.) - bircə nur, bircə işıq.
***Birgül//Birgülə*** - ancaq bir gül (ə), yeganə gül (ə).
***Böyükbacı*** - bax: Böyük və Bacı; böyük bacı.
***Böyükxanım*** - bax: Böyük və Xanım; böyük xanım.
***Böyükqız*** - böyük qız, ailədə birinci qız.
***Brilyant*** (fr.) - cilalanmış almaz; qiymətli; nadir.
***Buket*** (fr.) - dəmət, gül və ya çiçək dəstəsi.
***Buray*** - boyu uzun xanım.
***Busat//Büsat*** (ə.) - ziyafət, təntənə; cah-cəlal.
***Busə*** (f.) - öpüş.
***Busəgül*** (f.) - busə gülü, busə çiçəkləri; sevinc gətirən qız.
***Butagül*** - qönçə gül; təravətli gül; yeniyetmə gözəl.

## ✿ C ✿

***Cahan//Cahanə*** (f.) - dünya, aləm, kainat.
***Cahanbanu*** (f.) - Cahanın banusu; dünya gözəli; hökmdar arvadı.
***Cahanbəyim*** (f.,t.) - cahanın bəyimi, dünya xanımı.
***Cahanəfruz*** (f.) - dünyaya işıq verən; Günəş.
***Cahanfər*** (f.) - cahanı işıqlandıran, aləmi parıldadan.
***Cahangül*** - cahanın gülü; dünya gözəli.
***Cahanxanım*** (f.,ə.) - Cahan xanım; cahan, dünya xanımı.
***Cahannisə*** (t.,ə.) - dünyanın qız(lar)ı, cahanın gözəl(lər)i.
***Cahannur*** (f.,ə.) - dünyanın işığı, nuru; aləmi aydınlaşdıran.
***Cahantac*** (f.) - cahanın tacı; dünyanın bəzəyi.
***Cahanzər*** (f.) - dünyanın qızılı; gözəl, qəşəng.
***Canalə*** (f.,t.) - canalan, canalıcı; olduqca gözəl qız.
***Canan//Cananə//Cənanə*** (f.) - sevgili, yar; çox gözəl; gözəl canı olan.

***Canayə*** (f.,t.) - Ay kimi canlı, Ay kimi işıqlı, parlaq, Ay kimi gözəl qız.
***Canbacı*** (f.,t.) - bacı can; can bacı; əziz bacı.
***Canbəyim*** (f.,t.) - can bəyim; bəyim can; əziz bəyim.
***Canella*** (f.,t.) - elin ruhu, canı; elin ürəyi, könlü; xalqın sevimlisi.
***Canəfruz*** (f.) - qəlbi nurlandıran, könlü şəfəqləndirən.
***Canəfza*** (f.) – canlandırıcı, canlandıran.
***Canfəza*** (f.) - zövq verən, qəlbi sevindirən, ləzzət verən, könül oxşayan.
***Canxanım*** - xanım ruhlu, xanım ürəkli; gözəl xasiyyətli, xanım kimi olan.
***Canıgül*** (f.) - canı gül olan; gül kimi gözəl.
***Canrüba*** (f.) – «can» və «rüba» sözlərindən düzəlmiş, «canan; gözəl dilbər» deməkdir.
***Cansel*** - ruha, cana aid olan; canlı.
***Cansu*** - canı su olan; su kimi təmiz olan qız.
***Cansun//Cansunə*** - canlandıran, ruhlandıran, ürəyini verən.
***Cavahir//Cəvahir*** (ə.) - qiymətli daşlar, ləl, gövhərlər.
***Cavahirat//Cəvahirat*** (ə.) - daş-qaş, ləl.
***Cevriyyə//Cövriyyə//Çevriyyə//Çövriyyə*** (ə.) - cəfa, zülm, cəza, incitmə, sitəm.
***Ceyla*** (ə.) - «ceyl» sözündən olub, «tayfa, qəbilə» deməkdir.
***Ceylabəyim*** (ə.,t.) - tayfanın bəyimi, qəbilənin bəyimi.
***Ceylagül*** (ə.,t.) - tayfanın, qəbilənin gülü, çiçəyi; tayfa və ya qəbilə gözəli.
***Ceylaxanım*** (ə.,t.) - tayfanın xanımı, qəbilənin xanımı; tayfa və ya qəbilənin gözəli.
***Ceylanisə*** (ə.,t.) - tayfanın nisəsi, qəbilənin nisəsi; tayfa və ya qəbilənin gözəli.
***Ceyran//Ceyranə*** - irigözlü, incə ayaqlı gözəl heyvan; zərif, qəşəng.
***Ceyrangül*** - ceyran gülü, ceyran çiçəyi.
***Ceyranxanım*** - Ceyran xanım, ceyran kimi xanım.
***Cəbirə*** (ə.) - zor işlətmə; sınıqçılıq; sarğı taxtası.
***Cəbriyyə*** (ə.) -məcbur edilmiş; fəlsəfədə fatalizm.
***Cəlalət*** (ə.) - böyüklük, əzəmət, ululuq, şan-şöhrət.
***Cəlaliyyə*** (ə.) - cəlal, böyüklük, əzəmət, şan-şövkət sözlərinin cəmi.
***Cəlasət*** (ə.) - parlaq üzlü, işıqlı sifəti olan.
***Cəmilət*** (ə) - gözəl, göyçək, qəşəng; gülərüzlü; diqqət, maraq.
***Cənnət*** (ə.) - behişt; mənzərəli yer.
***Cənnətbacı*** - bax: Cənnət və Bacı; çox gözəl bacı.

***Cənnətbəyim*** (ə.,t.) - Cənnət bəyimi; Behişt gözəli.
***Cənnətgül*** (ə.,f.) - Cənnət gülü; Behişt gözəli.
***Cənnətxanım*** - bax: Cənnət və Xanım; çox gözəl xanım.
***Cəzanə*** (ə.) - təngə gəlmək, cana gəlmək, usanmaq.
***Cəzirə*** (ə.) - ada.
***Cığaxanım*** – cığası olan xanım; qıvrım saçlı, qotazlı xanım.
***Cığalı*** - cığası (cığa - saçın alına və ya üzə düşmüş hissəsi) olan, artırması olan; kəkilli.
***Cilvəkar*** (f) - parıldayan, parlayan, işıldayan; naz-qəmzəli, işvəli, nazlı.
***Cilvəli*** - nazlı, qəmzəli; naz-qəmzə göstərən.
***Cilvənaz*** (f) - naz-qəmzə göstərən, işvəli, nazlı.
***Cinayət*** (ə.) - hüquq qanunlarının pozuntusu (Oğlan arzusunda olanlar qızı belə adlandırırlar).
***Ciyadət*** (ə.) - gözəllik, təmizlik, saflıq.
***Cövhər*** (ə.) - hər hansı bitki və ya gül-çiçəyin distillə yolu ilə alınmış şirəsi; qayə, məğz; əsl, mətləb.
***Cövhərbəyim*** (ə.,t.) - bəyimlərin cövhəri; bəyimlərin ən gözəli.
***Cövhərxanım*** (ə.,t.) - xanımların cövhəri; xanımların ən gözəli.
***Cövhərnisə*** (ə.,t.) - nisələrin cövhəri; nisələrin ən gözəli.
***Cövza*** (ə) - Əkizlər bürcü.
***Culduz*** - Qütb ulduzu, ulduz.
***Cülyetta*** (l) - buruq saç, qıvrım saç.
***Cüneyla*** (ə.) - bərk torpaq parçası.
***Cürəbəyim//Curubəyim//Cürübəyim*** - kiçik bəyim, bəstəboy bəyim.
***Cürəxanım//Curuxanım//Cürüxanım*** - kiçik xanım, bəstəboy xanım.
***Cürənisə//Curunisə//Cürünisə*** - kiçik nisə, bəstəboy nisə.

## Ç

***Çağlak//Çağlaq*** - şəlalə, yüksəklikdən tökülən su, çağlayan.
***Çalıquşu*** - səhər tezdən oxuyan və başı tünd-qırmızı olan quş; sübh vaxtı doğulan qızlara verilən ad.
***Çarəxanım*** (f.,t.) - tədbir tökən, əlac edən xanım.
***Çaydagül*** (t.,f.) - çay gülü, çiçəyi; çaydakı gül, çiçək.
***Çervon*** (r.) - 5-10 manatlıq qızıl pul; 1922-47-ci illərdə SSRİ-də işlənmiş 10-luq kağız pul; u. qırmızı.
***Çeşmə//Çeşmi*** (f.) - bulaq, qaynaq; gözəllik mənbəyi.
***Çeşməgül//Çeşmigül*** (f.) - bulaq gülü, çeşmə çiçəyi.

***Çeşməxanım//Çeşmixanım*** - sevimli, nazlı xanım.
***Çeşmənaz//Çeşminaz*** (f.) - naz çeşməsi, nazı çox olan, işvəli gözəl.
***Çeşmənur*** (f.,ə.) - işıq çeşməsi, nur çeşməsi.
***Çeşməzar*** (f.) - çoxlu çeşmə olan yer, çeşməlik.
***Çeşməzər//Çeşmizər*** (f.) - qızıl çeşməsi.
***Çələng*** - gül və bitkilərdən düzəlmiş zinət, bəzək, tac.
***Çəmən*** (f.) - yaşıl ot sahəsi, çəmənlik; gözəllik.
***Çəməngül*** (f.) - çəməndə bitən gül, çəmən çiçəyi.
***Çəməni//Çiməni*** (f.) - çəmənə məxsus, çəmənə aid olan.
***Çəmənnaz*** (f.) - çəmənin nazı; çəmənin barı.
***Çəmənnur*** (f.,ə.) - çəmənin işığı, çəmənin nuru.
***Çəmənzar*** (f.) - çəmən olan sahə, çəmənlik.
***Çəmənzər*** (f.) - çəmənin qızılı; çəməndə bitən çiçək.
***Çəriyyat*** (t.,ə.) - qoşunlar, ordular.
***Çiçə*** - qədim türk dilində "çiçə"-"xala" mənasında işlənmişdir. Dialektlərdə saf, təmiz mənası da var.
***Çiçəbacı*** - bax: Çiçə; xalanın bacısı.
***Çiçəbəyim*** - bax: Çiçə və Bəyim; xalaqızı.
***Çiçəgül//Çiçigül*** – təzə, tər; təzə, tər çiçək.
***Çiçəxanım*** - xala olan xanım, xalanın xanım qızı; saf, təmiz xanım.
***Çiçək*** - gül, çiçəkləri olan bitki; zərif, gözəl.
***Çiçəkbacı*** - gül kimi bacı, çiçək kimi bacı.
***Çiçəkbəyim*** - çiçək kimi bəyim, gül kimi bəyim.
***Çiçəkbibi*** - çiçək kimi bibi, gül kimi bibi.
***Çiçəkxanım*** - çiçək kimi xanım, gül kimi xanım.
***Çiçəkxatın//Çiçəkxatun*** - çiçək kimi xatın, çiçək kimi qız.
***Çiçəknaz*** - çiçək kimi nazlı, işvəli, gözəl.
***Çiçəknur*** (f.,ə.) - çiçəyin nuru, çiçəyin işığı.
***Çiçəkzar*** (f.) - çoxlu çiçək bitən yer; çiçəklik.
***Çiçəkzər*** (f.) - çiçək kimi qızıl, çiçək kimi bəzəkli.
***Çiləbəyim*** - "çillə" (qışın böyük və kiçik çillədən ibarət olan iki ayı) sözü ilə əlaqədar olub "çillədə doğulan bəyim" mənasındadır.
***Çiləgül*** - çillə gülü, çillədə açılan gül. (Bax: Çiləbəyim).
***Çiləxanım*** - çillədə doğulan qız; çillə xanımı.
***Çilənay*** - çilən (yabanı innab, meyvə; çilənmək, nəmlənmək və s. mənalarındadır) və Ay sözlərindən düzəlmişdir.
***Çilənisə*** - çillədə doğulan nisə; çillə nisəsi.
***Çillibəyim*** - üz və bədənində çili, xalı olan bəyim.

***Çillixanım*** - üz və bədənində çili, xalı olan xanım.
***Çiməngül*** - çimən gül; çəmənlikdə bitən gül.
***Çimnaz*** (t.,f.) - çox nazlı, çox naz edən, naz içində olan.
***Çimnazbəyim*** - çax nazlı, naz edən bəyim, naz içində olan bəyim.
***Çimnazxanım*** - çox nazlı olan xanım, nazlı xanım.
***Çinənay*** (f.) – «çinə» və «nay» sözlərindən düzəlmiş, «Çin qamışı, Çin tütəyi, Çin musiqisi» deməkdir.
***Çiyələk*** - ağ çiçəkləri, çəhrayı-qırmızı rəngli ətirli meyvəsi olan çoxillik ot-bitki və bu bitkinin meyvəsi.
***Çöhrə*** (f.) - üz, surət, sima.
***Çöhrəgül*** (f.) - gül sifətli, gül üzlü.

## D

***Dalğa*** - su səthinin hərəkəti nəticəsində əmələ gələn qabarma.
***Damla*** - su və digər mayelərin girdə şəklə düşmüş kiçik hissələri.
***Danqız*** - dan qızı, səhər qızı, sübh qızı; Dan ulduzu.
***Dansu//Dansulu*** - dan (sübh) suyu; dan suyu kimi təmiz və gözəl olan qız.
***Darçın*** - darçın ağacının qabığından hazırlanan xoşiyli ədviyyə; xoşqoxulu, rayihəli.
***Daydostu//Dayıdostu*** - hörmət və nəzakət əlaməti olaraq dayı arvadına verilən ad və müraciət forması.
***Defina//Dəfinə*** (ə.) - yer altında gizlədilmiş, yaxud gizli halda qalan xəzinə.
***Dəfnə*** - ətirli yarpaqlarından yeyinti məhsullarında istifadə edilən həmişəyaşıl ağac; Qəd. yunan əfsanəsinə görə Dafna Yer allahının Çay allahından olan qızının adıdır.
***Dəmət*** (yun.) - dəstə, çiçək dəstəsi, gül buketi.
***Dəryabəyim*** (f.,t.) - dərya bəyimi; dərya kimi gözəl; dərya pərisi.
***Dəryagül*** (f.) - dərya gülü, dəniz çiçəyi.
***Dəryaxanım*** (f.,t.) - dərya xanımı, dəniz xanımı; su pərisi; gözəl.
***Dəryaxatın//Dəryaxatun*** (f.,t.) - dərya xatını; dərya gözəli.
***Dəryanisə*** - dərya nisəsi; dərya kimi gözəl.
***Dəryanur//Dəryenur*** (f.,ə.) - bax: Dəniz və Nur; dərya nuru, dəniz nuru.
***Dəstə*** (f.) - buket; tutacaq, dəstək.
***Dəstəbacı*** (f.,t.) - bax: Dəstə və Bacı; gül dəməti kimi bacı.
***Dəstəbəyim*** - bax: Dəstə və Bəyim; gül buketi kimi bəyim.

***Dəstəgül//Dəsdəgül*** (f.) - dəstə tutulmuş gül, gül dəməti.
***Dəstəxanım*** - gül dəstəsi kimi xanım; dəmət kimi gözəl.
***Dəstəqız*** - gül dəstəsi kimi qız.
***Dəstənaz*** (f.) - naz yığını, nazlı, işvəli.
***Dəstənur*** (f.,ə.) - işıq topası; nur dəstəsi; çox gözəl qız.
***Dəstəzər*** (f.) - qızıl dəstəsi, qızıl topası.
***Diana//Diyana//Diyanə*** (d.) - qədim yunan mifologiyasında Ay və ov Allahı.
***Dilaçar*** – danışar, danışmağa başlayar.
***Dilafət//Dilavət*** (f.,ə.) - ürəyi gözəl, qəlbi təmiz.
***Dilara//Dilarə*** (f.) - ürəkaçan, könülaçan; sevimli.
***Dilaram*** (f.) - ürəyi sakitləşdirən, qəlbə rahatlıq verən.
***Dilavaz*** (f.) - ürəyi oxuyan, qəlbi oxuyan.
***Dilaviz*** (f.) - ürəyəyatımlı, ruhu oxşayan, xoşagələn.
***Dilbaz//Dilbazi*** (f.) - ürəyi əyləndirən; qəlbi oynatma.
***Dilbər*** (f.) - gözəl, sevgili; ürək aparan, qəlb oğurlayan.
***Dilbəri*** (f.) - dilbərə aid olan, dilbərə məxsus olan.
***Dildadə*** (f.) - könül vermiş, aşiq, vurğun, məftun.
***Dildar//Dildar***ə(f.) - ürəkli, cəsur, igid, sevgili.
***Diləfruz*** (f.) - ürəkyandıran; gözəl, cazibəli.
***Dilənar*** (f.,ə.) - ürək odu, odlu ürək, ürəyin odu.
***Diləngül*** - istənilən gül, arzulanan, xahiş edilən gül.
***Dilənur*** (f.,ə.) - ürəyə nur verən, ürəyi nurlu.
***Dilər*** - arzular, istəyər, diləyər.
***Dilfərəh*** (f.,ə.) - ürək sevindirən, qəlb şadlandıran; istəyən, arzulayan.
***Dilfəza*** (f.,ə.) - fəza kimi geniş ürəkli, açıq qəlbli.
***Dilguşa//Dilgüşə//Dilguşad*** (f.) - ürəkaçan, könülaçan, səfalı.
***Dilistan*** (f.) - könül bağçası, ürək istəyən yer; ürək alan.
***Dilkeş*** (f.) - ürəkaçan, könülaçan, qəlbsevindirən.
***Dilli*** - dili olan; dilli-ağızlı; natiq.
***Dilnar//Dilnara//Dilnarə*** (f.,ə.) - ürəyi odlu, qəlbi atəşli; qəlbi kədərli, qəmli.
***Dilnavaz//Dilnəvaz*** (f.) - könüloxşayan, ürəyəyatan, lətif, xoşagələn.
***Dilnaz*** (f.) - işvəli danışan, naz-qəmzəli söhbəti olan.
***Dilnur//Dilnurə*** (f.,ə.) - ürəyi işıqlı, könlü nurlu; saf, təmiz.
***Dilruba//Dilrüba//Dilrubə//Dilrübə*** (f.) - məftunedici, könülalan, xoşagələn, dilbər, gözəl.
***Dilsəfa*** (f.) - ürəyində qəmi olmayan, kədərsiz.

***Dilşad//Dilişad*** (f.) - ürəyi şad, qəlbi şən.
***Dilşən*** (f.) -könlü sevincli, ürəyi fərəhli, sevincli.
***Dilzar*** (f.) - ürəkincidən, könülsındıran.
***Dina*** - q.yəh. insaf, haqq, ədalət; yun. bir qramlıq cismə bir saniyədə bir santimetr təcil verən qüvvət.
***Dolça*** - oturacağı dar, ortası nisbətən enli, ağız tərəfə doğru getdikcə daralan su qabı; bürc adı.
***Donaxanım*** - don(dan) xanımı, səhər xanımı; Günəş; parlaq, gözəl.
***Donara*** - dan ara, od(Günəş) axtar, işıq ara (Diqqət yetirilsə, fr. sözü olan "Donare" - "qan vermək, həyat bəxş etmək, od vermək" sözünün də "dan" və "od"la əlaqədar olması aydınlaşar).
***Dostu*** - Əmidostu, Dayıdostu (bax) adlarının ixtisar forması.
***Dostugül//Dostgül*** (f.) - dost gülü, dost çiçəyi, yoldaş gülü.
***Dostuxanım*** - əmi, dayı və s. dostu olan xanım; əmi və dayıarvadı.
***Döhanə//Dühanə*** (f.) - (özünün və dodaqlarının gözəlliyi ilə diqqəti cəlb edən) ağız.
***Dudu*** - Vaxtilə Türkiyədə xanım, bəyim əvəzində işlənmişdir. Lənkəran zonasında «ana» kimi müraciət forması.
***Dunaybəyim*** - Dunay kimi gözəl bəyim; cazibədar gözəl qız.
***Dunayxanım*** - Dunay kimi gözəl xanım; çox gözəl qız.
***Durxanım*** - duran, qalan, yaşayan xanım.
***Durna*** - köçəri quş; başqa yurda köçəsi.
***Durnabəyim*** - bax: Durna və Bəyim; durna kimi bəyim.
***Durnaxanım*** - Durna xanım; durna kimi xanım.
***Durnaxatun//Durnaxatın*** - bax: Durna və Xatın; durna kimi xatın.
***Dünya*** (ə.) - aləm, kainat.
***Dünyabəyim*** - dünyanın bəyimi, aləmin gözəli.
***Dünyaxanım*** (ə.,t.) - bax: Dünya və Xanım; dünya xanımı, dünya gözəli.
***Dünyasəda*** (ə.) - dünyanın avazı, kainatın səsi.
***Dünyazər*** (ə.,f.) - dünya zəri; dünya zəri kimi qiymətli və gözəl qız.
***Dürdanə*** (ə.,f.) - dürr dənəsi, inci dənəsi.
***Dürəfşan*** (ə.,f.) - dürr saçan, inci saçan.
***Dürəngiz*** (ə.,f.) - dürr, inci saçan, səpən; dürlü, incili.
***Dürxanım//Dürrəxanım*** (ə.,t.) - dürr kimi xanım, inci kimi xanım.
***Dürnisə*** (ə.) - dürr kimi qadın(lar), inci kimi qız(lar).
***Dürrə*** (ə.) - inci, dürr; əziz, istəkli, sevimli.

***Dürrəbəyim*** (ə.,t.) -  inci, dürr kimi bəyim; inci, dürr kimi gözəl və qiymətli qız.
***Dürrət*** (ə.) - "Dürrə"nin (bax) cəmi.
***Dürrü//Dürriyyə//Düriyə//Düriyyə*** (ə.,t.) - dürlü; dürrü olan.
***Dürsabah*** (ə.) - səhərin və sabahın incisi, mirvarisi.
***Dürsədəf*** (ə.) - dürr kimi sədəf (balıqqulağının iç qatından hazırlanan müxtəlif bəzək əşyaları).
***Dürsəti*** (ə.) - «dürr» (inci, mirvari) və «səth» (üz, üst tərəf) sözlərindən düzəlmiş və inci üzlü, inci kimi gözəl sifətli qız» mənasındadır.
***Dürtəkin*** (ə.,t.) - dürr-inci kimi əziz və sevimli.
***Düşəri*** - gəlişi uğurlu olan, xoşbəxtlik gətirən.
***Düşvar//Düşvarə//Düşvər*** (ə.) - çətin, müşkül.
***Düymə*** - paltarları ilmələmək üçün sümükdən, metaldan qayırılan yuvarlaq əşya; qönçə, tumurcuq.

## ∞ E ∞

***Efira*** (yun.)- havanın ən təmiz və şəffaf təbəqəsi; hava; fəzanı dolduran işıq; çox gözəl qız.
***Efra//Əfra*** (f.) – ucaldan, yüksəldən; şümşad boylu; ağcaqayın ağacı.
***Ela//Ella*** (q.y.) - «İlahi! Ey Allah; güclü; palıd, bərk ağac.
***Elafət*** - elin gözəli, elin dilbəri.
***Elana*** - el anası; el anası ola biləcək gözəl qız.
***Elaza//Elazə*** (i.) - Mənim Allahıma and olsun!
***Elba*** (sankskrit.) - çay; axın; açıq rəngdi su.
***Elbəniz*** - elin, xalqın üzü, el bənizli; xalqa bənzər gözəl.
***Elbəzər*** - eli bəzər, eli bəzəyən.
***Elbikə*** - elin bikəsi, xalqın qızı.
***Elçiçək*** - elin çiçəyi, elin gülü.
***Elda*** - bax: Yelda.
***Eldəgül*** - eldə gül olan; elin gülü.
***Elduzə*** (t.,f.) - eli, xalqı yandıran.
***Elegiya*** (yun.) - qəmli, kədərli, hüzünlü lirik şeir. (Oğlan həsrətində olan valideynlər qız olanda bu addan istifadə edirlər).
***Elenora//Eleonora//Elyanora//Elyanura*** (ital.) - yun. şəfqət, mərhəmət; y.Allah mənim nurumdur.
***Elfira//Elfirə*** (t.,ə.) - əslən "vir" (kişi, insan) sözündən yaranmış, "qadın, qız" mənasındadır; elin ulduzu; elin işığı, odu.

***Elginarə//Elgünara//Elgünarə*** - elin gününü bəzəyən, elin bəzəyi olan elsevər.
***Elginay*** - elini sevən Ay, el vurğunu olan Ay; el gözəli.
***Elgül*** - elin gülü, elin çiçəyi.
***Elgülnarə*** (t.,ə.) - el narının gülü; elin ən gözəl qızı.
***Elgünay*** - elin Günəşi və Ayı; elin ecazkar gözəli.
***Elxanım*** - elin xanımı, xalqın xanımı.
***Elida*** (yəh.) – «iliada» sözündən olub, «seçilmiş, seçilməyə hüququ olan» deməkdir.
***Elizaveta*** (q.y.) - «Yelizaveta»dan düzəlmiş, «İlahi! Ay Allah! Allaha dua edirəm» deməkdir.
***Ellada*** (yun.) - ellinlərin vətəni (qədim Yunanıstanın adı).
***Elmaya//Elmayə*** - elin mayası; el gözəli.
***Elmina//Elminə*** - elin minası, elin bülluru.
***Elminaz//Elmnaz*** - el üçün mini də azdır, el üçün az olan; elmi-naz (“naz-qəmzə” elmi).
***Elnamə*** (t.,f.) - elə məxsus əsər; elə məxsus qız, el qızı.
***Elnaz//Elnazə*** - elin nazı, elə naz edən.
***Elsona*** - elin sonası, elin yaşılbaş ördəyi; el gözəli.
***Elsu*** - «el» və «su» sözlərindən düzəlmiş «elin suyu» mənasındadır; elin xoşbəxtliyindən xəbər verən.
***Elsurə*** (t.,ə.) - Eldar(ata) və Surə(ana) adından düzəldilmişdir; elin bir parçası.
***Eltac//Eltacı*** (t.,f.) - elin tacı; elin başçısı; elin əzizi.
***Elvira//Elvirə//Elfira*** (is.) - hamının hamisidir, müdafiəçisidir; yeni səhər.
***Elya*** (yun.) - ulduz; gözəl qız.
***Elyana//Elyanə*** - eldən ötrü, el üçün.
***Elyaz*** - elin baharı, elin yazı; elin sevinci.
***Elza*** (l.) - axirət, o biri dünya; Cənnət; «İlahi! Ay Allah!; əhd, peyman.
***Ema/Emma*** (l.) - mehriban, həlim, yumşaq; qiymətli, dəyərli.
***Enarə*** - bax: İnar, İnarə.
***Esfira//Esfirə*** - “Sitarə” (ulduz) sözünün yəhudi dilində dəyişdirilmiş forması; yun. ulduz; ə. sarı; hami, qəyyum; həyəcan.
***Esmira//Esmirə*** - "Esmiralda" adının qısaldılmış forması.
***Esmiralda*** (r.əsli ispancadan) - zümrüd; yaşıl rəngli qiymətli daş.
***Estella*** (l.) - ulduz.
***Evdəgül*** - evdə gül olan, evin gülü.

***Eyzangül//Eyzəngül*** (ə.,f.) - tamamilə gül, başdan-başa gül.
***Eyzən*** (ə.) - bir daha, həmçinin, bənzər, oxşar.
***Eyzənqız*** - Yenə qız! Bir daha qız!

## ∞ Ə ∞

***Əbabil*** (ə.) - dağ qaranquşu, uzunquyruq.
***Əbixanım//Əbxanım*** - böyük xanım, baş xanım (bax: Abı).
***Əbru*** - farsca qaş; bulud, qara bulud mənasındadır, lakin müxtəlif türk dillərində «qumaş parça, dəmir lövhə, mərmər üzərindəki naxışlar» mənaları da vardır.
***Əcəb*** (ə.) - təəccüblü, qəribə; füsunkar, qeyri-adi.
***Əcəbgül*** (ə.,f.) - təəccüblü gül, qəribə gül.
***Əcəbnaz*** (ə.,f.) - qəribə, ədalı, füsunkar, nazlı (qız).
***Əcəbnisə*** (ə.) - qəribə, qeyri-adi, gözəl, füsunkar gözəl qız.
***Əcəbnur*** (ə.) - heyrət doğuran işıq, qəribə parıltı.
***Əcəbzər*** (ə.,f.) - qeyri-adi qızıl; gözəl, qəşəng qız.
***Əfafə*** - bax: İffət.
***Əfayət*** (ə.) - yaraşıqlı bənizi, gözəl üzü olan qız.
***Əfidə*** (ə.) - qəlblər, könüllər.
***Əfiqə*** (ə.) - səyyah (Ən böyük səyyah Günəşdir); macəraçı (bax: Afiq).
***Əfra*** (f.) - ağcaqayın(ağacı); şümşad boylu, uca boylu.
***Əfrabəyim*** (f.,t.) - uca və şümşad boylu bəyim; gözəl qız.
***Əfraxanım*** (f.,t.) - uca və şümşad boylu xanım; ucaboy gözəl.
***Əfraxatın//Əfraxatun*** (f.,t.) - uca və şümşad boylu xatın; ucaboy xatun.
***Əfruz//Əfruzə*** (f.) - işıqlandıran, yandıran; çox gözəl; odlu, işıqlı.
***Əfşan//Əfşanə//Əvşan//Əvşanə*** (f.) - saçan, səpələyən, səpən.
***Əfsarə//Əfsərə*** (ə.) - tac, bəzəkli papaq.
***Əhiyyə*** (ə.) - əhya, dirilmə, canlanma, oyanma; türk, comərd, səxavətli.
***Əhligül*** (ə.,f.) - gül əhli, gül adamı; çox gül sevən.
***Əhlinaz*** (ə.,f.) - naz əhli, naz edən, nazlı.
***Əhliyə//Əhliyyə//Əhliyat//Əhliyyət*** (ə.) - ləyaqət, iqtidar, etibarlılıq, səlahiyyət.
***Əhya*** (ə.) - dirilmə, canlandırma, oyatma; canlanma, oyanma.
***Əhyabəyim*** (ə.,t.) - həyat verən, can verən bəyim; gözəl qız.
***Əhyaxanım*** (ə.,t.) - həyat verən, can verən xanım; qeyri-adi gözəl qız.
***Əxtər*** (f.) - ulduz; tale, bəxt.

***Əqdəs*** (ə.) - ən müqəddəs; daha müqəddəs.
***Əqidə*** (ə.) - etiqad, məslək.
***Əqiq//Əqiqə*** (ə.) – qiymətli daş-qaş, aqat.
***Əla*** (ə.) - ən yaxşı, ən yüksək, olduqca yaxşı.
***Əlabəyim*** (ə.,t.) - ən yaxşı bəyim, ən gözəl bəyim.
***Əlaxanım*** (ə.,t.) - ən yaxşı xanım, olduqca gözəl xanım.
***Əlamət*** (ə.) - hər hansı nişan, işarə.
***Ələstə*** (ə.) - bəşərin yaradılışının başlanğıcı.
***Ələviyyə*** (ə.) - Əli tərəfdarı; yüksək, ali; səmavi.
***Əlfinaz*** (ə.,f.) - naz ilə ülfət bağlayan; nazlı dost.
***Əlfiyyə//Əlfiyyət*** (ə.) - ülfətli, dost olan qız; ülfətli dostlar.
***Əlimə*** (ə.) - dərdli, kədərli.
***Əlmayə*** (ə.f.) - yüksək sərmayə, karital; Əli sərmayəsi.
***Əlvanbəyim*** (ə.,t.) - müxtəlif rəngli; rəngarəng bəyim.
***Əlvangül*** - müxtəlif rəngli; rəngarəng gül.
***Əlvanxanım*** - müxtəlif rəngli; rəngarəng xanım.
***Əlvida*** (ə.) - sağollaşma, vidalaşma.
***Əlvinə*** - bax: Elvina.
***Əmalə//Əmaylə*** (ə.) - əməllər, işlər.
***Əmanəxanım*** (ə.,t.) - yardım edən xanım.
***Əmanət*** (ə.) - bir şeyi müvəqqəti olaraq başqasına tapşırma, vermə.
***Əməl*** (ə.) - işləmə, icra etmə; arzu, istək, dilək.
***Əməlbəyim*** (ə.,t.) - arzulanan, istənilən bəyim.
***Əməlgül*** - istənilən gül, arzu olunan gül.
***Əmidostu//Əmdostu*** - əminin dostu; əmi arvadlarına edilən müraciət forması.
***Əminət*** (ə.) - rahatlıq, asayiş, əmin-amanlıq.
***Ənbər*** (ə.) - gözəl iy, ətir, xoş rayihə (Balinanın ifrazatından alınan xalis ətir).
***Ənbərgül*** (ə.,t.) - gözəl iyli gül, ətirli gül, qeyri-adi gözəl.
***Ənbərxanım*** (ə.,t.) - gözəl iyli xanım, xoş rayihəli xanım.
***Əntiqə//Ətiqə//Əttiqə*** (ə.) - qədimdən qalma; qiymətli, nadir tapılan.
***Ərdənay*** - toxunulmamış Ay; saf, təmiz, gözəl qız.
***Ərəfə*** (ə.) - on gün; bayramdan əvvəlki gün; əvvəl, qabaq.
***Ərəngül*** - yetkin gül, təcrübəli qadın.
***Ərəstə*** (f.) - bəzəkli, bəzənmiş; nazir.
***Ərəsün*** (ə.) - meydan, sahə, döyüş meydançası.
***Ərki*** - ərkə məxsus; ərk edən.

***Ərkinaz//Ərginaz*** (t.,f.) - ərklə naz edən, ərklə nazlanan.
***Ərus*** (ə.) - gəlin, nişanlı.
***Əruziyyə*** (ə.) –«əruz» sözündən olub, «ölçü, vəzn» deməkdir.
***Əsbat//Əsbət*** (ə.) - “sibt”in (nəvə, nəsil, nəsil budağı) cəmi.
***Əsən*** - sağlam; uğurlu.
***Əsfira*** (ə.) - sarı rəng; hami, qəyyum; həyəcan ( bax: Əsfira).
***Əsgiyar*** (ə.,f.) - köhnə dost, qədim yoldaş, yoldaş.
***Əsibə*** (f.) - cərimə; fəlakət, müsibət; zərər, ziyan.
***Əsil*** (ə.) - əsilli, köklü; əsli-kökü olan.
***Əsilbəyim//Əslibəyim*** (ə.,t.) - əsilli bəyim, nəcabətli bəyim.
***Əsilxanım//Əslixanım*** (ə.,t.) - əsilli xanım, nəcabətli xanım.
***Əsiyyə//Əsiyyət*** (ə.) - əsilli, nəcabətli.
***Əskinaz//Əsginaz*** - köhnə naz, keçmiş naz.
***Əslayə*** (ə.) - hüquqi ayə.
***Əsli*** (ə.) - əsas, başlıca; ilk, qədim, mənbəyi; özülü, nəsli, mənşəyi; saf və təmiz.
***Əslizər*** (ə.,f.) - həqiqi qızıl, təməli, özülü qızıl.
***Əsligül*** (ə.,f.) - əsli gül olan, gül nəslindən olan; təmiz nəsilli.
***Əsma//Əsmayə//Əsmayı*** - bax: Səmayə. Vaxtilə dilimizdə işlənən «əs» və ya «is» (ağıl, zəka; ədəb, tərbiyə, əxlaq, asta, ağır) və «maya» sözlərindən yaranmış, «ağıl cövhəri, zəka mayası, sağlam maya; xalis cövhər, saf maya» mənasında işlənir.
***Əsməd//Əsmət*** - bax: İsmət.
***Əsməgül*** - əsən gül, titrəyən çiçək; narahat olan.
***Əsmənur*** - titrəyən işıq, oynayan parıltı.
***Əsmər*** (ə.) - qarabuğdayı, qarayanız.
***Əsmət*** - bax: İsmət; nöqsansız, ismətli.
***Əsmira*** (is.) - zümrüd; bax: Esmira.
***Əsnayə//Əsnayı*** (ə.) - vaxta aid, zamana məxsus.
***Əsra*** (ə.) - daha tez, daha sürətli, çox tələsik.
***Əsrar//Əsrarə*** (ə.) - sirlər; dərk edilməmiş; müəmmalı.
***Əşrəfbacı*** (ə.,t.) - ən şərəfli bacı, ən şərafətli bacı, ən əziz bacı.
***Əşrəfxanım*** (ə.,t.) - ən şərəfli xanım, ən şərafətli xanım.
***Əşrəfiyyə*** - bax: Əşrəf.
***Ətayə//Ətiyyə*** (ə.) - pay, bəxşiş, hədiyyə.
***Ətifə*** (ə.) - əymə, çevirmə; yönəltmə.
***Ətiqə*** (lat.) - «antiqus» sözündən olub, qədim zamanlardan qalma heykəl, metal əşya və s.; qiymətli, dəyərli, nadir tapılan.

***Ətir//Ətirə*** (ə.,f.) - gözəl qoxu, xoş qoxu; rayihə.
***Ətirgül*** (ə.,t.) - ətirli gül, çiçək; ətir saçan gözəl.
***Ətirşah*** (ə.,f.) - xoş iyli yarpaqları olan çiçək.
***Ətlaz*** - bax: Atlaz.
***Ətrabə//Ətrubə*** (ə.,f.) - ətir suyu; ətirli su.
***Əzəlnur*** (ə.) - ilk nur, işıq.
***Əzəmət*** (ə.) - böyüklük, ululuq; dəbdəbə, təntənə.
***Əzət*** - "İzzət"(bax) adının dəyişdirilmiş forması; əzəmət, əzəmətli.
***Əzimət*** (ə.) - niyyət, məram; köç, səfər.
***Əziyyət*** (ə.) - məşəqqət, əzab, cəfa.
***Əzizbəyim*** (ə.,t.) - sevimli bəyim, istəkli bəyim , sevimli qız.
***Əzizbikə*** (ə.,t.) - sevimli bikə, istəkli bikə, əziz qız.
***Əzizgül*** - əziz, mehriban, istəkli gül.
***Əzra*** (ə.) - bakirə(qız); dəlinməmiş inci.

## ꕤ F ꕤ

***Fabiyə*** (l.) - nəsil Adı; paxlava, lobya.
***Faimə*** (ə.) - məşhur, tanınmış.
***Faina//Fainə*** (yun.) - parlaq, şəfəqli.
***Fairə*** (ə.) - od kimi; cəld.
***Faizə//Faizət*** (ə.) - borc, ödənc olaraq verilən pulun girə qarşılığı.
***Faizəxanım*** (ə.,t.) - borclu xanım, faizli xanım.
***Fakihə*** (ə.) - şad günlər; meyvə, bəhrə, məhsul; hüquqçu şəriət alimi.
***Fakiyə*** (ə.) - qiymətli söz danışan qadın.
***Faqimə*** (ə.) - qavrama; intellekt; böyük.
***Fani*** (ə.) - çox zəif, gücdən düşmüş; taqətsiz.
***Fanila*** (fr.) - toxunma isti köynək.
***Faribə*** (ə.) - gözəl, valehedici.
***Fasilə*** (ə.) - işin, fəaliyyətin müvəqqəti dayandırılması; işin, fəaliyyətin müvəqqəti dayandırıldığı vaxt.
***Fatı*** – q.türk dillərində «ağıllı, bacarıqlı, çoxbilmiş, zirək» (qadın) mənasında işlənir.
***Fatihə*** (ə.) - giriş, başlanğıc; "Quran"ın ilk surəsi.
***Fatikə*** (ə.) - azad edilmə, buraxılma.
***Fatiqə*** (ə.) - yaran, sındıran, doğrayan, ikiyə bölən; azadlıq.
***Fatimə//Fatimət//Fatimat//Fatimi//Fatma*** (ə.) - süddən kəsilmiş, döşdən ayrılmış; t. qız, gəlin, qadın.

***Fatmaxanım*** (ə.,t.) - Fatma xanım; xanım Fatma.
***Fatmanisə*** – bax: Fatı, Fatma və Nisə.
***Faya*** (fr.) - ipək və ya yun parça.
***Fazilət//Fəzilət*** (ə.) - fəzilətli, ləyaqət; bilik, mərifət.
***Feyzanə*** (ə.) - bolluq anı; ləzzət zamanı.
***Feyzə*** (ə.) - nemət, bolluq, bərəkət; elm, mərifət.
***Fədaqət*** (ə.) - qurban kəsmə.
***Fədayət*** (ə.) - qurbanlar; fəda edənlər.
***Fəhmidə*** (ə.,f.) - anlaqlı, zəkalı, düşüncəli.
***Fəxrəndə*** (f.) - uğurlu,xoşbəxt; mübarək.
***Fəxrənsə//Fəxrənisə*** (ə.) - təriflənməli qadın, qadın öyünülməli, nümunəvi olan qadın.
***Fəxrəntac//Fəxrintac*** (f.) - fəxrə layiq tac, fəxr edilməli tac.
***Fəxrican*** (ə.,f.) - şərəfli adam, möhtərəm sevgili, əziz adam.
***Fəxridə*** (f.) - hörmətli, möhtərəm; şərəfli.
***Fəxrigül*** (ə.,f.) - fəxri gül, ehtiram gülü.
***Fəxrinaz// Fəxrnaz*** (f.) - fəxrlə naz edən, fəxrlə nazlanan.
***Fəxriyyə*** (ə.) - özünüöymə; klassik şeir növü. (bax: Fəxri).
***Fəxriyyət (ə.) -*** hörmət; şöhrət.
***Fəqamət (ə.) -*** böyüklük, əzəmət; ad-san, əsillik; anlama.
***Fəqannisə (f.,ə.)*** - fəryadlı, naləli qadın.
***Fəqilə*** (ə.) - iş, fəhlə; həvəskar; elmli, savadlı.
***Fəqumə*** (ə.) - böyük cəlallı, şanlı, şöhrətli.
***Fənar//Fənarə*** (yun.) - ətrafı işıqlandıran, işıq saçan.
***Fənilə*** (ə.) - elmli, təhsilli.
***Fənirə//Fənurə//Fanurə//Fanirə (yun.)*** - təhsilli, bilikli, savadlı.
***Fənuzə*** (ə.) - işıqlandıran, mayak.
***Fənzilə*** (ə.) - təhsilli, bilikli, savadlı.
***Fəraid*** (ə.) - “fəridə”nin cəmi; az tapılan incilər.
***Fəraiz*** (ə.) - islam dini hüququnun bir sahəsi.
***Fəraq*** (ə.) - ayrılıq, hicran, firqət.
***Fəramuş*** (f.) - unutma, unudulmuş, yaddan çıxmış.
***Fəray//Fərayə*** - Ayın işığı, Ayın parlaqlığı, Ayın bəzəyi.
***Fərayət*** - «Ayın işığı» sözünün cəmi.
***Fərcan//Fərcanə*** - işıqlı qız, parıldayan qız; qeyri-adi gözəl.
***Fərdinə*** (ə.) - bir şəxsə mənsub; təkbaşına.
***Fərə*** - cavan toyuq; kəklik.
***Fərəh*** (ə.) - şadlıq, sevinc, sevincəklik.

***Fərəhbanı//Fəhrəbanu//Fərabanu//Fərəbanu*** (ə.,f.) - şadlanan xanın, sevincli xanım.
***Fərəhbəyim*** (ə.,t.) - fərəhlənən, sevinən bəyim.
***Fərəhgül*** - fərəh gətirən gül, fərəh,sevinc bəxş edən gül.
***Fərəhxanım*** (ə.,t.) - şadlanan, sevinən xanım.
***Fərəhnaz*** (ə.,f.) - fərəhlə naz edən, sevinclə nazlanan.
***Fərəhnur*** (ə.) – fərəhin, sevincin nuru, işığı, ziyası.
***Fərəhşan*** (ə.,f.) - sevinc saçan, fərəh paylayan.
***Fərəhza*** (ə.,f.) - sevinc doğuran, şadlıq yaradan.
***Fərəhzər*** (ə.,f.) - «fərəh» və «zər» sözlərindən düzəlmiş, «fərəh, sevinc şəfəqi» deməkdir.
***Fərəngiz*** (ə.,f.) - fərəhverici, sevindirici.
***Fərxəndə//Fərxundə*** (f.) - xoşbəxt, bəxtiyar, uğurlu.
***Fərihə*** (ə.) - sevincli, fərəhli, xoşbəxt, sevinc, fərəh.
***Fəriqə*** (ə.) - ayıran, ayrıcı, fərqləndirən.
***Fəriştə*** (f.) - mələk, məlaikə; çox gözəl, qəşəng; mülayim təbiətli.
***Fərizad*** (f.) - pəri övladı, pəridən doğulmuş; gözəl.
***Fərqa*** (ə.) – fərq, təfavüt; ayırma, seçmə.
***Fərqanə*** - Özbəkistan şəhərlərindən birinin adındandır (bax: Fərqan).
***Fərqiyə//Fərqiyyə*** (ə.) - ayrılan, fərqlənən, seçilən; anlayan, dərk edən.
***Fərmayiş*** (f.) - buyuruq, əmr, tapşırıq.
***Fərrin*** (f.) - xoşbəxt, bəxtəvər.
***Fəsanə*** (f.) - əfsanə, nağıl, fantaziya, uydurma.
***Fəsilə*** (ə.) - dəstə, tayfa, zümrə.
***Fəslicahan*** (ə.,f.) - cahanın fəsli, dünyanın fəsli.
***Fəsligül*** (ə.,f.) - gül fəsli, çiçək fəsli.
***Fətihə*** (ə.) - asan; təqdim edən, verən.
***Fəturə*** (ə.) - orucluqda iftar açan dindarların yeməməyi.
***Fəvranə*** (ə.) - fontan, fəvvarə vurma.
***Fidan//Fidanə*** - pöhrə, cavan budaq, gənc, incə, uzunboylu.
***Fidangül*** - gül fidanı, gül ağacı.
***Fiday*** (ə.) - fədakar, çalışqan, qeyrətli.
***Fiqumə*** (ə.) - «Quran» ayəsi.
***Fiqurə*** (l.) - bədən, qədd-qamət, boy-buxun, xarici görünüş.
***Filyar*** - f. fili sevən, filin dostu; pulpərəst; fr. nazik ipək parça; həmin parçadan burun dəsmalı.
***Firavan*** (f.) - zəngin; rahat.

***Firayə*** - Ay işığı ("fir" - "Günəş, od, ocaq" mənasında olan "pir" sözünün farslaşmış forması; "pir" isə Günəş, Ay, Tanrı sözləri ilə əlaqədar olan "bir" sözü ilə eyni kökdəndir).
***Firazə*** (f.) - yoxuş, hündür yer; yayılmış; yuxarı; çəkinin azalması.
***Firəngiz*** (f.) - işıq saçan, nur səpələyən; nurlu, işıqlı.
***Firəngül*** (f.) - Firəng gülü; firəngli qız.
***Firuzə*** (f.) - göyrəngli qiymətli daş; çox gözəl (bax: Firuz).
***Firuztac*** (ə.,f.) - qələbə tacı; firuzədən olan tac.
***Firzət*** (f.,ə.) - daş-qaşla bəzənmiş qız.
***Fitnə*** (ə.) - qurğu, hiylə; məkrli, kinli, ədavətli.
***Fitnət*** (ə.) - zehin açıqlığı, tez qavrama.
***Fiturə//Füturə*** (ə.) - boşalma, süstlük; usanma, bezmə.
***Fizurə*** (ə.) - bax: Firuzə.
***Fizzə*** (ə.) - gümüş, gümüş pul.
***Flora*** (l.) - bitkilər aləmi; nəbatat (Bahar və güllər ilahəsi).
***Florida*** (l.) - ABŞ-da düzənlik və ştat adındandır.
***Füruzan*** (f.) - aydın, parlaq, işıqlı.
***Füsun//Füsunə*** (f.) – «əfsun» sözündəndir və «ovsun, sehr; işvə, naz» deməkdir.
***Füsunkar*** (f.) - valehedici, məftunedici, heyranedici, əfsanəvi.
***Füzulət*** - bax: Füzuli; hər şeyi öyrənməyə çalışmaq.

**G**

***Gaviyə*** (ə.) - güclü, qüvvətli qız.
***Gəlin*** - toyu edilən, yeni ailə quran qız.
***Gəlinbacı*** - gənc gəlinə qohumları tərəfindən verilən ad.
***Gəlingül*** - gəlin güldür; gül kimi gəlin.
***Gəlinxanım*** - gənc gəlinə müraciət forması.
***Gənçay*** - yeni görünən Ay; gözəl, qəşəng.
***Gəncəbani//Gəncəbanu*** - Gəncə banusu; Gəncə gözəli.
***Gəncəxanım*** - Gəncə xanımı, Gəncə gözəli.
***Gərəkməz*** - gərək olmaz; daha qız gərək deyil.
***Gilanaz//Gilənaz*** - nazlanan gilə, nazlı gilə.
***Gilanə*** - Azərbaycanın eyniadlı çay və şəhərinin adındandır.
***Gilas*** - müxtəlif rəngli növləri olan çəyirdəkli şiringilə meyvə.
***Gilavar//Giləvar*** (f.) - cənubdan əsən külək, cənub küləyi.
***Gilə*** - gilənar meyvələrinin dənəsi.
***Giləbacı*** - bir nəfər bacı, gilə kimi bacı.

***Giləbəyim*** - gilə kimi bəyim, gilə kimi gözəl.
***Giləxanım*** - bir nəfər xanım, gilə kimi xanım.
***Giləxatın//Giləxatun*** - bir nəfər xatun, gilə kimi xatun.
***Gilənar*** - ağ və ya çəhrayı çiçəkləri, ətli və çəyirdəkli meyvə, bu meyvənin ağacı.
***Gilənaz*** (t.,f.) - gilə kimi nazlı; nazlı gilə kimi qız.
***Gilənur*** - nur giləsi, işıq zərrəsi, işıq dənəsi.
***Giləzər//Gilazər*** - qızıl dənəsi, qızıl giləsi.
***Görgün*** - görməli, baxmalı, diqqətəlayiq.
***Gövhər//Göhər*** (f.) - inci, daş-qaş, cəvahir; çox qəşəng.
***Gövhərbəyim*** - gövhər kimi bəyim, gövhərə bənzər qız.
***Gövhərtac*** (f.) - gövhərlə (cəvahirlə) bəzədilən tac.
***Göycə//Göyçə*** - göy təhər, göyə bənzər; Göycə gölü (mahalı).
***Göyçək*** - gözəl, qəşəng, xoşagələn.
***Göyçəgül*** - gözəl, qəşəng gül.
***Göyçəkxanım*** - gözəl, yaraşıqlı xanım.
***Göyərçin*** - yarımyabanı, yarıməhliləşmiş yaraşıqlı quş; rəmzi mənası: sülh.
***Göygöz*** - gözləri göy olan, gözügöy.
***Gözəl*** - göyçək, qəşəng, xoşagələn, göz oxşayan.
***Gözəlbəyim*** - gözəl bəyim, çox qəşəng qız.
***Gözəlçə*** - "gözəl" sözünün kiçiltmə və əzizləmə forması.
***Gözəlgəlin*** - gözəl gəlin, gözəl, cazibədar qız.
***Gözəlgül*** - gözəl gül, çiçək; gözəl və yaraşıqlı qız.
***Gözəlxanım*** - qəşəng, yaraşıqlı xanım.
***Gursel*** - güclü sel, coşğun çay; çılğın.
***Gurşad//Gürşad*** - çox bərk və sürətlə yağan yağış.
***Guşvar//Güşvar//Guşvarə//Güşvarə//Guşbər//Güşbər//Güşvər*** (f.) - sırğa; öyüd, nəsihət.
***Gülab//Gülabə*** (f.) - qızılgüldən alınan ətirli maye, gül suyu.
***Gülabi*** (f.) - gül suyu; abı gül, böyük gül.
***Gülacan*** - gülə can verən gözəl qız; çox gözəl.
***Gülaçan//Gülaçar*** - açılan gül, gül kimi açılan gözəl.
***Gülafat//Gülafət//Gülafə*** (f.,ə.) - gül və çiçək kimi gözəl; cəlbedici gül.
***Gülafər//Gülafir*** (f.) - yaradanın gülü, bəyənənin gülü.
***Gülağız*** - gül kimi ağzı olan; gül kimi açılmış;
***Gülal//Gülalə*** - gül al, al qırmızı gül; gözəl qız.
***Gülana//Gülanə*** - gül, ana! sevin, ana! gül kimi ana.

***Gülar//Gülara//Gülarə*** (f.) - çiçək ilə bəzədilmiş, güllə bəzəyən.
***Gülaram*** (f.) - çiçəklə ram edilən, güllə sakitləşdirilən.
***Gülarzu*** - gül kimi arzu; gül arzusu, arzulanan gül.
***Gülatəş*** - gül kimi atəş-od; atəş kimi açılmış gül.
***Gülavaz*** (f.) - səsi gül kimi olan, çiçək səsli.
***Gülavər*** (f.) - gül gətirən, gül gətirici.
***Gülavuş*** (f.) - «gülapuş»un təhrif forması; gülab qabı.
***Gülay//Gülayə*** - çiçək ayı; gül kimi Ay; gülən Ay; şən gözəl.
***Gülayaz*** - təmiz, açıq, ləkəsiz gül; soyuq gül.
***Gülayət*** - gül ayları, gül kimi Ay; gülərüz gözəl.
***Gülayişə*** (f.,ə.) - gül kimi Ayişə; gözəl qız.
***Gülazə*** (f.,ə.) - gül, çiçək arzusu; arzu çiçəyi.
***Gülazər//Güləzər*** (f.) - gülə zər olan, gülə qızıl olan.
***Gülbacı*** - çiçək kimi bacı; sevincli bacı.
***Gülbadam*** (f.) - badam ağacının çiçəyi, badam gülü.
***Gülbadə*** - gül badəsi; güldən hazırlanmış içki; sevinc gətirən qız.
***Gülbağça*** – «gül» və «bağça» sözlərindən düzəlmiş, «güllük, gül bağı, gülüstan» deməkdir.
***Gülbahar//Güliyaz//Gülyaz*** (f.) - bahar gülü, yaz gülü.
***Gülbanə//Gülbani//Gülbanu*** - gül kimi banu, çiçək kimi xanım.
***Gülbar//Gülbarə*** (f.) - gül odu, gül ocağı; qırmızı gül.
***Gülbaz*** (f.) - gül əkməyi, becərməyi, gülü çox sevən adam.
***Gülbədən*** (f.,ə.) - bədəni gül kimi, gözəl və ətirli olan.
***Gülbəxt*** (f.) - bəxti gül kimi yaxşı olan.
***Gülbən*** - gül xal, gül kimi xalı olan.
***Gülbənd*** - gül dəstəsi, bağlanmış gül; qeyri-adi gözəl.
***Gülbəndə*** (f.) - gül bağlaması; boyun bağı.
***Gülbəniz*** (f.) - üzü gül kimi olan, çiçək kimi gözəl; gülbəniz.
***Gülbənövşə*** - bənövşə gülü kimi gözəl .
***Gülbər*** (f.) - « gül» və «bərg» sözlərindən olub «gül yarpağı» deməkdir.
***Gülbəs//Gülbəsdi//Gülbəsti//Gülbəz*** - gül bəsdir; qız kifayətdir; daha qız lazım deyil.
***Gülbəsər*** – «gül» və «bəsər» (göz, görmə) sözlərindən düzəlmiş, «gülə oxşar, gül kimi  görünən» deməkdir.
***Gülbətin*** - gül bətni; güldən törənmiş; gül xislətli.
***Gülbəyan*** (f.,ə.) - bəyan edən gül, anladan gül.
***Gülbəyaz*** (f.,ə.) - ağ gül, bəyaz çiçək.
***Gülbəyim*** - gül kimi gözəl bəyim.

***Gülbəzər*** - gül bəzəyər, gül kimi bəzəyən qız; qeyri-adi gözəl.
***Gülbibi*** - gül kimi qəşəng bibi.
***Gülbikə*** - gül kimi xanım, gülə bənzəyən qız.
***Gülbirçək*** - gül birçəkli, gül kimi birçəyi olan, gözəl saçlı.
***Gülbiyə//Gülbiyyə*** (f.,ə.) - ağ gül, bəyaz çiçək.
***Gülbudaq*** - gülün budağı; gül budağı kimi gözəl.
***Gülbuta//Gülputa//Gülbitə*** - gül qönçəsi, hələ açılmamış gül; yeniyetmə.
***Gülcahan*** (f.,ə.) - cahanın gülü; dünya gözəli.
***Gülcamal*** (f.,ə.) - camalı gülə bənzəyən; gözəl, göyçək.
***Gülcan//Gülcanı*** (f.) - gül ruhu, gül ürəyi; gül sevən, gülcanlı.
***Gülceyran*** - gül kimi ceyran, gül rəngli ceyran; qeyri-adi gözəl.
***Gülcənnət//Gülbehişt*** (f.,ə.) - Cənnət gülü, Behişt gülü; mələk kimi gözəl.
***Gülçarə*** (f.) - çarə edən gül, əlac edən gül, tədbir görən gül.
***Gülçay*** (f., çin.) - çay gülü, çay çiçəyi; çay çiçəyi kimi qız.
***Gülçəmən//Gülçimən*** (f.) - gül-çəmən; gülü olan çəmənlik.
***Gülçiçək*** - gülçiçək; güllük, çiçəklik.
***Gülçin*** (f.) - gül dərən, gül toplayan.
***Gülçöhrə*** (f.) - gülüzlü, üzü gülə bənzəyən; qəşəng.
***Güldanə//Güldənə*** (f.) - gül dənəsi; bircə gül.
***Güldəhan*** (f.) - gülə bənzər ağız, ağzı gül kimi olan.
***Güldən*** - güldən olan, güldən törəyən.
***Güldəniz*** - gül dənizi; dəniz gülü, dənizə bənzəyən gül.
***Güldərən*** - gül toplayan, gül yığan, çiçək dərən.
***Güldərya*** (f.) - gül dəryası; dəniz gülü.
***Güldəstə*** (f.) - gül dəstəsi, gül-çiçək dəməti.
***Güldinar*** (f.,ə.) - gül kimi qızıl pul vahidi; gül kimi qızıl.
***Gülduzə*** (f.) - gül hazırlayan, gül becərən.
***Güldüz*** - düz gül, gül düz (mək).
***Gülerkən*** - erkən açılmış gül, tez açılan gül; şəhər.
***Gülertə*** - o biri günün gülü, çiçəyi; ertə açılmış gül.
***Güleyşə//Gülöyşə*** - meyxoş, turşaşirin (nar).
***Güləbatın//Güləbətin*** - qızıl və gümüş tellərdən və ya rəngli saplardan vurulan bəzəkli tikmə növü; incə, gözəl.
***Güləfran*** (f.,ə.) - gül qığılcımı, gül odu.
***Güləfşan*** (f.) - çiçək səpən, gül saçan, gül səpələyən.
***Güləmail*** (f.,ə.) gülə meyli olan, meyil salan; gülə əyilən.
***Gülənbər//Güləmbər*** (f.,ə.) - ənbər kimi xoşiyli çiçək, ənbər gülü.

***Güləndam//Gülandam*** (f.) - gül bədənli, gül kimi olan; eyibsiz gözəl.
***Güləndan*** - gülən dan, gülümsəyən dan; sübh vaxtı.
***Güləngiz*** (f.) - gül səpən, gül çiləyən.
***Gülənisə*** (f.,ə.) - gülə dost olan qız(lar), gülə yoldaş olan qadın(lar).
***Gülər*** - gülən, üzügülər, şən, şad, mehriban.
***Gülərza*** (f.,ə.) - gül ölkəsi, gül, çiçək yeri, məkanı.
***Güləsər*** (f.,ə.) - gül kimi təsir edən; gül əsər; gözəl övlad, qəşəng uşaq.
***Güləsmər*** - gül kimi Əsmər (bax), gülə bənzər Əsmər.
***Güləsmət*** (f.,ə.) - günahsız, ismət gülü, ismətli gül.
***Güləşnaz*** – «güləş» və «naz» sözlərindən düzəlmiş, «üzügülər, şən, mehriban» deməkdir.
***Gülətir*** (f.,ə.) - xoş qoxulu gül; gül qoxulu qız.
***Güləzban*** (f.) - gül dilli; şirin dilli, xoş danışan, mehriban.
***Gülfidan*** - cavan gül kolu, gül pöhrəsi; yeniyetmə.
***Gülfira*** - gül işığı, gül parıltısı.
***Gülgəlin*** - gül kimi gəlin, çiçək kimi qız.
***Gülgəz*** (f.,t.) - yulğun ağacının gülü ("gəz" "yulğun" deməkdir).
***Gülgəzər*** - gül gəzər, gülü axtarar, gülü arayar.
***Gülgün//Gülgünə*** (f.) - güləyən, şad, şən; gül rəngində olan.
***Gülhava*** - gül kimi təmiz, ətirli hava; rahatlıq bəxş edən gül ətirli hava.
***Gülhəmra*** (f.,ə.) - qırmızı gül, qızılgül.
***Gülhəyat*** (f.,ə.) - güllü, çiçəkli həyat, xoşbəxt həyat.
***Gülhumay//Gülhümay*** - gül kimi Humay (bax), gülə bənzər Humay.
***Gülxan//Gülxanə*** (f.,t.) - güllərin xanı; ən gözəl gül.
***Gülxanım*** - gül kimi xanım, gülə bənzəyən xanım.
***Gülxar//Gülxara//Gülxarə*** (f.) - tikanlı gül, tikanı olan gül; gül naxışlı parça.
***Gülxas*** (f.,ə.) - xüsusi gül, gülün xası, seçilmişi.
***Gülxatın//Gülxatun*** - gül kimi qadın.
***Gülxəndan*** (f.) - açılmış gül; pardaxlanmış gül.
***Gülxəndə*** (f.) -gül gülüşlü; gülüşü gülə bənzər.
***Gülxətmi*** - əməköməci fəsiləsindən ensiz yarpaqlı, iri və qəşəng çiçəkləri olan ot-bitki.
***Gülxoş*** (f.) - xoş təsir bağışlayan gül, gözəl gül.
***Gülxumar*** (f.,ə.) - məst edən gül; məst olmuş gül.
***Gülirə*** (f.,ə.) - iradə gülü; arzu və istək gülü.
***Güliyyət*** (f.,ə.) - güllük, çiçəklik, güllər, çiçəklər.
***Gülizar//Gülüzar//Gülzar//Gülzarə*** (f.) - çiçəklik, güllük, gülüstan.

***Gülqayıd//Gülqayıt*** - gül-qız lazım deyil.
***Gülqədəm*** (f.,ə.) - qədəmləri gül olan; qədəmləri uğurlu olan.
***Gülqəmzə*** (f.,ə.) - gül qəmzəsi, gül işvəsi, çiçək nazı.
***Gülqənd*** (f.) - gül mürəbbəsi, gül ilə qarışdırılmış şəkər.
***Gülqız//Gülüqız*** - gül kimi qız, çiçək kimi qəşəng qız.
***Gülqönçə*** (f.) - gül qönçəsi; hələ açılmamış gül.
***Güllər*** - "gül"ün cəmi; güllər; çoxlu gül.
***Güllü*** - gülü olan, açılmış çoxlu gül.
***Güllübəyim*** - çoxlu gülü olan bəyim.
***Güllübikə*** - güllü bikə, çiçəkli bikə.
***Güllücə*** - paxlalılar fəsiləsindən olan yem otu.
***Güllüxanım*** - çoxlu gülü olan xanım.
***Gülmay//Gülmaya//Gülmayə*** (f.) - mayası gül olan; gülün mayası; saf.
***Gülməxmər*** - nazik ipək üzərində iri gülləri olan bahalı parça.
***Gülmixək*** - mixək gülü, mixək çiçəyi.
***Gülmira//Gülmirə*** - («mir» həm ərəbcə «əmir, həm də rusca dünya kimi başa düşülə bilər) ; əmirə layiq gül, əmir gülü, dünya gülü, çiçəyi.
***Gülnabat*** (f.,ə.) - nabat gülü, qənd gülü; şirin qız.
***Gülnamə*** - (f.) - gül yazısı, gül məktubu; güllü məktub.
***Gülnanə*** - nanə gülü; nanə gülü kimi çox ətirli qız.
***Gülnar//Gülnara//Gülnarə*** (f.) - nar gülü; qırmızıyanaq.
***Gülnaz*** (f.) - nazlı gül, naz edən gül.
***Gülnənə*** - gül kimi gözəl nənə.
***Gülnərgiz*** - nərgiz gülü; nərgiz gülü kimi qız.
***Gülnigar//Gülniyar*** (f.) - gülsurətli, gülüzlü; gül kimi gözəl qız.
***Gülnihal*** (f.) - gül fidanı, gül fidanı kimi gözəl.
***Gülnisə*** (f.,ə.) - gül kimi qız(lar); gözəl qadın(lar).
***Gülnişan*** (f.) -nişanı güldən olan, gül nişanlı.
***Gülnur//Gülnura//Gülnurə*** (f.,ə.) - gülün işığı, gülün nuru; çox gözəl.
***Gülnuş//Gülnuşə*** (f.) - gül içən; gül kimi dadlı; gül kimi ürəyəyəyatan, xoşagələn.
***Gülnüma*** (f.) - gül göstərən, gül bildirən; gülə nümunə olan gözəl.
***Gülövşə//Gülöyşə*** – gülən, gülümsəyən, güləyən; iri giləli, şirin, yerli nar sortunun adı.
***Gülparə*** (f.) - gül parçası; gülün yarısı, parəsi.
***Gülpər*** (f.) - gül qanadlı; gül kimi saçı olan.
***Gülpəri*** (f.) - gül kimi pəri, pərinin çiçəyi.
***Gülpərvaz*** (f.) - açan gül; sürətlə boy atan gül.

***Gülpüstə*** - püstə gülü; püstə gülü kimi gözəl qız.
***Gülreyhan*** (f.,ə.) - reyhan gülü, reyhan çiçəyi; çox ətirli və gözəl.
***Gülru*** (f.) - gülüzlü, gülyanaqlı.
***Gülruba//Gülrubə//Gülrübə*** (f.) - gül alan, gülü məftun edən; çox gözəl.
***Gülruh*** (f.) - gül ruhlu, canı gülə bənzəyən; gül cövhəri.
***Gülrux*** (f.) - gülyanaq, gülüzlü, üzü gül kimi olan.
***Gülruxsar//Gülrüxsar*** (f.) - gülyanaqlı, alyanaqlı.
***Gülsaat*** (f.,ə.) - gül vaxtı, gül zamanı, saatı.
***Gülsaba//Gülsabah//Gülsəbah*** (f.,ə.) - səhər gülü; təravətli gözəl.
***Gülsadə*** (f.,ə.) - adi gül, sadə gül.
***Gülsafa//Gülsəfa*** (f.,ə.) - səfalı gül; gülün təmizi; müqəddəs gözəl.
***Gülsana*** - gül say, çiçək say; gül adını çək.
***Gülsar//Gülsər*** - xoş ətirli gül; böyük gül; gözəl qız.
***Gülsara//Gülsarə*** (f.) - seçilmiş gül, seçmə gül, əla çiçək.
***Gülsarı*** - sarı gül; Sarı çiçək; gülü bağla; qeyri-adi gözəl.
***Gülsavad*** (f.,ə.) - gül ölkəsi, gülün vətəni.
***Gülsevən//Gülsevər*** - çiçəkləri sevən, gülü sevər.
***Gülsəba*** (f.,ə.) - gül mehi, çiçəklərin lətif mehi; səhər çiçəyi.
***Gülsəda*** (f.,ə.) - gül sədası; gül sorağı.
***Gülsədəf*** (f.,ə.) - gül kimi sədəf, gül və sədəf kimi gözəl.
***Gülsəfa*** (t.,ə.) – «gül» və «səfa» (seyr, tamaşa) sözlərindən düzəlmiş, «gül seyri, gül mənzərəsi» deməkdir.
***Gülsəhər*** (f.,ə.) - səhər açılan gül, səhər gülü.
***Gülsən*** - gülsən, çiçəksən, gülə, çiçəyə bərabərsən.
***Gülsənəm*** (f.,ə.) - gözəlin çiçəyi, sənəmin gülü.
***Gülsəpən//Gülsəpər*** - gül səpən, gül paylayan; sevinc bəxş edən.
***Gülsərən*** - gül yayan, gül sərməklə məşğul olan.
***Gülsima*** (f.,ə.) - gülüzlü, üzü gülə bənzər; çox gözəl.
***Gülsolmaz*** - gül solmaz, solmayan gül.
***Gülsoltan*** - gül kimi soltan , gülə bənzər soltan.
***Gülsona*** - gül sonası, çiçək sonası.
***Gülsoy*** - gülsoylu; soyu gül olan; pak nəsilli.
***Gülsurə//Gülsurət*** (f.,ə.) - üzü gülə bənzəyən, sifəti gül kimi olan.
***Gülsüm//Gülsümə//Gülsuma*** (ə.) - kök, dolğun, əndamlı.
***Gülsümxanım*** (ə.,t.) - dolu sifətli, kök xanım.
***Gülsün//Gülsünə*** - qoy gülsün, qoy sevinsin.
***Gülşad*** (f.) - sevinən gül; sevinc gülü.
***Gülşah//Gülşax*** (f.) - güllərin şahı; gözəllər gözəli.

***Gülşəkər*** (f.) - gül şəkəri; suyuşirin.
***Gülşən//Gülşanə//Gülşəndə*** (f.) - güllük(də), gülüstan(da), çiçəklik(də).
***Gültac*** (f.) - güllərin tacı, sevimli gül; sevimli gözəl.
***Gültamam***-tamam gül olan, büsbütün gül olan; gül daha bəsdir.
***Gültay//Gültayı*** - gülə tay olan, gülə, çiçəyə bərabər olan.
***Gültək//Gültəkin*** - gül kimi, gülə bənzər ("Orxon-Yenisey" abidələrində "gözəl şahzadə" mənasında olan bu ad kişi adı funksiyası daşımışdır. "Təkin" isə xan oğluna verilən titul olmuşdur. Bu addakı "təkin" isə qoşmadır).
***Gültən*** (f.) - bədəni gül kimi olan; təmiz, pak.
***Gültər//Gültarə*** (f.) - təzə gül, yeni açılmış gül, tər çiçək.
***Gülura//Gülurə*** (f.,ə) - gül nuru, gül işığı.
***Gülü//Güli*** - açıq gül rəngli, çəhrayı; gül şəklində naxışları olan.
***Gülüdə*** (f.) - güllü, çiçəkli.
***Gülüm*** - mənim gülüm, mənim çiçəyim.
***Gülümcan*** - gülüm olan can, gülüm kimi gözəl qız.
***Gülümnisə*** - gülüm olan nisə; gülüm kimi gözəl qız.
***Gülüstan//Gülistan*** (f.) - güllük, çiçəklik, gülşən.
***Gülüş*** - şadlıq, sevinc, şənlik; gülmə, şənlənmə.
***Gülüz//Gülüzə//Gülüzlü*** -üzü gül kimi olan; olduqca gözəl.
***Gülvəfa*** (f.) - vəfalı gül, sədaqətli gül.
***Gülyanaq*** - yanaqları gül kimi olan; gözəl, qəşəng.
***Gülyanar*** - gül yanar, gül ocaq kimi alışıb yanar; od kimi qızaran gül.
***Gülyar*** - gül kimi sevgili, gülə bənzər yar, gül kimi dost.
***Gülyarpaq*** - gül yarpağı kimi gözəl və zərif.
***Gülyay*** - yay gülü; yay gülü; gül kimi təravətli, ətirli yay.
***Gülyetər*** - gül bəsdir, daha qız lazım deyil.
***Gülzada//Gülzadə//Gülzədə*** (f.) - güldən doğulmuş, güldən törəyən, gül balası.
***Gülzar//Gülüzar//Gülzarə//Gülizar*** (f.) – çiçəklik, güllük, gülüstan.
***Gülzəmi*** - gül zəmisi, çiçək tarlası; çox gözəl qız.
***Gülzən//Gülzəni//Gülzəndə*** (f.) - gül kimi canlı və sağlam qız.
***Gülzər*** (f.) - gülün zəri; qırmızı gül; qızılgül.
***Gülziba*** (f.) - gözəl çiçək, qəşəng gül.
***Gülziya*** - gül ziyası, gül kimi ziya, gülün ziyası.
***Gümüş*** (f.) - ağ-bozumtul əlvan metal; incə, zərif.
***Gümüşbəyim*** - gümüş kimi bəyim, gümüş kimi parlaq qız.
***Gümüşxanım*** - gümüş kimi xanım, gümüş kimi parlaq xanım.

***Gümüşnisə*** - gümüş kimi nisə, gümüş kimi parlaq nisə.
***Günay//Günayə*** - Günəş və Ay kimi gözəl.
***Günayıl*** - Gün, ayıl; Gün, çıx; Gün, kainatı işıqlandır.
***Günayım*** - Günüm, Ayım; Günəşim, Ayım.
***Günbahar//Günyaz//Günyazə*** - bahar günü, yaz günü; bahar Günəşi, yaz Günəşi.
***Günel*** - elin Günəşi, xalqın günü; elin işığı.
***Güney*** - günəşli yer; nurlu, işıqlı; cənub.
***Günəş*** - Günəş planeti; işıq, nur; çox gözəl.
***Günətay//Güntay*** - Günə tay olan, Gün kimi gözəl olan.
***Günfər*** - Gün işığı, Günəş parlaqlığı; gözəl, yaraşıqlı.
***Güngur*** - gur işığı olan Gün, şiddətli istisi olan Gün.
***Günnisə*** - Gün kimi nisə, Günə bənzər nisə; Gün kimi gözəl qız.
***Günnur//Günnurə//Günnuru*** (t.,ə.) - Günün nuru, Gün işığı; gözəlin nuru.
***Günruh*** - Gün kimi ruh, Günə bənzər ruh; Gün ruhlu qız.
***Günsabah*** - səhər Günəşi, səhər doğulan Günəş; sabah doğulan qız.
***Güntac*** - Günəşin tacı; gün haləsi, nur haləsi.
***Güntan*** - dan Günəşi; Günəşin danı.
***Güntay*** – «Gün» və «tay» sözlərindən düzəlmiş, «Günə tay, bərabər; yüksək, parlaq» deməkdir.
***Güntək//Güntəkin*** - Gün kimi, Gün təki(n).
***Güntən*** (t.,f.) - Gün bədənli; Günəş kimi parlaq.
***Günyar//Günyarə*** (t.,f.) - Günün dostu, yoldaşı; Günün yarısı; çox gözəl.
***Günzadə*** (t.,f.) - Gündən törəyən, Gün kimi qız; qeyri-adi gözəl.
***Günzər*** (t.,f.) - Günün zəri, qızılı; Gün şüası; çox gözəl.
***Gürcü*** - Gürcü xalqı və bu xalqa mənsub adam.
***Gürcüstan*** - eyni adlı respublikanın adındandır.
***Gürzə*** - daşlıq və kolluqlarda yaşayan zəhərli ilan.
***Gürzəbəyim*** - gürzə kimi bəyim, gürzə kimi qız.
***Güvara//Güvarə*** (f.) – dadlı, tamlı şey; asan həzm edilən yemək, rahat hülqum; sakit qız.

## H

***Hacıbəyim*** (ə.,t) - Hacı Bəyim, həccə getmiş bəyim.
***Hacıxanım*** (ə.,t.) - Hacı (bax) Xanım; həccə getmiş xanım.

***Halabəyim//Haləbəyim*** (ə.,t.) - işıqlı bəyim,parlaq gözəl.
***Halaxanım//Haləxanım*** - işıqlı xanım, parlaq xanım; çoxgözəl qız.
***Halə*** (ə.) - Ayın ətrafında bəzən görünən işıq dairəsi, parlaq dairə.
***Hamayə//Həmayə*** -Aya şərik olan, Ayla birgə olan.
***Hatimə*** (ə.) - son, yekun.
***Hava//Havva//Həvva*** (ə.) - diri, canlı, həyati (Qədim y. Yeva adının ərəb forması); göy, səma; hərislik; məğrurluq.
***Havabəyim*** – bax: Həvva və Bəyim.
***Havaxanım*** - bax: Həvva və Xanım.
***Havanisə*** (ə.) - məğrur, məlahətli qadın, həyati qadın.
***Havanur*** (ə.) - diri, canlı işıq; qeyri-adi gözəl qız.
***Havazar*** (ə.,f.) - ağlar hava, inildəyən hava.
***Havazər*** (ə.,f.) - qızıl hava, gözəl hava; parlaq hava.
***Heyran//Heyranə*** (ə.) - heyrətə düşmə, çaşma; həddən artıq xoşa gələn, bəyənilən.
***Heyranxanım*** (ə..t.) - Heyran xanım; heyran, məftunedici xanım.
***Heyrətxanım*** - qeyri-adi xanım, gözlənilməz xanım, qəribə xanım.
***Heyva*** - sarı rəngli, turşməzə, üstü tüklü, xırdaçəyirdəkli meyvə və onun ağacı.
***Heyvagül//Heyvagülü*** - heyvanın gülü, çiçəyi; heyvanın gülü kimi kiçik və gözəl qız.
***Heyvaxanım*** - heyva kimi xanım; heyva kimi gözəl xanım.
***Həbidə*** (f.) - yatan, mürgüləyən.
***Həbirə*** (ə.) - xəbər verilmiş, bilici.
***Həcər*** (ə.) - daş (Kəbədəki müqəddəs qara daş).
***Həcərxanım*** (ə.,t.) - Həcər xanım; müqəddəs daş kimi sağlam qız.
***Hədəf*** (ə.) - nişan, nişangah; məqsəd, məram.
***Hədiqə*** (ə.) - bağça, meyvə bağı, ağaclıq.
***Hədisə*** (ə.) - təzə, yeni; söhbət, rəvayət, xəbər; sonradan vücuda gəlmiş; peyğəmbər və imamların kəlamları.
***Hədiyyə*** - bəxşiş, töhfə, ərməğan, sovqat.
***Həqiqə*** (ə.) - haqlı. Bax: Həqiqət.
***Həqiqət*** (ə.) - doğru, gerçək, düzgün, dürüst.
***Həqiqi*** (ə.) - doğru, düzgün, gerçək.
***Həlilə*** (ə.) - qanuni arvad.
***Həliləxanım*** (ə.,t.) - xanım, qadın, qadınların xanımı.
***Həlimə//Həlimat//Həlimət*** (ə.) - mülayim, mehriban, sakit, dinc.
***Həliməxanım//Həlməxanım//Həlimxanım*** - bax: Həlimə və Xanım.

***Həlimxatın//Həlimxatun//Həlməxatın//Həlməxatun//Həliməxatın//Həliməxatun*** - bax: Həlimə və Xatın.
***Həmail//Həmayil//Hamayıl//Həmayıl*** (ə.) - boyunbağı, boğazaltı.
***Həmalə*** (ə.) - şərik, ortaq; oxşar, bənzər.
***Həmdəm*** (f.) - həyat yoldaşı; ürək yoldaşı, yaxın dost.
***Həməlbəyim//Həməlxanım*** (ə.,t.) – quzu kimi bəyim, xanım; Quzu bürcündə doğulan bəyim, xanım.
***Həmidəxanım*** (ə.,t.) - Həmidə xanım, layiqli, bəyənilmiş xanım.
***Həmişə*** – daimi, əbədi, hər vaxt, hər zaman.
***Həmişəbəyim*** - əbədi, daimi, bəyim olan qız.
***Həmişəxanım*** (ə.,t.) - həmişə xanım olan; Həmişə xanım.
***Həmiyyə*** (ə.) - ruh yüksəkliyi; şərəf hissi, qeyrət.
***Həmra*** (ə.) – qırmızı, qızılı; qızıl kimi gözəl qız.
***Hərgül*** - hər gül, hər çiçək.
***Hərifət*** (ə.) - sənət yoldaşı; kef, oyun yoldaşı; düşmən, rəqib.
***Həsna*** (ə.) – gözəl, yaraşıqlı, qəşəng (qız).
***Həsnabəyim//Həsnaxanım*** (ə.,t.) – gözəl, qəşəng bəyim və ya xanım (qız).
***Həssas*** (ə.) - çox tez hiss edən, duyan, qavrayan, dərk edən.
***Həşəmət*** (ə.) – əzəmət, dəbdəbə, cəlal.
***Həvayət*** (ə.) - ab-hava, iqlim; şəxsiyyət; həvəslər; rəqslər.
***Həyalı*** (ə.,t.) - utanan, xəcalət çəkən, namuslu, abırlı.
***Həyat*** (ə.) - varlıq, yaşayış, dirilik, sağlıq; ömür.
***Həyatgül//Həyətgül*** - həyat, həyət gülü; ömür gülü olan qız.
***Həyatxanım*** (ə.,t.) - həyat xanımı, ömür xanımı.
***Həyatnur*** - həyatın nuru; ömürün nuru olan qız.
***Həyatzər*** (ə.,f.) - ömür zəri, yaşayış zəri; həyatın daş-qaşı.
***Həzarə*** - ə. bülbül; f. min; min əsgərdən ibarət hərbi hissə.
***Hicran//Hicranə*** (ə.) - ayrılıq, ayrılma, fəraq.
***Hicri//Hicriyyə*** (ə.) - İslam təqvimi, hicrətə aid.
***Hilara//Hilarə*** - hil (zəncəfilə bənzər ədviyyə) xoşlayan, hil axtaran.
***Hilmayə//Hilmiyyə*** (t.,f.) - hil mayası, hil təməlli, hilə bənzər.
***Himayə//Himayət*** (ə.) - birini qoruma, ona havadarlıq və qayğı göstərmə, qanadı altına alma; himayəçilik.
***Hökmiyyə//Hökmiyə*** (ə.) - hökmlə əlaqədar olan, hökmə aid.
***Hökumə//Hökümə*** (ə.) - “Həkimə” - “müdrik” adının təhrif edilmiş variantı; hökm, əmr edən.
***Hörmətbəyim//Hörmətxanım*** (ə.,t.) – hörmətli, ehtiramlı, sayğılı bəyim və ya xanım.

***Humay//Humaya//Humayə//Hüma//Hümay//Hümayə//Hümayi*** (ə.) - səadət, xoşbəxtlik gətirən (Qədim türklərdə ailə səadəti və uşaqları himayə ilahəsi olan Umay adındandır).
***Humayun//Hümayun//Hümayin*** (f.) - uğurlu, səadətli, mübarək.
***Humra//Hümra*** (ə.) - qırmızı qız.
***Humrabəyim*** - qırmızı bəyim, qırmızı gözəl qız.
***Humraxanım*** - qırmızı xanım, qırmızı gözəl qız.
***Humray*** (f.) - yoldaş, yol yoldaşı.
***Humru*** (f.) - eyni üzlü, bir üzlü.
***Huveyda//Huveydə//Hubeyda//Hübeyda//Hübeydə//Hüveyda//Hüveydə*** (f.) - bəlli, aşkar, zahir.
***Hübubət*** (ə.) - "hübubat» sözündən «dənli bitkilər, sünbül» deməkdir.
***Hülya*** - bax: Xülya.
***Hümehr*** - atası Hüseyn, anası Mehribanın adlarının ilk hecalarından yaranmışdır. Doğum günü anası vəfat etdiyi üçün Hüseyn qızı belə adlandırmışdır.
***Hürbəyim//Hürübəyim*** - Hürü kimi bəyim, Hürü kimi gözəl qız.
***Hürxanım//Hürüxanım*** - Hürü kimi xanım, Hürü kimi gözəl qız.
***Hürxatun//Hürüxatun*** - Hürü kimi xatun, Hürü kimi gözəl qız.
***Hürimələk//Hürmələk//Hürümələk*** (ə.) - Cənnət mələyi; Cənnət gözəli.
***Huripeykər//Hüripeykər*** (ə.,f.) - huri bədənli, gözəl bədənli, qamətli.
***Hüriyə//Huriyə//Huriyyə//Hüriyyə*** (ə.) - huri kimi gözəl; Cənnət qızları kimi gözəl.
***Hüriyyət*** (ə.) - azadlıq, sərbəstlik, müstəqillik.
***Hürnisə//Hurnisə//Hürünisə//Hurinisə*** (ə.) - huri kimi qız(lar); gözəl qadın(lar).
***Hürü//Huri*** (ə.) - Cənnət gözəli; gözəl qız.
***Hürzad//Hurizad//Hürüzad//Hürizad*** (ə.,f.) - huridən doğulmuş; çox gözəl.
***Hüsnayə*** (ə.) - Allahın ən gözəl adlarına (əsmayi-hüsnaya) aid olan; ayə gözəlliyi.
***Hüsniyar*** (ə.,f.) - dostun, yarın hüsnü, gözəlliyi.
***Hüsniyə//Hüsniyyə*** (ə.) gözəl, qəşəng, göyçək.
***Hüsnücahan*** (ə.,f.) - dünya gözəli.
***Hüsnügözəl*** (ə.,t.) - gözəl üzlü.
***Hüsnügül*** - gül üzlü gözəl, çiçək kimi gözəl.
***Hüzrə//Hüzürə*** (ə.) - “Əzra” (bax) adının təhrif olunmuş forması.

## ∞ X ∞

***Xaqanə//Xəqanə*** - xaqana, hökmdara aid; xana layiq gözəl.
***Xalabacı*** - xalanın bacısı, xalanın böyütdüyü; xalaya bənzər qız.
***Xalıgözəl*** - gözəl xalı olan, xallı gözəl.
***Xalınur*** - xalı nur olan, nur kimi xalı olan; üzündə parlaq xalı olan.
***Xaliyyə*** (ə.) - azad; sahibsiz; sərbəst.
***Xallı*** - üzündə xalı olan (qız).
***Xallıgül*** - xalı olan gül; xallı gözəl.
***Xallızər*** (t.,f.) - xallı qızıl, qızıl xalı; qızıl kimi xallı qız.
***Xalmirə*** (f.) - qəzəbli, kinli; qəzəbli qız.
***Xanana*** - xan kimi ana, böyük ana.
***Xanbacı*** - xan bacısı; xana layiq bacı; böyük bacı.
***Xanbəyim*** - xan arvadı, hökmdar arvadı; baş bəyim, böyük bəyim.
***Xanbibi*** - xan kimi bibi, böyük bibi.
***Xanbikə*** - xan kimi qız, böyük xanım.
***Xanbuta*** - xan, hökmdar nişanəsi.
***Xancan*** (t.,f.) - xan ruhlu, xan ürəkli, xana bənzər gözəl.
***Xandostu*** - dayı və əmi arvadlarına hörmət üçün verilən ad.
***Xangözəl*** - xan kimi gözəl, böyük gözəl.
***Xangül*** - xan gülü, xana layiq gül; ən gözəl qız.
***Xanxanım*** - xanımlar xanımı.
***Xanı*** - "xan"la başlanan adların əzizləmə forması.
***Xanıgül*** - süfrə, xonça gülü, çiçəyi, balıq gülü.
***Xanım*** - mənim xanım; xan qadını; qadınlara müraciət forması.
***Xanımağa*** - bax: Xanım və Ağa.
***Xanımana*** - xanım ana.
***Xanımbacı*** - xanım kimi bacı.
***Xanımbala*** - xanım kimi bala (qız).
***Xanımbəyim*** - xanım kimi bəyim, böyük bəyim.
***Xanımbibi*** - xanım kimi bibi, böyük bibi.
***Xanımbikə*** - xanım kimi bikə, böyük qız.
***Xanımcan*** - xanım ürəkli, xanım kimi olan.
***Xanımgözəl*** - xanım kimi gözəl, qəşəng xanım.
***Xanımgül*** - xanımın gülü; gül kimi xanım; gözəl qız.
***Xanımqız*** - xanımın qızı; xanım kimi qız; sevimli qız.
***Xanımnaz*** (t.,f.) - nazlı xanım; naz edən xanım.
***Xanımnənə*** - xanım kimi nənə.

***Xanımnisə*** - xanım kimi nisə - qız.
***Xanımsənəm*** (t.,ə.) - Sənəm xanım; gözəl xanım; xanımların sənəmi, gözəli.
***Xanımsultan*** - xanım kimi sultan.
***Xanımyar*** (t.,f.) – dost olan xanım, sevimli qız.
***Xanımzad//Xanımzada//Xanımzadə*** (t.,f.) - xanımdan doğulan, xanımdan törəyən.
***Xanımzər*** (t.,f.) - qızıl kimi xanım; zərli xanım.
***Xanqız*** - xan qızı; xana layiq qız; böyük qız.
***Xannənə*** - xanın nənəsi; xana layiq nənə; böyük nənə, ulu nənə.
***Xanpəri*** - xan kimi pəri, xan kimi gözəl.
***Xanpərvər*** (t.,f.) - xanı sevən; xana rəğbət bəsləyən.
***Xansənəm*** - xan kimi sənəm, xan kimi dilbər.
***Xanzad//Xanzada*** (t.,f.) - xan qızı, xan nəslindən olan qız.
***Xanzər*** (t.,f.) - xan qızılı, xana layiq zər; xana layiq qızıl (qız).
***Xara*** (f.) - çox bərk daş, çaxmaq daşı; ipək parça.
***Xasbəyim*** (ə.,t.) - ən yaxşı bəyim, bəyimlərin xası.
***Xasbikə*** (ə.,t.) - xalis qadın, ən gözəl xanım.
***Xasgül*** (ə.,f.) - əlahiddə gül, xüsusi çiçək, gözəl gül.
***Xasiyyət*** (ə.) - xarakter, təbiət.
***Xastayı*** (ə.,t.) - ən xalisin tayı, olduqca yaxşıya bərabər, xasların ən münasib tayı.
***Xatay//Xətay//Xatayı//Xətayə*** (ə.) - xətayə aid, günaha məxsus (Oğlan arzusunda olanlar qızları belə adlandırmışlar).
***Xatın//Xatun//Xatuna//Xatunə*** - qadın; hökmdar arvadı; hökmdar qadın.
***Xatıngül*** (t.,f.) - qadın gülü; hökmdar xatınının gülü; xatın kimi qız.
***Xatimat*** (ə.) - sonluq; son söz; xülasə; sonuncu qız.
***Xatimə*** (ə.) - son, axır; son söz; sonuncu qız.
***Xatirə*** (ə.) - yadda qalan, unudulmayan (hər hansı şey).
***Xavər*** (f.) - Şərq, gündoğan.
***Xeyransa//Xeyrənsə//Xeyrənisə*** (ə.) - qadın(lar)ın xeyri, arvad(lar)ın yaxşısı.
***Xeyri//Xeyrigül*** - qırmızı rəngli, topləçəkli gül; məxmərgülü.
***Xeyriyyə*** (ə.) - xeyir qız, ehtiyacı olanlara kömək, yardım məqsədini güdən.
***Xəbirə*** (ə.) - xəbərdar; müjdəçi; bilikli; bilikli; səriştəli.

***Xəccə//Xəccəgülü*** - ilk baharda açılan ətirli sarı gül; novruzgülü, xədicəgülü.
***Xədicə//Xədicət*** (ə.) - vaxtından qabaq doğulmuş qız.
***Xədicəgül*** (ə.,f.) - Xədicə gülü, Xədicənin gülü; novruzgülü.
***Xəlimə*** (ə.) - yumşaq, mülayim; səbir.
***Xəndə*** (f.) - gülüş, gülmə.
***Xətiyyə*** (ə.) - yanlış, səhv; təqsir, günah.
***Xəyalət*** (ə.) - əsli olmayıb göz önündə canlanan, xəyal.
***Xəyalnaz*** (ə.,f.) – «xəyal» və «naz» sözlərindən yaranmış, «arzu edilən, həsrəti çəkilən nazlı qız» deməkdir.
***Xəyalnur*** (ə.) – işıqlı, parlaq xəyal, fikir; arzulanan, həsrəti çəkilən qız.
***Xəyalzər*** (ə.,f.) – işıqlı, parlaq qızıl; arzulanan, həsrəti çəkilən qız.
***Xəzangül*** (f.) - payız gülü; solmuş gül.
***Xəzinə*** (ə.) - qiymətli əşyaların saxlandığı yer; dəfinə, kassa.
***Xına*** - eyni adlı bitkinin yarpaqlarından hazırlanan, saç və əlləri boyamaq üçün istifadə edilən maddə; həna.
***Xınaçiçək// Xınagül*** – xına çiçəyi, xına gülü; sevinc bəxş edən qız.
***Xınaxanım*** - xına kimi qırmızı xanım; xınalı xanım.
***Xınalı*** - xınası olan, saç və ya əl-ayağında xına olan.
***Xınanur*** (ə.) – xına işığı, xına nuru; işıq saçan xına, sevinc bəxş edən qız.
***Xırda*** - boyca kiçik, balaca (qız).
***Xırdabacı*** - balaca bacı, kiçik bacı.
***Xırdabəyim*** - balaca bəyim, kiçik bəyim.
***Xırdabibi*** - balaca bibi, kiçik bibi.
***Xırdabikə*** - balaca bikə, kiçik bikə.
***Xırdagül*** - balaca gül, kiçik gül.
***Xırdaxanım*** - balaca xanım, kiçik xanım.
***Xırdaqədəm*** (f.,ə.) - incə yerişli qız.
***Xırdanaz*** (f.) - incə və zərif naz eləyən qız.
***Xırdanur*** (t.,ə.) – balaca işıq, kiçik parıltı; xırda işıq kimi qız.
***Xırdazər*** (f.) - qızıl parçası kimi gözəl qız.
***Xocəstə*** (f.) – bəxtiyar, xoşbəxt, səadət; sevinc bəxş edən qız.
***Xonça*** - misdən məcməyi, sini.
***Xonçaxanım*** – xonça kimi xanım.
***Xoşavaz*** (f.) - xoş səsi olan, məlahətli səsi olan.
***Xoşbəniz*** - xoşüzlü, sifəti gözə xoş gələn.
***Xoşcamal*** (f.,ə.) – gözəllik, qəşənglik; gözəl qəşəng qız.

***Xoşdil*** (f.) - xoş dili olan, şirindilli qız; xoşürəkli.
***Xoşgül*** (f.) - xoş olan gül, yaxşı gül.
***Xoşiqbal*** (f.,ə.) - xoşbəxt, xoştale; xoş, uğurlu şəxs.
***Xoşqədəm*** (f.,ə.) - ayağıyüngül, ayağı uğurlu.
***Xoşliqa*** (f.,ə.) - xoşgörkəm, qanışirin.
***Xoşnaz*** (f.) – nazı xoşa gələn, nazlı qız.
***Xoşnigar*** (f.) - xoşagələn nigar; gözəl sevgili; gözəl qız.
***Xoşsima*** (f.,ə.) – gözəl üzlü, gözəl sifətli qız.
***Xubxanım*** (f.,t.) - yaxşı xanım, qəribə xanım, gözəl xanım.
***Xubu*** (f.)- yaxşı, qəribə; gözəl, göyçək qız.
***Xubnisə*** (f.,ə.) - gözəl qız, yaxşıların yaxşısı olan qız.
***Xulya//Xülya*** (ə.) - xəyal, fantaziya.
***Xumar//Xumara//Xumarə*** (ə.) - cazibədarlıq, füsunkarlıq; sərxoşluqdan sonra süstləşmə.
***Xumay*** - bax: Humay.
***Xumnaz*** (ə.,f.) - çox nazlı, qəmzəli; nazlı, qəmzəli qız.
***Xuraman*** (f.) - nazlı yeriş; incə, vüqarlı.
***Xurazar*** (f.) - günəşli, güney; çox parlaq qız.
***Xurma***(f.) - şirin meyvə; xoşagələn.
***Xurmagül*** - xurma gülü, xurma çiçəyi.
***Xurmayı*** - xurma rəngində, açıq-qəhvəyi.
***Xurşidbanu*** - bax: Xurşid və Banu.
***Xurşidbəyim*** (f.,t.) - Günəş kimi işıqlı, parlaq bəyim.
***Xurşidxanım*** (f.,t.) - Günəş kimi işıqlı, parlaq xanım.
***Xürrəm*** (f.) - şad, şən, sevinc, fərəh içində olan.
***Xürrəmi*** (f.) – Günəşə sitayiş edən; Günəş qədər parlaq və gözəl qız.

## ℘ İ ℘

***İbadət*** (ə.) - dua oxuma, namaz qılma şəklində icra edilən dini ayin; sitayiş.
***İfadə*** (ə.) - anlatma, izah etmə, aydın və düzgün söyləmə.
***İfaqət*** (ə.) - sağalma, yaxşılaşma, səhhəti düzəlmə.
***İfayə//İfayi*** (ə.) - yerinə yetirmə, icra etmə.
***İffət*** (ə.) - saflıq, təmizlik; namus, həya, əxlaq.
***İffətli*** (ə.,t.) - namuslu, əxlaqlı, ismətli, təmiz, saf.
***İfrat*** (ə.) - bolluq, çoxluq; mübaliğəyə varma; son dərəcə gözəl.
***İlafət*** (t.,ə.) - ilin gözəli, ilin dilbəri; elin gözəli, dilbəri.

***İlahə//İlahət*** (ə.) - İlahi gözəl; pərəstiş olunan gözəl.
***İlahiyyə*** (ə.) - Allaha, Tanrıya məxsus.
***İlduzə*** - elin dostu, eli sevən.
***İlfirə*** (t.,f.) - elin dostu, xalqın sevimlisi.
***İlkanə*** - ilk qız, birinci qız.
***İlkay//İlkayə*** - ilk Ay; təzə çıxan Ay; Ayın hilal vaxtı.
***İlkinaz*** (t.,f.) - birinci, ilkin naz, işvə; ilk qız.
***İlnarə*** (t.,ə.) - elin odu, alovu, odlu il.
***İlyaz*** - ilin yazı, ilin baharı.
***İmarət*** (ə.) - böyük və qəşəng bina; mülk, tikili.
***İmmi//İmmiyə*** **-** bax: Ummi//Ümmi.
***İmperial//İmperiyal*** (l.) - çara, imperatora məxsus olan; qızıl pul.
***İnarə*** (ə.) - işıqlı, nurlu, aydın.
***İnayə//İnayət*** (ə.) - qayğı, kömək; diqqət, hümmət; hüsn-rəğbət, yaxşılıq.
***İncə*** - zərif, nəfis, qəşəng; mehriban, həssas.
***İncəbəniz*** - üzü qəşəng, zərif, mehriban; mülayim sifətli.
***İncəbəyim*** - qəşəng bəyim, həssas bəyim.
***İncəgül*** - zərif gül, incə çiçək; zərif gözəl.
***İncəxanım*** - zərif xanım, həssas bəyim.
***İncəqız*** - incə, zərif qız, mehriban qız.
***İncənaz*** (t.,f.) – «incə» və «naz» sözlərindən düzəlmiş, «incə, nazlı, zərif, qəşəng» deməkdir.
***İncənisə*** - incə, zərif nisə, mehriban nisə.
***İnci*** - mirvari, dürr; saf, təmiz.
***İncibəyim*** - inci kimi gözəl və saf bəyim.
***İncibibi*** - inci, dürr bibi; incə kimi bibi.
***İncigül*** - inci kimi saf və təmiz gül.
***İncixanım*** - inci kimi saf və təmiz xanım.
***İnciqız*** - inci kimi saf, təmiz, qiymətli qız.
***İncinisə*** (t.,ə.) - inci kimi saf və təmiz qadın.
***İndiana*** – rus dilindən alınan bu ad German dillərində «hindli qız (qadın)» deməkdir.
***İndira*** - veda dilində baş allahlardan biri, ildırımsaçan; baş Allah. (İndira Qandinin adındandır).
***İnab//İnnab*** (ə.) - açıq-sarı çiçəkləri olan, quraqlığa davamlı ağac və bu ağacın bərk çəyirdəkli xırda, şirin meyvəsi.
***İndiya*** - «Hindistan» adının ruslaşmış forması.
***İnnabxanım*** (ə.,t.) - İnnab xanım, innab kimi xanım.

***İnsanət*** (ə.) - «insaniyyət» /insanlıq; bəşəriyyət/ adının təhrif forması.
***İntizar*** (ə.) - həsrətlə gözləmə, səbirsizliklə gözləmə.
***İpək*** - incə və parlaq; mülayim, xoşrəftar.
***İpəkxanım*** - ipək kimi xanım.
***İpəknur*** - ipək kimi nurlu və parlaq.
***İpəktən*** - bədəni ipək kimi yumşaq, incə olan; ipəyə bənzər.
***İradə*** (ə.) - dözümlülük, səbir, mətanət.
***İraida//İraidə*** (yun.) - igid qız, qəhrəman qadın.
***İramila//İramilə*** - bax: Ramilə.
***İranə*** - İran adındandır.
***İrangül*** - İran gülü, İranda açılmış gül.
***İranzər*** - İran zəri; İran qızılı kimi parlayan qız.
***İrəm*** (ə.) - Behişt, Cənnət (Əfsanəyə görə Şəddadın saldırdığı bağ).
***İsmət*** (ə.) - namus, həya, abır; əxlaq təmizliyi.
***İsmigül*** (ə.,f.) - adi gül olan; gül adlı.
***İsminaz*** (f.) - adı nazlı olan, işvəli adı olan qız.
***İsmira*** - bax: Esmira.
***İsmiralda*** - bax: Esmiralda.
***İsmizər*** (ə.,f.) - adı zər olan; çox qiymətli.
***İspar//İspər*** (yun.) - əsli «hesperos»dur və axşam ulduzu deməkdir.
***İstefa//İstifa*** (ə.) - bağışlanmasına xahiş etmə, əfv istəmə; vəzifədən könüllü getmə.
***İstək*** - arzu, dilək, murad, arzu edilən şey.
***İşarə*** (ə.) - əlamət, nişanə, iz.
***İşvəkar*** (f.) - işvəli, nazlı, qəmzəli, çilvəli, şux qız.
***İşvəli*** (ə.,t.) - nazlı, qəmzəli, cilvəli, şux.
***İzabella*** (q.y.) - İlahi! Ay Allah!
***İzafə*** (ə.) - artıq, əlavə.
***İzahat//İzahət*** (ə.) - hər hansı fikri ətraflı izah etmə.
***İzarə*** - iz ara, izi axtar, izi tap.
***İztirab*** (ə.) - sıxıntı, əzab, əziyyət.
***İzzətbəyim*** (f.,t.) - İzzət bəyim; hörmətli, şərəfli bəyim.
***İzzətxanım*** - bax: İzzət və Xanım.

## J

***Jalə*** (f.) - şeh, şəbnəm; məsum göz yaşı.
***Jaləgül*** (f.) - gül şehi, gül şəbnəmi.

***Jaləxanım*** (f.,t.) - Jalə xanım, jalə kimi saf, təmiz qız.
***Jasmen//Jasmin*** (fr.) - "yasəmən" sözünün fransız forması.

**ꕥ K ꕥ**

***Kafiyə//Kafiyyə//Kafiyat*** (ə.) - kifayət edən, bəs edən, tələbi təmin edən.
***Kahkaşan//Kəhkaşan//Kəhkəşan*** (f.) - gecələr göy üzündə ağ yol şəklində görünən ulduzlar topası; hacılar yolu, süd yolu.
***Kahı*** - yarpaq və kökü çiy yeyilən kələmə oxşar birillik tərəvəz bitkisi.
***Kainat*** (ə.) - dünya, aləm, bütün varlıq.
***Kamanzər*** (f.) - qızıl kaman, qızıldan olan kaman.
***Kaminat//Kəminət//Kəminə*** (f.) - azacıq, kiçicik, əhəmiyyətsiz; aciz, fağır.
***Keyfiyyət*** (ə.) - necəlik, yaxşılıq və ya pislik; əhvalat; işin gedişi.
***Keysu*** (f.) - uzun saç, zülf, hörük.
***Kəbutər//Kabutər*** (f.) - göyərçin.
***Kəhrəba*** (f.) - muncuq, müştük, təsbeh dənəsi və s. düzəldilən sarı rəngli maddə.
***Kəhriz*** (f.) - yeraltı su yolu, su kəməri,quyu-bulaq.
***Kəklik*** - əlvantüklü çöl quşu; yaraşıqlı, incə.
***Kəlamət//Kəlimət*** (ə.) - sözlər, kəlmələr, ifadələr.
***Kəlamnaz*** (ə.,f.) - incə, zərif söz; ürəyəyatan ifadə.
***Kəlimə*** (ə.) - gözəl, hikmətamiz söz, nəsihətamiz ifadə.
***Kənarə*** (f.) - qıraq, dövrə; sahil, ətraf; tərəf.
***Kəniz//Kənizə*** (f.) - xidmətçi qız, qulluqçu.
***Kərimə*** (ə.) - qız övladı; göz.
***Kəsimə*** - kəsmə, kəsiş; biçim; müəyyən edilmiş.
***Kəsirə//Kəsirət*** (ə.) - çox bol; sıx; əksəriyyət.
***Kəzban*** (f.) - xanım, sahibə; evdar qadın.
***Kiçikbəyim*** - kiçik bəyim, balaca bəyim.
***Kiçikxanım*** - kiçik xanım, balaca xanım.
***Kifayət*** (ə.) - bəs olma, yetər, qane olma; daha qız bəsdir.
***Kimxarə*** (f.) - ipək parça.
***Kimya//Kimyə*** (ə., əsli yun.) - maddələrin quruluşu və onların qarşılıqlı əlaqəsini öyrənən elmin adı; hikmət, qüdrət.
***Kinəbacı*** - talış dilində «kinə» qız, ad isə « qız bacı» deməkdir.
***Kinəxanım*** - qız xanım; xanım kimi qız (Bu iki ad ən çox Lənkəran və Masallı zonasında işlənir).

***Kirayə*** (ə.) - ödənişlə bir şeydən istifadə hüququnun başqasına verilməsi.
***Kişmiş*** - üzüm qurusu; qarabuğdayı.
***Kişvər//Küşpər//Küşvarə*** (f.) - ölkə, məmləkət.
***Klara*** (l.) - aydın, təmiz; işıqlı, parlaq.
***Könül*** - ürək, qəlb; istək, arzu, həvəs.
***Kövkəb//Kökkəb*** (ə.) - ulduz; bəxt, tale.
***Kövsər//Kevsər//Kövsəriyyə*** (ə.) - bol, tükənməz (Cənnətdə saf və dadlı suyu olan çeşmənin adından olub, "şirin, dadlı, ləzzətli içki" mənasındadır).
***Kubra//Kübra*** (ə.) - ən böyük, lap böyük (qız).
***Kubrabəyim//Kübrabəyim*** - ən böyük bəyim, lap böyük qız.
***Kubraxanım//Kübraxanım*** - ən böyükxanım, lap böyük qız.
***Külək*** - havanın üfüqi istiqamətdə hərəkətindən ibarət təbiət hadisəsi.
***Külfiyyə*** (ə.) - İlahi sözlü, Allah kəlamları.
***Kündə*** - yumrulanmış xəmir; kobud, kələ-kötür.
***Kündəbəyim*** - kündəyə oxşayan yumru bəyim; yumru qız.
***Kündəxanım*** - kündəyə oxşayan yumru xanım; yumru qız.
***Kürnaz*** - naz ilə ağlayan, naz ilə qışqıran, şıltaqlıq edən.
***Kürsüm*** - bax: Gülsüm.
***Kürsümxanım*** - bax: Gülsümxanım.
***Kürüz*** - ağlağan üz; sarı üz, sarı bəniz.
***Küsən*** - hər şeydən küsən, inciyən.
***Küsgün//Küsgünə//Küskün//Küskünə*** - küsmüş, incik, incimiş, narazı.
***Kütafət*** (f.,ə.) - xoşbəxt, bəxtəvər, şad.
***Kütahi*** (f.) - qısa, gödək.

## Q

***Qaidə//Qayda*** (ə.) - adət; nizam, səliqə; üsul, yol, tərz.
***Qaraca*** - ən qara; qarabuğdayı (qız).
***Qaragilə*** - qara giləleri olan, dənəsi qara olan.
***Qaragöz*** - gözləri qara olan, qaragözlü.
***Qarağat//Qaraqat*** - xırda üzüm kimi salxımlı, turşməzə, qara və qırmızı meyvəsi olan kol bitki və onun meyvəsi; qarağat kimi qız.
***Qaraqaş*** - qaşları qara olan adam, qara qaşlı qız.
***Qarasaç//Qaratel*** - saçı qara olan; qarasaçlı, qaratelli.
***Qaraşın*** - açıq-qara, qaratəhər.

***Qaydagül*** (ə.,t.) - nizamlı, səliqəli gül.
***Qaydaxanım*** (ə.,t.) - nizamlı, səliqəli xanım.
***Qayəgül*** - arzulanan gül, amal olan gül.
***Qayəxanım*** - arzulanan xanım, amal olan xanım.
***Qayəxatın*** - arzulanan xatın, amal olan xatın.
***Qaysı*** - rəngi sarı olan, çəyirdəkli, ətli meyvə növü və ağacı, ərik.
***Qaysıbəyim*** - qaysı kimi bəyim (qız).
***Qaysıxanım*** - qaysı kimi xanım (qız).
***Qaytan*** - yumşaq iplikdən, ipəkdən hörülmüş bağ, ip.
***Qeysərgül*** (ə.,f.) - qeysərin gülü; qeysərə layiq gül.
***Qeysiyyə*** (ə.) - qeysərə, hökmdara məxsus.
***Qədəmbəyim*** - bax: Qədəm və Bəyim.
***Qədəmgül*** (ə.,f.) - gül qədəmi, gül addımı.
***Qədəmxeyir*** - qədəmi xeyirli olan, gəlişi faydalı olan; xeyirqədəmli qız.
***Qədəmnaz*** (ə.,f.) - nazla yeriyən, qədəmləri nazlı olan, nazənin.
***Qədəmnisə*** (ə.) - qız qədəmi, gözəl gəlişi, ayağı.
***Qədəmnur*** (ə.) - qədəmi işıqlı, parlaq olan; uğur gətirən.
***Qədəmzər*** (ə.,f.) - qədəmləri qızıl kimi, qədəmi gözəl və uğurlu olan.
***Qədimbacı*** - bax: Qədim və Bacı.
***Qədimgül*** (ə.,f.) - qədim gül, köhnə gül.
***Qədirbəyim*** (ə.,t.) - qadir bəyim, qüdrətli bəyim.
***Qədriyyə*** (ə.) - qədir-qiymətli; hər şeyi bacaran.
***Qəlbinaz*** (ə.,f.) - qəlbi nazlı olan, ürəyi işvəli olan.
***Qələbə*** - zəfər, qalib gəlmə, uğur qazanma.
***Qələmgül*** (ə.,f.) - gül kimi bəzək və naxış; gözəl.
***Qələmqaş*** - qələm qaşlı, qaşı qələm kimi olan qız.
***Qələmnaz*** (ə.,f.) - nazlı, bəzəkli qız; gözəl.
***Qələmzər*** (ə.,f.) - qızıl qələm, qızıl naxış və bəzək; gözəl.
***Qəmayə*** (ə.) - qəmli ayə, kədərlilik əlaməti.
***Qəmər*** (ə.) - Ay; gözəl, qəşəng.
***Qəmərbanu*** (ə.,f.) - Ay kimi xanım, Aya bənzər banu.
***Qəmərcan*** (ə.,f.) - Ay kimi gözəl qız.
***Qəmərçin*** - Qəmər kimi gözəl, Aya bənzər.
***Qəmərgül*** (ə.,f.) - Ay gülü, Aydan gəlmiş gül.
***Qəmərxanım*** - Ay kimi gözəl xanım.
***Qəməriyyə*** (ə.) - Aya məxsus, Ay ilə əlaqədar olan.
***Qəmərnaz*** (ə.,f.) - Ay kimi nazlı qız; gözəl.
***Qəmərnur*** (ə.) - Ayın nuru, Ayın işığı; çox gözəl.

***Qəmərrux*** (ə.,f.) - üzü Ay kimi, Ay üzlü, Ay bənizli; gözəl.
***Qəmərşan*** (ə.) - Qəmər şöhrətli, Ay şöhrətli qız.
***Qəmərşən*** (ə.,f.) - Ay sevincli, Ay kimi şən gözəl.
***Qəmərtac*** (ə.,f.) - Ayın tacı, Ayın tacına bənzər qız.
***Qəmərtən*** (ə.,t.) - Ay bədənli, Ay kimi gözəl.
***Qəmərüz*** (ə.,t.) - Ay üzlü, Ay sifətli; çox gözəl, qəşəng.
***Qəmurə*** (ə.) - məstləşmək; oyun yoldaşı, tərəf müqabili.
***Qəmzə*** (ə.) - naz-qəmzə, işvə, işvəli baxış.
***Qənaət//Qənahət*** (ə.) - ehtiyatlılıq.
***Qəndab//Qənnab*** (ə.,f.) - qənd suyu, şərbət; şirin, ürəyəyatan.
***Qəndə*** (ə.) - qənd, şəkər kimi (qadın), şirin, ləzzətli.
***Qəndi*** - ata-ananın şəkəri, valideynin qəndi.
***Qənifə*** - "Hənifə" (bax) adının qısaldılmış forması.
***Qənimə*** (ə.) - əksinə olma, düşmən kəsilmə.
***Qənirə*** (ə.) - tay, bərabər, misil; həddindən artıq gözəl.
***Qərənfil*** - ağ-qırmızı rəngli xoşiyli çiçək.
***Qəribə*** (ə.) - eşidilməmiş, görünməmiş qeyri-adi; yad, gəlmə, özgə.
***Qəribgül*** (ə.,f.) - qeyri-adi gül; yad çiçək.
***Qəribiyyə*** (ə.) - qəriblik, qürbətlik, yadlıq.
***Qəribnar*** (ə.) - qeyri-adi ad, qəribliyin odu, atəşi.
***Qəribnaz*** (ə.,f.) - nazı, qəmzəsi qeyri-adi olan; nazlı, qəmzəli qız.
***Qəribnisə*** (ə.) - qeyri-adi qadın; qərib, yad qadın.
***Qəribnur*** - qeyri-adi nur, işıq; qərib, yad nuru, işığı.
***Qərinə*** (ə.) - 33 illik zaman, dövr; rəfiqə, dost.
***Qəriyə//Qəriyyə*** (ə.) – «qərihə» sözündəndir və «istedad, talant; ağıl, şüur; düha, zəka» deməkdir.
***Qəsibə*** (ə.) - qəsb edən.
***Qəsirə*** (ə.) - "qasir" sözündən olub, "qısa, zəif" deməkdir.
***Qəşəng*** (f.) - gözəl, göyçək, xoşagələn.
***Qəşənggül*** (f.) - gözəl gül, gözəl çiçək.
***Qətibə//Qutabə*** - "Qutaybə" ("qut" - uğurlu, xoşbəxt və "Ay" sözlərindən düzəlmiş, "uğurlu, xoşbəxt Ay" mənasındadır) adının sadələşdirilmiş forması.
***Qətifə*** (ə.) - ipək, yun və ipəkdən toxunmuş tiftikli qumaş.
***Qırqovul*** - kəklik, gözəl, qəşəng.
***Qısabəyim*** - qısa bəyim, balacaboy qız.
***Qızana*** - anayabənzər qız; ana əvəzi qız.
***Qızbacı*** - "qız" və "bacı" sözlərindən düzəlmişdir.

***Qızbəs//Qızbəsdi//Qızbəst//Qızbəsti*** - qız bəsdir, qız kifayətdir.
***Qızbəyim*** - bəyim kimi qız, hörmətə layiq, şərəfli qız.
***Qızbikə*** - "Bikə" (bax) kimi qız; gözəl, qəşəng.
***Qızgəlin*** - gəlin kimi qız; bəzənmiş gəlinə bənzər qız.
***Qızgül*** - gül kimi qız; qızların gülü.
***Qızxanım*** - xanım kimi qız; gözəl, sevimli qız.
***Qızıl*** - qızıl kimi qiymətli; qırmızı.
***Qızılgül*** - qırmızı gül.
***Qızılı*** - qızılı rəngli qız, qızıl kimi parlaq və gözəl qız.
***Qızıltac*** - qızıldan hazırlanmış tac.
***Qızqayıt*** - qız, qayıt; qız, geri dön; daha qız olmasın.
***Qızlar*** - "qız" sözünün cəmi.
***Qızlarağa*** - qızların ağası, qızların böyüyü; böyük qız.
***Qızlarağası*** - qızların ağası, gözəllərin hökmdarı.
***Qızlarbəyim*** - bax: Qızlar və Bəyim.
***Qızlarxanım*** - qızlar xanım; xanım kimi qızlar.
***Qıznaz*** - işvəli, nazlı və cilvəli qız.
***Qıznənə*** - nənəyə bənzəyən qız, nənə kimi gözəl qız.
***Qıztamam//Qızyetər*** - qız yetər, daha qız bəsdir.
***Qismətbəyim*** (ə.,t.) - qismət olan qız, Allah payı olan qız.
***Qiyafə//Qiyafət*** (ə.) - zahiri görünüş.
***Qiyamət*** (ə.) - dini etiqada görə, aləm dağıldıqdan sonra ölülərin dirilib qalxması; məhşər günü; müsibət, fəlakət; çox gözəl, çox yaxşı, əla və s.
***Qiymət*** (ə.) - hər hansı mal və əşyanın dəyəri.
***Qonça//Qönçə*** (f.) - açılmamış qızılgül, tumurcuq; təravətli.
***Qonçabəyim//Qönçəbəyim*** - Qönçə bəyim; qönçə kimi bəyim; həddi-büluğa çatmayan qız.
***Qotaz*** - üst tərəfi bir yerə qısılıb bağlanmış saplardan ibarət saçaqlı bəzək.
***Qonçagül//Qönçəgül*** - gül qönçəsi; gözəl, təravətli.
***Qonçaxanım//Qönçəxanım*** - Qönçə xanım; qönçə kimi gözəl xanım.
***Qönçələb*** (f.) - qönçə kimi zərif və gözəl dodaqları olan.
***Qönçətəkin*** **-** qönçə kimi; qönçəyə bənzər qız.
***Quba*** - köbə; sahil (Eyni adlı rayon və şəhərin adındandır).
***Qubaxanım*** - Quba xanımı; qubalı xanım.
***Qubar*** (ə.) - narın torpaq; qəm, kədər, qüssə.
***Qumaş*** - qırmızı, göy rəngli ipək parça növü.
***Qumral*** - xurmayı rəng; xurmayı saçlı.

***Qumru//Qumriyyə*** - göyərçinə bənzər gözəl quş; gözəl, qəşəng.
***Qumrubəyim*** - qumru kimi gözəl, qəşəng qız.
***Qurbanxanım*** - özünü nəyə və ya kiməsə fəda edən xanım.
***Qutay*** - xoşbəxt Ay; uğurlu Ay; müqəddəs Ay.
***Qutlay*** - qutlu (uğurlu, xoşbəxt, bəxtəvər) Ay.
***Qüdsiyə//Qüdsiyyə*** (ə.) - Qüdslü qız; müqəddəs qız.

## ꕤ L ꕤ

***Lafizə*** (ə.) - söz, ifadə.
***Lala//Lalə*** (f.) - qırmızı rəngli çiçək, parlaq gül; çox gözəl.
***Lalabəniz//Laləbəniz*** (f.,t.) - lalə kimi qız, lalə üzlü gözəl.
***Lalabəyim//Laləbəyim*** - lalə kimi gözəl bəyim, qırmızı bəyim.
***Lalaxanım//Laləxanım*** (f.,t.) - Lalə xanım; lalə kimi xanım.
***Laləçiçək*** - lalə gülü, lalə çiçəyi; lalə çiçəyi kimi gözəl qız.
***Laləgun//Laləgün*** (f.; f.,t.) - lalə rəngli; lalə kimi qırmızı; xoşbəxt.
***Laləgül*** (f.) - lalə çiçəyi, lalə gülü.
***Laləm*** - mənim laləm; lalə kimi gözəl qızım.
***Laləndar//Laləndər*** (f.) - laləyə sahib olan, laləyə malik olan; lalə kimi səp.
***Laləndə*** - çoxlu lalə bitən yer, laləlik.
***Lalənur*** (f.,ə.) - lalənin nuru, lalənin işığı; çox gözəl qız.
***Laləruh*** (f.) - lalə canlı, laləyə bənzər; çox gözəl qız.
***Lalərux*** (f.) - laləyanaq, alyanaq, lalə üzlü (qız).
***Laləzar*** (f.) - çoxlu lalə bitən yer, laləlik (t.qırmızı lalə; lalənin işığı).
***Laləzər*** (f.) - lalənin zəri, lalənin qızılı (t. lalənin işığı, lalənin odu; Qədim türk dillərində Günəş mənasında sarı, sar sözlərindən istifadə olunmuşdur. Zənnimizcə, fars dilindəki "zar", "zər" söz və söz komponentləri də "sarı" və "sar" sözləri ilə sinonimdir).
***Lamiə//Lamiyə//Lamiyyə*** (ə.) - işıqlı, işartı, parıltı.
***Laura*** (l.) - əsli “laurea”dır; dəfnə ağacı və yarpağı.
***Lauza//Lauzad//Lauzat//Lauzət*** - bax: Luiza.
***Layla*** - körpələri yatırmaq üçün avaz ilə oxunan həzin şeir parçası; nənni, beşik nəğməsi.
***Lazifə//Ləzifə*** (ə.) - şirin, ləziz, xoşagələn.
***Lena*** (r.) - «Yelena»nın ixtisarı; günəşli, Günəş işığı; Lena çayı.
***Leonara//Lianora*** (yun.) - şir qızı; şirtək qoçaq qız.
***Leyla//Leyli*** (ə.) - gecəyə aid olan, gecə; incə, zərif zanbaq.

***Leylaxanım//Leylixanım*** (ə.,t.) - Leyla xanım; incə, zərif, qarasaçlı, zanbaq kimi qız.
***Leylam//Leylan*** - mənim Leylam, sənin Leylan.
***Leysanət*** (ə.) - leysanlı, leysanlar; güclü yağışlar.
***Ləlilə*** (ə.) - ağıllı, zəkalı, sağlam düşüncəli, ehtiyatlı.
***Ləman//Ləmən*** (ə.) - işıldayan, parıldayan, işartı verən.
***Lərzə*** (f.) - titrəmə, titrəyiş, əsmə.
***Lətafət*** (ə.) - incəlik, lətiflik, mülayimlik; gözəllik.
***Ləyaqət*** (ə.) - layiq olma, bəyənilmə.
***Lida//Lidiya*** (y.) - Kiçik Asiyada qədim ölkə adındandır.
***Lildar*** - sulu yerlərdə bitən yarpaqlı ot-bitki.
***Lilpar*** - sulu və nəmişlik yerlərdə bitən yarpaqlı ot.
***Lilufər*** - bax: Nilufər.
***Limon*** (yun.) - həmişəyaşıl sitrus ağacının sarı rəngli meyvəsi.
***Limonad*** (fr.) - müxtəlif meyvə, giləmeyvə və səbzəvatdan istifadə yolu ilə hazırlanan sərinləşdirici şirəli içki.
***Limunə//Limunət//Lumiyyə*** (ə.) - limona aid olan, limonla əlaqədar olan; limonad.
***Limuzər//Lumuzər//Lümuzər*** (yun.,f.) - qızıl limon, qızılı limon.
***Lira*** (yun.) - simli musiqi aləti; rübab.
***Livanə*** - eyniadlı dövlətin adındandır; Livandan olan qız.
***Liza*** (ə.) - buna görə; bax: Luiza.
***Luiza//Lüiza//Layüzə*** (fr.) - döyüş, vuruş, vuruşma şöhrəti.
***Lumiyyə//Lümiyyə*** (yun.,f.) - limona aid olan, limonlar.
***Lumu*** (ə.) - yun. "limon"un ərəbləşmiş forması.
***Lumugül*** (yun.,f.) - limon gülü, limon çiçəyi.
***Lübadə*** (f.) - əjdaha kasası.
***Lübanə*** (ə.) - böyük, çoxlu; mühüm, vacib; iş, fəaliyyət.
***Lütfinaz*** (ə.,t.) - nazın lütfi, nazın mehribanlığı, nazın xoşluğu.
***Lütfiyaz*** (ə.,t.) - yazın lütfi, yazın mehribanlığı, xoşluğu.
***Lütfiyə//Lütfiyyə//Lütviyyə//Lütfina*** (ə.) - lütfkar, iltifatlı, mərhəmətli, xeyirxah.
***Lyudmila*** (r.) - lyudi mila; səmimi adam, mehriban insan.

## M

***Macəra*** (ə.) - həyəcanlı hadisə, sərgüzəşt, əhvalat.
***Mafiyə//Mafiyyə*** (ə.) – «ma» (su) və «fiyət» (qiymət) sözlərindən düzəlmiş, «qiymətli, dəyərli su» deməkdir.

***Mafizə*** (ə.) - "məhfəzə" sözündən olub, mücrü, sandıqça, qılaf deməkdir.
***Mafruzə*** (f.)***//Məfruzə*** (ə.) - almaq; sayılan, seçmə; icrası vacib olan; fərz, güman.
***Maham//Mahan*** (f.) - aylar; gözəl, qəşəng, gözəlçə, qəşəngçə.
***Mahcamal//Məhcamal*** (f.,ə.) - Ay camallı, Ay üzlü, Ay bənizli.
***Mahi//Məhi*** (f.) - Aya aid olan, Aya məxsus olan.
***Mahinur//Mahnur//Mahnurə//Məhnurə*** (f.,ə.) - Ay nuru, Ay işığı.
***Mahisara*** (f.,ə.) - təmiz, saf Ay; təmiz, saf Sara.
***Mahitab//Mahitavan//Mahtab//Mahtaban//Mahtavan//Mehtab//Məhtab//Məhtaban//Məhtəban//Mahitəban//Möhtaban*** (f.) - Ay işığı, Ay aydınlığı; aylı gecə.
***Mahitac//Mahtac*** (f.) - Ayın tacı; Ay haləsi, Ayın parlaq işığı.
***Mahiyyə//Mahiyyət*** (ə.) - daxili məzmun, xüsusiyyət, əsl məna, məğz.
***Mahizar//Mahizər//Mahzuar//Mahuzar//Mahuzər//Mahzar//Mahzər*** (f.) - üzü Aya bənzəyən, sifəti Ay kimi olan; gözəl.
***Mahizə*** (f.) - Ay kimi, Aya bənzər; ağbəniz gözəl.
***Mahliqa//Maxluqə//Məhliqa//Məhluqə*** (f.,ə.) - Ay üzlü, Ay bənizli; gözəl.
***Mahmənzər*** (f.,ə.) - Ay üzlü, Ay görünüşlü (gözəl).
***Mahmur//Maxmur//Məhmur//Mahmurə//Maxmurə//Məhmurə*** (ə.) – yuxulu, uyğulu, dalğın; məst, xumarlanma.
***Mahmuzər//Mahmizər*** - "Mahmənzər" (bax) adının dəyişikliyə uğramış forması.
***Mahnar*** (f.,ə.) - Ay işıqlı; Ay odlu, sarı qız.
***Mahnaz*** (f.,t.) - Ay kimi nazlanan; Ayın nazı.
***Mahnigar//Mahniyar*** (f.) - Ayın surəti, Ay üzlü, Ay surətli; qəşəng.
***Mahnisə//Manisə*** (f.,ə.) - Ayüzlü qız(lar), Ay surətli qadın(lar).
***Mahnişan//Mehnişan*** (f.) - Ay nişanəsi, əlaməti; meh, yel əlaməti, nişanəsi.
***Mahparə//Mehparə//Məhparə*** (f.) - Ay parçası, nazik Ay.
***Mahpeykər*** (f.) - Aya bənzər, Ay kimi; Ay surətli, Ay bədənli.
***Mahpəri*** (f.) - Ay pərisi; Ay kimi gözəl; çox qəşəng.
***Mahru*** - bax: Mahrux.
***Mahruba//Mahrubə//Məhrubə//Məhruba//Məhrüba*** (f.) - sevgi oyadan, məhəbbət yaradan.
***Mahrux*** (f.) - üzü Aya bənzəyən, sifəti Ay kimi olan.
***Mahruqə*** (ə.) - böyük şəhər, mərkəz.

***Mahruzə//Məhruzə*** (f.) - orucluq ayı; qorunmuş, saxlanmış.
***Mahşərəf*** (f.,ə.) – «mah» və «şərəf» sözlərindən düzəlmiş, «Ayın yüksəkliyi, Ayın dərəcəsi; ulu» deməkdir.
***Mahtac*** (f.) - Ayın tacı, bəzəyi; Ayın tacı kimi gözəl qız.
***Mahtən*** (f.) - Ay bədənli, Ay əndamlı.
***Makizə//Makizət*** (f.) - pakizə, pak, təmiz, gözəl.
***Mamaqız*** - bibi qız, bibi kimi, bibiəvəzi olan qız.
***Maral*** - budaqvari buynuzu olan yaraşıqlı heyvan; gözəl, qəşəng.
***Mariya*** (y.) - ismətli, namuslu. İsa peyğəmbərin anası ***Mariya*** (ərəbləşmiş forması Məryəm) adının tədqiqatlarda "Mara-more" - dəniz ilə əlaqələndirilməsinə də təsadüf edilir.
***Markizə*** (fr.) - markizin arvadı.
***Matan*** - kök, ağ, göyçək, koppuş.
***Mavi*** (ə.) - açıq göy, aydın səma rəngində olan; dəniz, pak.
***Maya*** (f.) - əsas, əsl; saf, təmiz; göyçək; t. dəvə balası.
***Mayaxanım*** (f.,t.) - saf, təmiz, gözəl xanım; Maya xanım.
***Mayda//Maydə//Mayidə*** (ə.) - “Quran” surələrindən birinin adındandır; yeməklə düzəldilmiş süfrə; qonaqlıq; zərif, incə.
***Maydagül***- zərif gül, incə çiçək.
***Mayəsər*** (f.) - baş, əsas kapital, sərmayə.
***Maygül//Maygülü*** (l.,f.) - may gülü; mixəkgülü.
***Maygün*** - may günü, may Günəşi; bahar təravətli gözəl.
***Mayxanım*** - May xanım; may xanımı; may ayı kimi gözəl qız.
***Maynar//Mahnarə*** (r.,ə.) - odlu, isti may, qızmar may.
***Maynaz*** (r.,f.) - may nazı; nazlı, işvəli may.
***Maynisə*** (l.,ə.) - may qız(lar)ı, mayda doğulan qız(lar).
***Maynur//Maynurə*** (l.,ə.) - may nuru, may işığı; saf və çox gözəl.
***Maysara*** (f.,ə.) - zənginlik, bolluq ayı; dövlət, mülk ayı; təmiz may.
***Mayzər*** (r.,f.) - qızıl may; may zəri kimi gözəl qız.
***Mehin//Məhin//Məhinə*** (f.) - ən böyük, ali, möhtəşəm; sənin Ayın.
***Mehran//Mehranə*** (f.) - sevən, məhəbbət bəsləyən.
***Mehransa//Mehrannisə//Mehransə//MeyranisəMehrənsə//Meyransa//Meyrənisə//Meyrənsə*** (f.,ə.) - qızların məhəbbəti, qadınların sevgisi.
***Mehrbanu*** (f.) - mehriban xanım; xanımın sevgisi, məhəbbəti.
***Mehrəngiz//Mehrangiz*** (f.) - mehr saçan, sevgi yayan.
***Mehri*** (f.) - sevgi, məhəbbət.
***Mehriban*** (f.) - istəkli, sevimli, xoşrəftar, şəfqətli.
***Mehrican*** (f.) - sevimli könül, sevimli can, nazlı qız.

***Mehrixanım*** (f.,t.) - xanımların günəşi.
***Mehrinaz*** (f.) - nazlı, səmimi naz eləyən, çox naz eləyən.
***Mehrinisə*** (f.,ə.) - qadınların günəşi.
***Mehriyyə*** (f.,ə.) - sevilən qız; sevgili, sevgililər.
***Melisa//Məlisa*** - ballı nanə, limonotu,badrənc.
***Melodiya*** (yun.) - nəğmə, ahəngdar hava, motiv, ahəngdarlıq, melodiklik.
***Meyxanım*** (f.,t.) - mey kimi cəlbedici xanım; çox gözəl.
***Meysara//Meysarə*** (ə.) - meyin safı, təmizi; saf, təmiz, xalis mey.
***Meyvə*** – hər hansı meyvə ağacının məhsulu, barı; ailənin məhsulu, barı.
***Məbrurə*** (ə.) - günahı bağışlanmış; dəyərli, məqbul, bəyənilmiş, xeyirli.
***Mədinə*** (ə.) - şəhər; müqəddəs, səcdəgah (Məhəmməd peyğəmbərin hicrətindən sonra Yəsrib şəhəri "peyğəmbər şəhəri" mənasında "Mədinətün-Nəbi" adlandırıldı. "Mədinə" həmin adın qısaldılmış formasıdır).
***Məfkurə*** (ə.) - ideologiya; qayə, ideya.
***Məhəbbət*** (ə.) - sevgi, sevmə, sevda, eşq.
***Məhi//Məhin//Məhinə*** (ə.) – «məhin» sözündən düzəlmiş, «böyük, ali, möhtərəm» deməkdir.
***Məhinbanu*** (f.) - böyük xanım.
***Məhruzə*** (f.) - Orucluq ayı; qorunmuş, saxlanmış; əzbərlənmiş.
***Məhsəti//Məshəti*** (f.) - Ay üzlü xanım; aybəniz, Aya məxsus.
***Məhsima*** (f.,ə.) - Ay üzlü gözəl. Bax: Mahliqa.
***Məhsubə*** (ə.) - saylan, tanınan; himayə edilən, himayəçisi olan; istəkli, sevimli.
***Məhsul*** (ə.) - hasil olan, meydana gələn; meyvə, taxıl, süd, yağ və s.
***Məhzadə*** (f.) - Ayın övladı, Aydan törəyən; Ay kimi gözəl qız.
***Məxfirə//Məxfurə//Məhburə//Məxfirət*** (ə.) - həyalı, abırlı, utancaq.
***Məxmər*** - üzü qısa xovlu parlaq ipək parça.
***Məkalət*** (ə.) - söhbət, kəlam, fikir.
***Məkanət*** (ə.) - bacarıq, iqtidar; ləyaqət, vüqar; mövqe, rütbə.
***Məkkə*** (ə.) - şəhərlər anası (Məhəmməd peyğəmbər burada anadan olmuşdur. Müqəddəs Kəbə məbədi də bu şəhərdə yerləşir).
***Məksunə*** (ə.) - məskun, sakin olan qadın və ya qız.
***Məqbulə*** (ə.) - qəbul olunan, bəyənilən, xoşagələn, yaxşı.
***Məlahət*** (ə.) - gözəllik, şirinlik, lətafət.
***Məlakə//Məlakət*** (ə.) - "mələk" sözünün cəmi; mələklər.

***Məlamət*** (ə.) - məzəmmət, qınama, qaxınc; kədərləndirmə.
***Məleykə//Məlikə//Mələkə (ə.) -*** şah arvadı, hökmdar qadın, şahbanu, şahzadə (qız).
***Mələk*** (ə.) - Allahın xidmətçisi olan ilahi varlıq.
***Mələkbacı*** (ə.,t.) - mələk kimi bacı, gözəl bacı.
***Mələkbəyim*** (ə.,t.) - mələk kimi bəyim, gözəl bəyim.
***Mələkcamal*** - bax: Mələk və Camal.
***Mələkçöhrə*** - mələk üzlü, mələk sifətli.
***Mələkxanım*** - bax: Mələk və Xanım.
***Mələkmənzər*** - bax: Mələk və Mənzər.
***Mələknaz*** (ə.) - nazlı mələk, gözəl naz eləyən.
***Mələknisə*** (ə.) - mələk kimi nisə; çox gözəl və mülayim qız (lar).
***Mələknur*** (ə.) - işıq saçan mələk, nurlu mələk.
***Mələksima*** (ə.) - mələk simalı, mələküzlü; mələk kimi gözəl.
***Mələkzər*** (ə.,f.) - qızıl kimi mələk, mələk kimi gözəl.
***Məlhəm*** (ə.) - dərman, əlac, çarə.
***Məlih//Məliha//Məlihə*** (ə.) - məlahətli, xoşagələn, lətafətli.
***Məliknaz*** (ə.,f.) - hökmdara layiq nazlı, şahanə qəmzəli.
***Məltəm*** - sahil küləyi, xəfif külək.
***Məmləkət*** (ə.) - ölkə, diyar, ərazi.
***Mənbə*** (ə.) - qaynaq, bulaq; məxəz.
***Mənicə*** - məncə, mən qədər, mənim qədər.
***Mənifə*** (ə.) - yüksək, uca, ali.
***Mənquşə*** (ə.) - nəqş olunmuş, nəqş edilmiş.
***Mənzər//Mənzərə*** (ə.) - ümumi görünüş; nəzəri oxşayan yer.
***Məray//Mərayə*** (ə.)- güzgü, güzgülər, ayna, aynalar.
***Mərcan//Mərcanə*** (ə.) - al-qırmızı və ya rəngli muncuq.
***Mərəngiz*** (ə.,f.) - mülayimlik, yumşaqlıq yaradan, səpən.
***Mərhəmət*** (ə.) - rəhm, şəfqət, acıma, insaf, yaxşılıq.
***Mərifət*** (ə.) - bilik, tərbiyə; hər şeyi başa düşmə.
***Məriyyə//Məriyyət*** (ə.) - gözlə görünən; riayyət edilmiş, nəzərə alınmış.
***Mərizə*** (ə.) - xəstə, naxoş, əlil, şikəst qadın; bir şeyin göründüyü, sərgi.
***Mərqubə//Mərqufə*** (ə.) - rəğbət olunan, sevilən, arzu olunan; gözəl, bəyənilmiş.
***Mərmər*** (l.) - müxtəlif rəngli kristal dağ suxuru.
***Mərtubə*** (ə.) - yaş, nəm, rütubətli; təravətli.
***Məruzə*** (ə.) - müəyyən məsələ haqqında əvvəldən hazırlanmış nitq.

***Məryəm*** (y.) - tədqiqatlardan “mara” (rədd eləyən, müqavimət göstərən), “marar” (acı, zəhər olan), “morya” (təmiz, pak) və s. kimi izah edilən “Mariya” (İsa peyğəmbərin anasının adı) adının ərəbləşmiş forması.
***Mərzə*** - ətirli tərəvəz bitkisi;
***Mərziyə//Mərziyət//Mərziyyə//Mərziyyət*** (ə.) - xoşagələn; razılıq, məqbul sayılma.
***Məsmə*** - bax: Məsum, Məsumə.
***Məsməxanım*** (ə.,t.) - Məsmə xanım; ismətli, günahsız xanım.
***Məsubə*** (ə.) - yaxşı hərəkətin, xeyirli bir işin əvəzində Allah tərəfindən verilən muzd, əcr (dini).
***Məşədxanım//Məşədixanım*** - Məşədi (İranın Məşhəd şəhərində VIII İmam Rzanın məzarını ziyarət edənlərə verilən dini fəxri ad) xanım.
***Məşkufə*** (ə.) - açılmamış.
***Məşurə*** (ə.) - camaat, cəmiyyət; duyğu, hiss.
***Mətanət*** (ə.) - dözüm, dövranlılıq, möhkəmlik, mətinlik.
***Məziyyət*** (ə.) - üstün cəhət, müsbət xüsusiyyət.
***Mıxaynisə//Mixəknisə*** (f.,ə.) - mixək kimi qız(lar); ətirli, təravətli.
***Mixək*** (f.) - ətirli, tünd, dadlı ədviyyələrdən biri.
***Mixəkgül*** - çox ətirli, əlvan çiçəkli gül, maygülü.
***Mixəkxanım*** (f.,t.) - Mixək xanım; mixək kimi ətirli xanım.
***Mixəkzər*** (f.) - qızıl mixək; qızılı rəngli mixək kimi qız.
***Miladə*** (ə.) - anadan olan gün, ad günü; İsa peyğəmbərin təvəllüd günü bayramı.
***Milanə*** - İtaliyanın eyni adlı şəhərinin adındandır.
***Milliyə*** (ə.) **-** millətə aid olan, millətə məxsus olan.
***Mina*** (f.) - incə və parlaq naxış; büllur.
***Minabacı*** - mina kimi bacı, büllur kimi gözəl.
***Minabəyim*** (ə.,t.) - Mina bəyim; mina, büllur kimi bəyim.
***Minafər*** - Min Afərin! Min əhsən! ə. bəzəkli mina.
***Minagül//Minəgül//Minaçiçək*** - yerdən çox qalxmayan, gözəl, parlaq, göy rəngli gül.
***Minaxanım//Minəxanım*** - bax: Mina və Xanım.
***Minarə*** (ə.) - məscidlərdə azan verilən qüllə.
***Minasər*** (ə.,f.) - qiymətli başı olan; Minan dağının başı.
***Minasət*** (f.,ə.) - mina sifətli; incə və parlaq üzlü.
***Minavar//Minavər//Münəvvər//Minəvər//Minəvvər*** (ə.) - nurlu, işıqlı; seçilmiş.

***Minavaz*** (t.,f.) - min avazlı, min bir səsli-sədalı.
***Minayə*** (t.,ə.) – «min» və «ayə» sözlərindən düzəlmiş, "Quran"dakı cümlələrin hər biri.
***Minaz*** - min olsa da, azdır.
***Minazər//Minəzər*** (f.) - minası zərdən-qızıldan olan, qızıl minalı; gözəl (qız).
***Minər*** - min ərə bərabər, min igidə tay olan.
***Mingül*** - güldən olan, güldən əmələ gələn.
***Mingün*** - Günəş kimi lap parlaq, min Günə bərabər qız.
***Minxal*** - min xal, min xallı, xalı çox olan qız.
***Minnaz*** - nazdan olan, nazdan əmələ gələn; nazlı.
***Minnur//Minnurə*** (ə.) - işıqdan yaranan, işıqdan əmələ gələn.
***Mirəstə//Mürəstə//Mirastə*** (f.) - ağa kimi, ağaya bənzər, ağabəyim.
***Mirnaz*** (f.) - əmir nazı, ağa nazı; hökmdara layiq nazlı gözəl.
***Mirnisə*** (ə.) - rəis nisə; seyid nəslindən olan qadın; qadınların başçısı.
***Mirvari//Mirvarid*** (f.) - inci, dürr; inci kimi gözəl.
***Misavat*** (ə.) - bərabərlik, tənlik; («müsavat» adının təhrif forması).
***Moruq*** - ətirli, şirin, ağ ya qırmızı giləmeyvə.
***Möminəxatun*** (ə.,t.) - Möminə xatun; dindar qadın, dindar arvadı.
***Muğamat*** (ə.) - muğam tərzində olan havalar.
***Muğangül*** - Muğan gülü, çiçəyi; muğanlı gözəl.
***Muxayidə//Müxayidə*** (ə.) – «muaxədə» sözündən olub, «saziş, müqavilə, ittifaq» deməkdir.
***Muminət*** (ə.) - mömin qadınlar.
***Muncuq*** - boyunbağı, həmail; göz muncuğu.
***Mutluay*** - xoşbəxt Ay; bəxtəvər gözəl.
***Mutlugün*** - xoşbəxt gün; uğurlu gündə doğulan.
***Müjdəxanım*** (f.,t.) - xoş xəbər gətirən xanım, muştuluqçu.
***Müjgan//Müjganə//Müjgəm*** - kirpiklər.
***Mükəddər*** (ə.) - kədərli, qəmgin, məhzun, qüssəli.
***Mülayim*** (ə.) - həlim, yumşaq; rəhmdil; sakit.
***Mülkü*** (ə.) - vətəndaşların hüquqi vəziyyətinə aid olan; qeyri-hərbi; qeyri-əsgəri.
***Mülkücahan*** (ə.,f.) - cahanın, dünyanın varı, dövləti.
***Mülküxanım*** (ə.,t.) - mülkün, dövlətin xanımı.
***Müsaidə*** (ə.) - köməklik, yardım; izn, icazə.
***Müsənbər//Müsəmbər*** (ə.) - gözəl ətirli, xoş qoxulu.
***Müslimət//Müslümət//Müslümat*** (ə.) - müsəlman qadınlar.

***Müşərrəf*** (ə.) - şərəflənmiş, şərəfli; əzizlənmiş.
***Müşgünaz//Müşkinaz//Müşkünaz//Mişkinaz*** (f.) - müşklə nazlanan, gözəl qoxu verəcək naz edən.
***Müşkənbər*** (f.,ə.) - müşk (xüsusi cins ceyranın göbəyindən hazırlanan gözəl qoxulu, ətirli maddə) və ənbər (gözəl qoxulu maddə) sözlərindən düzəlmiş və çox gözəl qoxulu; dilbər, gözəl qız.
***Müzalifə*** (ə.) – saçlı, hörüklü.
***Müzeyfə*** (ə.) - iki dəfə artıq, ikiqat.
***Müzəyyəm//Müzəyyən*** (ə.) - bəzənmiş, zinətli, bəzəkli.

## N

***Nabat//Nobat*** (ə.) – qənd, şəkər, şirni; bitki; göyərti.
***Nabatxanım*** (ə.,t.) - Nabat xanım; şəkər kimi xanım.
***Nacihə*** (ə.) - məsləhətçi, nəsihətçi; yaxın dost, mehriban yoldaş.
***Nadidə//Nədidə*** (f.) - görülməmiş, görülməyən, tayı-bərabəri olmayan; az tapılan.
***Nadisat*** (ə.) - çox düşüncəli, alicənab qadın.
***Nafiyə*** (ə.) - ayıran, uzaqlaşdıran, inkar edən.
***Nafizət*** (ə.) - nüfuzluluq, sözükeçənlik, hörmətlilik.
***Nahibə//Nəhibə*** (ə.) - ah-nalə ilə ağlama.
***Naxış*** (ə.) - bəzək; bəxtli, bəxti yaxşı olan.
***Namiyə*** (f.,ə.) - adlı, məşhur; şanlı-şöhrətli.
***Namizə*** (f.) - adlı-sanlı qadın; qüdrətli, şöhrətli Allah; bacının əri.
***Nanabəyim//Nanəbəyim*** (ə.,t.) - Nanə bəyim; nanə kimi bəyim.
***Nanaxanım//Nanəxanım*** (ə.,t.) - Nanə xanım; nanə kimi xanım.
***Nanə*** (ə.) - yeyilən çoxillik ətirli göyərti.
***Nanəzər*** (ə.,f.) - qızıl nanə; nanə zəri kimi fərasətli qız.
***Naraləm*** (ə.) - dünyanın odu, kainatın atəşi, aləmin işığı.
***Narbadam*** (ə.,t.) - badamın odu, badamın atəşi.
***Narbahar*** (ə.,f.) - bahar odu, istisi; isti, odlu bahar.
***Narbikə*** (ə.,t.) - hərarətli, odlu qadın; bahar istisi.
***Narçiçək*** - nar çiçəyi, narın gülü.
***Nardan//Nardanə*** (f.,t.) - nardan olan, nar dənəsi; od parçası.
***Nargilə*** - nar dənəsi, nar giləsi.
***Nargül//Narıgül//Nargülü*** (f.) - narın al rəngli gülü, nar çiçəyi.
***Narxanım*** - nar kimi gözəl və zərif xanım
***Narı//Nari*** - oda məxsus, oda aid olan.

***Narın*** - çox xırda dənəli, toz kimi olan.
***Narınc*** (f.) - xoşiyli sitrus meyvəsi.
***Narıncan*** (f.) - incə, zərif can; incə qəlbli gözəl.
***Narıngül*** - narın gülü; incə gül, zərif gül.
***Naridə*** (ə.,f.) - odla, alovla, hərarətlə.
***Narmay//Narmayə*** (ə.,yun.) – «nar» (od) və «may» sözlərindən düzəlmiş, «may istisi, hərarəti», «xoşagələn, mülayim hərarət bəxş edən qız» deməkdir.
***Narpüstə*** (f.) – püstə odu, hərarəti; nar və püstə kimi qız.
***Narsevər*** (ə.,t.) – nar meyvəsi sevən; nar kimi qırmızıyanaq qız.
***Naryay*** (ə.,t.) – «nar» (od) və «yay» sözlərindən düzəlmiş, «yay odu, istisi, hərarəti, yandırıcı isti»; «odlu sevinc bəxş edən qız» deməkdir.
***Naryaz*** (ə.,t.) - «nar» (od) və «yaz» sözlərindən düzəlmiş, «yaz hərarəti», «yaz fəsli qədər sevinc bəxş edən qız» deməkdir.
***Nasxanım//Nazxanım*** (f.,t.) - nazlı xanım, işvəli xanım, nazlanan xanım.
***Nataliya*** (l.) - İsa peyğəmbərin doğum günü; xristianlığın yarandığı gün.
***Natan*** (y.) - Allah verdi, Tanrı verdi.
***Natella*** (l.) - işıqlı, aydın; gürcücə sarışın.
***Natəvan*** (f.) - qüvvəsiz, taqətsiz, gücsüz, zəif; köməksiz.
***Naynay*** (f.) – «nay» (qamışdan düzəlmiş nəfəsli musiqi aləti) sözünün təkrarı ilə düzəlmiş «məlahətli, xoş avaz» deməkdir.
***Nazaləm*** (f.,ə.) - dünyanın nazı, kainatın nazı.
***Nazan//Nazanə*** - özünü bəyəndirən, nazlanan, cilvələnən.
***Nazangül*** (f.) – «nazan» və «gül» sözlərindən düzəlmiş, «nazlanan gül, nazlı çiçək», «nazlı gözəl» deməkdir.
***Nazbacı*** - nazlı, cilvəli bacı, şıltaq, işvəli qız.
***Nazbadam*** (f.) - nazlı badam, badam nazı, badam kimi nazlı.
***Nazbahar*** (f.) - bahar nazı, nazlı bahar, şıltaq bahar.
***Nazbəyim*** - ərköyün, nazlı bəyim, cilvəli gözəl.
***Nazbibi*** - cilvəli bibi, nazlı dilbər.
***Nazbikə*** (f.,t.) - nazlı qız, nazlanan qız.
***Nazbinə*** (f.,ə.) – «naz» və «binə» (bünövrə) sözlərindən düzəlmiş, «naz yuvası, naz bünövrəsi»; «nazlı gözəl» deməkdir.
***Nazəndə*** (f.) - nazlanan, nazlı, cilvəli; incə, gözəl.
***Nazəngül*** (f.) - Nazənin gülü, nazlı gül, incə gül.
***Nazənin//Nazəni//Nazani*** (f.) - nazlı, qəmzəli, naz-qəmzəli.

***Nazgül*** (f.) - naz edən gül; nazlı gözəl.
***Nazxanım*** (f.,t.) - nazlı xanım, cilvəli gözəl qız.
***Nazı//Nazi*** - "naz" sözü ilə başlanan adların qısaltma və əzizləmə forması.
***Nazidən*** (f.) - nazlanmaq, işvələnmək.
***Nazik*** (f.) - incə, zərif; qəşəng, gözəl (qız).
***Naziyə*** (f.) - nazlı, işvəli qız; naz ilə, işvə ilə.
***Nazkinə*** (f.,tal.) - nazlı qız, qız nazı.
***Nazqayıt*** (f.,t.) - nazın, işvənin qayıtması (Oğlan arzusunda olanlar qıza belə ad verirlər: «qız bəsdir»).
***Nazqədəm*** (f.,ə.) - qədəmləri nazlı olan gözəl.
***Nazlar//Nazdar*** - «naz» sözünün cəmi; nazlar, işvələr.
***Nazlı*** (f.,t.) -naz edən, nazlanan, işvəli, cilvəli.
***Nazlıxanım*** (f.,t.) - nazlı, işvəli xanım.
***Nazmay//Nazmayə*** (f.,yun.) – «naz» və «may» sözlərindən düzəlmiş, «May ayında doğulmuş gözəl», «ömrün gənclik çağı» deməkdir.
***Naznaz//Naznazı*** (f.) - çox naz edən, nazlanan.
***Naznay//Naznayə*** (f.) - «naz» və «nay» sözlərindən düzəlmiş, «nazdan hazırlanmış, nay kimi gözəl və xoşagələn qız» deməkdir.
***Naznurə*** (f.,ə.) - nazın nuru; nurun, parıltının nazı.
***Nazpəri*** (f.) - nazlı pəri, işvəli pəri, nazlanan pəri.
***Nazpərvər*** (f.) - naz sevən, nazla bəslənmiş gözəl qız.
***Nazsabah*** (f.) - sabahın nazı, sübhün nazı.
***Nazsevər*** (f.,t.) - naz sevən, qəmzə, işvə xoşlayan.
***Nazsəhər*** - səhər nazı, səhər kimi nazlı, nazlı səhər.
***Nazşirin*** (f.) - nazlı şirin olan, xoşa gələn qız.
***Naztamam*** (f.,ə.) - naz eləyən qız daha bəsdir.
***Nazvəfa*** (f.,ə.) - «naz» və «vəfa» sözlərindən düzəlmiş, «sədaqətli, nazlı gözəl qız» deməkdir.
***Nazyetər*** (f.,t.) - nazı bəs edər, işvəsi kifayət edər.
***Nelli*** (yun.) - əsli “neos” sözündəndir, cavan, gənc, təzə, yeni mənasındadır.
***Nevristan*** (f.) - «növrəs» (cavan) və «stan» sözlərindən düzəlmiş, «gənclər diyarı»; « gənclik bəxş edən qız» deməkdir.
***Nəbibə*** (ə.) - kötükcənin övladı, bəxşiş, nəticənin nəvəsi.
***Nəbirə*** (f.) - nəvə, balanın balası.
***Nəcabət//Nicabət//Nəcibət*** (ə.) - nəciblik, əsillik, təmiz nəslə mənsubluq.

***Nədidə*** (f.) - görünməmiş; nəbibənin övladı; kötükcənin nəvəsi.
***Nədirət*** (ə.) - seyrəklik, nadir.
***Nəfiqə*** (ə.) - fayda verən, xeyir verən.
***Nəfilə*** (ə.) - hədiyyə, bəxşiş.
***Nəğmə*** (ə.) - nəğmə, hava, şərqi.
***Nəğmiyyə*** (ə.) – mahnı, nəğmə, şərqi, təranə.
***Nəhayət*** (ə.) - son, axır, qurtaracaq.
***Nəmidə*** (f.) - adlı, adı olan, adlanmış.
***Nənə*** - ata və ya ananın anası; ana.
***Nənəbacı*** - bax: Nənə və Bacı.
***Nənəbəyim*** - bax: Nənə və Bəyim.
***Nənəbibi*** - bax: Nənə və Bibi.
***Nənəcan*** - can nənə, əziz nənə (ata və ya ananın anası).
***Nənəgəlin*** - nənəyə bənzəyən gəlin, nənəyə bənzəyən qız.
***Nənəgül*** - nənə kimi gül, nənə kimi qız.
***Nənəxanım*** - nəcib nənə, alicənab; Nənə xanım.
***Nənəxatın*** - bax: Nənə və Xatın.
***Nənəqız*** - nənə kimi qız, nənəyə bənzəyən qız.
***Nənənaz*** - nazlı nənə, nənə kimi qız.
***Nənəş*** - "nənə" ilə başlanan adların əzizləmə forması.
***Nənəvəs*** (t.,f.) - vüsətli nənə; canişin; nənə öyüdü.
***Nənəzər*** - qızıl kimi nənə, qızıl nənə.
***Nərgiyə*** (f.) - kişi xilqətli qadın.
***Nərgis//Nərgiz*** (yun.) - ağ rəngli və xoşiyli çiçək (Qədim yunan əsatirində öz əksini suda görüb ona aşiq olan oğlanın yun. Narkisos adındandır).
***Nərgizxanım*** - Nərgiz xanım, qar çiçəyi kimi gözəl qadın.
***Nərxanım*** (f.,t.) - igid, qoçaq qadın, kişi kimi xanım.
***Nərmin//Nərminə*** (f.) - yumşaq, mülayim, zərif; qırmızı bəzək, naxış.
***Nərminaz*** (f.) - nazı xoşa gələn, nazlı gözəl.
***Nərvin//Nərvinə*** - nər (dəvə və ya nar - od) və "bin" (törəyən) sözlərindən yaranmışdır, "igid və cəsur gözəl" və «odu sevən», «oda bərabər olan» mənasındadır.
***Nəsihə*** (ə.) - nəsihət edən, nəsihətçi, öyüd verən.
***Nəsilə*** (ə.) - soy, nəsil.
***Nəsrin//Nəsrinə*** (f.) - ağ rəngli yabani çiçək.
***Nəstərən*** - bax: Nəsrin.
***Nəşə*** (ə.) - sevinc, zövq, ləzzət.

***Nəşidə*** (ə.) - çağırış, himn.
***Nəvaziş*** (f.) - oxşama, əzizləmə, mehribanlıq.
***Nəzafət*** (ə.) - təmizlik, paklıq.
***Nəzahət*** (ə.) - təmizlik, parlaq.
***Nəzakət*** (ə.) - tərbiyə, mərifət; incəlik, zəriflik.
***Nəzarət*** (ə.) - yoxlama, göz qoyma, nəzər yetirmə.
***Nəzmirə*** (ə.) – baş sıra; baş cərgə və ya cərgə başçısı.
***Nəzri*** (ə.) - nəzrə aid olan, nəzrə məxsus olan.
***Nəzrin//Nəzrinə*** (ə.) - bir əhdlə bağlı olan şey.
***Nibubət*** (ə.) – «nübüvvət» sözündəndir, «peyğəmbərlik» deməkdir. Məcazi mənada «Allah tərəfindən bəxş olunmuş qız» deməkdir.
***Nigar//Nigarə*** (f.) - şəkil, surət; gözəl, qəşəng; sevgili.
***Nigaran*** (f.) - həyəcanlı, narahat.
***Nilay*** - mavi, havarəngli boya hazırlanan tropik bitki olan «nil» və «Ay» sözlərindən düzəlmişdir.
***Nilufər*** (f.) - su zanbağı.
***Ninel*** - "Lenin" adının tərsinə yazılışı.
***Nisaf//Nisəf*** (ə.) – «nisbət» sözündən olub, «insaf, ədalət, mürüvvət» deməkdir.
***Nisə*** (ə.) - qız(lar), qadın(lar).
***Nisəxanım*** - xanım kimi qız, çox gözəl qız.
***Niyyət*** (ə.) - məram, arzu, istək, məqsəd.
***Niyyətxanım*** (f.,t.) - Niyyət xanım; məramlı, istəkli xanım.
***Noğul*** - içinə keşniş tumu qoyulmuş xırda, yumru şirni növü.
***Novbahar//Növbahar*** (f.) - ilk yaz, yazın əvvəli.
***Novella*** (ital.) - gözlənilməyən nəticə ilə bitən kiçik hekayə.
***Novruzgülü*** (f.) - ilk baharda açılan ətirli gül.
***Nubar//Nubər//Nubarə//Nübarə//Nübar//Nobar*** (f.) - ilk meyvə, yeni meyvə.
***Nubarxanım//Nübarxanım*** (f.,t.) - ilk xanım, birinci xanım.
***Numan//Numanə*** (ib.) - lalə, iri qırmızı və ya ağ çiçəkli bəzək bitkisi; şad, xoşbəxt.
***Nuraləm*** (ə.) - dünyanın nuru, kainatın işığı, aləmin odu.
***Nuraniyyə*** (ə.) – nura bənzəyən, işıqlı, parlaq.
***Nuray//Nurayə*** (ə.,t.) - nurlu Ay, işıqlı Ay; Ayın nuru.
***Nurbacı*** - bax: Nur və Bacı.
***Nurbadam*** - bax: Nur və Badam.

***Nurbahar*** (ə.,f.) – «nur» və «bahar» sözlərindən düzəlmiş, «baharın işığı, nuru» deməkdir.
***Nurbəniz*** (ə.,t.) - nurlu üz, işıqlı bəniz, nurlu sifət.
***Nurbəyim*** - bax: Nur və Bəyim.
***Nurbibi*** - bax: Nur və Bibi.
***Nurbikə*** - bax: Nur və Bikə.
***Nurcahan*** (ə.) - dünyanın işığı, cahanın nuru.
***Nurcamal*** (ə.) - işıq kimi parlaq gözəl, nur üzlü dilbər.
***Nurcan*** - canı işıqdan, nurdan olan; gözəl, göyçək.
***Nurçiçək*** - çiçəyin nuru, çiçəyin işığı, çiçəyin odu.
***Nurçöhrə*** (ə.,f.) - nur üzlü, nur bənizli.
***Nurçin*** - işıq buketi, işıq dəstəsi; işıq toplayan; işıq parıltısı.
***Nurdal*** - işıq budağı, işıqdan, nurdan olan budaq; düz qamətli, parlaq gözəl.
***Nurdan//Nurdanə*** (ə.,t.) - nurdan yaranan, işıq parçası; çox gözəl; dan işığı.
***Nurdərya*** (ə.,f.) - nurlu dərya; dərya nuru, işığı kimi gözəl qız.
***Nurdidə*** (ə.,f.) - gözün işığı, gözün nuru, sevimli övlad.
***Nurəfşan*** (ə.,f.) - nur saçan, işıq səpən.
***Nurəngiz//Nurangiz*** (ə..f.) - nur saçan, işıq səpən.
***Nurəstə*** (ə.,f.) - işıqlı, nurdan ibarət olan; şanlı, şərəfli olan.
***Nurgilə*** (ə.,t.) - nurlu, işıqlı gilə; nurlu gilə kimi gözəl qız.
***Nurgül// Nurgülə*** - «nur» və «gül» sözlərindən düzəlmiş, «işıqlı gül, nurlu çiçək kimi qız» deməkdir.
***Nurhəyat*** (ə.) - həyatın nuru, həyatın işığı.
***Nurxanım*** (ə.,t.) - nurlu xanım, işıqlı xanım; xanımın nuru.
***Nurxəyal*** (ə.) - işıqlı xəyal, parlaq xəyal.
***Nurqədəm*** (ə.) - qədəmləri işıqlı olan, gəlişi xoş təsir oyadan qız.
***Nurqələm*** (ə.) - işıqlı qələm, nurlu qələm.
***Nurqız*** (ə.,t.) - nur qız, nurlu qız; nur kimi gözəl qız.
***Nurqönçə*** (ə.,f.) - nur qönçə, nurlu qönçə kimi gözəl qız.
***Nurlalə*** (ə.,f.) - nur laləsi, nurlu lalə; nur laləsi kimi gözəl qız.
***Nurmay//Nurmaya//Nurmayə*** (ə.,f.,lat.) - «nur» və «may» sözlərindən düzəlmiş, «işıqlı may ayı, nurlu may ayı»; «nur mayası; nur mayası kimi gözəl qız» deməkdir.
***Nurmeyvə*** (ə.,f.) - «nur» və «meyvə» sözlərindən düzəlmiş, «nur meyvəsi»; məcazi mənada «nurlu həyat bəxş edən qız» deməkdir.
***Nurnisə*** (ə.,f.) - nurlu, işıqlı qadın, qadın nuru; çox gözəl.

***Nurparə*** (ə.,f.) - nur, işıq parası, nur parçası kimi gözəl qız.
***Nurpəri*** - bax: Nur və Pəri; pəri nuru, mələk kimi qız.
***Nurpüstə*** (ə.,f.) - nurlu püstə, püstə nuru.
***Nursaba//Nursabah//Nursəbah//Nursəhər//Nürsəba*** (ə.) - sabahın nuru, sübh şəfəqləri.
***Nursaç*** (ə.,t.) - işıq saçan, nur ələyən.
***Nursel//Nurseli*** - işıq axını, işıq seli; işıqlı, parlaq.
***Nursevər*** - işıq, nur sevən, istəyən, istək nuru.
***Nursədəf*** - bax: Nur və Sədəf.
***Nursəfa*** (ə.) - «nur» və «səfa» (rahatlıq, əyləncə) sözlərindən düzəlmiş,, «işıqlı əyləncə, nur tamaşası, işığın seyri» deməkdir.
***Nursima*** (ə.) - nurlu çöhrə, işıqlı üz; olduqca gözəl.
***Nursona*** - nurlu, işıqlı gözəl; gözəl nuru, işığı.
***Nurşəfa*** (ə.) - «nur» və «şəfa» sözlərindən düzəlmiş, «sağlamlığın nuru, əhəmiyyəti» deməkdir.
***Nurşərəf*** (ə.) - «nur» və «şərəf» sözlərindən yaranmış, «namusun, qeyrətin nuru, işığı» deməkdir.
***Nurtac*** (ə.,f.) - nurlu tac, işıqlı tac; tacın nuru.
***Nurtək//Nurtəkin*** (ə.,t.) - nur kimi, işıq tək, nura bənzəyən.
***Nurtən*** (ə.,f.) - işıq bədənli, nur bədənli; parlaq qız.
***Nurvəfa*** (ə.) - «nur» və «vəfa» sözlərindən düzəlmiş, «sədaqətin nuru, işığı» deməkdir.
***Nuryaz*** (ə.,t.) - yazın işığı, yazın nuru.
***Nurzad//Nurzadə*** (ə.,f.) - nurdan törəyən, nurdan əmələ gələn.
***Nurzəfər*** (ə.) - «nur» və «zəfər» sözlərindən düzəlmiş, «zəfər işığı, qələbə nuru» deməkdir.
***Nurzəka*** (ə.) - nurlu zəka; zəkanın nuru.
***Nurziya//Nurziyə*** (ə.) - aydınlıq, parlaqlıq; gözəllik.
***Nuşabə//Nüşabə*** (f.) - dadlı su; həyat suyu, dirilik suyu.
***Nuşafərin//Nüşafərin*** (f.) – «afərin» sözünün dəyişilmiş forması olub, «yaradılış, xilqət, varlıq, dünya» deməkdir.
***Nübubət//Nububət*** (ə.) - "nübüvvət" sözündəndir və "peyğəmbərlik" deməkdir.
***Nüfuzə*** (ə.) - hörmət, etibar, təsir; avtoritet.
***Nükhət//Nükət*** (ə.) - gözəl və xoş qoxu, iy; ağız qoxusu.
***Nümunə*** (f.) - hər hansı məlumat və şeyin örnəyi, nümunəsi.
***Nüzhət (ə.)*** - sevinib gülmə, könül şadlığı, ürəyi açılma.

## ℘ O ☙

***Ofeliya//Ofelya*** (l.) - yüksəltmək, ucaltmaq, artırmaq.
***Oğlangərək//Oğulgərək*** - oğlan gərəkdir, oğlan lazımdır.
***Olay*** - hadisə; Ay ol; Ay kimi gözəl ol.
***Olayım*** - mənim Ayım ol.
***Osandıq//Oysandıq*** - bax: Usandıq.
***Ovesta*** - Atəşpərəstliyin dini kitabı «Avesta»nın (bax) təhrif olunmuş forması.

## ℘ Ö ☙

***Ömürtac*** - ömrün tacı, insan həyatının tacı.
***Önay*** - əvvəlki Ay, qabaqkı Ay.
***Övla*** (ə.) - üstün, daha gözəl, daha yaraşıqlı.
***Özgülüm*** - birinci şəxsə aid olan gül, "xalis çiçəyim".
***Özgünay*** - xalis Ay, orijinal Ay. Ay kimi saf, təmiz.
***Özxanım*** - mənim öz xanım; özü xanım olan.
***Öznur//Öznurə*** - öz işığı özünə doğma və əziz olan nur parçası; aydın, parlaq mahiyyətli insan.

## ℘ P ☙

***Pakay//Pakayə*** (f.,t.) - təmiz, ləkəsiz Ay; Ay kimi gözəl qız.
***Pakbəyim*** (f.,t.) - saf bəyim, təmiz bəyim; gözəl qız.
***Pakizə//Pakizət*** (f.) - təmiz, pak, saf.
***Pakizər*** (f.) - təmiz qızıl, saf qızıl, xalis qızıl.
***Paknur//Paknurə*** (f.,ə.) - təmiz işıq, gözəl işıq, xalis nur.
***Paksoy*** (f.,t.) - pak nəsilli, təmiz nəsildən olan.
***Pakzad//Pakzadə*** (f.) - saflıq, təmizlik övladı; saf nəsilli.
***Palmira*** (l.) - palma ağacı; pasxaya bir həftə qalmış son bazar və ya şənbə.
***Parlaq*** - işıldayan, işaran; çox gözəl, əvəzsiz.
***Parlar*** - parlayar, işıq verər, işıldayar.
***Patimat*** - bax: Fatimə.
***Payçiçək//Paygül*** - çiçək payı, gül hədiyyəsi.
***Payxanım*** - xanım payı, qız payı.
***Paynaz*** - naz payı, nazlı qız payı.

***Paynisə*** - nisə payı, gözəl qız payı.
***Paynur//Paynurə*** (t.,ə.) - nur payı, gözəl qız payı.
***Payzər*** (t.,f.) – «pay» və «zər» (qızıl) sözlərindən düzəlmiş, «qızıl hədiyyə, qiymətli sovqat, bəxşiş» deməkdir.
***Pazəhri*** (f.) - zəhərə aid, zəhərə məxsus olan.
***Pekşən//Pəkşan//Pəkşanə*** - çox şən, çox sevincli; şənlənən, sevinən.
***Peykar//Peykər*** (f.) - üz, çöhrə, surət.
***Pəjmurdə//Pəjmürdə*** (f.) - dağınıq, solğun, pərişan, əzik.
***Pəri*** (f.) - gözəl qadın şəklində olan mifik canlı; gözəl.
***Pəricahan//Pərcahan//Pəricəhan*** (f.) - dünya gözəli, cahanın gözəli.
***Pəricamal//Pəricəmal*** (f.,ə.) - pəri üzlü, pəri surətli; gözəl üzlü.
***Pərican*** (f.) – əziz, sevimli pəri; pəri kimi istəkli gözəl qız.
***Pəriçöhrə*** (f.,t.)//***Pərirux*** (f.) - pəri üzlü; füsunkar, gözəl.
***Pəridə*** (f.) - uçmuş, qanadlanmış, havalanmış, yüksəlmiş; rəngi solmuş, solğunlaşmış.
***Pərigül*** (f.) - pəri gülü; pəri kimi gül; pəri kimi qız.
***Pərixan*** - bax: Pəri və Xan; pərilərin xanı, əfsunçu, cadugər.
***Pərixanım*** (f.,t.) - Pəri xanım; pəri kimi xanım; gözəl xanım.
***Pərim*** - mənim pərim, mənim pəriyə layiq gözəlim.
***Pərinaz//Pərnaz*** (f.) - nazlanan pəri; incə, qəmzəli.
***Pərinisə*** (f.,ə.) - pəri kimi qız(lar); gözəllər.
***Pərinişan*** (f., ə.) - pəri əlamətli, pəri nişanlı gözəl.
***Pəripeykər*** (f.) - gözəl bədənli, əndamı pəri kimi gözəl olan, pəri üzlü, pəri camallı.
***Pərirux*** (f.) - pəri üzlü, pəri çöhrəli; pəri kimi gözəl qız.
***Pəristan*** (f.) - pərilər ölkəsi, pərilər olan yer.
***Pəriş*** - "pər" hecası ilə başlanan adların əzizləmə forması.
***Pərişan//Pərşan//Pərişən*** (f.) - dağınıq; qəmli, kədərli, qüssəli.
***Pərizad//Pərizat//Pərzad*** (f.) - pəridən doğulan, pəri əsilli.
***Pərran//Pərranə*** (f.) - uçan, uçucu, quş kimi havalanan; cəld, çılğın.
***Pərvər*** (f.) – sevən; bəsləyən, tərbiyə verən, yetişdirən.
***Pərvəz*** (f.) - bəsləyən, tərbiyə edən.
***Pərvinaz*** (f.) – «Pərvin» (Ülkər ulduzu) və «naz» sözlərindən düzəlmiş, «nazlı Pərvin» və ya «Pərvin kimi parlaq və gözəl qız» deməkdir.
***Pikə*** - himayə edən qadın.
***Pirayə*** (f.) - süs, bəzək, ziynət; gözəl ayə.
***Pirxanım*** (f.,t.) – nurani xanım, ağbirçək, işıqlı xanım.
***Pirnisə*** (f.) – nurani nisə, ağbirçək, odlu, işıqlı nisə.

***Pirzada//Pirzadə*** (t.,f.) - pir (ocaq, od) övladı, pirdən doğulan; çox gözəl.
***Pirzə//Piruzə//Püruzə//Pürüzə//Pürzə*** - "Firuzə"(bax) adının dəyişdirilmiş forması.
***Piyalə*** (f.) - ağzı gen, dibi dar, balaca içki qabı; qədəh.
***Püstə*** (f.) - ləpəsi yeyilən bərk qabıqlı meyvə.
***Püstəbəyim*** - bax: Püstə və Bəyim.
***Püstəgül*** (f.) - püstə ağacının gülü.
***Püstəxanım*** (f.,t.) - Püstə xanım; püstə kimi xanım.
***Püstənar*** (f.,ə.) - odlu, hərarətli püstə; püstənin odu.
***Püstənaz*** (f.) - püstə nazı, nazlı püstə.
***Püstənur*** (f.,ə.) - püstə nuru, nurlu pustə.
***Püstəzər*** (f.) - püstənini zəri, pustənin qızılı, zər püstəsi.

## ℘ R ℘

***Rabiə//Rabiyə//Rəbiyyə//Rəbiə//Rəbiyə//Rəbiyyət*** (ə.) - bahara, yaza aid, baharla, yazla əlaqədar olan; IV qız (bax: Rabi); bahariyyə, bahara aid şeir.
***Rada*** (r.) - şad, sevincli, fərəhli.
***Radə*** (ə.) - dərəcə, mərtəbə; təxminən, təqribən.
***Radiyə//Radiyyə//Radiyyət*** (ə.) - səxavətlə əlaqəli; elmlə, hikmətlə əlaqədar olan; xoşbəxtlik, səadət.
***Rafidə*** (ə.) – yüksək, uca qadın (qız).
***Rahiyyə//Rahiyyət*** (f.,ə.) - yolçular, yol gedənlər.
***Rahmayə//Rəhmayə*** (f.) – «rah» (məslək, əqidə) və «mayə» (təməl, məna) sözlərindən düzəlmiş,, «məsləkin, əqidənin mənası» deməkdir.
***Rakiyyə//Raqiyyə*** (ə.) - qabağa getmə, irəliləmə.
***Ramayə*** (ə.) - tabe olan, qulaq asan; ram edən ayə.
***Ramella*** (ə.) - Allahı, Tanrını istəyən; İraqda yer adı.
***Ramiyə//Ramiyyə//Rəmiyyə*** (f.) - tabe olanlar, boyun əyənlər; atıcı, mərmi, ox atan.
***Rasta//Rastə*** (f.) - büsbütün düz, tamamilə düz.
***Raya*** – german dillərində «ray» şəfəq, Günəşin şəfəqi deməkdir. Rus dilindən alınan bu sözdəki –a şəkilçisi cins bildirir.
***Rayihə//Rahiyə*** (ə.) - gözəl qoxu, xoşagələn ətir.
***Rayizə*** (ə.) - heyvanları əhliləşdirən məşqçi qadın.

***Raziyyə//Raziyyət*** (ə.) - sirli, əsrarəngiz qadın; qəşəng, qanışirin, məlahətli, xoşhal.
***Reyhan//Reyhanə*** (ə.) - xoş iyli, yeyilən birillik göyərti; reyhan dəstəsi.
***Reyhanat*** (ə.) - reyhanlıq, reyhanlar.
***Rəcəbgül*** (ə.,f.) - Rəcəb ayının gülü, çiçəyi (Rəcəb ayında anadan olan qızlara verilir).
***Rəciyyə*** (ə.) - rica edənlər, xahiş edənlər; saray, qala.
***Rədifə*** (ə.) - sıra, nizam; qafiyədən sonra təkrar olunan sözlər.
***Rəfilə*** (ə.) - yüksələn, ucalan.
***Rəfiyyə//Rəfiyyət*** (ə.) - yüksəklik, ucalıq.
***Rəhşan//Rəxşən*** (f.) - parlaq, işıqlı (bax: Rəxşan).
***Rəxşan//Rəxşanə//Rəxşəndə*** (f.) - parlaq, parlayan, işıqlı, işıldayan.
***Rəqsanə*** (ə.) - rəqs edən, oynayan.
***Rəna*** (ə.) - gözəl, qəşəng; incə; gül, buxur gülü.
***Rənaxanım*** (ə.,t.) - Rəna xanım, gözəl, cəlbedici xanım.
***Rəngin//Rənginə*** (f.) - rəngli, gözəl, lətif, parlaq, süslü.
***Rəviyyə*** (ə.) - fikir, xəyal.
***Rima*** (l.) - romalı; gözəl, qəşəng.
***Risalə*** (ə.) - məktub, namə, kağız.
***Rita*** (yun.) - mirvari, inci; Afroditanın epiteti.
***Roza*** (l.) - qızılgül, qırmızı gül.
***Röşəniyə//Röşəniyyə//Rövşəniyyə*** (f.) - işıqlıq, aydınlıq, parlaqlıq.
***Röya//Röyanə*** (ə.) - yuxu; yatma; yuxugörmə.
***Ruba//Rüba//Rubayə//Rübayə*** (f.) - qapan, qapıçı, çəkən.
***Rubabə//Rübabə*** (ə.) - rübab; simli musiqi aləti; şair.
***Rubeyda//Rubeydə//Rübeydə*** (f.,ə.) - xoş; incə, nazik, gözəl.
***Rufi//Rufina//Rüfunə*** (l.) - sarı saç, sarışın saç.
***Rufiyyə*** (l.) - sarılar; qırmızı rəngli saçlar, ruhu gözəl olan.
***Ruhanə*** (ə.) - ruha mənsub olan; din və əxlaqı öyrənən.
***Ruhəfza//Ruhfəza*** (ə.,f.) - ruhlandıran, könül açan.
***Ruhəngiz//Rahəngiz*** (ə.,f.) - ruh verən, ruhlandıran, ruhlu.
***Ruhəngül*** (ə.,f.) - mənəvi cəhətdən gül olan.
***Ruhibəyim*** (ə.,t.) - ruhlu bəyim, ruh oxşayan bəyim.
***Ruhixanım*** (ə.,t.) - ruhlu xanım, ruh oxşayan xanım.
***Ruhinaz*** (ə.,f.) - ruhu naz olan, ruhu nazlayan.
***Ruhinisə*** (ə.) - ruhlu nisə, ruh oxşayan nisə.
***Ruhnaz*** (ə.,t.) - nazlanan ruh, qəmzəli ruh.
***Ruhnəvaz*** (ə.,f.) - ruhu oxşayan, ruhu xoşlandıran.

***Ruxsar//Rüxsar//Ruxsara//Ruxsarə//Rüxsara//Rüxsarə*** - "gözəl üz və ya yanaqlar" mənasında fars mənşəli hesab edilən bu ad iki sözdən ibarətdir: f."rux"(ru-üz, çöhrə) və "sar"(sarı - od, işıq, Günəş). Günəş, Ay, ulduz, od və s. ilə əlaqədar olan bütün adlar isə ancaq gözəllik anlayışı ilə əlaqədar olur. Adın həqiqi mənası "Günəş üzlü, parlaq üz", məcazi mənası isə "gözəl üz, gözəl sifət"dir.
***Rukiyə//Rükiyə*** (ə.) - sulu quyu; gözəl, cəlbedici.
***Ruqiyə//Ruqiyyə//Rüqiyyə//Rüqiyyət//Urqiyə//Urqiyyə*** (ə.) - incə, zərif; tilsim; sehrbaz və rəmmalın oxuduqları əfsun.
***Rumalə//Rümalə//Rumilə*** (ə.) - şar, top.
***Rusalə//Rüsalə*** (r.) - «su pərisi» mənasında olan «rusalka» sözünün təhrif forması.
***Ruzə//Rüzə*** (f.) - oruc, orucluq.
***Ruzigar//Rüzgar//Ruzgar//Ruziyar*** (f.) - külək, yel; zəmanə, dövran.
***Ruziyyə*** (f.,ə.) - azuqələr; məmnunluq, razılıq.
***Rüfadə*** (f.) - yardım etmə, kömək etmə.

## ꕥ S ꕥ

***Sabagül//Səbagül//Sabahgül*** (ə.,f.) - sabah gülü, səhər açılan gül.
***Sabah*** (ə.) - səhər, sübh.
***Sabahət*** (ə.) - sabahlıq, səhərlik; gözəllik, lətiflik.
***Sabahxanım*** (ə.,t.) - səhər xanımı, sübh xanımı; Günəş; gözəl xanım.
***Sabahiyyə*** (ə.) - sabaha aid olan; sabahlar, səhərlər.
***Sabahnaz*** (ə.,f.) - sabahın nazı, nazlı sabah, səhər.
***Sabahnisə*** (ə.) - səhər qadını; səhər kimi gözəl qız.
***Sabahnur*** (ə.) - səhər nuru, sübh işığı; parlaq gözəl; səhər Günəşi.
***Sabahşən*** (ə.) – «sabah» və «şən» sözlərindən düzəlmiş, «səhərin sevinci, şənliyi» deməkdir.
***Sabahzər*** (ə.,f.) - qızıl sabah; sabahın şəfəqləri.
***Sabat//Səbat*** (ə.) – «səbat» sözündən düzəlmiş, «dözüm, mətanət» deməkdir.
***Sabigə*** (ə.) - səbirli, dözümlü.
***Sabiqət*** (ə.) - gözəllik.
***Sabilə*** (ə.) - natiq, gözəl danışan qadın; yolçu, yol gedən.
***Sabiyə//Səbiyyə//Səbuyə*** (ə.) - kiçik qız, qız uşağı, balaca qız.
***Saçlı*** - hörüyü olan, uzun saçları olan.
***Sadəgül*** (ə.,f.) - sadə gül, sadə çiçək.

***Sadət//Səadət*** (ə.) - xoşbəxtlik, bəxtiyarlıq, ağgünlük.
***Sadiyə*** (f.) - səsə, sədaya aid olan.
***Safura//Safurə//Səfurə//Safirə*** (ə.) - parlaq, işıqlı ulduz.
***Sahibcamal//Sahibcəmal*** (ə.) - gözəl, göyçək, camallı.
***Sahibxanım*** (ə.,t.) – səlahiyyətli hökmdar xanım.
***Saidə*** (ə.) - cənab, hörmətli; qalxan; bilək.
***Saiqə*** (ə.) - sövq edən, səbəb olan, lazım bilən.
***Sakiyə*** (ə.) - saqilik edən qız; su və ya şərab paylayan.
***Saküraz*** - Salyan, Kür, Araz adlarından yaranmışdır.
***Saqidə*** (ə.) - doğru danışan.
***Saqiyə*** (ə.) - su verən qız.
***Salatın//Səlatin*** (ə.) - “Sultan”ın cəmi-sultanlar.
***Salidə*** (f.) – illər toplusu; məcazi mənada «uzunömürlü» deməkdir.
***Samara//Samarə//Səmarə*** (ə.) – «səmər» sözündən olub, «meyvə, bar; nəticə» deməkdir.
***Samayə//Səmayə//Səmayət*** (ə.) - göyə aid olan, səmaya məxsus olan.
***Samigül*** (f.,t.) - ən yüksək, ən ali gül; çox gözəl qız.
***Samiyyə*** (ə.) - eşitmə duyğuları; yüksək, uca.
***Samrat//Samura//Samuray//Samurə//Samurət*** - "Şammuramata" adının müxtəlif şəkildə sadələşdirilmiş formaları (bax: Şəmir və Samur).
***Sanal//Sanalə*** - xəyali, zahiri, əsli olmayan; şanlı, şöhrətli; nüfuzlu.
***Sanay//Sanayı*** - Ayın şöhrəti, Ayın ad-sanı; Ay kimi hesab et.
***Sara*** (f.) - saf, xalis, təmiz; xanım.
***Saraxanım*** - saf, təmiz xanım; yüksək xanım; hökmdar xanım.
***Saran//Saranə*** (f.) –yaxşı, seçmə, alicənab, nəcib olan.
***Saray*** - sar-çar (hökmdar) ailəsinin yaşadığı həşəmətli bina, ev.
***Sarəng*** (f.) - qara və kiçik bir quş; klassik muğamlardan birinin adı.
***Sarıbəniz*** - üzü sarı rəngli olan, sarı çöhrəli.
***Sarıca*** - sarıya çalan, sarımtraq, arı.
***Sarıçiçək*** - sarı rəngli çiçək; sarı çiçək kimi qız.
***Sarıgilə*** - giləsi sarı olan, sarı gilə; balaca, sarı qız.
***Sarıgöz*** - gözlərinin rəngi sarı olan; sarıgözlü qız.
***Sarıgül*** - sarı rəngli çiçək, sarı rəngli gül.
***Sarıköynək*** - sarı dimdikli oxuyan quş; sarışın qız.
***Sarısaç*** - sarı saçlı qız; saçı sarı olan qız.
***Sarışın*** - sarıyaçalar, sarıyanız, sarıbəniz.
***Sarıtel*** - sarı rəngli saçı olan, teli sarı olan.
***Sarqın//Sarqunə*** - cazibəli, cəlbedici, diqqətçəkici, cazibədar.

***Sarmaşıq*** - ağ, qırmızımtıl rəngləri olan, sarmaşaraq uzanan bitki.
***Sasan*** (f.) - yoxsul, kasıb.
***Savad*** (ə.) - yazıb-oxumağı bacarma; yazı-pozu.
***Savay*** - gözəl Ay; yeni Ay; söz, yenilik; gözəl.
***Sayalı//Səyalı*** - sayası düşən, sayalan; sayılan, hörmət edilən, hörmətli.
***Sayatel*** - bir rəngli tel, saçı rəngli olan.
***Sayəgül*** (f.) - kölgədə boy atan gül.
***Saygül*** - sayılan gül, hörmət edilən gül; hörmətli gözəl.
***Sayqı*** - hörmət, ehtiram, şərəf.
***Saynaz*** (t.,f.) – «say (maq)» və «naz» sözlərindən düzəlmiş, «hörmətli, sayılan gözəl» deməkdir.
***Saynur//Saynurə*** (t.,ə.) - «say (maq)» və «nur» sözlərindən düzəlmiş, «hörmətli, sayılan, qiymətləndirilən qız» deməkdir.
***Sayzər*** (t.,f.) -«say (maq)» və «zər» sözlərindən düzəlmiş, «hörmətli, qiymətli, sayılan qızıl (qız)» deməkdir.
***Seçgin//Seçkin*** - seçilmiş; başqalarından ayrılan; çox gözəl.
***Seçmə*** – seçilmiş, ən yaxşı, olduqca gözəl qız.
***Seçməgül*** - seçilən gül, ən gözəl gül, ən yaxşı gül.
***Sehrayə*** (ə.) - Ayənin ("Quran" surələrindəki cümlələrin hər biri) sehri-cadusu; ayənin cazibəsi; məftunedici əlamət, cazibəli əlamət.
***Selay*** - Ay işığının seli; Ay kimi gözəl və saf qız.
***Selcan*** - sel kimi canı olan; seli xoşlayan.
***Selyan//Selyanə*** - seli yandıran; Günəş qədər parlaq.
***Sevda*** (ə.) - sevgi, məhəbbət, eşq; qəm, kədər.
***Sevdagül*** (ə.,f.) - sevgi çiçəyi, məhəbbət gülü.
***Sevdaxanım*** (ə.,t.) - sevdalı xanım, məhəbbətli xanım.
***Sevdim*** - istədim, vuruldum, eşqə düşdüm.
***Sevən*** - məhəbbət bəsləyən, aşiq olan, eşq yetirən.
***Sevər*** - sevən, istəyən, xoşlayan.
***Sevgi*** - eşq, məhəbbət, sevda; vurğunluq.
***Sevgiladə//Sevgüladə*** - "fövqəladə" kimi sözlərə uyğun olaraq yaradılmış "qeyri-adi sevgili, adi sevgilidən də yüksəkdə olan" mənasındadır.
***Sevgili*** - sevilən, aşiq, istənilən.
***Sevgilim*** - mənim sevgilim, mənə məxsus sevgilim.
***Sevgim*** - mənim sevgim, mənə məxsus sevgi.
***Sevgin//Sevgün//Sevgünə*** - çox sevilən, əzizlənən; sevilməyə layiq olan.
***Sevginaz*** (t.,f.) – sevgi nazı, məhəbbət işvəsi, məhəbbət töhfəsi.
***Sevginur*** (t.,ə.) - sevgi nuru, məhəbbət ziyası, işığı.

***Sevgiyyə*** - sevgiyə aid olan, məhəbbətə bağlı olan.
***Sevgizər*** (t.,f.) - sevgi zəri; qızıl kimi sevgi.
***Sevgül*** (t.,f.) – sevilən gül, istənilən çiçək; sevgi gülü.
***Sevil//Sevilə*** - sevilən, xoşlanılan.
***Sevilay*** - sevilən ay, sevilməyə layiq olan ay (gözəl).
***Sevinc*** - şadlıq, fərəh, sevinmə.
***Sevzər*** (t.,f.) –parlaq qızıl, zər kimi gözəli sev.
***Seycan*** (f.) – «se(y)» və «can» sözlərindən düzəlmiş, «üçüncü uşaq (qız)» deməkdir.
***Seyidbacı*** (ə.,t.) - Seyid bacı, seyid bacısı; böyük bacı.
***Seyidxanım*** (ə.,t.) - ağa xanım; Məhəmməd peyğəmbərin nəslindən olan xanım.
***Seynur//Seynurə*** (t.,ə.) – sevilən nur, istənilən işıq.
***Seyrangül*** (ə.,f.) - seyr edən gül; seyr ediləsi gül.
***Seyrəbəyim*** (ə.,t.) - seyr edən bəyim; seyr ediləsi bəyim.
***Seyrəxanım*** (ə.,t.) - seyr edən xanım; seyr ediləsi xanım.
***Sezen*** - sezən, hiss edən, duyan.
***Sezgin*** - hiss olunan, duyulan, anlanılan.
***Səba*** (ə.) - yüngül və lətif səhər mehi; sabah yeli.
***Səbahət*** (ə.) - gözəllik, göyçəklik, lətif olan.
***Səbaxanım*** (ə.,t.) - səba xanımı, sübh gözəli; Günəş.
***Səbanisə*** - səhər qız(lar)ı, səba qadın(lar)ı, sübh gözəli; Günəş.
***Səbihə*** (ə.) - gözəl, göyçək, qəşəng, dilbər, şirin.
***Səbikə*** (ə.) - əridilmiş metal külçə; sağlam bədənli.
***Səbinə*** (l.) - əsli "Sabina"dır və e.ə. X əsrdə Romada yaşamış bir qadın qəbiləsinin adındandır; sevinən, şənlənən; qiymətli.
***Səbuzər*** (ə.,f.) - kiçik zər, balaca zər kimi qız; gözəl qız.
***Səbzə***(f.) - göyərti; kişmiş növü; yaşıllıq.
***Səbzəgül*** - bax: Səbzə və Gül.
***Səbzəxanım*** (f.,t.) - Səbzə xanım; yaşıl xanım; uğurlu qız.
***Səcidə*** (ə.) - düzülmüş, rədiflənmiş.
***Səda*** (ə.) - səs, səs-səda, ün.
***Sədagül*** (ə.,f.) - səda gülü, çiçəyi; gülün sədası.
***Sədaqət*** (ə.) - sadiqlik, dostluq, vəfa, etibar, vəfalılıq.
***Sədayə*** (ə.) - "səd" (ağgünlülük, xoşbəxtlik, bəxtiyarlıq) və "ayə" (əlamət, nişan, "Quran" surələrindəki cümlələrin hər biri) sözlərindən yaranmışdır.

***Sədəf*** (ə.) - dəniz böcəyinin qabığından hazırlanan parlaq maddə; saflıq, parlaqlıq.
***Sədəfnur*** (ə.) – sədəf nuru; sədəf kimi parlaq qız.
***Sədiqə*** (f.) - həqiqi dost, vəfalı yoldaş, etibarlı rəfiqə.
***Sədilə*** (ə.) – yüz il yaşayan.
***Sədiyyə*** (ə.) – bəxtiyarlıq, xoşbəxtlik, uğurluluq; uğurlu ulduz.
***Səfa*** (ə.) - saflıq, təmizlik; könül; könül şənliyi.
***Səfagül*** (ə.,f.) - saf gül, xalis gül.
***Səfalət*** (ə.) - son dərəcə ehtiyac içində yaşama.
***Səfanaz//Səfinaz*** (ə.,f.) - saf işvə, xoşagələn qəmzə.
***Səfanur*** (ə.) – saflığın, təmizliyin şəfəqi, işığı, ziyası.
***Səfazər*** (ə.,f.) – saf, xalis qızıl kimi gözəl qız.
***Səfinə//Səfanə//Səfanət*** (ə.) - gəlir, xəzinə; böyük qayıq, gəmi.
***Səhər//Səhəri//Səhri*** (ə.) - sabah açıldığı vaxt, sübh.
***Səhərbanı//Səhərbanu*** (ə.,t.) - səhər banusu; Günəş; gözəl qız.
***Səhərgül*** (ə.,f.) - səhər çiçəyi, səhər açılan gül.
***Səhərgün*** (ə.,t.) - səhər Günəşi; günəşli səhər; səhər günü.
***Səhərnaz*** (ə.,f.) - səhər nazı, səhər qəmzəsi.
***Səhərnur*** (ə.) – səhər nuru, işığı; səhərin aydınlığı kimi gözəl qız.
***Səhərşən*** (ə.) – səhərin şənliyi, fərəhi; səhərin bəxşiş etdiyi sevinc.
***Səhərzər*** (ə.,f.) – səhərin zəri; səhərin şəfəqi, Günəş kimi qız.
***Səhharə*** (ə.) - cadugər, sehrlik; gözəlliyi ilə əfsunlayan.
***Səhnəbacı*** (ə.,t.) - Səhnə (Səkinə) bacı, sakit, mülayim bacı.
***Səhnəbanı//Səhnəbanu*** (ə.,t.) - Səhnə (Səkinə) banu; sakit banu.
***Səhra//Səhrayə*** (ə.) - səhraya məxsus; olan; çöllü-biyaban.
***Səhragül*** (ə.,f.) - səhrada bitmiş gül, səhra gülü.
***Səhrazər*** (ə.,f.) - səhrada olan zər, səhra qızılı.
***Səhrinaz*** (ə.,f.) - səhər nazı, sübh nazı.
***Səhriyə//Səhəriyyə*** (ə.) - səhərlər, səhərli.
***Səidəxanım*** (ə.,t.) - Səidə xanım; xoşbəxt xanım.
***Səkinəbəyim*** (ə.,t.) - Səkinə bəyim; sakit, mülayim bəyim.
***Səkinəxanım*** (ə.,t.) - Səkinə xanım; sakit, mülayim xanım.
***Səqidə*** (ə.) - xoşbəxt, bəxtiyar.
***Səqirə*** (ə.) - kiçik, balaca; od, alov.
***Səlbi//Səlvi*** - əsli f. "sərv" sözündən olub, həmişə yaşıl, hündür və yaraşıqlı ağac mənasındadır.
***Səlbinaz//Səlvinaz*** - uzun boylu gözəl, nazlı, işvəli qız.

***Səlhət*** (f.) - sülh gətirən; Azərbaycan dilində xarıbülbül gülünə bənzər gül adı.
***Səlihət*** (ə.) - yaxşı, yararlı, düzgünlük tərəfdarı.
***Səliqə*** (ə.) - qayda, qayda-qanun, hər şeyin öz yerində olması.
***Səliməxanım//Səlməxanım*** (ə.,t.) - sağlam xanım; bütöv xanım.
***Səliməxatun//Səlməxatun*** (ə.,t.) - sağlam xatun; bütöv qadın.
***Səlimnaz*** (ə.,f.) - eyibsiz naz edən, tamamilə nazlı.
***Səlma*** (ə.) - sağ-salamat olmaq, əsən olmaq, yaxşı olmaq; sağlamlıq.
***Səlmi*** (ə.) - sağlamlığa aid olan, tamlığa məxsus olan.
***Səlmibəyim*** - bax: Səlmi və Bəyim.
***Səlmicahan*** - bax: Səlmi və Cahan.
***Səlmicamal*** - bax: Səlmi və Camal.
***Səlminaz*** (ə.,f.) - sağlamlığa məxsus naz, bütövlüyə aid naz.
***Səlminisə*** - bax: Səlmi və Nisə.
***Səlmizər*** (ə.,f.) - qızıl kimi nöqsansız, sağlam, dürüst olan.
***Səltənət*** (ə.) - sultanlıq, hökumət, dövlət; hökmdarlıq; ölkə.
***Səlvican*** - sərv ağacı kimi boy-buxunlu, qədd-qamətli gözəl.
***Səma*** (ə.) - göy, asiman, fələk.
***Səmagül*** (ə.,f.) – göyün çiçəyi, asimanın gözəli; səma gülü kimi qız.
***Səmahət*** (ə.) - mərdlik, səxavət, əliaçıqlıq.
***Səmanaz*** (ə.,f.) – göyün nazı, qəmzəsi; səma nazı kimi gözəl.
***Səmayə*** (ə.) – səmaya məxsus, göyə aid, səmaya aid.
***Səmazər*** (ə.,t.) – göyün qızılı, şəfəqi; səma zəri kimi saf və təmiz qız.
***Səmən*** (f.) - gözəl qoxusu olan və ağ çiçəklər açan sarmaşıq cinsindən ağac və gülü. Bax: Yasəmən.
***Səmənbər*** (f.) – sinəsi yasəmən kimi ağ, yasəmən sinəli.
***Səməngül*** - səməni çiçəyi, səmənidə olan gül.
***Səməni*** - Novruz bayramında göyərdilmiş buğda; həyat, yenilik.
***Səmənnaz*** (f.) - yasəmən gülü kimi nazlı gözəl.
***Səmənnur*** (f.,ə.) – parlaq yasəmən, işıq saçan yasəmən; yasəmən nuru kimi gözəl qız.
***Səmənzər*** (f.) – qızıl yasəmən, zərli yasəmən; yasəmən zəri kimi gözəl qız.
***Səmər//Səmərə*** (ə.) - fayda, mənfəət; meyvə, meyvəcat.
***Səmərgül*** (ə.,f.) - meyvə gülü; fayda gülü.
***Səmərqənd*** - şirin meyvə (Özbəkistanda şəhər adı. Rəvayətə görə, Yəmən şahı Şəmir bu şəhəri zəbt edir və öz adını qoyur. Mənası “böyük kənd” deməkdir).

***Səmərrux*** (ə.,f.) - bəhrəli üz, faydalı üz, zövq verən üz.
***Səmiha//Səmihə*** (ə.) - geniş ürəkli; əliaçıqlıq, səxavətli.
***Səmiqə*** (ə.) - sakit; meh, nəsimi; dinləyici.
***Səmimə*** (ə.) - təmiz nəsildən olan; səmimi; hər şeyin əsli.
***Səminə*** (ə.) - qiymətli, bahalı; kök, gombul.
***Səmiyə//Səmiyyə*** (ə.) - eyniadlı, adaş.
***Səna*** (ə.) - tərif, mədh, öymə.
***Sənaxanım*** (ə.,t.) - tərifəlayiq, öyüləsi xanım, mədh olunan xanım.
***Sənayə//Sənayət*** (ə.) - tərif, mədh, öymə.
***Sənəm*** (ə.) - büt; gözəl, göyçək, qəşəng.
***Sənəmgül*** (ə.,f) - gözəl gül, göyçək gül; qəşəng qız.
***Səniyə//Səniyyə*** (ə.) - uca, yüksək, ali.
***Sənubər*** (ə.) - şam ağacı; boylu-buxunlu, qamətli.
***Sənurə//Sənnurə*** (t.,ə.) - sən nursan, işıqsan; ağbəniz qız.
***Sərbanu*** (f.) - hökmdarın baş xanımı, baş banu.
***Sərəfraz*** (f.) - məğrur, vüqarlı; xoşbəxt.
***Sərəngül*** (f.) - Rey gülü; gül ləçəyi; gözəl gül.
***Sərəstən*** (f.) - çiçəyə tutulmuş baş, baş bəzəyi.
***Sərfinaz*** - naz sərf etmə, naz xərcləmə.
***Sərginaz*** - naz sərgisi, naz nümayişi.
***Sərgül*** (f.) - baş gül, birinci gül; böyük gül.
***Səringül*** (f.) - gül sərin, gülü yayın.
***Səriyyə//Surayya//Surəyyə//Sürayyə//Sürəyya//Səriyyət*** (ə.) – Yeddi-qardaş ulduz, ülkər.
***Sərmayə*** (f.) - mənbə, maya, pul, kapital.
***Sərminə*** (f.) - gözəl, qəşəng.
***Sərnaz*** (f.) – nazlanan baş; nazların başı, baş naz.
***Sərv//Sərvi*** (f.) - həmişəyaşıl ağac; şümşadboylu; sərv ağacı kimi gözəl.
***Sərvgül//Sərvigül*** (f.) - sərv ağacının gülü, sərv çiçəyi.
***Sərvinaz//Sərvnaz*** (f.) - sərv ağacı kimi nazlanan, sərv nazlı.
***Sərurə*** (ə.) - taxt, padşahlıq taxtı.
***Səviyyə*** (ə.) - nəyinsə yüksəlmə, enmə; keyfiyyət və kəmiyyət dərəcəsi.
***Səyahət*** (ə.) - uzaq yerə getmək; səfər etmə.
***Sırğa*** - qadınların qulaqlarına taxdıqları qızıl və ya gümüşdən hazırlanmış bəzək əşyası, tana(Onların üçdüymə, beşdüymə və s. növləri vardır. Bu sırğaların hamısı dairəvi - Günəş şəklində olur. Düymələr isə 1 sm uzunluğunda olub, dairələrin aşağı hissələrindən şüa kimi onlara yapışdırılır. "Sırğa" sözündəki "sır" Günəş mənasında

"sarı, sar", "tana" sözündəki "tan" isə Günəş mənasında "dan" sözü ilə bağlıdır. Bu baxımdan "sır" və "tan" sözləri sinonimik cərgə təşkil edir və Günəş anlayışı ilə əlaqədardır).
***Siddiqə//Səddiqə//Sidiqə*** (ə.) - səmimi, saf, ürəyitəmiz.
***Sifayə//Sifayı*** - bax: Safiyyə, Səfiyyə.
***Sifeyra//Sifeyrə//Sifera*** (ə.) - səfirlər, elçilər.
***Sima*** (y.) - şöhrət, şan, şərəfli ad; ə. üz, sifət, çöhrə.
***Simariş*** - bir işin icrasını tapşırma, ismarlama; sifariş.
***Simayə*** - Ay üzlü, Ay sifətli.
***Simazər*** (ə.,f.) – «sima» və «zər» sözlərindən düzəlmiş, «parlaq üzlü, qızıl bənizli» deməkdir.
***Simin*** (f.) - gümüş kimi, gümüş kimi ağ olan.
***Simingül*** (f.) - gümüş kimi ağ və saf gül.
***Simnarə*** (f.,ə.) - gümüş qığılcımı; gümüş hərarəti.
***Simnaz*** (f.) – nazlı gümüşbədənli; ağ bədənli gözəl.
***Simtən*** (f.) - bədəni gümüş kimi ağ; göyçək.
***Simuzər//Simzər//Sümuzar*** (f.) - qızıl-gümüş; çox qiymətli; çox gözəl.
***Sitarə*** (f.) - ulduz.
***Siyafər//Siyahbər*** (f.) - qara burma saç.
***Siyafət*** (f.,ə.) - qarabuğdayı gözəl; şərəf, şan.
***Siyatel//Siyahtel*** - qara saçlı, saçları qara rəngdə olan.
***Sofa//Sofiya//Sofya*** (yun.) - əsli "sopia"dır; müdrik, müdriklik.
***Solmaz*** - solmayan, təravətini saxlayan.
***Soltanbəyim//Sultanbəyim*** - bax: Soltan və Bəyim.
***Soltanxanım//Sultanxanım*** - bax: Soltan və Xanım.
***Soltannisə//Sultannisə*** (ə.) - soltan olan nisə; soltana layiq qız.
***Sona*** - yaşılbaş ördək, çölördəyi; gözəl.
***Sonabəyim*** - bax: Sona və Bəyim.
***Sonagül*** - sona kimi gül; gözəllərin gülü, gözəllər gözəli.
***Sonaxanım*** - bax: Sona və Xanım.
***Sonanur*** (t.,ə.) - sona nuru; sona kimi gözəlin nuru; nurlu gözəl.
***Sonası*** - valideynin sonası; sona kimi gözəl qız.
***Sonay*** - son Ay, axırıncı Ay, sonuncu qız.
***Sonayım*** - son Ayım, axırıncı Ayım; sonuncu qızım.
***Sonel*** - anası Sona, atası Elmirin adlarının ilk hecalarından yaranmışdır.
***Songül*** - son gül, son çiçək; sonuncu qız.
***Sonya*** (r.) - tənbəl, əzgin; çox yatan, yatağan.

***Sovqat*** - birinə göndərilən pay; hədiyyə, bəxşiş.
***Soylu//Söylü*** - nəsilli, əsil-nəcabətli.
***Suçsuz*** - günahsız, təqsirsiz.
***Sudabə//Südabə*** (f.) - sədəfotu; ağ və gözəl bədənli qız.
***Suğra*** (ə.) - ən kiçik (qız).
***Sufiyyə*** (ə.) - müqəddəs, zahid; sufi təriqətinə mənsub olan.
***Suqiyyə*** (ə.) - bazar, yarmarka, ticarət mərkəzi.
***Sultanbəyim*** - bax: Sultan və Bəyim.
***Sultanxanım*** - bax: Sultan və Xanım.
***Sultaniyyə*** (ə.) - sultanlara, hökmdarlara məxsus, sultanlar.
***Sultannisə*** - bax: Sultan və Nisə.
***Sumax//Sumaq*** - yarpaqlarından boyaq, dərman və ədviyyat maddələri hazırlanan ağac.
***Sumayə*** (ə.) - su ördəyi; gözəl.
***Sural*** - qırmızı tale; uğurlu tale.
***Sura//Surə*** (ə.) - "Quran"ın bölündüyü 114 fəsildən hər biri.
***Surahı//Surahi//Sürahi*** (ə.) - uzunboğazlı su və ya şərab şüşəsi.
***Suray*** - saçı uzun olan xanım; gözəl Ay.
***Surayya//Surayyə//Surayə//Sürayə//Sürayya//Sürayyə//Surəyya//Sürəyya*** (ə.) - Ülkər və ya Yeddiqardaş ulduzu.
***Suriyə//Suriyyə//Süriyyə*** (ə.) - toy münasibətilə yazılmış şeir növü, qəsidə; qırmızılıq; sevinc; şəhərli qadın.
***Susən//Süsən*** (f.) - zanbaq.
***Susənbər//Süsənbər*** (f.) - susən kimi ağ bədənli; ətir saçan.
***Suzan//Suzana//Suzanə*** (f.) - yandıran, yaxan, odlanan; kədərli, qəmli.
***Sübhinaz//Sübhnaz*** (ə.,f.) - sübh nazı, səhər qəmzəsi, sübh işvəsi.
***Sülhnur//Sulhnurə*** (ə.) - sülhün nuru, sülhün işığı.
***Sülük*** - baldırı koğuş bitkilərin təzə gövdəsi; rəftar.
***Sümbül//Sünbül*** - taxıl (arpa, buğda və s.) bitkilərinin dən topası.
***Sünbülə*** (ə.) - 12 bürcdən birinin adı, Sünbülə bürcü; başaq, sünbül.
***Süniyyə*** (ə.) - iş görənlər, işi icra edənlər; sünnə təriqətinə mənsub olan.
***Sürmayə*** (ə.,f.) - xoşbəxtlik sərmayəsi; səadət kapitalı.
***Sürmə*** - qadınların qaş və gözlərinə çəkdikləri qara boya.
***Sürməli*** - sürmə çəkilmiş qaş-göz; sürmə çəkilmiş göz kimi gözəl.
***Sürmənaz*** (f.) – sürmə nazı, sürmə işvəsi.
***Sürmənur*** (t.,ə.) – sürmənin nuru, işığı; sürməli gözəl qız.
***Sürməzər*** (t.,f.) – parıltılı sürmə, qızılı sürmə; sürməli qız.

***Susanna//Susana//Susanə//Süsanə*** (ib.) - əsli "şosanna" olan "zanbaq" beynəlxalq adlardandır.
***Süsəngül*** (f.) - zanbaq gülü, süsən gülü.
***Süsənxanım*** (f.,t.) - Süsən xanım; su zanbağı kimi ağ xanım.
***Süsənzər*** (f.) - zanbağın qızılı; qırmızı zanbaq.
***Svet//Sveta//Svetlana*** (r.) - işıq, işıqlı, parlaq, aydın.

## ꕥ Ş ꕥ

***Şabikə//Şahbikə*** (f.,t.) - şahın ərə getməmiş qızı, şah qızı.
***Şadaləm*** (f.,ə.) - şən, sevincli dünya, aləmin sevinci.
***Şadan*** (f.) - sevincək, sevincli, məmnun, xoşbəxt olanlar, sevinənlər, şadlananlar.
***Şadbahar*** (f.) - bahar sevinci, şən bahar; sevinc baharı.
***Şadbəyim*** (f.,t.) - bəyim sevinci; şad bəyim; sevinc bəyimi.
***Şadgül//Şəngül//Şəngülə*** (f.) - şən gül, məmnun gül; şad gözəl.
***Şadiyə//Şadiyyə*** (f.) – şadlıq, sevinc; şadlıq, sevinc bəxş edən qız.
***Şadlıq*** - şad olma, fərəhlilik, sevinc, fərəh.
***Şafiyə*** (ə.) - şəfa verən, sağaldan; kafi.
***Şahanə*** (f.) – şaha layiq, şaha münasib; şah qızı kimi gözəl.
***Şahbacı//Şabacı*** - şah bacısı; şaha layiq bacı.
***Şahbanu*** (f.) - şah banusu, şah arvadı (Şahban, Şaban kimi ixtisar forması da vardır).
***Şahbəyim//Şabəyim*** - bax: Şah və Bəyim.
***Şahbibi*** - bax: Şah və Bibi.
***Şahbikə*** (f.,t.) - şah kimi bikə; şaha layiq bikə.
***Şahdanə*** (f.) - böyük inci dənəsi; şaha layiq inci dənəsi.
***Şahdostu*** - şahın dostu; dost şahı; şaha layiq dost.
***Şahxanım//Şaxanım*** - bax: Şah və Xanım.
***Şahqız*** - hörmətli qız, əsas qız, böyük qız.
***Şahnabad//Şahnabat//Şahnobat*** - bax: Şah və Nobat.
***Şahnaz//Şəhnaz*** - zərli ipək parça; mülayim, xoşxasiyyət; "Şur" muğamının bir hissəsinin adı.
***Şahnənə//Şanənə*** - böyük nənə, əsas nənə, şah kimi nənə.
***Şahnəvaz*** (f.) - nəvaziş göstərən şah, əzizləyən şah.
***Şahnigar//Şahniyar//Şəhniyar//Şəhnigar*** (f.) - şah gözəli, şah istəklisi.
***Şahnisə*** - bax: Şah və Nisə.
***Şahpəri*** (f.) - pərilər şahı; ən gözəl qadın; şaha layiq pəri.

***Şahrux*** (f.) - şah üzlü, şah simalı, gözəl üzlü.
***Şahsədəf*** - bax: Şah və Sədəf.
***Şahsənəm*** (f.,ə.) - baş büt, sənəmlərin şahı; ən gözəl.
***Şahyəmən*** (f.,ə.) - Yəmən şahı; xoşbəxt şah; Yəmən şahı kimi qız.
***Şahzadə*** (f.) - şah övladı, hökmdar qızı.
***Şahzər*** (f.) - böyük qızıl, əsas qızıl.
***Şaqalat*** (is.) - "şokalad" sözünün təhrif forması.
***Şaqibə*** (f.) - səbirli, dözümlü qız.
***Şalalə//Şəlalə*** (f.) - çayın qayadan tökülən hissəsi.
***Şamail//Şamayıl//Şəmail//Şəmayıl*** (y.) - təbiətlər, xasiyyətlər; əks, surət; görünüş.
***Şamama*** (ə.) - xoşiyli qovun növü.
***Şamay//Şamayə*** (y.) - axşam Ayı, gecə Ayı.
***Şamirə//Şəmirə*** - çox qədim zamanlardan Assuriya, Babil, Urartu və Azərbaycanda dillərdə gəzən məşhur əfsanə qəhrəmanı "Şammuramata" adının sadələşdirilmiş forması.
***Şanı*** - çox şirin, şirəli, ətirli üzüm növü.
***Şayəstə*** (f.) - layiq, yaraşan.
***Şaziyə*** (ə.) - müstəsna, qaydaya uyğun olmayan; istisna olan.
***Şenal*** - şən hal, şad hal.
***Şenay//Şənay*** - şən Ay; parlaq Ay; məmnunedici gözəl qız.
***Şenel//Şənel*** - eli şən olan, şən el.
***Şenol//Şənol*** - şən olmaq; sevimli ol, məmnun ol.
***Şensoy//Şənsoy*** - şən nəsilli, şad nəsilli.
***Şeydabəyim*** (f.,t.) - vurğun bəyim, eşq dəlisi olan gözəl.
***Şeydaxanım*** (f.,t.)- vurğun xanım, eşq dəlisi olan xanım.
***Şəbgülü*** - sarı, mixəyi rəngli çiçəkləri olan çoxillik bitki; sarı bənövşə.
***Şəbnəm*** (f.) - şeh; gecə nəmi, gecə suyu.
***Şəbnur//Şəbnurə*** (ə.) - gecə işığı, gecə aydınlığı.
***Şəfa*** (ə.) - sağalma, sağlamlıq, xəstəlikdən qurtarma.
***Şəfaqət*** (ə.) - əslində "şəfəqqət"dir; acıma, yazığı gəlmə, ürəyi yanma; mehribanlıq, səmimiyyət; şəfqət.
***Şəfanaz*** (ə.,f.) - şəfaverici naz, qəmzə, işvə.
***Şəfanur*** (ə.) - şəfalı işıq, şəfaverici nur.
***Şəfəq*** (ə.) - dan; sübh; Günəşin ilk şüaları.
***Şəfəqnur*** (ə.) - şəfəqin nuru, parlaqlığı, işığı.
***Şəfqət//Şəfəqqət*** (ə.) - rəhm, mərhəmət, acıma, yazığı gəlmə; sübh çağı; mehribanlıq.

***Şəhidə*** (ə.) - şəhid olan (Qarabağ müharibəsində atasının həlakından sonra doğulduğu üçün belə adlandırılmışdır).
***Şəhla*** (ə.) - ala, iri, böyük (göz haqqında).
***Şəhlabəyim*** (ə.,t.) - Şəhla bəyim; alagöz xanım olan qız.
***Şəhlaxanım*** (ə.,t.) - Şəhla xanım; alagöz bəyim olan qız.
***Şəhrəbanu//Şərəbanu//Şərəbanı//Şərabanu//Şəhrəban*** (f.) - şəhər valisinin (hökmdarının) arvadı; şəhərin ən böyük, tanınmış xanımı.
***Şəhri*** - (ə.) aylıq; (f.) şəhərli.
***Şəhrigül*** (f.) - zərif gül, incə çiçək.
***Şəhrizad*** (f.) - şəhər uşağı, şəhərli övladı, şəhərdə doğulmuş qız.
***Şəhrizə//Şəhruzə*** (f.) - hər gün şəhərdə gəzən kasıb; acgöz qız.
***Şəxsiyyə*** (ə.) - şəxsiyyəti, əxlaqı, mənliyi olan.
***Şəkər*** - qənd, qənd tozu; şirin(qız).
***Şəkərnaz*** - nazı, qəmzəsi şirin olan, işvəsi ləzzət verən.
***Şəmimə*** (ə.) - yaxşı iyi, qoxusu olan, gözəl qoxulu.
***Şəms*** (ə.) - Günəş.
***Şəmsicahan*** (ə.,f.) - cahanın Günəşi, dünyanın Günəşi.
***Şəmsiqəmər*** (ə.) - Günəş və Ay sözlərindən yaranmışdır.
***Şəmsinur*** (ə.) - Günəşin nuru, Günəşin işığı.
***Şənaləm*** (f.,ə.) - aləmin sevinci, sevimli, şad dünya.
***Şənbahar//Şənyaz*** - bahar sevinci; sevinc gətirən bahar.
***Şəndə*** (f.) - sevincli, məmnun, həyatından, yaşayışından razı olan, gülər üzlü, xoşbəxt.
***Şəngül//Şəngülə*** – «şən» və «gül» sözlərindən düzəlmiş, «gül sevincli, şad olan çiçək, sevinən çiçək» deməkdir.
***Şənlik*** - şadlıq, sevinc, fərəh; təntənə, şadyanalıq.
***Şənnaz*** (f.) - şadlıqla nazlanan, şənlənərək naz edən.
***Şəntürk*** (f.,t.) - şən olan türk, şənlənən türk.
***Şərafət*** (ə.) - etibar, heysiyyət; şərəf, şöhrət.
***Şərəf*** (ə.) - namus, qeyrət, heysiyyət, iftixar.
***Şərəfbəyim*** - bax: Şərəf və Bəyim.
***Şərəfə*** (ə.) - minarənin azan verilən yeri.
***Şərəfgül*** - bax: Şərəf və Gül.
***Şərəfxanım*** - bax: Şərəf və Xanım.
***Şərəfqədəm*** (ə.) - qədəmləri uğurlu olan, gəlişi şərəfli olan.
***Şərəfnaz*** (ə.,f.) - yaxşı naz eləməyi bacaran, gəlişi şərəfli olan.
***Şərəfnisə*** (ə.) - qız(lar)ın şərəfi, qadın(lar)ın iftixarı.
***Şərqi*** (ə.) - Şərqə aid olan, Şərqə məxsus olan; nəğmə, mahnı.

***Şərqinaz*** (ə.) - Şərqə məxsus naz; nəğməli naz.
***Şərqiyyə*** (ə.) - şərqli qız; Şərqə məxsus qız; nəğmələr, türkülər.
***Şərmin//Şərminə*** (f.) - utanan, utancaq; çəkingən, çəkinən.
***Şikayət*** (ə.) - öz halından ah-zar etmə, şikayətlənmə.
***Şikəstə*** (f.) - segah məqamında zərbli muğam.
***Şimay//Şimayə*** - çox işıqlı Ay, parlaq Ay.
***Şirin*** (f.) - şəkər və ya bal dadı verən; xoşagələn, ürəyəyatan.
***Şirinbacı*** - bax: Şirin və Bacı.
***Şirinbəyim*** - bax: Şirin və Bəyim.
***Şiringül*** - bax: Şirin və Gül.
***Şirinxanım*** - bax: Şirin və Xanım.
***Şirinnaz*** (f.) - işvəsi, nazı xoşa gələn.
***Şirmahı*** (f.) - aslanın Ayı, şirin Ayı.
***Şirmayə//Şirmayı*** (f.) - fil sümüyündən hazırlanmış sədəf; parlaq, ağappaq.
***Şirnaz*** (f.) - aslan; şir nazı; qəhrəmana layiq qız.
***Şirvangül*** (t.,f.) - Şirvan gülü, çiçəyi.
***Şöhlə//Şölə*** (ə.) - tonqaldan qalxan alov, parıltı, işıltı, şəfəq.
***Şövkət*** (ə.) - əzəmət, qüdrət, cah-cəlal; şöhrət.
***Şövqinar*** (ə.) - arzu edənin odu, istəyənin hərarəti; şövqə gələnin istiliyi.
***Şövqinaz*** (ə.) - arzu edənin odu, istəyənin hərarəti; şövqə gələnin istiliyi.
***Şövqinur*** (ə.) - arzu edənin işığı, istəyənin parıltısı.
***Şövqiyyə*** (ə.) - şövqlü, arzu edən, arzu edilən, istəyən.
***Şövqizər*** (ə.,f.) - arzu edənin zəri, istəyənin daş-qaşı.
***Şukufə//Şükufə*** (f.) - gül-çiçək; açılmış gül.
***Şumşad//Şümşad*** (f.) - çox möhkəm oduncaqlı həmişəyaşıl ağac; uca və gözəl bədənli.
***Şura*** (ə.) - hər hansı məsələnin müzakirəsi; məsləhətləşmə; müşavirə, məclis, sovet, məşvərət.
***Şuridə*** (f.) - üsyankar; qarışıq; şair; məftun.
***Şuşa*** – Azərbaycanın Şuşa şəhərinin adındandır.
***Şuşaxanım//Şüşəxanım*** - Şuşa xanım, şuşalı xanım.
***Şükuhə*** (f.) - böyüklük, ucalıq; əzəmət, cəlal, şan-şərəf.
***Şüşə*** - bax: Ayna; şəffaf, saf, təmiz.

***Tacılı//Taclı*** (f., t.) – taca malik olan; hökmdarlığa layiq qız.
***Tacbanu*** (f.) - tac sahibi olan xanım; hökmdar; taclı xanım.
***Tacbəyim//Tacıbəyim*** (f.,t.) - bəyimlərin tacı; gözəllərin gözəli.
***Tacbikə//Tacıbikə*** - hökmdarların tacı olan bikə; qızların tacı.
***Tacgül*** (f.) - taxt-tacın gülü; hökmdarın gülü, çiçəyi.
***Tacxanım//Tacıxanım*** - hökmdarların tacı olan xanım; xanımların tacı.
***Tacı//Taci*** (f.) - hökmdarların baş tacı; ailənin tacı; əziz, sevimli.
***Taciman*** (f.,ə.) - tacdar, padşah, tac sahibi.
***Tacınisə//Tacnisə*** (f.,ə.) - qadın hökmdarların tacı; qadınların sevimlisi.
***Taciyə//Taciyyə*** (f.,ə.) - taclı qadın, taca aid; taca məxsus olan.
***Tafta*** (f.) - sıx toxunmuş ipək və pambıq parça.
***Taha*** (ə.) - Məhəmməd peyğəmbərin epitetlərindən biri.
***Tahiyyə*** (ə.) - aşpaz; salamlaşma; xeyir-dua vermə.
***Tahimə*** (ə.) - anlama, anlayiş; ağıl, zəka.
***Taliyə*** (ə.) - qabaqcıl dəstə, avanqard dəstə.
***Tamam*** (ə.) - sona çatma, bitmə, yekunlaşdırma (qız bəsdir).
***Tamamgül*** - bax: Tamam və Gül.
***Tamaxanım*** (ə.,t.) - həqiqi xanım, əsil xanım.
***Tamamnaz*** (ə.,f.) - yaxşı naz, naz etməyi bacaran.
***Tamamnur*** (ə.) - çox parıltı, nurlu olan.
***Tamamzər*** (ə.,f.) - tamamilə qızıl kimi olan.
***Tamara*** (y.) - Finikiya palması; ucaboylu gözəl qız.
***Tamaşa*** - görməli, baxmalı; seyr etmə.
***Tamay//Tamayə*** - bütün Ay, Ayın yuvarlaq halı; tam Ay.
***Tamilla//Tamella//Tameyla//Tamilə//Təmilə*** (r.) - qədim slavyanca "tomiti" (incitmək, əziyyət vermək, üzmək; parçalamaq, dağıtmaq; usandırmaq) sözündəndir. Ruslarda "Tomila", "Tamila" formasında işlənir. Ərəbcə "təmil" (əməl etmə, ümid verən; əyilmiş, meyl etmiş) sözündən və tamil xalqının adından olduğunu da ehtimal edirlər.
***Tanay//Tanayə*** - fəcr vaxtının ayı; balaca qızartı.
***Tangül//Tangülü*** - sübh vaxtı açılan gül; səhər gülü.
***Tanqız*** - dan və şəfəqlə əlaqədar olan; dan yeri qədər gözəl.
***Tansel//Tanseli*** - şəfəqlə, dan ilə əlaqəli olan; qeyri-adi gözəl.
***Tansu*** - qeyri-adi, çox qəribə; son dərəcə gözəl; şəfəq suyu.

***Tansulu*** - dan suyu olan; səhər çeşməsi və ya şəfəqləritək gözəl.
***Tanyel//Tanyeli*** - səhər küləyi, dan vaxtının mehi, nəsim.
***Tanyer//Tanyeri*** - dan işığının göründüyü yer; üfüq.
***Taran*** - dar an, dar macal, cüzi vaxt.
***Taray*** - yeni bülövlənən Ay, yeni pardaqlanan Ay.
***Tatyana*** (yun.) - düzəldən, təsis edən; müəyyənləşdirmək.
***Tavad//Tavat*** (g.) - mülkədar, torpaq sahibi; gürcü knyazı.
***Tavus//Tovuz//Tauzə//Tavuz//Tavuzə*** - Adın mənşəyini bəziləri hindcə, bəziləri də latınca hesab edir. Ərəbcəsi "tavus"dur: uzun və rəngarəng tükləri olan quş; bəzənmiş qız; əbədilik, ölməzlik, padşahlıq rəmzi kimi tətbiqi sənətdə işlənir.
***Taybə//Tayibə*** (ə.) - təbib, həkim.
***Taybəs*** - daha bəsdir, daha qız olmasın, daha qız kifayətdir.
***Telbəyim*** – gözəl saçlı xanım; uzun hörüklü qız.
***Telcan*** - teli can alan, saçı cana dəyən.
***Telqələm*** – qələmlə çəkilmiş kimi saçları olan; saçlı gözəl; ticarətlə məşğul olan; zəngin, dövlətli.
***Telqız*** – telli qız; gözəl saçları olan qız.
***Tellər*** - telləri olan, saçı olan.
***Telli*** - teli olan, saçı olan, hörüyü olan; uzunsaçlı.
***Tellibacı*** - saçları olan bacı; bax: Telli və Bacı.
***Tellibəyim*** - bax: Telli və Bəyim.
***Tellibikə*** - bax: Telli və Bikə.
***Tellixanım//Telxanım*** - bax: Telli və Xanım.
***Tellinaz//Telnaz*** (t.,f.) - teli naz edən, hörüyü naz edən; işvəli, telli dilbər.
***Tellizar*** (t.,ə.) - incə, zərif tel, saç; ahu-nalə edən saç.
***Tellizər*** - teli qızıl kimi olan, sarısaç.
***Telşan//Telşanə*** (t.,f.) - əzəmətli, şöhrətli, tanınmış saç.
***Telşən*** – «tel» və «şən» sözlərindən düzəlmiş, «saçları sıx, qalın olan qız» deməkdir.
***Tereza*** (yun.) - mühafizə, müdafiə; çalışmaq, ovlamaq.
***Tezcan*** - səbirsiz, hövsələsiz, kəmhövsələ.
***Tezqayıt*** - dərhal qayıt, tez gəl.
***Təbabə*** (ə.) - "təbabət" sözünün qısaldılmış forması; təbiblik.
***Təbərrik//Tabərrik//Tabərik*** (ə.) - uğur gətirən torpaq, su; müqəddəs adamların geyimlərinin kiçik parçası; aztapılan hər şey.
***Təbəssüm*** (ə.) - gülümsəmə.

***Təbiət*** (ə.) - Yerdə təbii şəraitin (Yerin səthi, bitki aləmi, iqlim və s.) məcmusu; üzvi və qeyri - üzvi aləm, Yerdə insan fəaliyyəti ilə yaradılmamış hər şey.
***Təcridə*** (ə.) - ayırma, təkləmə.
***Təcrübə*** (ə.) - sınama, sınaq, yoxlama.
***Təkay*** - bircə Ay, yeganə Ay; Aya bərabər gözəl qız.
***Təkcəgül*** – gözəllikdə, təravətdə tək olan çiçək.
***Təkcənaz*** – bircə nazlı, işvəli gözəl qız.
***Təkcənur*** – tək bircə işıq verən, nurlandıran; misilsiz gözəl.
***Təkcəyar*** (t., f.) – «təkcə» və «yar» sözlərindən yaranmış, «bircə istəkli, yeganə sevilən» deməkdir.
***Təknaz*** (t.,f.) – tayı-bərabəri olmayan nazlı gözəl.
***Təknur // Təknurə*** (t., ə.) – tayı-bərabəri olmayan; misilsiz gözəl, nur saçan gözəl; işıq saçan tək qız.
***Təkzər*** (t., f.) – bənzərsiz qızıl; tayı-bərabəri olmayan, qiymətli zər.
***Təliə*** (ə.) – qabaqcıl, öndə gedən, avanqard dəstə, kəşfiyyatçı dəstəsi.
***Təkgül*** - bircə gül, yeganə gül, çiçək; tayı-bərabəri olmayan gözəl.
***Tənay*** - Aya bərabər, Ay ilə eyni olan; Ay bədənli.
***Tənha*** (f.) - tək, yalnız, yalqız;köməksiz qız.
***Tənzifə*** (ə.) – təmiz, pak, suya çəkilmiş; nazik cunayı, tül rübənd, qat-qat örtük.
***Təranə*** (f.) - nəğmə, mahnı, şərqi, melodiya.
***Təravət*** (ə.) - gözəllik, qəşənglik, gənclik.
***Tərbiyə*** (ə.) - insanın ümumi inkişaf, sistematik təhsil və tərbiyə nəticəsində biliyə, mədəni vərdişlərə və s.-yə yiyələnməsi; gözəl əxlaq.
***Tərgül*** - təzə gül, yeni gul, tər gül.
***Tərxun//Tərxunə*** - yeyilən ətirli göyərti.
***Tərlalə*** (f.) - təzə lalə, tər lalə; tər lalə kimi gözəl qız.
***Tərminə*** (f.) - təzə mina, tər büllur.
***Tərnaz*** (t., f.) – təzə naz, təzə işvə; yeniyetmə qız.
***Tərnisə*** - təzə - tər qız, gözəl və təravətli qız.
***Tərnur//Tərnurə*** (t., ə.) – təzə nur, təzə işıq, təzə doğulmuş Ay.
***Tərsanə*** (ə.) – arsenal, zavod, fabrik, sənaye binası, istehsal evi.
***Təskirə//Təzkirə*** (ə.) - hədiyyə, yadigar, abidə; qeyd, yaddaş, xatirə.
***Təsminə//Təsmiyə*** (ə.) - qiymətləndirmə; kökəltmək.
***Təsvirə*** (ə.) – şəkil, rəsm, surət.
***Təzəgül*** (f.) - tər çiçək, yeni gül, tər gül.
***Təzənar*** (f.) – təzə nar, təzə meyvə; yeniyetmə qız.

***Təzənur*** (f., ə.) – yeni işıq, yeni nur, yeni şəfəq.
***Tiflisxanım*** - Tiflis xanım; tiflisli xanım; çeşmə kimi qaynar xanım.
***Tila*** (ə.) – qızıl, qızıl suyu.
***Tilaxanım*** (ə.,t.) - qızıl, qızıl suyu olan xanım; qızıl suyu kimi gözəl.
***Tinati//Tinatin//Tinətin*** (ə.) - sənin mayan, sənin zatın, sənin kökün.
***Tinə*** (ə.) – maya, əsil, zat.
***Tinəxanım*** (ə., t.) – əsli, nəsli olan, zatı məlum olan hökmdar qadın.
***Tinənur*** (ə.) – mayası nurdan, işıqdan olan; kökü işıqla bağlı olan.
***Tinəzər*** (ə., f.) – mayası qızıldan olan; qızıl təbiətli, qızıl xüsusiyyətli.
***Tomiris//Tomris//Tumruz*** - həyat verən, nəsil artıran, bərəkət gətirən; dəmir kimi möhkəm.
***Torağay*** - çəmənliklərdə yaşayan və oxuyan gözəl quş.
***Torksin//Torqsin*** - XX əsrin 30-cu illərində ipək parça adı olmuşdur (Bakıda qızıl dükanlarından birinin adı).
***Toyxanım*** - dəbdəbəli xanım, təntənəli qadın.
***Töhfə*** (ə.) - bəxşiş, sovqat, hədiyyə, pay.
***Törə*** - balacaboy; törəmək; qədim türklərdə titul (bax: Tarxan).
***Tövsiyə*** (ə.) - bir işi necə etmək haqqında təklif, məsləhət, tapşırıq.
***Tuba//Tubi//Tubu*** (ə.) - Cənnətdə bitən gözəl, hündür bir ağac; boy-buxunlu.
***Tubabəyim//Tubibəyim//Tububəyim*** - Cənnət ağacı kimi yaraşıqlı, boylu-buxunlu gözəl bəyim.
***Tubaxanım//Tubixanım//Tubuxanım*** - Cənnət ağacı kimi yaraşıqlı, boylu-buxunlu xanım.
***Tubanisə//Tubinisə//Tubunisə*** - Cənnət ağacı kimi yaraşıqlı, boylu-buxunlu nisə.
***Tubuzar//Tubuzər*** - Tuba ağaclarından ibarət qızıl bağ; qeyri-adi gözəl qız; qızıl tuba ağacı.
***Tuğra*** - damğa, dövlət nişanı; şahın adını bildirən monoqram.
***Tunay//Tünay//Tunayə//Tünayə*** - gecə görünən Ay; Ay kimi gözəl qız.
***Tuncay//Tüncay*** - işıqlı Ay; bürünc Ay; Ay kimi gözəl qız.
***Tura//Turə*** - hökmdar; şahzadə; seyidlərə verilən titul; başlanğıc, adət.
***Turac*** - xallı və gül rəngli, kəkilli quş; bəzənmiş işvəli gözəl.
***Turangül*** - Turan gülü; Turan gözəli.
***Turçin*** - Həqiqət yaşasın! Yaşasın həqiqət!
***Turiyyə*** (ə.) - dağlar, dağlıq.
***Turqiyyə*** (ə.) - dairəvi, mirvari şəkilli.

***Turunc//Türünc*** (f.) - qabığı girintili-çıxıntılı, naringidən iri turşməzə subtropik meyvə.
***Tutay//Tutayı*** - 1. "tutu" (quş) adının dəyişdirilmiş forması; 2. böyük bacı və bibi mənasındadır.
***Tuti//Tutu*** - insan danışığını təqlid edə bilən quş; şirindil.
***Tutibəyim//Tutubəyim*** - bax: Tutu və Bəyim.
***Tutibikə//Tutubikə*** - bax: Tutu və Bikə.
***Tutixanım//Tutuxanım//Tutxanım*** - bax: Tutu və Xanım.
***Tutixatın//Tutuxatın*** - bax: Tutu və Xatın.
***Tutinisə//Tutunisə*** - bax: Tutu və Nisə.
***Tutunur*** (t.,ə.) - odlu, atəşli, hünərli tutuquşu.
***Tutunar*** (t.,ə.) - nurlu tutuquşu; tutuquşunun nuru.
***Tutuzər*** (t.,f.) - qızıl tutuquşu; qızıl kimi tutuquşu.
***Tükən*** - qurtar, sona çat; daha qız olmasın.
***Tükənnaz*** (t., f.) – naz bitsin, tükənsin; daha qız doğulmasın.
***Tükənzər*** (t., f.) – qızıl bitsin, tükənsin; daha qız doğulmasın.
***Tükəz* -** "Tükəzban" (bax) adının ixtisar variantı; t.bitməyən, tükənməyən, sonsuz..
***Tükəzban//Tükəzbanu*** (ə.) - "Quran"ın "Əlrəhman" surəsindəki "tükəzziban" sözündən yaranmış bir addır. Əslində "təkazəbə" felindəndir və "Onlar təkzib edirlər, uydururlar" deməkdir.
***Tükəznar*** (t., f.) – bitməyən, tükənməyən od; sonsüz gözəl.
***Tükəznur*** (t., ə.) – bitməyən, tükənməyən işıq, nur; hədsiz gözəl.
***Tülay//Tülayə*** - Ayın tül pərdəsi; zərif, incə, gözəl qız.
***Tünal*** - gecəyə aid, qaranlığa məxsus.
***Tünay//Tünayə*** – «tün» və «Ay» sözlərindən düzəlmiş, «gecə görünən Ay» deməkdir.
***Tünzalə*** (ə.) - güzəştə getmə, bağışlama.
***Türbə//Türbət*** (ə.) - müqəddəs və ya böyük şəxslərin məzarı üstündə tikilən məqbərə, mavzoley.
***Türfə*** (ə.) - zərif, incə, füsunkar, qəşəng.
***Türfəxanım*** (ə.,t.) - tapılmayan xanım, nadir xanım.
***Türkan//Türkanə//Türkana*** (ə.) - türklər, türklərin vətəni.
***Türkanxatın//Türkanxatun*** - türklərin qadını, türklərin xatunu.
***Türkay // Türkayə*** – türk Ayı; türk gözəli; Ay kimi türk qızı.
***Türkünaz*** - türkün nazı; nazlı türk qızı.
***Türnanə*** – «tür(lü)» və «nanə» sözlərindən düzəlmiş, «gözəl, ləziz nanə»; məcazi mənada «gözəl qız» deməkdir.

## ꟿ U ꟿ

***Ucazər*** (t., f.) – ən yüksək, ali, ülvi, qiymətli zər; qeyri-adi, qızıl kimi qız.
***Uğurbəyim*** - uğurlu bəyim, uğur gətirən bəyim; xoşbəxt qız.
***Uğurgül*** - uğurlu gül, uğur gətirən gül; xoşbəxt gül-qız.
***Uğurxanım*** - uğurlu xanım, uğur gətirən xanım; xoşbəxt xanım.
***Uğurnaz*** - uğurlu, faydalı naz; fərəh, sevinc bəxş edən gözəl.
***Uğurnisə*** - uğur, fayda gətirən qız; uğurlu gündə doğulan qız.
***Uğurzər*** (t.,f.) – xoşbəxtlik Günəşi, səadət şəfəqi kimi gözəl qız.
***Ulduz//Ulduza//Ulduzə*** - gecələr göydə parıldayan göy cismi.
***Ulduzbəyim//Ulduzxanım*** - ulduz kimi parlaq, gözəl qız.
***Uludə*** – çox böyük, ən böyük, hörmətli, ağbirçək qadın.
***Umay//Umayə*** - İlahə, tanrı; Hüma quşu; istək, dilək; bax: Humay.
***Umayra*** - "Umay" və "Günəş" Allahı "Ra" teonimlərindən yaranmışdır.
***Umbacı//Umbəyim//Umbikə*** - bacının, bəyimin, bikənin anası ("umm, ümm" ərəbcə "ana" deməkdir).
***Umcahan//Ümcahan*** (ə.) - dünyanın anası, cahanın anası.
***Umgülsüm//Ümgülsüm//Ümmügülsüm*** (ə.) - əslində "Ummulgülsüm"dür və "Gülsümün anası" mənasındadır.
***Umxanım//Umuxanım//Ümxanım//Ümbülxanım*** - xanımın anası; xan arvadının anası; Anaxanım.
***Umxatın//Umxatun//Ümxatın//Ümxatun*** (ə.,t.) - hökmdar arvadının, xatınının anası.
***Umleyla//Ümleyla*** (ə.) - Leylanın anası.
***Ummi//Ümmi*** (ə.) - ana (Bir çox mürəkkəb antroponimlərin yaranmasında iştirak edir).
***Umnisə//Ümnisə//Ümbülnisə*** (ə.) - Nisənin anası.
***Uriyə//Uriyyə*** (ə.) - Allahın nuru, Tanrının işığı.
***Urqiyə//Urqiyyə*** - bax: Ruqiyyə.
***Urvat*** - hörmət, izzət, ehtiram, sayğı (ə.akasiya).
***Urzanə*** (ə.) - müsəlman pəhrizi.
***Urzuyar*** (f.) – uruz və yar sözlərindən düzəlmiş, «istəkli dost, arzuolunan yoldaş» deməkdir.
***Usandıq*** - təngə gəldik, bezdik, yorulduq, zara gəldik, cana doyduq.
***Utarit//Utarita//Ütarid//Utarida//Ütaridə//Ütarita*** (ə.) - gün çıxanadək görünən ulduz, Merkuri planeti.
***Uyqunə*** – yuxu, röya, xəyal; yuxu kimi xəyali gözəl.

## ꕥ Ü ꕥ

***Üfiqbəyim//Üfüqbəyim*** (ə.,t.) - Göy qübbəsi kimi təmiz və saf bəyim.
***Üfiqxanım//Üfüqxanım*** (ə.,t.) - Göy qübbəsi kimi təmiz və gözəl xanım.
***Üfüqnur*** (ə.) – üfüqün nuru, işığı; ənginliyin aydınlığı.
***Üqba*** (ə.) - nəsil; gələcək.
***Ülfətbəyim*** - bax: Ülfət və bəyim.
***Ülfətxanım*** - bax: Ülfət və xanım.
***Ülgən*** - altaylarda Tanrı adı; böyük, ulu; güclü, qüvvətli; sağlam.
***Ülgər//Ülkər*** - Yeddiqardaş ulduz topası. Bax: Sürəyya, Pərvin.
***Ülgəz*** - bax: Gülgəz.
***Ülvira*** (ə., is.) - ülviyyətin (ali, ucanın) hamisi; İlahinin himayə etdiyi.
***Ülviyyət*** (ə.) - alilik, ucalıq, ülvilik, müqəddəslik.
***Ülya*** (ə.) - əla, çox gözəl, qiymətli; ən uca.
***Ümbanu*** (ə.,f.) - xanımın anası; banu anası.
***Ümbül*** - "ümmül" sözünün təhrif edilmiş forması (bax: Umcahan).
***Ümbülbanu//Ümmülbanu//Ümbülbəni*** (ə.,f.) - banunun anası.
***Ümeyla*** (ə.) - kiçik kölə, balaca qul.
***Ümiyyə*** (ə.) - analıq; ögey ana; doğma olmayan ana.
***Ünay//Ünayə*** - Ayın səsi; gözəlin sədası, sorağı.
***Ürfünaz*** (ə.,f.) - yaxşılığın nazı, qayda-qanunun nazı.
***Üzarə*** (ə.) - yanaq, üz.
***Üzra//Üzrə//Üzri//Üzrayə//Üzriyyə*** (ə.) - bakirə, məsum, ərə getməmiş qız.
***Üzrabəyim//Üzraxanım//Üzrəbəyim//Üzrəxanım*** - bakirə, məsum, ərə getməyən bəyim və ya xanım.
***Üzraxatın//Üzrənisə*** - üzra kimi gözəl xatın və ya nisə.
***Üzza*** (ə.) - Qüreyşi bütpərəstlərinin sitayiş etdikləri bütlərdən biri.
***Üzzabəyim//Üzzaxanım//Üzzəbəyim//Üzzəxanım*** - Üzra kimi gözəl bəyim və ya xanım.

## ꕥ V ꕥ

***Vaqiyə*** (ə.) - hadisə, əhvalat, macəra; yuxu, röya.
***Valanaz*** - yaxşı naz etməyi bacaran (Dialektlərdə "vala" sözünün "yumşaq", "mülayim" kimi mənaları da vardır).
***Venera*** (l.) - Roma mifologiyasında məhəbbət və gözəllik ilahəsi.

***Vəcahət*** (ə.) - gözəllik, gözəl üz; şan, şöhrət, şərəf.
***Vəcibə*** (ə.) - vəzifə, borc.
***Vəcihə*** (ə.) - gözəl, qəşəng, ürəyəyatan, lətif.
***Vəcihi*** (ə.) - əsil, əsilzadə; şərəflə, şanla bağlı olan.
***Vəciyyə*** (ə.) - hörmətli, layiqli; gözəl, qəşəng, hökmdar.
***Vəfa*** (ə.) - vəfalı olma, sədaqət, etibar.
***Vəfagül*** (ə.,f.) - sədaqətlilik gülü, vəfa gülü.
***Vərda*** (ə.) – qızılgül.
***Vəsadət*** (ə.) - araya girmə; vasitəçilik; havadar çıxma.
***Vəsamə//Vəsamət*** (ə.) - gözəllik, göyçəklik, qəşənglik.
***Vəsfi*** (ə.) - tərif etməyə aid, vəsfə məxsus.
***Vəsfiyyə//Vəsviyyə*** (ə.) - tərifə layiq, vəsf edilməli.
***Vəsxanım*** (ə.,t.) - vüsətli xanım, tərifə layiq xanım.
***Vəslicahan*** (ə.,f.) - dünyaya qovuşma; cahana birləşmə.
***Vəsmə//Vəsmiyyə*** (ə.) - saç və qaşa çəkilən qara rəng, boya, basma.
***Vəsməgül*** (ə.,f.) - gül boyası, gül rəngi; vəsmə gülü.
***Vəsmicahan*** (ə.,f.) - dünyanın rəngi, aləmin boyası.
***Vətəngül*** - doğma yurdun, ölkənin çiçəyi, gülü.
***Vəzifə*** (ə.) - iş, xidmət, məmuriyyət.
***Vəzöhə//Vəzuhə//Vəzzuha//Vəzduhə*** (ə.) - açıq, aşkar; aydınlıq, aşkarlıq.
***Visulət//Vüsalət//Vüslət*** (ə.) - arzuya yetişmə, istəyə çatma; nail olma.

## ꕤ Y ꕤ

***Yağmurça*** - balaca ceyran; balaca xallı maral.
***Yaxşı*** - müsbət keyfiyyətləri üstün olan; sevincli, mehriban.
***Yaxşıbəyim*** - bax: Yaxşı və Bəyim.
***Yaxşıçiçək//Yaxşıgül*** - yaxşı çiçək, yaxşı gül, gözəl gül-çiçək.
***Yaxşıxanım*** - bax: Yaxşı və Xanım.
***Yaxşıqız*** – yaxşı, xoşagələn qız.
***Yaxşınisə*** (t.,ə.) - xoşagələn qız, bəyənilən qız.
***Yaqut*** (ə.) - qırmızı rəngli qiymətli parlaq daş.
***Yanargül*** - yanan gül, alovlanan gül; qırmızı gül.
***Yaraşıq*** - bəzək, ziynət; qəşənglik, gözəllik.
***Yarpaq*** - ağac, kol, başqa bitkilərin yaşıl hissələri; vərəq, səhifə.
***Yarpız*** - su kənarlarında bitən çöl nanəsi.
***Yasəmən*** (f.) - müxtəlif rəngli salxımvarı çiçəklər açan kol.
***Yaşılxanım*** - təzə, yeni xanım, cavan xanım.

***Yavrum//Yavruma*** - mənim cocuğum, mənim balam, mənim körpəm.
***Yaygül//Yaygülü*** - yay gülü, yayda açılmış gül.
***Yayla*** - yayda sərin və səfalı yerdə istirahət etmək; saf, ürəyitəmiz.
***Yaynaz*** (t.,f.) - yay nazı, yay işvəsi; nazlı, işvəli yay.
***Yazbahar*** (t.,f.) - eyni mənalı “yaz” və “bahar” sözlərindən düzəlmişdir.
***Yazbəhər*** – yaz meyvəsi, baharın barı, nəticəsi.
***Yazbikə*** - yaz bikəsi, bahar gözəli, qızı.
***Yazçiçək//Yazgül//Yazdagül//Yazgülü*** - bahar çiçəyi, yaz gülü, yazda açan gül.
***Yaznurə*** (t.,ə.) - yaz nuru, yaz işığı; nurlu, işıqlı yaz kimi qız.
***Yeganə*** (f.) - tək bir, bircə, vahid.
***Yekbəyim*** (f.,t.) - bir bəyim, yeganə bəyim.
***Yekəxanım*** - böyük xanım, bədəni iri olan xanım.
***Yekparə*** (f.) - bütün, bütöv, tam, bir parça; vahid parçalanmaz.
***Yeksanə*** (f.) - bir xalis qız, bir təmiz gözəl.
***Yeksara//Yeksarə*** (f.,t.) - yeganə bikə, nəsil anası.
***Yekta*** (f.) - tək, təkcə, yalnız, yeganə; tayı olmayan, bənzərsiz.
***Yektara*** (f.) - yeganə xanım, yeganə qız.
***Yelanə//Yelena*** (q. yəh.) - işıqlı; seçilmiş; mehriban.
***Yelda*** (f.) - dekabrın 21-nə təsadüf eləyən ən uzun gecə hesab edilən yelda gecəsi ilə əlaqədardır.
***Yengə*** - gəlini ər evinə aparan, ona rəhbərlik edən qadın; bacı.
***Yenigül*** - təzə açılmış gül, təravətli gül.
***Yenilə*** - təzələ, təzəsi ilə əvəz et.
***Yetər//Yetarə*** - bəs olar, kifayət edər; daha qız lazım deyil.
***Yəğmanaz*** - naz ilə talayan, naz ilə qarət edən.
***Yəmən*** (ə.) - sağ tərəf (Yəmən adındandır).
***Yəməngül*** - Yəmən gülü, Yəmən çiçəyi.
***Yıldız//Yıldıza//Yulduz//Yulduza*** - bax: Ulduz//Ulduza.
***Yüsra//Yüsrə*** (ə.) - rahatlıq; dövlət, sərvət.
***Yüsrabanu//Yüsrəbanu*** (ə.,t.) – rahatlıq tapan banu; dövlətli, sərvətli banu.
***Yüsrabəyim//Yüsrəbəyim*** (ə.,t.) - rahatlıq tapan bəyim; dövlətli, sərvətli bəyim.
***Yüsraxanım//Yüsrəxanım*** (ə.,t.) - rahatlıq tapan xanım; var-dövlətli xanım.

***Yüsraxatun//Yüsrəxatun*** (ə.,t.) - rahatlıq tapan xatun; varlı, dövlətli xatun.
***Yüsranisə//Yüsrənisə*** (ə.,t.) - rahatlıq tapan nisə; varlı, dövlətli nisə.

## ∞ Z ∞

***Zabitə//Zabuta*** (ə.) - özünə hörmət qazandıran, nüfuz; nizam, qayda; ciddiyyət.
***Zalxa//Zalxay//Zalikə//Zəliha//Zəlihə*** (ə.) - "Züleyxa" (bax) adının təhrif olunmuş variantı.
***Zaliyə*** (ə.) - ağ saçlı qız.
***Zamangül*** - zamanın gülü, zamanın, dövrün arzuladığı gül.
***Zanbaq//Zambaq*** (ə.) - əsasən ağ rəngli soğanaqlı çiçək.
***Zara//Zaray//Zarayə//Zəray//Zərayə*** - Ay işığı, Ay şüası; çox parlaq.
***Zarabəyim*** - Ay işığı kimi bəyim; çox parlaq və gözəl qız.
***Zaraxanım*** - Ay işığı kimi xanım; çox parlaq və gözəl qız.
***Zaranisə*** - Ay işığı kimi nisə; çox parlaq və gözəl qız.
***Zaviyə*** (ə.) - guşə, bucaq; təkyə, hücrə; otaq, ev sakitliyi.
***Zemfira//Zenfira*** (əsli yun. sapperios) - sapfir (qiymətli daşlardan biri - göy yaqut).
***Zeybə//Zeyvə//Zaviyə*** (ə.) - bəzək, zinət, süs; hücrə, ibadətgah, künc.
***Zeybəxanım//Zeyvəxanım*** (ə.,t.) - Zeybə xanım; bəzəkli xanım.
***Zeynəb*** (ə.) - kök, dolğun (əslində "atanın bəzəyi").
***Zəbər*** (ə.) – bax: Zəbərcəd; qızılaçalar, yaşılımtıl qiymətli daşın adındandır.
***Zəbərcəd*** (ə.) - zümrüdə bənzər yaşılımtıl rəngli qiymətli bir daş.
***Zəbibə*** (ə.) - şirin; xurma; kişmişi üzüm; gözəl.
***Zəbidə*** (ə.) - əsl, mahiyyət; sayılan; alışqan.
***Zəbihə*** (ə.) - qurban kəsilmiş və ya kəsiləcək heyvan.
***Zəbirə//Zəburə*** (ə.) - dini əsatirə görə, Allah tərəfindən Davud peyğəmbərə göndərilən "Zəbur" adlı dini kitabın adındandır.
***Zəhra//Zöhrə//Zəhrə*** (ə.) - parlaq, işıqlı; gözəl (Venera planetinin ərəbcə adı); Karvanqıran; eşq ilahəsi.
***Zəhrabanu//Zəhrəbanu//Zöhrəbanu*** - Zöhrə ulduzu kimi parlaq banu; gözəl qız.
***Zəhrabəyim//Zəhrəbəyim//Zöhrəbəyim*** – Zöhrə - Venera ulduzu kimi parlaq bəyim; gözəl qız.

***Zəhraxanım//Zəhrəxanım//Zöhrəxanım*** - Zöhrə ulduzu kimi parlaq xanım; gözəl qız.
***Zəhranisə//Zəhrənisə//Zöhrənisə*** - Zöhrə ulduzu kimi parlaq nisə; gözəl qız.
***Zəlifə*** (ə.) - qıvrım saçlı, saçı qıvrım olan.
***Zəlimə*** (ə.) - zülm olunan, zülm çəkən.
***Zəmanət*** (ə.) - zaminlik, zamin olma.
***Zəmilə*** (ə.) - yoldaş; məsləkdaş, rəfiqə.
***Zəmirə*** (ə.) - bir şeyin iç üzü, daxili məna.
***Zəni*** (f.) - qadına aid, arvada məxsus olan.
***Zənubər*** - "Sənubər" (bax) adının dəyişdirilmiş forması.
***Zənurə//Zənirə//Zəmurə*** (ə.) - "Zənnur" sözündəndir və işıqlı, parlaq deməkdir.
***Zəraləm*** (t.,ə.) - dünyanın qızılı, cahanın zəri; Günəş.
***Zəranur*** - qızılın nuru; Günəşin şüası-nuru.
***Zəravşə*** - "Zərəfşan" adının dəyişdirilmiş forması.
***Zəray//Zərayə*** (f.,ə.) - qızıl, parlaq Ay; qızıl ayə.
***Zərbacı*** - zər kimi gözəl, qızılla bəzənmiş.
***Zərbaf*** (f.,t.) – «zər» (qızıl) və «baf» (bafta-ipək parça sözünün qısaldılmış forması) sözlərindən düzəlmiş, «qızılı və gümüşü saplardan toxunmuş yüksək keyfiyyətli, qiymətli ipək parça; qiymətli gözəl» deməkdir.
***Zərbəyim*** (f.,t.) - qızıla bənzər, qızıl kimi xanım; qəşəng, gözəl.
***Zərbuta*** (f.) - zər butası, qızıl qönçəsi.
***Zərcamal*** (t., f.) - qızıl üzlü gözəl, qızıl çöhrəli qız.
***Zərçiçək*** - qızıllı çiçək, zərli çiçək; sarı çiçək; qızılgül.
***Zərdanə*** - zər dənəsi kimi qız; qeyri-adi gözəl qız.
***Zərəfşan*** (t.,f.) - zər saçan, qızıl səpən; Günəş şüası paylayan.
***Zərəndam*** (t., f.) - bədəni qızıldan olan, gözəl bədənli.
***Zərəngiz*** (t.,f.) - zəri olan, qızıl qarışdırılmış; Günəş işığı olan.
***Zərəngül//Zəringül//Zərringül*** (t., f.) - qızıl kimi gül, zərdən olan çiçək; sarı çiçək.
***Zərgilə*** - qızıl dənəsi, zər giləsi; Günəş şüası.
***Zərgül*** - qızılgül, qırmızı gül; Günəşi olan gül.
***Zərxanım*** - qızıl kimi xanım; misilsiz xanım.
***Zərxara*** (t., f.) - zərli ipəkdən toxunmuş parça, parıldayan ipək parça.
***Zərxatın//Zərxatun*** - qızıl kimi qadın, gözəl, göyçək.
***Zəri*** - qızıla aid olan, zərə məxsus olan; Günəşə mənsub olan.

***Zəridə*** (f.,ə.) - qızılı, zərli; gözəl qız.
***Zərif//Zərifə//Zarif//Zarifə*** (ə.) - incə, nazik; lətafətli, ürəyəyatımlı.
***Zərin//Zərinə//Zərrin//Zərrinə*** (t., f.) - zərə tutulmuş, qızılı olan.
***Zərintac//Zərrintac*** (t., f.) - zərdən düzəlmiş tac, qızıl tac.
***Zəriş*** - "zər" sözü ilə başlanan adların əzizləmə forması.
***Zərqələm*** (t.,ə.) - qızıl qələm, zərli qələm.
***Zərlalə*** (t.,f.) - lalənin qızılı; qırmızı lalə; lalə kimi gözəl.
***Zərli//Zərri*** - zərlə bəzənmiş, üzərinə zər çəkilmiş.
***Zərmay//Zərmayə*** (f.,r.) - qızıl may; may qızılı, zəri; qızıl pul, sərmayə.
***Zərməxmər*** (t.,ə.) - zərli və ipək saplardan toxunmuş parça növü.
***Zərnamə*** (f.) - qızıl məktub, qızıldan məktub; məktub zəri.
***Zərnanə*** (f.,ə.) - qızıl nanə; nanə qızılı.
***Zərnaz*** (f.) - qızıl nazı, naz qızılı.
***Zərnigar//Zərniyar*** (t.,f.) - zər surətli, qızılı şəkil; Günəş üzlü.
***Zərnisə*** (t.,ə.) - qızılla bəzənmiş qız(lar); Günəş kimi gözəl(lər).
***Zərnişan*** (t.,f.) - zər nişanlı, qızıldan nişanı olan; Günəş nişanlı.
***Zərnur//Zərnurə*** (t.,ə.) -qızılın parıltısı, zərin işığı; Günəş şüası.
***Zəroş*** - “zər”ilə başlayan adların əzizləmə forması; qızılcıq; əziz və qiymətli..
***Zərövşə*** - “Zərəfşan” adının (bax) dəyişdirilmiş forması.
***Zərparə*** (f.) - qızıl parçası, qızıl tikəsi.
***Zərpüstə*** (f.) - qızıl püstə; püstə qızılı.
***Zərsədəf*** (t.,ə.) - qızıl sədəf.
***Zərtamam//Zəryetər*** (t.,ə.) - qızıl (yəni qız) daha bəsdir.
***Zərtəkin*** - zər kimi, qızıltək; Günəş kimi gözəl.
***Zərziba*** (t., f.) - qızılla bəzənmiş; yaraşıqlı gözəl.
***Ziba*** (f.) - gözəl, göyçək, qəşəng; bəzəkli, yaraşıqlı.
***Zibagül*** (f.) - bəzəkli gül, yaraşıqlı gül.
***Zibaxanım*** (f.,t.) - Ziba xanım; gözəl, bəzəkli xanım.
***Zibeydə//Zübeydə//Zübeyda*** (ə.) - Allahın hədiyyəsi, Tanrının töhfəsi; xüsusi, seçilmiş.
***Zikriyyə*** (ə.) - yaddaş, şüur, xatirə; yada salma.
***Zilhəccə//Züləccə//Zülhiccə*** (ə.) - ərəb qəməri təqviminin 12-ci ayının adı.
***Zilxumar*** (ə.) - tamamilə kefli, bərk, bərk xumarlanan.
***Zilli*** (ə.,t.) - kölgəsi olan; havadarı, himayəçisi olan.
***Zinət//Zinyət//Ziynət*** (ə.) - bəzək, yaraşıq, süs, ziynət.
***Zinnurə*** (ə.) - nur sahibi, nurlu, nur bəzəyi.

***Zirəbəyim*** - Zirə (xəmirə qatılan xoş iyli bitki toxumu; cirə) xanım; zirə qoxulu bəyim.
***Zivər*** (f.) - bəzək, ziynət, daş-qaş; qəşənglik, gözəllik.
***Ziyafər*** (ə.,f.) - Yaradanın işığı, xəlq edənin nuru.
***Ziyafət*** (ə.) - qonaqlıq, təntənəli şənlik.
***Zoya*** (r.,əsli yun, zoe) - həyat, mövcudiyyət.
***Zöhrəxatın//Zəhraxatın//Zəhrəxatın*** (ə.,t.) - Zöhrə banu, şahzadə Zöhrə.
***Zövqiyyə*** (ə.) - zövqlü, yaxşı zövqü olan.
***Zühurə*** (ə.) - meydana çıxma, zahir olma; əmələ gəlmə.
***Zülay//Zülayə*** (ə.) - Ayın kölgəsi.
***Züleyxa*** (ə.) - su pərisi; su pərisi kimi gözəl, lətafətli.
***Zülfinaz//Zülfünaz*** (f.) - saçı nazlanan, teli naz edən (qız).
***Zülfinur//Zülfünur*** (f.,ə.) - zülfləri parıltılı olan, saçları parıltılı olan.
***Zülfira//Zülfirə*** (f.) - gözəl zülflü, qıvrım saçlı.
***Zülfiyyə*** (f.) - saçlı, telli, hörüklü.
***Zülfizər//Zülfüzər*** (f.,t.) - saçları qızıl kimi olan, qızıl saçlı (qız).
***Zümrüd*** (ə.) - yaşıl rəngli qiymətli daş; mifik quşun adı.
***Züriyyə*** (ə.) - nəsil, əcdad; övlad, uşaq.

## ƏDƏBİYYAT

1. Abdullayev B. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı, 1985.
2. Adilov M., Paşayev A. Azərbaycan onomastikası. Bakı, 1987.
3. Abıyev A. Azərbaycan - türk adlarının izahlı lüğəti. Bakı, 1998.
4. Aydın Abi Aydın. Şəxs adları lüğəti. Bakı, 2002.
5. Azərbaycan dilinin böyük izahlı onomastik lüğəti (Tərtibçilər: Rəna Xalıqova, Rübabə Əliyeva, Zenfira Ələkbərova). I kitab. Antroponimlər. Bakı, 2007.
6. Çobanov M., Azərbaycan antroponimiyasının əsasları. Tbilisi, 1983.
7. Çobanov M. N., Çobanov M.M. Azərbaycan şəxs adları. Bakı, 1995.
8. Əliyev H. Ümumi antroponimika problemləri. Bakı, 1985.
9. Əliyev H. Azərbaycan antroponimikasının inkişaf mərhələləri. Bakı, 2004.
10. Həsənov H. Söz və ad. Bakı, 1984.
11. Həsənov H. Azərbaycan şəxs adlarının izahlı-etimoloji lüğəti. Bakı, 2002.
12. Xalıqova Rəna. Azərbaycan antroponimiyasının inkişaf yolları. Bakı, 2009.
13. İsrafilova R., Məşədiyev Q., Cəfərov Q. Azərbaycan dilinin onomastikası. Bakı,1987.
14. Qurbanov A. Azərbaycan dilinin onomalogiyası. Bakı, 1989.
15. Qurbanov A. Azərbaycanlı adları. Uşağa necə ad seçməli. Bakı,1993.
16. Məmmədli N. Adını mən verdim - yaşını Allah versin. Bakı,1995.
17. Mirzəyev O. Adlarımız. Bakı, 1986.
18. Paşayev A. Azərbaycan şəxs adları. Bakı, 1996.
19. Paşayev A. Azərbaycan antroponimiyasının leksik problemləri. Bakı, 1997.
20. Paşayev A., Bəşirov A. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı, 2003.
21. Paşayev A. Azərbaycan dili dərslərində ümumi və xüsusi sözlərin müqayisəli tədrisi məsələləri. Bakı, 2005.
22. Paşayev A. Nizami Gəncəvinin poetik adlar aləmi. Poetik antroponimika. Bakı, 2010.

23. Şirəliyev M., Abdullayev B., Sədiyev Ş. Azərbaycan şəxs adları. Bakı, 1987.
24. Tanrıverdiyev Ə. Türk mənşəli Azərbaycan antroponimləri. Bakı,1996.
25. Tanrıverdiyev Ə. "Kitabi-Dədə Qorqud"da şəxs adları. Bakı,1999.
26. Tanrıverdi Ə. Qədim mənbələrdə yaşayan şəxs adları. Bakı, 2009.

## MÜNDƏRİCAT

Ön söz.............................................................................3

**I. Azərbaycan şəxs adları lüğəti**

1. Kişi adları .....................................................................9
2. Qadın adları ...................................................................55

**II. Adların mənşəyi və izahı**

1. Kişi adları .....................................................................93
2. Qadın adları ...................................................................242

Ədəbiyyat .........................................................................337

**Aydın Məmməd oğlu Paşayev, Alimə Aydın qızı Bəşirova**

**AZƏRBAYCAN ŞƏXS ADLARININ İZAHLI LÜĞƏTİ**

*(Azərbaycan dilində)*

Çapa imzalanıb: 12.10.2011.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi:  21,25 ç.v. Tiraj:200. Sifariş № 89.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru